Əbdürrəhman Bədəvinin fəlsəfə tarixi konsepsiyası qədim yunan fəlsəfəsinin rasional ənənələrini, İslam fəlsəfi irsinin əxlaqi-mənəvi dəyərlərini və müasir Qərb ekzistensializminin fərdi mövcudluq problemlərini müqayisəli təhlil əsasında sintez edən universal yanaşmadır. O, fəlsəfə tarixini sadəcə ideyaların ardıcıl təsviri kimi deyil, insanın varlıq, azadlıq, iman və məsuliyyət dilemmasını anlamağa yönəlmiş ortaq bəşəri axtarışların tarixi yaddaşı kimi təqdim edir. Bu baxış mədəniyyətlərarası dialoqun nəzəri əsaslarını formalaşdıraraq göstərir ki, fəlsəfi irs milli və ya dini sərhədlərlə məhdudlaşmır, əksinə, qlobal intellektual diskursun ayrılmaz hissəsi kimi çıxış edir. Bədəvinin sintez modeli müasir fəlsəfi tədqiqatlar üçün yeni metodoloji imkanlar açır, insanın mövcudluğunu yalnız rasional bilik və metafizik çərçivədə deyil, həm də etik, mənəvi və ekzistensial ölçülərdə dərk etməyə şərait yaradır. Beləliklə, onun əsərləri həm Şərq, həm də Qərb fəlsəfi ənənələrinin qarşılıqlı zənginləşməsinə xidmət etməklə yanaşı, fəlsəfə tarixinin qlobal elmi əsaslarının yenidən qurulmasına töhfə verir.

# ФИЛОСОФСКАЯ КОНЦЕПЦИЯ ИСТОРИИ АБДУРРАХМАНА БАДАВИ: ЭКЗИСТЕНЦИАЛИЗМ И СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ВОСТОЧНО-ЗАПАДНЫХ ФИЛОСОФСКИХ ОТНОШЕНИЙ

***Казимзаде Турал***

## АННОТАЦИЯ

Философская концепция истории Абдуррахмана Бадави представляет собой универсальный подход, объединяющий рациональные традиции античной греческой философии, этико-нравственные ценности исламского философского наследия и экзистенциальные проблемы современной западной мысли. Он рассматривает историю философии не как простое описание идей в их хронологической последовательности, а как историческую память человечества о поиске ответов на фундаментальные вопросы бытия, свободы, веры и ответственности. Такой взгляд формирует теоретическую основу межкультурного диалога и демонстрирует, что философское наследие не ограничивается национальными или религиозными рамками, а выступает частью глобального интеллектуального дискурса. Синтетическая модель Бадави открывает новые методологические возможности для современных философских исследований, позволяя осмыслить человеческое существование не только в рационально-метафизических категориях, но и в этическом, нравственном и экзистенциальном измерении. Таким образом, его труды способствуют взаимному обогащению восточной и западной философских традиций и формированию обновлённых научных оснований истории философии в глобальном масштабе.

# ABD AL-RAHMAN BADAWI’S CONCEPTION OF THE HISTORY OF PHILOSOPHY: EXISTENTIALISM AND THE COMPARATIVE ANALYSIS OF EASTERN–WESTERN PHILOSOPHICAL RELATIONS

***Kazimzada Tural***

## SUMMARY

The philosophical conception of history developed by ʿAbd al-Rahman Badawi represents a universal approach that synthesizes the rational traditions of ancient Greek philosophy, the ethical and moral values of the Islamic intellectual heritage, and the existential concerns of modern Western thought. He interprets the history of philosophy not as a mere chronological description of ideas but as the collective memory of humanity’s search for answers to fundamental questions of being, freedom, faith, and responsibility. This perspective establishes the theoretical foundations for intercultural dialogue and demonstrates that philosophical heritage transcends national or religious boundaries, functioning instead as an integral part of global intellectual discourse. Badawi’s synthetic model opens new methodological opportunities for contemporary philosophical inquiry, allowing human existence to be understood not only in rational-metaphysical terms but also in ethical, moral, and existential dimensions. Thus, his works contribute to the mutual enrichment of Eastern and Western philosophical traditions and to the reconstruction of the scientific foundations of the history of philosophy on a global scale.

# İNSAN VARLIĞINA YANAŞMA: FƏLSƏFİ VƏ TİBBİ ANTROPOLOGİYA

***Fərmanova Leyla Natiq***
***BDU-nun II kurs magistrantı***
***leylamecidova28@gmail.com***

***Açar sözlər:*** insan, antroplogiya, tibb, fəlsəfə.
***Ключевые слова:*** человек, антропология, медицина, философия.
***Keywords:*** human, anthropology, medicine, philosophy.

**Aktuallıq**:Müasir dövrdə insan varlığının mahiyyəti həm fəlsəfi, həm də tibbi kontekstdə yenidən düşünülür. Texnoloji inkişaf, tibbi müdaxilələrin artması və dəyərlərin dəyişməsi insanın təkcə bioloji deyil, həm də mənəvi və sosial tərəflərini ön plana çıxarır. Fəlsəfi antropologiya insanın mənası və varlıq əsaslarını, tibbi antropologiya isə onun sağlamlıq və xəstəlik təcrübəsindəki mədəni-mənəvi aspektləri araşdırır. Bu yanaşmaların sintezi insanın bütöv təbiətinin – bədən və ruh vəhdətinin – dərk olunması baxımından xüsusi aktuallıq daşıyır.

**Metod**:Tədqiqatın məqsədinə uyğun olaraq işdə bir sıra elmi-metodoloji yanaşmalardan istifadə edilmişdir. Əvvəla, fəlsəfi-analitik metod insan varlığının mahiyyətini, bədən və ruh münasibətini, insanın tibbi təcrübədəki mövqeyini konseptual səviyyədə təhlil etməyə imkan vermişdir. Fenomenoloji metod vasitəsilə xəstəlik, ağrı və şəfa kimi təcrübələr insanın subyektiv varlıq halı kimi dəyərləndirilmişdir. Nəhayət, antropoloji metod insanın mədəni, sosial və tibbi kontekstdə davranış və dəyərlərinin öyrənilməsinə yönəlmişdir.

**Annotasiya**.İnsan problemi məsələsi fəlsəfədə ən sirli, və mühüm məsələlərdəndir.E. Kassirer yazırdı: "Antropoloji fəlsəfə tarixi dərin insan ehtirasları və emosiyaları ilə doludur. Burada bütün bəşəri tale son hökmü gərgin gözləmə vəziyyətindədir" [Kassirer, 1988, s. 11–12]. Ona görə ki, söhbət "ümumiyyətlə insan"dan yox, müəyyən bir zaman-məkan kəsiyində yaşayan konkret insanlardan, yəni,şəxsi həyatını yaşayan insanlardan gedir. Onların hər biri – bir problemdir.Bu problemi dərk etmək son dərəcə çətindir, çünki bunun üçün əvvəlcə cavab vermək lazımdır: insan nədir? Yəni insana kənardan baxmaq, onu obyektiv şəkildə anlamağa çalışmaq lazımdır.

"Özünü tanı!" – Avropa fəlsəfi ənənəsində insan fəlsəfəsinin banilərindən biri olan Sokrat belə demişdi. Ondan əvvəl isə sofist Protaqor "İnsan hər şeyin və bütün dəyərlərin ölçüsüdür" deyə bildirmişdi. Bu fikir fəlsəfədə insan (antropoloji) mövzusuna dönüşün əsasını qoymuşdur.

Fəlsəfə daim "İnsan nədir?" sualını müxtəlif şəkildə qoymuş və cavablandırmağa çalışmışdır. Bu zaman məqsəd insanın dünyada və cəmiyyətdə yerini, onun varlığının mənasını aydınlaşdırmaq olmuşdur. İnsan varlığının problemi antropoloji fəlsəfənin bütün nümayəndələri üçün əsas məsələ olmuş və onların təlimlərinin mərkəzində dayanmışdır.

Antropoloji konsepsiyanın əsas vəzifəsi insan varlığının dünyadakı mahiyyətini müəyyən etmək, onun subyektiv-yaradıcı imkan və qabiliyyətlərini aşkara çıxarmaq olmuşdur. Bu anlayışlar vasitəsilə həm insan təbiətini, həm də dünyanın təbiətini anlamaq mümkün olur."Varlıq" anlayışı ən geniş mənada – "bunun haqqında 'bu var' və ya 'bu mövcuddur' deyilə bilən hər şeydir". "Varlıq" anlayışını fəlsəfəyə ilk dəfə Parmenid gətirmişdir. O, belə demişdi: "Varlıq vardır, yoxluq isə yoxdur." Lakin bu termin sonralar daha çox fəlsəfi xarakter almışdır.

Fəlsəfi fikir həyat, ölüm və ölümsüzlüyü insan varlığının təbii fenomenləri kimi dəyərləndirmişdir. K. Marks və F. Engels yazırdılar: "İnsanların varlığı – bu, həyatın real prosesidir" [Marks, Engels, 1986, s. 25]. F. Nitşe isə "varlıq" və "həyat" anlayışlarını eyniləşdirmiş, varlığı daimi formalaşma prosesi kimi şərh etmişdir.

Tədqiqatçı İ.F. Vedin qeyd edir: "İnsan varlığı" və "insan həyatı" anlayışları həm məzmun, həm də həcm baxımından ekvivalentdirlər [Vedin, 1987, s. 7].

Fəlsəfədə varlıq anlayışı fundamental, abstrakt və humanist bir kateqoriya kimi başa düşülür. Tibbdə isə "varlıq" anlayışı – konkret insanın həyatı deməkdir. Məhz həyat və ölüm, sağlamlıq və xəstəlik, varlıq kimi anlayışların mahiyyətinə daha dərindən nüfuz edə bilmək üçün məhz həyat və ölüm, sağlamlıq və xəstəlik kimi anlayışların varlıq çərçivəsində mahiyyətinə daha dərindən nüfuz edə bilmək üçün fəlsəfi və tibbi yanaşmaların birləşdirilməsi zəruridir. Bu iki sahənin sintezi insanın bütöv, kompleks və çoxşaxəli mahiyyətini daha dolğun şəkildə dərk etməyə imkan verir.

Tibbin fəlsəfi əsaslandırılması ən çox antropoloji fəlsəfə çərçivəsində mümkün olur. İnsan haqqında düşünmək bir çox fundamental problemləri də əhatə etdiyindən bu sahə praktik olaraq tükənməz dərinliyə malikdir. Nə barədə danışılırsa, danışılsın— varlıq, təbiət, kosmos və ya cəmiyyət — bu müstəvidə insanın özü həmişə mərkəzi yer tutur.

Tibbdə "insanın varlığı" anlayışı fərdi, konkret bir insanın həyatı və mövcudluğu deməkdir; bu həyat ölçüyəgəlməz dəyərə malikdir və tez-tez insanın yaşayıb-yaşamaması həkim tərəfindən müəyyən olunur. Bu baxımdan sual yaranır: daha yaxşı nədir – insan tam və sağlam şəkildə yaşasın, yoxsa əzab çəkərək yaşasın?

Fəlsəfədə "varlıq" anlayışı ümumi və öz-özlüyündə dəyərə malik bir anlayışdır. Fəlsəfə ilə əlaqə isə tibbi xəstəyə kömək etmək və evtanaziyanın qlobal tətbiqinə qarşı durmaq istiqamətində tibbi fəaliyyətə rəhbərlik edir.

Bəs fəlsəfi antropologiya nədir? Fəlsəfə çoxsaylı fərqli insan mahiyyətini şərh edən versiyaları toplamışdır. İnsan mahiyyətinin və onun cəmiyyətdəki mövqeyinin tədqiqinə müxtəlif yanaşmaların həm üstünlükləri, həm də məhdudiyyətləri vardır.

M. Şelerin yarandığı "fəlsəfi antropologiya" konsepsiyası, XX əsrin əvvəllərində Alman filosofu tərəfindən formalaşdırılmışdır və bir çox tədqiqatçının fikrincə, o, insanı öyrənən bütün elmlərin bütövlükdə anlaşılması üçün vacib bir yanaşma olmalıdır. Mövcuddur əksər baxış bucaqları da. Müasir tədqiqatçı A. V. Qovorunov "Fəlsəfi antropologiya kimi layihə" adlı işində iddia edir ki, fəlsəfi antropologiya universal bir tam kimi mümkün deyil, çünki insan yalnız dünyanın bir hissəsini təşkil edir və bütövlükdə dünyanı əhatə etmir. Antropologiya fəlsəfdə tam olaraq yalnız müəyyən bir zaman çərçivəsində bir layihə kimi mümkündür.

Bu baxımdan M. Şelerin sözləri dərin məna daşıyır:

"İnsan tarixdə heç zaman özü üçün bu qədər problematik olmamışdı, necə ki, indi." [Şeler, 1988, s. 32]

Hər bir fəlsəfi mövqe, nəzəriyyə aşkar və ya gizli şəkildə insana, insan obrazına dair müəyyən təsəvvürlərlə müəyyən olunur. Bu baxış bucağından baxsaq,hər bir fəlsəfə antropologiyadır, çünki insan yalnız insan haqqında, insan naminə, insanla bağlı və insan kontekstində fəlsəfə edə bilər.

Bu mövqeyi N. A. Berdyayev də bölüşürdü. O deyirdi ki, fəlsəfə yalnız insan vasitəsilə dərk olunur, bütün varlığın dairələri insanda birləşir. Berdyayev yazırdı ki, insan problemi fəlsəfənin əsas problemidir, çünki insan yalnız özünü tanımaqla fəlsəfi düşüncəyə başlaya bilər.

"İnsan üçün varlığın sirri insanın özündə gizlənib. İnsan dünyanın bölünmüş hissəsi deyil, onda dünyanın bütöv sirri və açarı mövcuddur." [Berdyayev, 1993, s. 54].

Fəlsəfi antropoloqlar hesab edirlər ki, insan hər bir varlığın mahiyyətini və mövcudluğunu özü ilə birlikdə daşıyır. Heyvanlarla müqayisədə, heyvan həmişə "bəli" deyir mövcud olan reallığa, hətta qorxsa da və qaçsa da, insan isə "xeyr" deyə bilər, mövcud şəraitə qarşı etiraz edə bilər. Yalnız insan, yer üzündəki digər canlılardan fərqli olaraq, özünə sərhəd qoya bilən varlıqdır, M. K. Mamardaşvillinin sözlərinə görə:

"İnsan özünü ölümə doğru baxaraq sərhədə gətirə, hadisə anında özündən və özünü əhatə edən sərt qabıqdan ayrılmağa hazır ola bilər" [Mamardaşvilli, 1990, 83].

XX əsrdə belə bir fikir yarandı ki, insan üzərində manipulyasiya praktiki olaraq məhdudiyyətsizdir. Psixotrop vasitələr və kütləvi təbliğatla insan davranışı proqramlaşdırıla bilər. Eyni zamanda isə fərz edilirdi ki, insan psixikasının dərinliyinə nüfuz etmək çox çətindir, bəzən isə qeyri-mümkündür. Hətta hipnoz altında olan bir fərd öz dəyərlərinə və üstünlüklərinə sadiq qalır, qəribə bir davranış dayanıqlılığı nümayiş etdirir. İnsan təbiətinin dərinlikləri dəyişməz qalır, xarici təsirlərə boyun əymir [Gureviç, 1994, 11].

Hitler dönəminin konslagerlərində "ideal məhbus" yaratmağa çalışırdılar – bütün əmrləri heç bir etiraz etmədən yerinə yetirə bilən məhbus. Faşistlər bu məqsədə bütün gücləri ilə çalışırdılar. Lakin uğursuzluqla üzləşirdilər: "ideal məhbus" adətən tamamilə həyatsız olurdu. Şəxsiyyət "amputasiyası"ndan sonra belə, fərdi xüsusiyyətlər qorunurdu: bacarıqlar azalır, yaddaş zəifləyir, hətta özünü qoruma instinkti zəifləyirdi. "İdeal məhbus" tükənmiş olurdu, amma aclıq hiss edirdi; nəzarətçi "Ye!" deyəndə, müəyyən hərəkətləri avtomatik, könülsüz həyata keçirirdi, zəifləyir və nəhayət, "həyatdan çıxırdı".Fəlsəfi-antropoloji konsepsiyalara baxdıqda, fəlsəfi antropologiya insanı bütöv varlıq kimi meta-teoriya kimi təqdim edir.

Fəlsəfi antropologiyanın məqsədi, bir çox tədqiqatçıların fikrincə, insan varlığının əsas strukturlarını aşkar etməkdir, hansılar ki insanın bütün spesifik insani xüsusiyyət və xarakterlərini izah etməyə imkan verir.

Fəlsəfi-antropoloji analiz insanın mahiyyətini araşdırarkən, insanın üç tərəfli struktura malik olduğunu göstərir.İnsan bioloji, sosial və psixoloji aspektlərdən ibarət olub, qarışıq və qarşılıqlı əlaqəli bir sistem təşkil edir. Bu çoxşaxəlilik tədqiqatçıları çoxsaylı digər "antropologiya" sahələrinin yaradılmasına təşviq edib.

Müasir dövrdə antropoloji tədqiqatın bir neçə səviyyəsi ayırd edilir:

1. Nəzəri antropologiya (fəlsəfi antropologiya)
2. Sosial-mədəni antropologiya (mədəni-tarixi antropologiya), hansına ki bioloji, fiziki, tibbi, sosial və mədəni antropologiya daxildir;
3. Tətbiqi antropologiya (iqtisadi və siyasi antropologiya).

Z. Kakabadze yazır: "İnsanın fəlsəfəsi, insan varlığının son mahiyyətini və əsas istiqamətini araşdırmaqla, həyatın mənasının nə olduğunu müəyyən edir və bu şəkildə məlum bir dünyagörüşün xarakterini alır. Fəlsəfə səviyyəsində insan öz varlığının və həyatının son mənasını müəyyən edir".

Fəlsəfi antropologiyanın vəzifəsi, insan varlığının əsas strukturlarının bütün insan fəaliyyətlərində necə təzahür etdiyini göstərməkdir: dil, elm, incəsənət, din, cəmiyyət, dövlət və ideyalar daxil olmaqla. Başqa sözlə, tarixi insan anlayışlarının tənqidi təhlili və onun real funksiyalarının araşdırılması fəlsəfi antropologiyanın əsas vəzifəsidir.

İnsan — ruh və bədən birliyidir: "O, hiss və düşüncənin ayrı-ayrı tərəfləri kimi deyil, ruh və bədən, psixofiziki neytral bir vahid kimi yaşayır" [Plesner, 1988, 127].

Fəlsəfi antropologiya tibbi bilik metodologiyası kimi istifadə oluna bilər, çünki:

1. Fəlsəfi antropologiya insanı bütöv varlıq kimi təqdim edir,Bu, ruh və bədənin metafizik dualizmini aşmaq üçün uğursuz olmayan cəhdlərdir, nəticədə tibbi biliklər hələ də öz orqanik ayrı-seçkiliyini saxlayır.
2. .Mədəniyyətin inkişafı prinsipial olaraq insanın təbii mahiyyətinin qorunma vasitəsi kimi nəzərdən keçirilir və bu, tibbdə patologiya nəzəriyyəsinin birliyi imkanını müəyyən edir; bu, əvvəllər arzu olunan, lakin çatılması mümkün olmayan bir hədəf hesab olunurdu.
3. Fəlsəfi antropologiya çərçivəsində işlənmiş idraki prosedurlar həkimlərə diaqnostik üsulların invariansından danışmağa imkan verir, baxmayaraq ki, bu üsullar hələ nəzəri cəhətdən tam aydın deyil.
4. Əvvəlki tezis tibbdə praktikada, amma nəzəriyyədə daha çox işləyən bir metodoloji quruluşla bağlıdır. "Həkim — xəstə" münasibəti, tibbdə "mən-sən" dialoqunun ifadəsi kimi, ideal hesab olunur; bu ideal çətinliklə əldə olunur, amma ona səy göstərilməlidir.

Bütün bu amillər fəlsəfi antropologiyanı tibbi biliklərin metodologiyası kimi qiymətləndirməyə imkan verir. Burada hermenevtik metodların tibbi informasiya və tibbdə dialoqlu interpersonal münasibətlər üzərində tətbiqi xüsusilə vacibdir. Bu vasitəsilə tibbin nəzəri əsasları praktik fəaliyyət prinsiplərinə çevrilir.

Nəzəri əsaslara gəldikdə isə, ruh və bədənin qarşılıqlı əlaqəsinin fəlsəfə-antropoloji interpretasiyası əsasında inteqrasiya mümkündür. Beyin və bədənin yalnız fizioloji paralel olaraq ruh hadisələrinə xidmət etdiyini qəbul etməklə, filosofik antropologiya fizioloji və psixoloji proseslərin ontoloji eyniliyinə metodoloji əsas verir. Bu proseslər məqsədli və bütövlük yönümlüdür. Beləliklə, ruh və bədənin dualizmi problemi aradan qaldırılır, hansı ki, əvvəllər tibbdə intellektual araşdırmaların əsasını təşkil edirdi.

Tibbi antropologiyanın banisi sayılan alman alim və filosof V. Vaytsekker insanı təbii elmlər və tibb, həmçinin psixoanaliz baxımından birləşdirən yanaşma yaratmışdır.

Vaytsekkerin fikrincə, tibbi antropologiyanın əsas ideyası “subyektin tibbə daxil edilməsidir”, yəni xəstə yalnız obyekt deyil, həm də subyektdir. “Patosofiya” əsərində o vurğulayır ki, tibbi antropologiya antropologiyaya mərkəzilik verir, tibb isə ona xarici forma, nümunələr və ifadə vasitələri təqdim edir.

Tibbi-antropoloji yanaşma həm somatik, həm də psixiki aspektlərin araşdırılmasının zəruriliyini göstərir, bunu V. Derr də qeyd edir. O, “bütöv antropologiya” ideyasını irəli sürmüş və iki istiqaməti ayırmışdır: dualist istiqamət – somatik tibb və tibbi psixologiyanı əhatə edir, və ekzistensial istiqamət – fenomenoloji olaraq insan mahiyyətinin anlaşılmasını təmin edir. Bu çərçivədə tibbi psixologiya xəstəliklərlə insanın ruhi determinasiya olunmuş prosesləri arasındakı əlaqəni əks etdirir, ekzistensial antropologiya isə “dünyada var olmaq” fenomenini aydınlaşdırmağa çalışır, somatik xəstələrdə qorxu və delyirium sindromlarının analizi vasitəsilə.

Bu gün tibbi antropologiya müxtəlif insan cəmiyyətlərində sağlamlıq problemlərini araşdırmaqla məşğuldur. Bu sahədə xəstəlik, ekoloji vəziyyət, insan davranışı, reproduktiv problemlər, stress, narkotik istifadəsi və epidemiyalar kimi mövzular nəzərə alınır. Alman tibb tarixçisi X. Şipperq qeyd etmişdir ki, tibbi antropologiyanı üç növə ayırmaq olar:

1. Birinci növ antropologiya tibbi nəzəriyyədəki boşluqları doldurmağa çalışır, biologiya, psixologiya və sosiologiyanı cəlb edərək kompleks tibbi nəzəriyyə yaratmağı hədəfləyir.
2. İkinci növ sistemləşdirilmiş antropologiya kimi çıxış edir və tibbi təlim kimi insan mahiyyətini öyrənməyi təbiət elmləri əsasında ümumi sistemlə əvəz etmək istəyir.
3. Üçüncü növ isə empirik və analitik olaraq qurulmuş antropologiyadır, müxtəlif praktik disiplinlərin çərçivəsində ümumi terapevtik nəzəriyyəyə əsaslanır

Tibbi antropologiya obyektiv olaraq tibb elminin metodologiyası kimi çıxış edir.

Müasir insan sivilizasiyasının inkişafı kompüterləşmə və informasiyalaşdırma ilə xarakterizə olunur. İnsan varlığının müxtəlif fenomenlərini araşdırmağın aktuallığı fəlsəfə insan elminin inkişafı, insan varlığına dair müasir anlayışların daha dəqiq və dərin təhlili, eləcə də insan problemlərini dərk etmək üçün yeni metodoloji yanaşmaların işlənib hazırlanması ehtiyacı ilə müəyyən edilir.

Əgər qəbul etsək ki, varlıq öz mövcudluğunda bir fenomendir, fəlsəfi antropologiya prizmasından insan varlığının müxtəlif tərəfləri təbii olaraq üzə çıxır. Bu tərəfləri öyrənilməsi isə insanın mahiyyətinə çatmaq imkanı verir. İnsan varlığı fenomenini dərin və bütöv şəkildə dərk etmək yalnız fəlsəfi metodlarla mümkün deyil; bu zaman empirik məlumatların da cəlb olunması zəruridir.

**Nəticə:**Müasir insan sivilizasiyasının inkişafı əsasən kompüterləşmə və informasiya texnologiyaları üzrə gedir. İnsan varlığının müxtəlif fenomenlərinin tədqiqi isə fəlsəfi insan anlayışının inkişafına olan ehtiyacla müəyyən olunur; bu, insanın varlığına dair müasir təsəvvürlərin dəqiqləşməsi və dərinləşməsi, eləcə də insan problemlərinin mənalanması üçün yeni metodoloji yanaşmaların işlənməsinin vacibliyini vurğulayır.

Əgər nəzərə alsaq ki, varlıq öz mövcudluğunda fenomen olaraq mövcuddur, fəlsəfi antropologiyanın baxımından insan varlığının müxtəlif aspektləri ortaya çıxır. Bu aspektlərin öyrənilməsi insanın mahiyyətinə çatmağa imkan verir. İnsan varlığının fenomenini bütövlükdə və dərinlikdə anlamak yalnız fəlsəfi metodlarla mümkün deyil; empirik məlumatların cəlb edilməsi də zəruridir.

Lakin,Tibbdə varlıq problemlərinin tarixi-fəlsəfi konsepsiyasını və metodoloji əsaslarını nəzərdən keçirdikdən sonra, idrak edirik ki, insan varlığının fəlsəfi tərəfindən tədqiq oluna bilən, eyni zamandada tibblə birlikdə baxılması lazım olan fenomenlərdir, Yəni,bunlar həyat və ölüm məsələləridir.

## ƏDƏBİYYAT


1. Məmmədov, H. Q., & Tağıyev, A. (2014). "Antropologiya" dərslik. Bakı.
2. Aşurov, A., & Rəşidov, Z. (2024). Fəlsəfi antropologiyanın mahiyyəti: Maks Şelerin fəlsəfi antropologiyanın məktəb kimi formalaşmasında rolu. Metafizika, (25).
3. Kaplan, M. (2010). Sağlıq və kültürün buluşduğu alan: Tibbi antropoloji. Folklor/Edebiyat, 16(64), 2010/4.
4. Berdyaev N.A. İnsanın təyinatı. Özünü dərk etmə – Moskva: Respublika, 1993

Kholostov T.V. İnsan: sosial-antropoloji tədqiqat obyekti / Sosial antropologiya icmalı. – Sankt-Peterburq

5. Kakabadze Z.M. İnsan varlığı problemi – Tbilisi: Metsniereba, 1985.
6. Gele A. Sistematik antropologiya haqqında // Qərb fəlsəfəsində insan problemi. – Moskva: Progress, 1988.
7. Şele M. İnsanın Kosmosdakı mövqeyi // Qərb fəlsəfəsində insan problemi. — Moskva: Proqress nəşriyyatı, 1988.


## İNSAN VARLIĞINA YANAŞMA:
## FƏLSƏFİ VƏ TİBBİ ANTROPOLOGİYA

*Fərmanova Leyla*

## XÜLASƏ

Məqalə insan probleminin fəlsəfi və tibbi aspektlərini araşdırır. İnsan varlığı bioloji, psixoloji və sosial tərəfləri ilə kompleks fenomen kimi təqdim olunur. Fəlsəfi antropologiya insanın mahiyyətini, yaradıcı və subyektiv imkanlarını öyrənərək onun dünyadakı yerini, həyatın və ölümün mənasını dərk etməyə çalışır. Tibbi antropologiya isə insanı həm obyekt, həm də subyekt kimi nəzərdən keçirərək xəstəlik, sağlamlıq və həyat-death məsələlərini tədqiq edir. Məqalədə göstərilir ki, insan varlığının fenomenini bütöv və dərin şəkildə anlamaq yalnız fəlsəfi yanaşmalarla mümkün deyil; empirik tibbi məlumatların və praktik təcrübələrin cəlb edilməsi də vacibdir. Fəlsəfi və tibbi antropologiyanın inteqrasiyası insanın çoxşaxəli mahiyyətini daha dolğun şəkildə anlamağa imkan verir, ruh və bədənin qarşılıqlı əlaqəsini metodoloji cəhətdən izah edir və tibbi praktikada etik və humanist prinsiplərin tətbiqinə zəmin yaradır. Məqalə həmçinin müasir sivilizasiyanın inkişafı və insan təcrübəsinin texnoloji mühitdəki təsirlərinə diqqət çəkir.

# ПОДХОДЫ К ЧЕЛОВЕЧЕСКОМУ СУЩЕСТВОВАНИЮ: ФИЛОСОФСКАЯ И МЕДИЦИНСКАЯ АНТРОПОЛОГИЯ

***Фарманова Лейла***

## АННОТАЦИЯ

В данной статье рассматриваются философские и медицинские аспекты человеческого бытия. Человеческое существование представляется как сложное явление, охватывающее биологические, психологические и социальные измерения. Философская антропология стремится исследовать сущность человека, изучая его творческие и субъективные способности для понимания человеческой позиции в мире, а также смысла жизни и смерти. Медицинская антропология, напротив, рассматривает человека одновременно как объект и субъект, затрагивая вопросы здоровья, болезни и континуума жизни и смерти. В статье утверждается, что целостное понимание человеческого существования невозможно достичь исключительно через философское исследование; необходима интеграция эмпирических медицинских данных и практического опыта. Синергия философской и медицинской антропологии позволяет получить более тонкое понимание многогранной природы человека, методологически объясняет взаимодействие между телом и разумом и создаёт основу для применения этических и гуманистических принципов в медицинской практике. Кроме того, статья подчёркивает влияние современной цивилизации и технологически опосредованных сред на человеческий опыт.

# APPROACHES TO HUMAN EXİSTENCE: PHİLOSOPHİCAL AND MEDİCAL ANTHROPOLOGY

***Farmanova Leyla***

## SUMMARY

This paper examines the philosophical and medical dimensions of the human condition. Human existence is approached as a complex phenomenon, encompassing biological, psychological, and social dimensions. Philosophical anthropology seeks to investigate the essence of humanity, exploring its creative and subjective capacities in order to comprehend the human position in the world, as well as the meaning of life and death. Medical anthropology, in contrast, treats humans both as objects and subjects, addressing issues of health, illness, and the life-death continuum. The paper argues that a holistic understanding of human existence cannot be achieved solely through philosophical inquiry; the integration of empirical medical data and practical experience is indispensable. The synergy of philosophical and medical anthropology allows for a more nuanced understanding of humanity’s multifaceted nature, methodologically elucidates the interaction between body and mind, and establishes a framework for the application of ethical and humanistic principles in medical practice. Additionally, the paper highlights the effects of contemporary civilization and technologically mediated environments on human experienc

# EKOLOJİ FƏLAKƏTLƏRİN SOSİAL TƏSİRLƏRİ

***İslamova Gülşən Elşən qızı***
***BDU-nun II kurs magistrantı***
***gulsenahmedli@gmail.com***

***Açar sözlər:*** Fəlakət idarəçiliyi, siyasi legitimlik, institusional keyfiyyət, demokratik idarəetmə, sosial transformasiya, risk və həssaslıq, ictimai siyasət
***Ключевые слова:*** Управление катастрофами, политическая легитимность, институциональное качество, демократическое управление, социальная трансформация, риск и уязвимость, государственная политика.
***Keywords:*** Disaster management, political legitimacy, institutional quality, democratic governance, social transformation, vulnerability, public policy.

Müasir dövrdə ölkələrin rifah səviyyəsinin əvvəlki illərlə müqayisədə daha yüksək olması ilə yanaşı, həyata keçirilən inkişaf strategiyaları cəmiyyətlər üçün əhəmiyyətli dərəcədə müsbət nəticələr doğursa da, eyni zamanda müəyyən mənfi xarici təsirlərə də səbəb olur. Bu təşəbbüslər nəticəsində ətraf mühitin və təbii şəraitin getdikcə daha çox gərginləşməsi, təbii axının pozulması və cəmiyyətlərlə institutların müxtəlif təhlükələrlə üzləşməsi müşahidə olunur.Bu kontekstdə son dövrlərin ən diqqətəlayiq nümunələrindən biri COVID-19 pandemiyası və onun təsirlərini dərinləşdirən qlobal iqlim dəyişikliyidir. Hər iki hadisə bəşəriyyət tarixində ciddi sosial və iqtisadi silkələnmələrə səbəb olmuş, siyasi qeyri-müəyyənliklərin artdığı bir dövrün başlanğıcını formalaşdırmışdır.Pandemiya dövründə bir çox ölkələrdə siyasi prioritetlər yenidən müəyyənləşdirilmiş, hökumətlərin legitimliyi və idarəetmə qabiliyyəti ciddi şəkildə sorğulanmışdır. Məsələn, pandemiyanın ilk mərhələlərində milyonlarla uşağın təhsildən uzaq qalmasına səbəb olan onlayn tədris modeli, dövlətlərin sosial siyasətlərinə yönəlik tənqidləri artırmış, mövcud prioritetlərin yenidən qiymətləndirilməsinə gətirib çıxarmışdır.Eyni zamanda, İngiltərədə tətbiq olunan “sürü immuniteti” siyasətinin uğursuzluğu hökumətin idarəetmə strategiyasına dair ictimai etimadın azalmasına səbəb olmuşdur.Böhranlar yalnız fiziki təhlükə və ya təbii fəlakət kontekstində dəyərləndirmək doğru olmaz. Onlar eyni zamanda sosial hadisələr kimi çıxış edir və bu böhranların necə qavranıldığı, aktorların istifadə etdiyi dil, ünsiyyət və diskurs vasitəsilə formalaşır. Cəmiyyətin böhranı dərk etmə tərzi və ona verdiyi mənalar, həmin hadisənin siyasi və sosial təsirlərini müəyyən edir (Hilhorst, 2013: 8). Beləliklə, böhran dövrlərində dövlətlərin həyata keçirdiyi siyasətlərin ictimai rəy tərəfindən necə qəbul olunması, siyasi sistemin legitimliyinə dair sualları gündəmə gətirir. Nəticə etibarilə, böhran və fəlakətlər yalnız dağıdıcı təsir göstərmir, eyni zamanda sosial və siyasi transformasiyalar üçün mühüm potensial daşıyır. Bu transformasiyalar həm dövlətlərin siyasətində, həm də cəmiyyətlərin özünüqavrama proseslərində yeni istiqamətlərin formalaşmasına imkan yaradır.Dünya miqyasında iqtisadi və sosial inkişaf prosesi çox zaman fəlakətlər səbəbindən fasilələrlə üzləşir.

Müasir dövrdə təkcə fəlakətlərin sayı deyil, eyni zamanda fəlakətlər nəticəsində zərər görən regionların artması da mühüm həll tələb edən qlobal bir problemə çevrilmişdir (Kreimer, 2001: 401).Təbii və insan mənşəli fəlakətlərin tezliyi və intensivliyi nəzərə alındıqda, fəlakət risklərinin azaldılmasının təkcə rasional və effektiv müdaxilə yanaşmaları ilə deyil, həm də davamlı risk idarəçiliyi baxımından qiymətləndirilməsi vacib hesab olunur (Hettige, 2023: 1638). Ənənəvi idarəetmə modelləri əsasən hadisədən sonrakı reaktiv yanaşmaya əsaslandığı üçün, bu sistemlər çox zaman önləyici və dövri xarakter daşıyan təsirli müdaxilə imkanlarını məhdudlaşdırır.Risk və riskin idarə olunması arasındakı əlaqə sadəcə fəlakət baş verdikdən sonra deyil, eyni zamanda hadisələrdən öyrənmək və əldə

edilən təcrübələri gələcəkdə riskin azaldılması üçün tətbiq etməklə daha çevik və davamlı bir prosesə çevrilməlidir. Cəmiyyətin rifahı üçün hökümətin gördüyü işlərin gündəmində mühüm ictimai məsələ kimi yer alır və əsas məqsədi bu problemi aradan qaldırmaqdır.

Fəlakətlər xaotik mühitlər və mürəkkəb vəziyyətlər yaradır, bu isə müdaxilə məsuliyyətini, ilk növbədə, dövlətin və əlaqədar aktorların üzərinə qoyur.Digər tərəfdən, fəlakətlərin əsasən zərər və itkilər üzərindən ölçülməsi, empirik məlumatların məhdudluğu səbəbindən əvvəlki illərlə müqayisədə çox zaman natamam qalır. Buna görə də, müasir dövrdə sosial və siyasi yanaşmaların ön plana çıxması zərurəti yaranır. Fəlakətlərin təsirlərinin yalnız iqtisadi ölçülərlə deyil, həm də sosial və siyasi dəyişiklik kontekstində təhlili mühüm əhəmiyyət daşıyır.Bu yanaşma, müasir fəlakət idarəçiliyi sistemlərinin həm adaptiv, həm də qabaqlayıcı xüsusiyyətlərə malik olmasını zəruri edir. Belə bir kontekstdə, aparılan tədqiqatda fəlakətlərin sosial və siyasi dəyişikliklərə təsiri konkret empirik təcrübələr əsasında təhlil olunur.

Böhran, hər hansı bir ictimaiyyətin üzvləri tərəfindən geniş şəkildə qəbul edilən və əsas dəyərlərinə və strukturlarına qarşı təcili təhdidlər yaratdığı düşünülən hadisə və ya inkişaf kimi tərif olunur.

Böhran vəziyyəti adətən müəyyən bir hadisə və ya inkişaf kimi qəbul olunur. Geniş miqyaslı fövqəladə hal və ya ictimai sahədə müəyyən bir meylin müəyyənləşdirilməsi üçün "böhran" anlayışının işlədilməsi sosial, siyasi və ya inzibati diskursların bir hissəsi kimi başa düşülə bilər (Boin və digərləri, 2009: 81-84). Çünki böhranlar təşkilati baxımdan qurumun normal fəaliyyətinin pozulması, iş sisteminin ciddi şəkildə sarsılması, təşkilati məqsədlərin və gələcəyin təhlükə altına düşməsi kimi hallarda meydana çıxır. Təbii mənbəli təhlükələr insan təsirinin və təbiətə nəzarətin zəifləməsinin nəticəsində yaranan hadisələrdir. İnsan fəaliyyətinin təbiətə təsiri və bununla əlaqədar ortaya çıxan böhranlar insanın ətraf mühitlə qarşılıqlı münasibətini davamlılıqdan uzaqlaşdıraraq müxtəlif mənfi nəticələrə gətirib çıxarır.

Fəlakətlərin müəyyənləşdirilməsi — onların idarə olunması, qarşısının alınması, azaldılması və ya qəbul edilməsi proseslərini ehtiva edir. Bu, həmçinin fəlakət vəziyyətlərində hansı dəyərlərin və varlıqların qorunmalı olduğunu və bu qərarı kimin verdiyini göstərir (Cabane, 2023: 216). Əvvəlki dövrlərdə "təbii fəlakət" anlayışı daha çox ilahi cəza kimi izah olunurdu; yəni fəlakətlər Tanrının əməli sayılırdı. Bu inanca əsasən,baş verən fəlakətlər təsirlənən insanların keçmiş günahlarına görə bir cəza idi.

Müasir dövrdə isə təbii təhlükələrin fəlakətə çevrilməsi, əsasən, insanın həyat şəraiti və davamlı inkişaf fəaliyyətləri ilə sıx bağlıdır. Bu səbəbdən "təbii fəlakət" anlayışı əvəzinə "təbii təhlükə" ifadəsinin işlədilməsi daha rasional hesab olunur. Beləliklə, fəlakətlər insan fəaliyyətinin birbaşa və ya dolayı nəticəsi kimi meydana çıxır.

Fəlakətlər, mahiyyət etibarilə, təhlükə və kövrəklik (qırılqanlıq) birləşməsi nəticəsində meydana gəlir. Təhlükə və kövrəkliyin yol açacağı potensial fəlakətlər qarşısında ortaya çıxacaq itki və zərərin sosial baxımdan qarşılığı "müdafiəsizlik" anlayışı ilə ifadə olunur. Müdafiəsizlik, bir təhlükə qarşısında zərər görmə meyli və bu meyilə səbəb olan proseslər və ya baş verəcək zərərlə mübarizə apara bilməmək vəziyyəti kimi izah edilir (Kelman və başq., 2016: 130).

İnsanların ətraf mühitlə olan münasibətlərini formalaşdıran müdafiəsizlik, fiziki təhlükə amillərinin idarəsinə yönəlmiş hakim paradiqmadan uzaqlaşmanı göstərir (Sökefeld, 2012: 13). Müdafiəsizlik paradiqması, cəmiyyətlərin təbiət qarşısında məsuliyyətsiz davranışlarının bədəlini ödədiklərini vurğulayan ümumi bir anlayışdan qaynaqlanır.

Buna görə, fəlakətlərin sayı əhəmiyyətli dərəcədə artsa da, cəmiyyətlər get-gedə daha çox müdafiəsiz vəziyyətə düşürlər (Furedi, 2007: 487). Ancaq fəlakətlər genişmiqyaslı olsa da və sosial həyatın müxtəlif tərəflərinə təsir edə bilsə də, hələ də onların təsirinin əsas ölçüsü insan itkiləri və maddi zərərlərlə qiymətləndirilir.

Bu vəziyyət kövrəklik anlayışını formalaşdıran sosial proseslərin başa düşülməsini tələb edir. Təbii təhlükələrin təsirinin yalnız texniki baxışla izah edilməsinin mümkün olmaması səbəbilə, fəlakətlərin sosial və siyasi əlaqələr kontekstində qiymətləndirilməsinə ehtiyac vardır.

Bu səbəbdən fəlakətləri idarə oluna bilən bir hadisə kimi nəzərdən keçirmək və insan fəaliyyətinin bir hissəsi kimi başa düşmək vacibdir. Bu anlayışın gerçəkliyini ortaya qoyan bir çox ölkənin təcrübələri zaman-zaman özünü göstərmişdir.

Keçmişdən bu günə qədər, sərhədləri və müdaxilə üsulları baxımından adiləşmiş böhranların təbiəti get-gedə dəyişməkdədir. Yüksək dərəcədə qeyri-müəyyənlik daşıyan xaotik ekoloji şərait, bu vəziyyətin önəmli səbəblərindən biridir. Müasir dövrdə bir anda və çox qısa müddətdə bir neçə cəmiyyəti eyni vaxtda və sürətlə təsir edən sosial böhranlar artmaqdadır.

Qlobal miqyasda sosial qırılmalar kimi baş verən böhranlara nümunə olaraq: Çernobıl nüvə fəlakəti, 2003-cü ildə ABŞ və Kanadanı təsir edən böyük elektrik enerjisi kəsintisi, 2007–2008-ci illərdəki qlobal maliyyə böhranı göstərilə bilər.

2010-cu ildə Avropanın böyük bir hissəsində hava nəqliyyatını dayandıran İslandiyadakı vulkan püskürməsi buna nümunə kimi göstərilə bilər (Tierney, 2012: 343). 2020-ci ildə qlobal səviyyədə təsir göstərən və pandemiya elan edilən COVID-19 xəstəliyi, insanlıq tarixinin son dövrlərdə yaşadığı ən böyük böhranlardan biri kimi göstərilə bilər. COVID-19-un diaqnozu və müalicə üsullarının uzunmüddətli qeyri-müəyyənliyi ilə yanaşı; kütləvi insan itkiləri, ictimai sağlamlığın pisləşməsi, siyasi və iqtisadi səviyyədəki təsirləri kimi müxtəlif istiqamətlərdə mühüm nəticələr ortaya qoymuşdur. Bundan əlavə, xəstəlik cəmiyyətlərin sosial həyatında və fərdlərin gündəlik fəaliyyətlərində müxtəlif struktur dəyişikliklərinə səbəb olmuşdur.

Araşdırmaçılar uzun müddətdir ki, fəlakətlərin böyük miqyaslı sosial dəyişikliklər yarada bilib-bilməyəcəyini müzakirə edirlər. Buna görə, fəlakətlər baş verməmişdən əvvəl davam edən meylləri sürətləndirərək dəyişməyə töhfə verir. Bununla yanaşı, fəlakət baş verdiyi zaman və dərhal sonra cəmiyyət üzərində yaratdığı dəyişikliklərdən əlavə, nadir hallarda fərq edilə bilən təsirləri də vardır (Lovekamp, 2010: 368–369). Bu vəziyyət idarə oluna bilən hadisə olan fəlakətlərə müdaxilə üsullarının, yaranan mənfi nəticələri minimum zərərlə aradan qaldırmaq qabiliyyətinə görə fərqli nəticələr verə biləcəyini göstərir. Bunun səbəbi, fiziki hadisələr zamanı sosial sistem və qurumlardan gözlənilənlərin, onların cavab vermə imkanlarını aşdığı hallarda fəlakətlərin ortaya çıxmasına səbəb olması ilə bağlıdır.

Beləliklə, fəlakətləri ilahi bir cəza üsulu kimi qəbul edən və buna görə dövlət hakimiyyətini əsas aktor kimi görən anlayış dəyişməkdədir. Fəlakət anlayışı sürətlə çevrilməkdə və müasir idarəetmə yanaşmalarının tələb etdiyi kimi daha proaktiv müdaxilə tələb edən hadisə kimi qiymətləndirilməkdədir. Buna görə, fəlakətlərə qarşı mübarizədə yalnız hökumətlər deyil, fərdlər və icmalar da əsas rol oynayan sosial sistemin bir hissəsinə çevrilir.

Sosial elmlərlə təbiət elmlərini birləşdirən fəlakət tədqiqatlarının mühüm qatqılarından biri, fəlakətlərin sosial qruplar və icmalar üzərindəki təsirlərinin, həmçinin bu təsirlərdən sonra baş verən bərpa proseslərinin araşdırılması olmuşdur. Bu araşdırma, fəlakətlərin idarə olunmasına dair yanaşmaların tarixi proses içindəki dəyişimi baxımından olduqca önəmlidir. Xüsusilə 1960-cı illərdən sonra "yara sarma strategiyası" və ya fəlakətin dərhal əvvəlində görülən hazırlıq və müdaxilə üsullarını gücləndirməyə yönələn yanaşma, yerini riskin və fəlakətin birlikdə idarə edilməsini nəzərdə tutan strategiyalara vermişdir (Genç, 2013: 499).

Digər tərəfdən, 1960 və 1970-ci illərdə meydana çıxan müxtəlif sosial və ekoloji hərəkatlar, fövqəladə vəziyyət rəhbərlərini, sosial alimləri və ətraf mühitlə bağlı tədqiqat aparanları, fəlakətlərdən və təhlükələrdən zərər görənlər haqqında mövcud fərziyyələri

sorğulamağa vadar etmişdir. 1970-ci illərdə başlayan fəlakət tədqiqatlarının sahə işləri isə fəlakətlərə təsir edən sosial amilləri üzə çıxarmışdır .

Bu tarixlərdən etibarən, hadisə və nəticə mərkəzli klassik müdaxilə metodlarından imtina edilərək, proses mərkəzli müasir idarəetmə yanaşmasının formalaşması baxımından önəmli bir dönüş baş vermişdir. Zaman keçdikcə fəlakət riskinin azaldılması və onlara müdaxilənin siyasi və ya inkişaf yönümlü perspektivdən təhlili, humanitar yardım yanaşmasında müəyyən narahatlıq yaratmış, aparılan analizlərin diqqətini siyasətdən uzaqlaşdıraraq fəlakətin iqtisadi, sosial və fiziki təsirlərinə yönəltməyə kömək etmişdir (Pelling və Dill, 2010: 34).

Risk və zərərin azaldılması ilə hazırlıq mərhələsini əhatə edən risk idarəetməsi yanaşması ilə yanaşı, müdaxilə və bərpa mərhələlərini əhatə edən böhran idarəetməsi yanaşmaları da dövri bir əlaqə içində formalaşan yeni bir eksen halına gəlmişdir. Nəticə etibarilə, fəlakətlərin sosioloji təhlilində, fəlakət və cəmiyyət arasındakı əlaqəyə həm fəlakət öncəsi, həm də fəlakət sonrası dövrləri əhatə edən xronoloji baxışla yanaşmaq olduqca önəmlidir.

Bu üç mərhələyə dair öyrənmə təcrübəsinin fərqli olsa da, bir-biri ilə əlaqəli olduğu qeyd olunur (Hettige, 2023: 1638). Buna görə də hər bir mərhələdəki fəaliyyətlərin uğuru və ya uğursuzluğu digər mərhələlərdəki fəaliyyətlərin effektivliyini müəyyənləşdirir.

Böhran anlayışının yalnız cəmiyyətlər arasında deyil, həm də eyni cəmiyyət daxilində fərqli şəkildə təzahür etməsi, fərdlərin fərqli dəyərləri, mövqeləri və məsuliyyətləri səbəbilə müxtəlif düşüncə formalarını əks etdirir (Boin və başq., 2008: 83–84).

Qoruyucu tədbirlərin və zərərin azaldılması strategiyalarının institusional xarakteri təbiətcə sosialdır. Buna görə, kövrək fiziki mühit, zəif iqtisadiyyat və natamam sosial və institusional quruluşlara sahib cəmiyyətlərin fəlakətləri dəyişiklik etmədən keçirmə ehtimalı olduqca azdır (Özerdem və Jacoby, 2006: 9).

Belə cəmiyyətlərdə, fəlakətdən əvvəlki mərhələdən daha çox, təbii təhlükələrin idarə olunması ilə bağlı sonrakı proseslərdə dövlət hakimiyyətinin idarəetmə yanaşması təcrübədən keçirilir.

Fəlakətlər təbiətin, texnologiyanın və ya insanın həzzinin reallaşdırılması səbəbindən baş verir. Bu baxımdan, təhlükə və zəiflikdən qaynaqlanan mənfilikləri idarə edə bilməməsi nəticəsində meydana gəlir. Demək olar ki, təbii təhlükələr və ya təhdidlər birbaşa fəlakətlərə səbəb olmur, əksinə, insan təsiri nəticəsində fəlakətlər yaşanır. Bu baxımdan fəlakətlər niyə baş verdiyinin başa düşülməsi,Fəlakətin səbəblərini müəyyənləşdirmək üçün düzgün siyasət və uzun müddət həll yollarını yaratmağa kömək edir. Bu vəziyyət fəlakətlərin sosial və siyasi tərəfini ortaya qoyur və həssaslara səbəb olur; Sosial-iqtisadi quruluş, siyasət və ictimai səlahiyyətlərin, idarəetmə anlayışı, təhsil və texnologiyanın siyasi və aksiyalarının, təhsil və texnologiyanın üsyankar müxalifət qiymətləndirmələrində nəzərə alınmasını tələb edir. İnsan effektindən asılı olmayaraq, sosial və siyasi dəyişikliyə təsir edən fəlakətlərin quruluşu iki şəkildə vacibdir. Əvvəla, sosial qruplar birbaşa və ya dolayı yolla, siyasi və idarəetmə prosesində dövlət hakimiyyəti tərəfindən həyata keçirilən hərəkətlərin nəticələrindən birbaşa təsir göstərir. Bu çərçivədə sosial dəyişiklik və siyasi dəyişiklik müstəqil olaraq yaşanmır. Çünki böhranı ifadə edən fəlakətlər insan icmalarının onlara təhdid kimi qəbul etdiyi hadisələrin həyata keçirilməsinə aiddir. Yoxsulluq, bərabərsizlik və aşağı təhsil səviyyəsi kimi dinamika kontekstində formalaşan sosial kövrəklik bütün cəmiyyətlər üçün eyni dərəcədə reallaşmır. Sosial müqavimət, təbii təhlükələr qarşısında davamlılığın inkişafında mühüm rol oynayır. Dövlətin fəlakət idarəetmə prosesində ən vacib rol, xüsusilə riskin azalması zamanı meydana çıxır. Ümumi mənfəətin ümumi faydasını təmin etmək üçün obyektiv yaşayış şəraitinin yaxşılaşdırılması ilə formalaşan sosial və siyasi dəyişiklik fəlakətlərə qarşı mübarizədə risk və zərərin azaldılması fəaliyyətinə töhfə verəcəkdir. Bu çərçivədə hökumətlərin düzgün və effektiv

siyasətinə səbəb olmaq qərarları; Vətəndaş cəmiyyətinin güclü bir anlayışının həlli, yüksək maarifləndirmə və yalnız dövlətin əsas problemini görən anlaşma dəyişikliyi əhəmiyyətli xarici yardımlar edə biləcək. Fəlakətlərin sosial və siyasi dəyişikliyə təsiri ilə qeyd edilməli olan başqa bir məsələ, uğurların nəticələrinin və fəlakət siyasətinin uğursuzluğunun nəticələridir. İnstitusional potensial, idarəetmə bacarıqları, idarəetmə bacarıqları, təbii təhlükələrin fəlakətlərin çevrilməsinin qarşısını almaq və ya fəlakətin təsirini azaltmaq üçün yetərli olmayan amillər, yeni vəziyyətlərə sosial və siyasi və ya mövcud şərtlərin çətinliyini formalaşdırmaq üçün yeni vəziyyətlərə səbəb olur. Bir çox hallar sosial qrupların mübarizə aparmasının çətin bir prosesi ortaya qoyur. Göründüyü kimi, ictimai məsuliyyət mexanizmi, fəlakətlərin adi siyasət axını dəyişdirmək potensialı tərəfindən həyata keçiriləcək fəlakətlərin aspektinin olduğunu fərq edir. Xüsusən Fəlakət baş verdikdən sonra ilk yardım, axtarış və xilasetmə, sığınacaq, qidalanma; Növbəti prosesdə hökumətlərin və ictimai qurumların böyük gözləntiləri yaxşılaşdırılması və adi axınının həyata keçirilməsində həyata keçirilməsində baş verir. Cəmiyyətdəki bu gözləntilərin adekvat cavabı mövcud hökumətlərin və siyasi liderlərin gücünü gücləndirir və siyasi etimadı artırır. Əks təqdirdə, hökumətlər və siyasi liderlər cəmiyyət və hakimiyyət uğrunda mübarizədə olan siyasi partiyalar tərəfindən tənqid olunur. Xüsusilə, rəqib siyasi partiyaların və ya siyasi partiyaların və ya siyasətçilərin hökumət və fəlakət idarəsi ilə bağlı münasibət, fəlakətdən sonra sosial parçaların idarə edilməsi və qrupların birləşdirilməsindən sonra sosial parçaları idarə etmək şəklində baş verə bilər. Digər tərəfdən, hökumətlərin əks mübahisə kimi istifadə edə biləcəyi siyasi parçalanma, müxalifət partiyaları çərçivəsində də yaşaya bilər.

## ƏDƏBİYYAT


1. Boin, A., ’t Hart, P., Stern, E., & Sundelius, B. (2009). Crisis management: Leadership, communication, and governance in the age of uncertainty. Cambridge University Press.
2. Cabane, L. (2023). Disasters as political events: Governing risk, uncertainty, and crisis. Politics and Society, 51(2), 213–230.
3. Furedi, F. (2007). The changing meaning of disaster. Area, 39(4), 482–489.
4.Genç, F. (2013). Afet yönetimi: Kavramsal çerçeve ve tarihsel gelişim. Türk İdare Dergisi, 475, 497–510.
5.Hettige, S. (2023). Social dimensions of disaster risk reduction and resilience building. International Journal of Disaster Risk Reduction, 91, 1635–1642.
6.Hilhorst, D. (Ed.). (2013). Disaster, conflict and society in crises: Everyday politics of crisis response. Routledge.
7.Kelman, I., Gaillard, J. C., & Mercer, J. (2016). The cultural dimensions of disaster risk reduction. International Journal of Disaster Risk Reduction, 14, 130–139.
8.Kreimer, A. (2001). Managing natural disasters: The role of public policy. In A. Kreimer & M. Arnold (Eds.), Managing disaster risk in emerging economies (pp. 399–406). World Bank Publications.
9.Lovekamp, W. E. (2010). Sociology of disasters. In H. Rodriguez, E. L. Quarantelli, & R. Dynes (Eds.), Handbook of disaster research (pp. 366–378). Springer.
10.Özerdem, A., & Jacoby, T. (2006). Disaster management and civil society: Earthquake relief in Japan, Turkey and India. I.B. Tauris.
11.Pelling, M., & Dill, K. (2010). Disaster politics: Tipping points for change in the adaptation of sociopolitical regimes. Progress in Human Geography, 34(1), 21–37.
12.Sökefeld, M. (2012). Disaster and social order: Cultural approaches to disasters. In S. Hastrup (Ed.), Disasters and the politics of intervention (pp. 13–33). Cambridge University Press.

# EKOLOJİ FƏLAKƏTLƏRİN SOSİAL TƏSİRLƏRİ

*İslamova Gülşən*

## XÜLASƏ

Fəlakətlər yalnız təbii hadisələr kimi deyil, həm də sosial və siyasi strukturun formalaşmasında təsirli olan kompleks fenomenlər kimi qiymətləndirilir. Onların yaratdığı böhran vəziyyətləri dövlət idarəetməsi, hüquqi mexanizmlər və ictimai institutların funksionallığını sınağa çəkir. Bu kontekstdə fəlakətlərin idarə olunması, hökumətlərin legitimlik anlayışını, vətəndaş-dövlət münasibətlərini və ictimai siyasətlərin formalaşmasını birbaşa təsir altına alır. Tədqiqat fəlakət siyasətlərinin institusional keyfiyyət, demokratik idarəetmə və sosial davamlılıq baxımından nə dərəcədə transformasiyaedici gücə malik olduğunu araşdırır. Nəticə olaraq, fəlakətlər yalnız risk mənbəyi deyil, həm də siyasi və sosial dəyişimin katalizatoru kimi dəyərləndirilir.

## СОЦИАЛЬНЫЕ ПОСЛЕДСТВИЯ ЭКОЛОГИЧЕСКИХ

*Исламова Гюльшен*

## АННОТАЦИЯ

Катастрофы рассматриваются не только как природные явления, но и как сложные феномены, оказывающие влияние на формирование социальной и политической структуры. Возникающие в результате кризисные ситуации испытывают на прочность государственное управление, правовые механизмы и функционирование общественных институтов. В этом контексте управление катастрофами напрямую влияет на легитимность власти, отношения между государством и гражданами, а также на формирование государственной политики. В исследовании анализируется, в какой степени политика в сфере катастроф обладает трансформирующей силой с точки зрения институционального качества, демократического управления и социальной устойчивости. В результате катастрофы рассматриваются не только как источник риска, но и как катализатор политических и социальных изменений.

## SOCİAL IMPACTS OF ECOLOGİCAL DİSASTERS

*Gulshan Islamova*

## SUMMARY

Disasters are not merely natural events; they are complex phenomena that significantly influence the formation of social and political structures. The crises triggered by disasters test the governance capacity, legal mechanisms, and institutional effectiveness of states. In this context, disaster management has a direct impact on the legitimacy of governments, state-citizen relations, and the development of public policies. This study examines how disaster-related policies can act as transformative tools, particularly in relation to institutional quality, democratic governance, and social resilience. Ultimately, disasters should not only be viewed as sources of risk, but also as opportunities for political and social transformation.

# SOSİAL NORMANIN FORMALAŞMASINDA SOSİOLOJİ VƏ FƏLSƏFİ BAXIŞLAR

***Məmmədov Mirhadı Rüstəm oğlu***
***BDU-nun II kurs magistrantı***
***mirhadi2021@mail.ru***

***Açar sözlər:*** sosial norma, sosioloji baxış, fəlsəfi baxış, davranış, cəmiyyət, normativ sistem, kollektiv şüur, etik prinsiplər**.**
***Ключевые слова:*** социальная норма, социологический подход, философский взгляд, поведение, общество, нормативная система, коллективное сознание, этические принципы.
***Keywords:*** social norm, sociological perspective, philosophical approach, behavior, society, normative system, collective consciousness, ethical principles.

Cəmiyyətin sosial nizamı və fərdlərarası münasibətlərin sabitliyi müəyyən qaydalar sisteminə — sosial normaya əsaslanır. Sosial norma insanların davranışını yönəldən, ictimai dəyərləri qoruyan və sosial harmoniyanı təmin edən mexanizmdir (Giddens, 2020).

Bu anlayış həm sosioloji, həm də fəlsəfi baxımdan dərin mənaya malikdir. Fəlsəfə sosial normanı insanın mənəvi davranışını tənzimləyən prinsiplər kimi izah edir, sosiologiya isə onu cəmiyyətin struktur və dəyərlər sisteminin bir elementi kimi öyrənir (Durkheim, 1997).

Məqalənin məqsədi sosial normanın formalaşması prosesinə dair sosioloji və fəlsəfi baxışları müqayisəli təhlil etmək, klassik və müasir nəzəriyyələrin elmi əsaslarını üzə çıxarmaqdır.

Sosial normanın fəlsəfi kökləri antik Yunan düşüncəsinə dayanır. Platon "Dövlət" əsərində qeyd edirdi ki, ideal cəmiyyət yalnız ədalət və fəzilət prinsiplərinə əsaslanan davranış normaları ilə qoruna bilər (Platon, e.ə. IV əsr). Onun fikrincə, norma cəmiyyətin harmoniya və nizam ideyasını ifadə edən "ümumi yaxşılıq" prinsipi ilə bağlıdır.

Aristotel isə "Nikomax etikası"nda insan davranışında "orta hədd" prinsipini əsas götürür: normativ davranış ifrat və təfrit arasında ağlın seçdiyi düzgün yoldur (Aristotel, e.ə. IV əsr). Bu baxımdan, norma həm mənəvi təmkin, həm də ictimai məsuliyyət daşıyır.

Bu dövr filosofları üçün norma həm fərdi, həm də ictimai məqsədin vəhdətini təcəssüm etdirirdi, yəni cəmiyyətin rifahı və insanın fəziləti arasında tarazlıq yaradırdı.

Yeni dövrdə sosial norma anlayışı rasionalist fəlsəfə çərçivəsində yenidən dəyərləndirildi. İmmanuel Kant "Əxlaq metafizikasının əsasları" əsərində normanı "kategorik imperativ" konsepsiyası ilə əsaslandırdı. O, yazırdı ki, "elə davran ki, sənin davranış prinsiplərin ümumi qanun ola bilsin" (Kant, 1785/1996). Kant üçün norma insanın daxili vicdanının və ağlının məhsuludur, yəni davranışın əxlaqi dəyəri onun nəticəsindən deyil, niyyətindən asılıdır.

Hegel isə sosial normanı "obyektiv ruh" anlayışı ilə əlaqələndirərək qeyd edirdi ki, norma fərdi iradədən deyil, cəmiyyətin mənəvi sistemindən doğur (Hegel, 1821/1991). Hegelin baxışına görə, norma ictimai münasibətlərin tənzimlənməsi və hüquqi sistemin formalaşmasında əsas rol oynayır.

Beləliklə, yeni dövr fəlsəfəsi sosial normanı artıq təbii qanun kimi deyil, insan ağlının məhsulu kimi qəbul etdi və onu etik, hüquqi və sosial münasibətlərin təməli kimi əsaslandırdı.

XX əsr və sonrası dövrdə normativlik məsələsi postmodern və kommunikativ fəlsəfənin əsas müzakirə mövzusuna çevrildi. M. Foucault sosial normanı hakimiyyət münasibətlərinin bir forması kimi şərh edir. Onun fikrincə, cəmiyyət "normal" və "anormal" davranışları ayırmaqla fərdlərin davranışını idarə edən görünməz mexanizmlər yaradır

(Foucault, 1977). Foucault-nun “intizam cəmiyyəti” konsepsiyası normanı sadəcə qayda yox, həm də nəzarət aləti kimi təqdim edir.

J. Habermas isə normativ sistemin formalaşmasını “kommunikativ fəaliyyət nəzəriyyəsi” kontekstində izah edir. Onun fikrincə, norma məcburiyyətlə deyil, ictimai razılıq və müzakirə nəticəsində legitimlik qazanmalıdır (Habermas, 1984). Normanın dəyəri yalnız o zaman gerçək olur ki, o, azad subyektlərin razılaşması nəticəsində formalaşır.

Beləliklə, müasir fəlsəfi yanaşmalar sosial normanı sabit struktur kimi deyil, dinamik və qarşılıqlı münasibətlər əsasında yaranan sosial konstruksiya kimi qəbul edir.

Sosiologiyada sosial norma anlayışı XIX əsrin sonlarında sistemli şəkildə işlənmişdir. Emil Durkheim normanı cəmiyyətin “kollektiv şüurunun” əsas elementi hesab edir. Onun fikrincə, sosial norma fərdləri birləşdirən mənəvi gücdür və cəmiyyətin mövcudluğu bu kollektiv şüurun davamlılığından asılıdır (Durkheim, 1997). Durkheim “anomiya” anlayışı ilə normativ sistemin zəifləməsini sosial xaosun əsas səbəbi kimi göstərir.

Maks Weber isə sosial normanı fərdlərin mənalı fəaliyyəti ilə əlaqələndirir. O, sosial davranışı “subyektiv mənaya” əsaslanan proses kimi izah edir (Weber, 1978). Weber üçün norma yalnız cəmiyyətin təzyiqi deyil, həm də fərdin sosial reallığı anlamasının nəticəsidir.

Talcott Parsons struktur-funksional yanaşmasında sosial normanı sistemin əsas inteqrasiya vasitəsi kimi dəyərləndirir. Onun fikrincə, norma sosial institutların fəaliyyətini əlaqələndirərək sistemin sabitliyini qoruyur (Parsons, 1951). Bu baxışda norma sosial tarazlığın qorunmasının zəruri şərtidir.

XX əsrin ortalarından etibarən sosial normanın formalaşması daha çox qarşılıqlı təsir və mədəni mənalar kontekstində təhlil olunmağa başladı. Corc Herbert Mead-in “simvolik interaksionizm” nəzəriyyəsinə əsasən, norma sosiallaşma prosesində formalaşır — fərdlər başqalarının reaksiyalarına uyğun davranış modelləri yaradır və nəticədə sosial normalar meydana gəlir (Mead, 1934).

Pierre Bourdieu-nun “habitus” anlayışına görə, norma fərdlərin təcrübəsində daxilləşmiş, sosial strukturun davranış səviyyəsində təzahürüdür (Bourdieu, 1990). O, sosial normanı insanların sosial mövqelərinə uyğun avtomatik davranış mexanizmi kimi izah edir.

Müasir dövrdə sosial normanın formalaşmasına rəqəmsallaşma, sosial media və qloballaşma kimi amillər ciddi təsir göstərir. Giddens (2020) qeyd edir ki, müasir cəmiyyətlərdə normativ sistem çevik və dəyişkən xarakter daşıyır; texnologiya və kommunikasiya vasitələri davranış standartlarını dinamik şəkildə formalaşdırır.

Sosioloji və fəlsəfi baxışların inteqrasiyası sosial normanın mahiyyətini dərk etmək üçün zəruridir. Fəlsəfə normanı mənəvi və etik davranışın tənzimləyicisi kimi, sosiologiya isə sosial sistemin nizamlayıcısı kimi təhlil edir.

Durkheim-in “kollektiv şüur” konsepsiyası ilə Kantın “kategorik imperativ”i eyni məqsədə — cəmiyyətdə davranışın sabitləşdirilməsinə xidmət edir. Habermas və Parsons yanaşmaları da bu mənada paralellik daşıyır: hər iki alim norma və dəyəri sosial inteqrasiyanın zəruri şərti kimi qəbul edir.

Beləliklə, sosial norma həm fərdi azadlığın məhdudlaşdırılması, həm də ictimai harmoniyanın qorunması funksiyasını daşıyır. O, həm mənəvi zərurət, həm də sosial mexanizm kimi cəmiyyətin özünü tənzimləmə sistemini təmin edir (Həsənov, 2023).

Sosial normanın formalaşması çoxölçülü prosesdir: fəlsəfi baxımdan — mənəvi və rasional prinsiplərə, sosioloji baxımdan — sosial nizam və kollektiv davranış qaydalarına əsaslanır.

Klassik dövrdən bu günə qədər norma həm fərdin azad iradəsi, həm də cəmiyyətin məcburedici strukturu kimi dəyərləndirilmişdir. Müasir dövrdə isə bu iki aspekt bir-birini tamamlayır: norma həm etik əsaslara söykənir, həm də sosial institutlar vasitəsilə aktuallığını qoruyur.

Beləliklə, sosial normanın fəlsəfi və sosioloji baxışlar əsasında tədqiqi onun sabit sosial sistemin qorunmasında və dəyişən cəmiyyətin idarə olunmasında mühüm əhəmiyyət daşıdığını göstərir.

## ƏDƏBİYYAT

1. Aristotle. (2009). Nicomachean Ethics (W. D. Ross, Trans.). Oxford University Press. (Original work published ca. 350 BCE)
2. Bourdieu, P. (1990). The Logic of Practice. Stanford University Press.
3. Durkheim, É. (1997). The Division of Labor in Society (W. D. Halls, Trans.). Free Press. (Original work published 1893)
4. Foucault, M. (1977). Discipline and Punish: The Birth of the Prison (A. Sheridan, Trans.). Vintage Books.
5. Giddens, A. (2020). Sociology (10th ed.). Polity Press.
6. Habermas, J. (1984). The Theory of Communicative Action, Volume 1: Reason and the Rationalization of Society (T. McCarthy, Trans.). Beacon Press.
7. Hegel, G. W. F. (1991). Elements of the Philosophy of Right (A. W. Wood, Ed.). Cambridge University Press. (Original work published 1821)
8. Həsənov, E. (2023). Müasir cəmiyyətdə sosial davranış modelləri. Bakı: ADPU Nəşriyyatı.
9. Kant, I. (1996). Groundwork of the Metaphysics of Morals (M. Gregor, Trans.). Cambridge University Press. (Original work published 1785)
10. Mead, G. H. (1934). Mind, Self, and Society. University of Chicago Press.
11. Parsons, T. (1951). The Social System. Free Press.
12. Plato. (2007). The Republic (B. Jowett, Trans.). Dover Publications. (Original work published ca. 380 BCE)
13. Weber, M. (1978). Economy and Society: An Outline of Interpretive Sociology (G. Roth & C. Wittich, Eds.). University of California Press.
14. Əliyev, F. (2022). Sosial sistem və norma nəzəriyyəsi. Bakı: Elm və Təhsil.

## SOSİAL NORMANIN FORMALAŞMASINDA SOSİOLOJİ VƏ FƏLSƏFİ BAXIŞLAR

***Məmmədov Mirhadı***

## XÜLASƏ

Sosial norma cəmiyyətin sabitliyini və nizamını təmin edən əsas sosial institutlardan biridir. Onun formalaşması həm fəlsəfi, həm də sosioloji baxımdan müxtəlif aspektlərdə izah olunur. Fəlsəfi baxımdan sosial norma insanın vicdanı, mənəvi məsuliyyəti və əxlaqi prinsipləri ilə əlaqələndirilir. Platon və Aristotel bu anlayışı ədalət və fəzilət prinsipləri ilə əsaslandırmış, Kant və Hegel isə onu ağıl və cəmiyyətin mənəvi strukturu ilə əlaqələndirmişlər.

Sosioloji baxışlarda sosial norma fərdlər arasında qarşılıqlı münasibətləri tənzimləyən və sosial nizamı qoruyan mexanizm kimi təqdim olunur. Emil Durkheim normanı kollektiv şüurun təzahürü, M. Weber fərdi mənaların məhsulu, T. Parsons isə sosial sistemin sabitlik elementi kimi izah etmişdir. Müasir nəzəriyyələrdə Mead və Bourdieu normanı sosiallaşma və mədəni qarşılıqlı təsirin nəticəsi kimi təhlil edirlər.

Müasir dövrdə sosial norma qloballaşma, rəqəmsallaşma və informasiya texnologiyalarının təsiri ilə dəyişməkdədir. Foucault onu sosial nəzarət aləti, Habermas isə kommunikativ razılaşma prosesi kimi şərh edir.

Nəticə etibarilə, sosial norma həm fərdi davranışın tənzimləyicisi, həm də cəmiyyətin dəyərlər sistemini və kimliyini qoruyan mexanizmdir. Onun fəlsəfi və sosioloji baxışlar əsasında öyrənilməsi müasir cəmiyyətin normativ strukturundakı dəyişiklikləri anlamaq baxımından mühüm əhəmiyyət kəsb edir.

## СОЦИОЛОГИЧЕСКИЕ И ФИЛОСОФСКИЕ ВЗГЛЯДЫ НА ФОРМИРОВАНИЕ СОЦИАЛЬНЫХ НОРМ

***Мамедов Мирхади***

### АННОТАЦИЯ

Социальная норма является одним из основных институтов, обеспечивающих стабильность и порядок в обществе. Формирование норм исследуется как в философском, так и в социологическом контексте. С философской точки зрения социальная норма рассматривается как выражение совести, нравственной ответственности и этических принципов человека. Платон и Аристотель связывали норму с идеями справедливости и добродетели, Кант и Гегель — с разумом и духовной структурой общества.

В социологии социальная норма трактуется как механизм регулирования взаимодействий между индивидами и поддержания общественного порядка. Э. Дюркгейм рассматривал норму как проявление коллективного сознания, М. Вебер — как результат осмысленного социального действия, а Т. Парсонс — как структурный элемент, обеспечивающий устойчивость социальной системы. В современных теориях Дж. Мид и П. Бурдьё анализируют норму как продукт социализации и культурного взаимодействия.

В современном обществе процессы глобализации и цифровизации приводят к трансформации нормативных систем. М. Фуко интерпретирует норму как инструмент социального контроля, тогда как Ю. Хабермас рассматривает её как результат коммуникационного согласия.

Таким образом, социальная норма выступает одновременно как регулятор индивидуального поведения и как механизм сохранения культурных ценностей и социальной идентичности. Исследование норм с позиций философии и социологии имеет важное значение для понимания изменений в современной нормативной структуре общества.

## SOCIOLOGICAL AND PHILOSOPHICAL PERSPECTIVES ON THE FORMATION OF SOCIAL NORMS

***Mammadov Mirhadi***

### SUMMARY

Social norms represent one of the fundamental mechanisms ensuring order, stability, and harmony within society. The concept of social norm has been interpreted from both philosophical and sociological perspectives. Philosophically, it reflects the moral and ethical dimensions of human behavior, associated with conscience, rationality, and responsibility. In classical thought, Plato and Aristotle linked norms to the principles of justice and virtue, while Kant and Hegel grounded them in reason and the moral structure of society.

From a sociological perspective, social norms are viewed as mechanisms that regulate interactions and maintain social order. Émile Durkheim defined norms as expressions of the “collective consciousness,” Max Weber considered them as results of meaningful social action, and Talcott Parsons regarded them as structural elements sustaining the equilibrium of the social system. In modern theory, George H. Mead and Pierre Bourdieu emphasized norms as products of socialization and cultural interaction.

In contemporary societies, globalization, digitalization, and mass communication have transformed normative systems. Michel Foucault interpreted norms as instruments of social control, whereas Jürgen Habermas viewed them as outcomes of communicative consensus and rational dialogue.

In conclusion, social norms function both as regulators of individual conduct and as key instruments for preserving cultural identity and social values. Studying them through philosophical and sociological perspectives is crucial for understanding transformations in modern normative structures.

# AZƏRBAYCAN VƏ FARS DİLLƏRİNDƏ ZƏRF

***Kəmalə Məmmədova***
***Azərbaycan Dillər Universiteti***
***kamalammdova@gmail.com***

***Açar sözlər*:** zərf, sadə zərflər, düzəltmə zərflər, mürəkkəb zərflər, sintaktik zərflər
***Ключевые слова*:** наречие, простые наречия, производные наречия, сложные наречия, синтаксические наречия
***Key words*:** Keywords: adverb, simple adverbs, derived adverbs, compound adverbs, syntactic adverb

## Giriş

Zərflərin dərəcələnməsi. Zərflər əlamət, keyfiyyət bildirmək baxımından sifətlərə oxşayır. Fərq burasındadır ki, sifətlər əşyaların keyfiyyətini, əlamət və necəliyini bildirir, zərflər isə işin, hərəkətin, əlamət və keyfiyətini bildirir. Deməli, bir haldaki, söhbət əlamət ve keyfiyyətdən gedir, belə olan təqdirdə dərəcələnmə hadisəsi zərflərə də aid ola bilər.

Zərflərin məna növlərindən asılı olaraq, hərəkıtin sürəti çoxala, zaman sərhəddi yaxınlaşdırıla və ya uzaqlaşdırıla, kəmiyyət çoxala, həmçinin məkan dəqiqləşdirilə bilər.

Zərflərin dərəcələnməsinin daha aydın şəkildə göstərmək məqsədilə onun hər bir növünün necə dərəcələnməsini ayrı-ayrılıqda izah etmək yerinə düşər.

2.1 Tərzi-hərəkət zərflərində dərəcə

Tərzi hərəkət zərflərində çoxaltma dərəcəsi çoxaltma dərəcəsi adi dərəcəyə nisbətdə götürülür. Hərəkətin keyfiyyət və əlamətini adi dərəcəyə nisbətən dəyişməsini göstərən dərəcə tərzi-hərəkət zərfinin çoxalma dərəcəsidir. Hər iki dildə tərzi-hərəkət zərflərinin çoxalma dərəcəsi həm morfoloji,həm də sintaktik üsulla əmələ gəlir.

1)Morfoloji üsulla

Azərbaycan dilində bəzi tərzi-hərəkət zərflərinə -ça şəkilçisinin artırılması ilə alınır.

Fars dilində isə bəzi tərzi hərəkət zərflərinə “tər” şəkilçisinin artırılması ilə alınır. Müqayisə edin:

yavaşcaیواشتر
yaxşıcaبهتر
ahəstəcəاهسته تر
astacaتندتر

2) Sintaktik üsullar

Azərbaycan dilində bəzi tərzi-hərəkət zərflərinin əvvəlinə lap,daha ədatlarının və çox sayının,fars dilində isə (xeyli), (besyar) sözlərinin artırılması ilə həmin zərflərin çoxalma dərəcəsi alınır. Msəsələn:

lap yavaşاهسته خیلی
daha cəldتیز خیلی
daha ucadanخیلی بلند
lap astaیواش خیلی
daha yeyin və s. تند بسیار

O,çox ucadan və əl hərəkətləri ilə danışırdı.

او با ضدای خیلی بلند و با حرکات دست حرف می زند

Zaman zərflərində dərəcə

Bəzi zaman zərflərinin dərəcələnməsi hər iki dildə müşahidə edilir.

İşin, hərəkətin icrasının, zamanının adi dərəcəyə nisbətdə daha yaxın və daha uzaq olmasını göstərən dərəcə həmin zərflərin çoxalma dərəcəsi adlanır. Hər iki dildə zaman zərflərinin çoxalma dərəcəsi həm morfoloji, həm də sintaktik yolla düzəlir.

1) Morfoloji yolla:

Adi dərəcədə olan bəzi zaman zərflərinə -ça şəkilçisinin artırılması ilə həmin zərflərin çoxalma dərəcəsi alınır. Məsələn:

İndicə, tezcə, qabaqca, əvvəlcə və s.

Əvvəlcə (qabaqca, indicə) onlarla razılaşmalı, sonra işə başlamalı.

Fars dilində isə bəzi zaman zərflərinin axırına "tər" şəkilçisinin artırmaqla onların çoxaltma dərəcəsi alınır.Məsələn:

zudtər-daha tez
dirtər-daha gec
biştər-daha çox
tondtər-daha tünd

2) Sintaktik yolla

Azərbaycan dilində bəzi zaman zərflərinin əvvəlinə lap və ya daha ədatını, çox və ya xeyli zərfini artırmaqla həmin zərflərin çoxalma dərəcəsi düzəlir.

Fars dilində də eyni üsulla, yəni bəzi zaman zərflırinin əvvəlinə "xeyli" və ya "besyar" sözünün artırılması ilə onların çoxalma dərəcəsi alınır. Məsələn:

lap tez-besyarzud
daha tez-xeylizud
çox gec-besyardir
lap gec-xeylidir və s.

Bəzən də,bunlara fars dilində həm də "tər" şəkilçisi artırıla bilir.Məsələn:

xeylidirtər,xeylizudtər.

2.2. Kəmiyyət zərflərində dərəcə

Azərbaycan dilində bəzi kəmiyyət zərfləri çoxlatma dərəcəsində işlənə bilir. Çoxaltma dərəcəsi əsasən sintaktik üsulla yaranır. Belə ki, bəzi kəmiyyət zərflərinin əvvəlinə lap və ya daha ədatını artırmaqla onların çoxlatma dərəcəsi yaranır. Məsələn:

lap az, lap çox, daha az, daha çox və s.

Qeyd: Bu dildə -az zərfi morfoloji üsulla da dərəcələnir. Belə ki, həmin zərfə -ca və ya -cık şəkilçisini artırmaqla çoxlatma dərəcəsi düzəlir: azca, azacıq.

Fars dilində isə bəzi kəmiyyət zərflərinin çoxaltma dərəcəsi həm morfoloji üsulla yəni "tər" şəkilçisinin artırılması ilə,həm də sintaktik üsulla "besyar" və ya "xeyli" sözünün həmin kəmiyyət zərflərinin əvvəlinə artırılması ilə düzəlir. Məsələn:

xeyli ziyad-daha çox
besyarkəm-daha az
xeylikəm-çox az
biştər-daha çox
ziyadtər-daha çox
kəmtər-daha az

Qeyd etmək lazımdır ki, bəzi hallarda "xeyli", və ya "besyar" sözü təkrarlana bilir.

Besyar besyar kəm-çox çox az
xeyli xeyli kəm-çox çox az

Yer zərflərində dərəcə

Yer zərflərində çoxaltma dərəcəsi digər zərflərə nisbətən daha çox işlənir. Bu zərflərin dərəcələnməsi hadisənin, hərəkətin, işin icra olunduğu yeri ya dəqiqləşdirir, məsafəni ya daha da uzaqlaşdırır və ya daha axınlaşdırır.

Hər iki dildə yer zərflərinin dərəcələnməsi həm morfoloji, həm də sintaktik üsulla olur.

Morfoloji üsulla. Bəzi yer zərfləri Azərbaycan dilində -ca şəkilçisini qəbul etməklə çoxlatma dərəcəsində, fars dilində isə "tər" şəkilçisini qəbul etməklə çoxaltma dərəcəsində işlənə bilirlər. Müqayisə edin:

Aşağıdaca-payintər
yuxarıdaca-balatər
uzaqdaca-durtər
yaxındaca-nəzdiktər
oradaca-celutər
qabaqdaca-əqəbtər

است بازگشته او مدتی دورتر از میهنش زندگی کرده و بغد به میهنش

Bəzən də "tərin" şəkilçisi qəbul edərək çoxaltma dərəcəsində işlənən yer zərflərinə rast gəlmək olar. Məsələn: payintərin

Sintaktik üsulla. Hər iki dildə bəzi yer zərfləri sintaktik üsulla da çoxaltma dərəcəsində işlənə bilər. Belə ki, Azərbaycan dilində lap, daha ədatlarından birini və ya çox sayının müvafiq yer zərfinin əvvəlində işlətməklə düzəlir. Məsələn:

lap aşağı, lap aşağıda, daha aşağı, daha yuxarı, çox yuxarı, lap kənarda, lap sahildə və s.

Fars dilində "besyar", "xeyli" saylarından birini bəzi yer zərflərinin əvvəlində işlənməsi ilə həmin zərflərin çoxaltma dərəcəsi alınır. Məsələn:

xeyli dur-çox uzaq
besyardur-çox uzaq
besyarnəzdik-çox yaxın
xeylibala-çox yuxarı
xeylipayin-çox aşağı
xeylinəzdik-çox yaxın

Qeyd etmək lazımdır ki, həmin yer zərfləri eyni zamanda "tər" şəkilçisini də qəbul edə bilir. Məsələn:

xeylidurtər-çox uzaq
besyarnəzdiktər-çox yaxın
xeylibalatər-çox yuxarı

Fars dilində zaman zərfləri iş vəhərəkətin vaxtını bildirir.Zaman zərfləri aşağıdakı sözlərdən ibarət olur.

(dir)-gec (zud)-tez
(hemişe)-həmişə (henvare)-həmişə
(her gez)-heç vaxt (əknun)-indi
(emruz)-bu gün (əlan)-indi

Fars dilində məkan zərfləri iş və hərəkətin hansı yerdə icra olunduğunu göstərir. Məkan zərfləri aşağıdakı zərflərlə ifadə olunur.

(inca)-bura (anca)-ora
(nəzdik)-yaxın (dur)-uzaq
(pain)-aşağı (bala)-üst
(hərca)-hər bir yer (həmeca)-hər yer
(fouğ)-üst (təht)-alt
(pəhlu)-yan (kənar)-yan

Fars dilində kəmiyyət zərfləri işin ölçüsünü, dərəcəsini, həddini və miqdarını bildirir.Kəmiyyət bildirən zərflər aşağıdakılardan ibarətdir:

(ziyad)-çox
(xeyli)-çox
(kəm)-az

(besyar)-çox
(çəndan)-o qədər
(binəhayət)-sonsuz

Fars dilində tərz-hərəkət zərfləti hərəkətin keyfiyyətini, hərəkətə əmələ gətirəni nə vəziyyətdə olduğunu bildirir. Bu zərflər aşağıdakılardan ibarətdir:

(mərdane)-mərdliklə
(xəndan)-gülərək
(məyusane)-məyusluqla
(mərdvar)-kişicəsinə
(penhani)-gizlicə
(nagozir)-məcburi surətdə
(houləki)-tələsik

Fars dilində inkar bildirən zərflər müəyyən bir fikrin inkarını bildirir. Məsələn:

(behicvəch)-əsla
(əbədən)-əbəda
(əslən)-əsla

Fars dilində oxşarlıq bildirən zərflər hərəkətin başqa bir hərəkətə oxşarlığını bildirir.Bu kimi zərflər ümumiyyətlə (var), (san), (asa) oxşarlıq bildirən şəkilçilər vasitəsilə əmələ gələn düzəltmə zərflər və habelə (həmcu), (cu), (manənd), (mesl), (nəzr) və bu kimi oxşarlıq bildirən sözlırin vasitəsilə əmələ gəlmiş tərkiblərlə ifadə olunur.

Fars dilində bir sıra mürəkkəb fellərin işlənməsi:

(rəfte-rəfte) – get-gedə
(boride-boride) – kəsik-kəsik
(porsan-porsan) – soruşa-soruşa
(dəvan-dəvan) – qaça-qaça
(ahəste-ahəste) – asta-asta
(xire-xire) – mat-mat
(rize-rize) – xırda-xırda
(kəm-kəm) – az-az
(dəste-dəste) – qrup-qrup
(fouc-fouc) – dəstə-dəstə
(yekan-yekan) – bir-bir
(do-do) – iki-iki
(dəmbedəm) – dəmbədəm
(ruberu) – üzbəüz
(mubemu) – tam diqqətlə
(qədəmbeqədəm) – addımbaddım
(mahbemah) – aybaay
(salbesal) – ilbəil
(duradur) – uzaqdan
(dəmadəm) – dəmadəmə
(sərasər) – başdanbaşa
(peyapey) – ardıcıl
(pişapiş) – qabağ-qabağa
(ləbaləb) – dolu
(gərmagərm) – isti-isti
(douradour) – ətraf
(gerdagerd) – ətraf
(xahnaxah) – istər-istəməz
(çarnaçar) – əlacsız

(tudərtu) – qatma-qarışıq
(kəmoziyad) – az-çox
(şəboruz) – gecə-gündüz
(kəmobiş) – az-çox

## ƏDƏBİYYAT

1.Dəmirçizadə Ə. Quliyev D. Qrammatika. Bakı:1998
2.Hatəmi N.M. Fars dili. Ali məktəblərin 1-ci kurs tələbələri üçün dərslik.
Bakı: Maarif nəşriyyatı.1986
3.Hatəmi N.M. Fars dili. Ali məktəblərin 3-cü kurs tələbələri üçün dərslik. Bakı: Maarif nəşriyyatı. 1992
4.Həsən Ənvəri, Həsən Əhmədi. Dəsture Zəbane Farsi. Tehran: 1370
5.Rüstəmova T. Fars dili. Beynəlxalq Əlhuda nəşriyyatı. Bakı: 2004
6.B.B. Miller. Персидско- русский словарь. M.:1953

## AZƏRBAYCAN VƏ FARS DİLLƏRİNDƏ ZƏRF

*Kəmalə Məmmədova*

## XÜLASƏ

Aparılan tədqiqatdan alınan nəticələr budur ki, həm Azərbaycan dilində, həm də fars dilində zərf müstəqil nitq hissələrindən biridir. Hər iki dildə zərflər quruluş etibarı ilə üç qrupa bölünür. 1) sadə. 2) düzəltmə. 3) mürəkkəb zərflər. Həm fars, həm də Azərbaycan dillərində sadə zərflər qrupuna yalnız bir kökdən ibarət olan zərflər daxildir. Hər iki dildə düzəltmə zərflər sadə zərflərə və digər nitq hissələrinə müəyyən sözdüzəldici şəkilçilərin artırılması ilə əmələ gəlir. Hər iki dildə müərkkəb zərflərin əmələ gəlməsində iki və ya daha çox müstəqil sözün iştirakı zəruridir. Müstəqil sözlərlə yanaşı müəyyən şəkilçilər də iştirak edə bilir.

Azərbaycan dilində zərfin beş məna növü var. Bunlar aşağıdakılardır:
1)Tərzi hərəkət zərfləri
2)Zaman zərfləri
3)Kəmiyyət zərfləri
4)Yer zərfləri
5)Səbəb zərfləri

Fars dilinin qrammatikası kitablarında zərfin yuxarıda göstərilən növləri ilə yanaşı inkar və oxşarlıq bildirən növləri də verilmişdir. Zərflərin dərəcələnməsi hər iki dildə müşahidə edilir. Zərflərin dərəcəsi hər iki dildə həm morfoloji həm də sintaktik yolla aparılır. Morfoloji yolla hər iki dildə adi dərəcədə olan zərflərə şəkilçilər artırılır. Sintaktik yolla isə hər iki dildə zərflərin əvvəlinə müəyyən ədatlar artırılır. Tədqiqatdan belə nəticəyə gəlmək olur ki, hər iki dildə zərflərin xüsusiyyətləri eynidir.

## НАРЕЧИЕ В ПЕРСИДСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

*Мамедова Камаля*

## АННОТАЦИЯ

В персидском и азербайджанском языках одним из самостоятельных частей речи является наречие. Отличительная особенность наречия по сравнению с другими

частями речи (кроме глагола) заключается в том, что оно непосредственно обозначает признак, качество, состояние, место или время действия, явления или события. В этом отношении наречие тесно связано с глаголом, другими словами, оно зависит от глагола и служит ему — является его «служителем». Именно поэтому наречие во многом похоже на прилагательное, так как прилагательное также непосредственно связано с существительным и зависит от него. Таким образом, и наречие, и прилагательное являются самостоятельными частями речи, и обе категории выражают признак, качество, способ действия и т.п. Различие состоит в том, что прилагательное обозначает признак, качество или свойство предмета, а наречие — признак, качество или способ действия, поступка или явления. Это – общая черта обеих частей речи в обоих языках нередко затрудняет разграничение некоторых слов как прилагательных или наречий.

## ADVERB IN PERSIAN AND AZERBAIJANI LANGUAGES

***Mammadova Kamala***

### SUMMARY

In both Persian and Azerbaijani, the adverb is one of the independent parts of speech. The distinctive feature of the adverb, compared to other parts of speech (except the verb), is that it directly expresses the sign, quality, state, place, or time of an action, condition, or event. In this sense, the adverb is directly connected to the verb — in other words, it depends on the verb and can be called its “servant.” Because of this feature, the adverb closely resembles the adjective, since the adjective is also directly connected to and dependent on the noun. Thus, both the adverb and the adjective are independent parts of speech, and both share the function of expressing a feature, quality, or manner. The difference lies in the fact that the adjective describes the quality, property, or manner of an object, while the adverb describes the quality, property, or manner of an action or event. This shared characteristic in both languages sometimes makes it difficult to distinguish whether certain words are adjectives or adverbs.

# PSİXOLOGİYA, PEDAQOGİKA

# YALANIN ANATOMİYASİ: PSİXOLOJİ PERSPEKTİVDƏN BAXIŞ

***p.ü.f.d İbrahimova Diyanə***
***BDU-nun Sosial və pedaqoji psixologiya kafedrası***
***Həsənova Nigar***
***BDU-nun II kurs magistrantı***
***nigar.hesenova20@mail.ru***

***Açar sözlər:*** Yalan, psixoloji perspektiv, sosial davranış, emosional idarəetmə, motivasiya, yalanın növləri, yalanın aşkarlanması, psixofizioloji reaksiyalar, sosial münasibətlər, etik yanaşma.

***Ключевые слова:*** ложь, психологический взгляд, социальное поведение, эмоциональная регуляция, мотивация, виды лжи, выявление лжи, психофизиологические реакции, социальные отношения, этический подход.

***Keywords:*** Lie, psychological perspective, social behavior, emotional regulation, motivation, types of lies, lie detection, psychophysiological reactions, social relations, ethical approach.

Yalan insan davranışının ən qədim və universal təzahürlərindən biri hesab olunur. O, yalnız mənəvi-etik müstəvidə deyil, həm də psixoloji, sosial və mədəni kontekstdə öyrənilən mürəkkəb bir fenomen kimi diqqət çəkir. Psixologiyada yalan fərdin daxili dünyası ilə xarici mühit arasındakı münasibətlərin, sosial adaptasiyanın və emosional tarazlığın qorunmasının vasitəsi kimi qiymətləndirilir. İnsan həyatının müxtəlif sahələrində – ailə münasibətlərində, dostluqda, iş mühitində və hətta ictimai-siyasi platformalarda – yalanın mövcudluğu müşahidə olunur. Bu baxımdan, yalanı anlamaq yalnız fərdi psixoloji prosesləri deyil, həm də ümumi sosial münasibətlərin mahiyyətini dərk etmək üçün mühüm əhəmiyyət daşıyır. Yalanın öyrənilməsi psixologiyada geniş tədqiqat obyektidir [7, s 84-94]. Müxtəlif nəzəri yanaşmalar göstərir ki, insanlar bir çox səbəblərə görə yalan danışırlar: özlərini qorumaq, cəzalardan yayınmaq, başqalarının rəğbətini qazanmaq, sosial imic yaratmaq və ya qarşılıqlı münasibətləri qorumaq məqsədilə. Bu səbəblər yalanın həm şüurlu, həm də qeyri-şüurlu davranış forması kimi təzahür etməsinə şərait yaradır. Hətta gündəlik həyatdakı kiçik "ağ yalanlar" belə insan münasibətlərinin mürəkkəb təbiətini əks etdirir [10, s 1-14]. Eyni zamanda, yalan danışmaq insan psixikasında müəyyən izlər buraxır. Beyində stress, gərginlik və həyəcan yaradan proseslər nitqdə, jestlərdə və mimikalarda özünü büruzə verir. Buna görə də psixologiya elmi yalanın anatomiyasını yalnız davranış səviyyəsində deyil, həm də psixofizioloji göstəricilər kontekstində öyrənir. Yalanın növləri, motivasiyası və aşkarlanma üsullarının araşdırılması insan psixikasının dərinliklərini anlamağa imkan verir. Beləliklə, mövzunun aktuallığı ondan ibarətdir ki, yalan fenomeni həm fərdi, həm də ictimai həyatın vacib komponentlərindən biridir. Onun psixoloji əsaslarını anlamaq təkcə insan davranışlarının təhlili üçün deyil, həm də sağlam sosial mühitin formalaşması baxımından zəruri əhəmiyyət daşıyır [7, s 84-94].

Yalanın psixoloji təhlilində əsas istiqamətlərdən biri onun insan beynində yaratdığı emosional və idrak proseslərinin araşdırılmasıdır. Müxtəlif elmi araşdırmalar göstərir ki, yalan danışan zaman insan beyninin ön payı, xüsusilə də prefrontal korteks daha aktiv işləyir. Çünki yalan söyləmək yalnız sadə bir davranış deyil, eyni zamanda yaddaşın, diqqətin və emosiyaların idarə olunmasını tələb edən mürəkkəb bir kognitiv prosesdir. Bu səbəbdən yalan danışmaq əksər hallarda insanda əlavə enerji sərfiyyatına, stres hormonlarının artmasına və qeyri-şüuri gərginliyə gətirib çıxarır. Digər tərəfdən, yalan fenomeni sosial psixologiya baxımından da mühüm əhəmiyyət kəsb edir. Cəmiyyətlərdə yalanın qəbul olunma dərəcəsi mədəniyyətlərə görə fərqlənir. Məsələn, bəzi mədəniyyətlərdə sosial münasibətləri qorumaq məqsədilə söylənilən "ağ yalanlar" qəbul edilə bilən davranış kimi qiymətləndirilir, digərlərində isə yalan ciddi mənəvi pozuntu hesab olunur. Bu, yalanın yalnız fərdi psixoloji mexanizm olmadığını, həm də sosial konstrukt və mədəni kodlarla sıx bağlı olduğunu sübut edir [2, s 15]. Eyni zamanda, yalanın təsiri yalnız insan münasibətlərinin sferası ilə məhdudlaşmır. O, hüquqi, iqtisadi və siyasi müstəvilərdə də ciddi nəticələr doğura bilər. Məhkəmə proseslərində yalan ifadə ədalətin pozulmasına, biznes mühitində yalan məlumat etimadın itirilməsinə, siyasətdə isə ictimai inamın zəifləməsinə səbəb olur. Bu baxımdan, yalanın anatomiyasını psixoloji perspektivdən öyrənmək həm fərdi, həm də ictimai maraqlar baxımından böyük aktuallıq daşıyır. Psixoloji yanaşmalar göstərir ki, yalan fenomenini yalnız mənfi çərçivədə qiymətləndirmək düzgün olmazdı. Çünki bəzi hallarda yalan insanın adaptasiya mexanizmi kimi çıxış edir. Məsələn, stresli vəziyyətlərdən çıxmaq, qarşı tərəfi incitməmək və ya sosial harmoniyanı qorumaq üçün söylənilən kiçik yalanlar müəyyən psixoloji funksiyanı yerinə yetirir. Buna görə də müasir psixologiya yalanı tamamilə neqativ davranış kimi deyil, müxtəlif motivasiyalara və nəticələrə görə fərqlənən çoxşaxəli bir proses kimi araşdırır [7, s 84-94].

Yalanın psixoloji təhlili göstərir ki, bu fenomen müxtəlif növlərə ayrılır və hər biri özünəməxsus motivasiyalarla bağlıdır. Ən çox rast gəlinən formalar bunlardır:

- **Ağ yalanlar** – adətən münasibətləri qorumaq, qarşı tərəfi incitməmək və ya sosial harmoniyanı saxlamaq məqsədi daşıyır. Məsələn, bir dostun aldığı hədiyyəni bəyənməsən də, onu incitməmək üçün müsbət fikir bildirmək [9, s. 220].
- **Manipulyativ yalanlar** – şəxsi mənfəət əldə etmək və ya başqalarını idarə etmək məqsədilə istifadə olunur. Bu tip yalanlar işgüzar mühitdə, siyasətdə və şəxsi münasibətlərdə daha çox müşahidə edilir.
- **Müdafiə xarakterli yalanlar** – insanın cəzadan yayınmaq və ya neqativ nəticələrdən qorunmaq üçün söylədiyi yalanlardır. Xüsusilə uşaqlıq dövründə formalaşır və böyüklükdə də davam edə bilər [6, s. 4].

Bu təsnifat göstərir ki, yalanın kökündə yalnız mənfi niyyətlər deyil, həm də sosial münasibətləri qoruma instinkti, emosional tarazlıq və özünüqoruma mexanizmi dayanır.

Psixoloji baxımdan yalan danışmaq beyin fəaliyyətində xüsusi mexanizmləri işə salır. İnsan yalan söyləyərkən diqqətini cəmləməli, reallığı dəyişməli və bu uydurmanı yaddaşda saxlamalıdır. Bu proses prefrontal korteks, hipokampus və emosiyaları idarə edən amigdalanın aktivləşməsi ilə müşayiət olunur. Ona görə də yalan danışan şəxslərdə stress, ürək döyüntüsünün sürətlənməsi, tərləmə və bədən dilində qeyri-ixtiyari dəyişikliklər müşahidə edilir [3, s. 120].Sosial psixologiya baxımından isə yalanın əsas funksiyası

adaptasiyadır. İnsanlar sosial əlaqələrini qorumaq, başqalarının rəğbətini qazanmaq və ya öz statuslarını möhkəmləndirmək üçün yalan söyləyə bilirlər. Yalanın aşkarlanması da psixoloji tədqiqatlarda mühüm istiqamət kimi öyrənilir. Mütəxəssislər yalanı müəyyən etmək üçün qeyri-verbal siqnallara – baxışların tez-tez yayınması, jestlərin uyğunsuzluğu, nitqdə fasilələrin artması, səs tonunun dəyişməsi – xüsusi diqqət yetirirlər. Bununla yanaşı, texnoloji vasitələrin (polioqraf, neyro görüntüləmə) tətbiqi də yalanın daha obyektiv aşkarlanmasına imkan yaradır [2, s. 11].

Yalanın anatomiyasını psixoloji perspektivdən araşdırarkən, bu fenomeni yalnız nəzəri baxımdan deyil, həm də strukturlaşdırılmış şəkildə təqdim etmək vacibdir. Nümunələr və cədvəllər vasitəsilə yalanın növləri, motivasiyaları, psixoloji təsirləri və aşkarlanma üsulları daha aydın görünür. Bu yanaşma həm mövzunun elmi dəyərləndirilməsini gücləndirir, həm də oxucuya müqayisəli təhlil aparmaq imkanı yaradır. Cədvəllərdə yalanın müxtəlif formaları onların psixoloji xüsusiyyətləri və sosial nəticələri ilə birlikdə təsnif edilmişdir. Həmçinin, insan beynində və emosional vəziyyətdə baş verən dəyişikliklər, uzunmüddətli təsirlər və münasibətlərə olan nəticələr ayrıca göstərilmişdir. Bununla yanaşı, yalanın aşkarlanması üçün istifadə olunan metodlar – qeyri-verbal müşahidədən neyro görüntüləmə texnologiyalarına qədər – sistemləşdirilərək təqdim olunur.

**Cədvəl 1. Yalanın növləri və əsas xüsusiyyətləri**

| **Yalanın növü** | **Əsas motivasiya** | **Psixoloji xüsusiyyətlər** | **Nümunə** |
|---|---|---|---|
| **Ağ yalan** | Münasibətləri qorumaq | Emosional sabitlik, sosial harmoniya | Dostun xoşlamadığın yeməyini bəyənmiş kimi göstərmək |
| **Manipulyativ yalan** | Mənfəət əldə etmək, idarə etmək | Hesablanmış davranış, məqsədyönlülük | İş müsahibəsində bacarıqları şişirtmək |
| **Müdafiə xarakterli yalan** | Cəzadan yayınmaq, qorunmaq | Həyəcan, qorxu, özünüqoruma mexanizmi | Uşaq müəllimə dərsini oxumadığını gizlətməsi |
| **Patoloji yalan** | Daimi yalan söyləmə meyli | Şüursuz vərdiş, şəxsiyyət pozuntuları | Səbəbsiz olaraq davamlı yalan danışmaq |

Mənbə: Akçay, E. (2013). Yalan söyleme kabiliyeti ve hafıza: Cinsiyetler arası bir karşılaştırma [Lie ability with respect of memory power: Comparison between genders]. *Anadolu Üniversitesi Sosyal Bilimler Dergisi, 13*(3), 234–243. https://dergipark.org.tr/tr/pub/ausbd/issue/10924/130058

Cədvəl 1 yalanın əsas növlərini, onların motivasiyalarını və nümunələrini göstərir. Burada aydın olur ki, yalan vahid anlayış deyil, fərqli məqsədlərə xidmət edən müxtəlif formaları mövcuddur. Məsələn, ağ yalan münasibətlərin qorunmasına yönəlsə də, manipulyativ yalan şəxsi fayda və qarşı tərəfə təsir etmək üçün istifadə olunur. Müdafiə xarakterli yalan isə insanın qorxu və həyəcan hissindən qaynaqlanır. Patoloji yalan isə artıq vərdiş halını alaraq şəxsi pozuntuya çevrilə bilər. Bu təsnifat göstərir ki, hər yalanı eyni çərçivədə dəyərləndirmək düzgün olmazdı.

## Cədvəl 2. Yalanın psixoloji təsirləri və nəticələri

| Psixoloji aspekt | Yalanın təsiri | Uzunmüddətli nəticə |
|---|---|---|
| **Beyin fəaliyyəti** | Prefrontal korteksdə aktivliyin artması | Yaddaş və diqqət üzərində əlavə yük |
| **Emosional vəziyyət** | Stress hormonlarının yüksəlməsi, gərginlik | Davamlı yalan hallarında nevroz, narahatlıq |
| **Sosial münasibətlər** | İnamın azalması, etimadsızlıq | Münasibətlərin zəifləməsi və ya pozulması |
| **Şəxsi inkişaf** | Qısa müddətli fayda hissi | Etibar itkisi, sosial təcrid |

Mənbə: Akçay, E. (2013). Yalan söyleme kabiliyeti ve hafıza: Cinsiyetler arası bir karşılaştırma [Lie ability with respect of memory power: Comparison between genders]. *Anadolu Üniversitesi Sosyal Bilimler Dergisi, 13*(3), 234–243. https://dergipark.org.tr/tr/pub/ausbd/issue/10924/130058

Cədvəl 2, yalanın psixoloji təsirlərini və nəticələrini ümumiləşdirir. Yalan danışarkən beynin müəyyən hissələrinin aktivliyi artır, bu da yaddaş və diqqət üzərində əlavə yük yaradır. Eyni zamanda emosional baxımdan gərginlik, stress və uzunmüddətli narahatlıq formalaşa bilər. Sosial mühitdə isə etimadın azalması və münasibətlərin zəifləməsi qaçılmaz nəticədir. Bu cədvəl göstərir ki, yalanın təsiri yalnız fərdi psixoloji müstəvidə deyil, həm də sosial münasibətlərdə özünü göstərir.

## Cədvəl 3. Yalanın aşkarlanma üsulları

| Yanaşma | Əlamətlər və göstəricilər | Tətbiq sahəsi |
|---|---|---|
| **Qeyri-verbal müşahidə** | Göz təması qaçırmaq, jest uyğunsuzluğu, mimika | Polis istintaqları, psixoloji analiz |
| **Nitqin təhlili** | Uzun pauzalar, təkrarlar, qeyri-dəqiqliklər | Məhkəmə ifadələri, müsahibələr |
| **Psixofizioloji metodlar** | Ürək döyüntüsü, tərləmə, tənəffüs sürəti | Polioqraf testləri |
| **Neyro görüntüləmə üsulları** | Beyin fəaliyyətinin izlənməsi (fMRI və s.) | Elmi araşdırmalar |

Mənbə: Akçay, E. (2013). Yalan söyleme kabiliyeti ve hafıza: Cinsiyetler arası bir karşılaştırma [Lie ability with respect of memory power: Comparison between genders]. *Anadolu Üniversitesi Sosyal Bilimler Dergisi, 13*(3), 234–243. https://dergipark.org.tr/tr/pub/ausbd/issue/10924/130058

Cədvəl 3, yalanın aşkarlanma üsullarına həsr olunmuşdur. Burada qeyd olunur ki, yalanın izini yalnız sözlərdə deyil, həm də davranış və fizioloji reaksiyalarda tapmaq mümkündür. Göz təmasının qaçırılması, mimika və jestlərin uyğunsuzluğu, nitqin təhlilində qeyri-dəqiqliklər əsas göstəricilərdir. Bundan əlavə, polioqraf testləri və neyro görüntüləmə texnologiyaları kimi elmi metodlar da yalanın obyektiv aşkarlanmasında mühüm rol oynayır. Bu yanaşma psixologiyanın digər elmlərlə – neyrobiologiya və kriminalistika ilə qarşılıqlı əlaqəsini göstərir.

Yalan fenomeni insan psixikasının ən mürəkkəb davranış formalarından biri kimi nəzərdən keçirilir. Əvvəlki cədvəllərin izahı göstərdi ki, yalan həm fərdi, həm də sosial səviyyədə çoxşaxəli funksiyalara malikdir. Bununla belə, onun psixoloji nəticələrini daha dərindən təhlil etmək vacibdir. İlk növbədə, yalan insanın **emosional tarazlığına** təsir göstərir. Qısa müddətdə yalan müəyyən gərginlikdən qorunmaq vasitəsi ola bilər, lakin uzun müddət davam edən yalan vərdiş halını alaraq insanın daxili aləmində güclü stress, nevrotik əlamətlər və hətta şəxsiyyət pozuntularına gətirib çıxara bilər [6, s. 7]. Bu, xüsusilə patoloji yalançılıqda özünü daha aydın göstərir. Digər mühüm məsələ **sosial etimad** problemidir. Cəmiyyət daxilində inam və etibar sosial kapitalın əsas elementlərindən biridir. Yalan isə bu kapitalı zəiflədir. Məsələn, ailə münasibətlərində yalan bir dəfə bağışlansa da, təkrarlanarsa etimad sarsılır. İş mühitində yalan isə əməkdaşlıq və komanda işinin keyfiyyətini azaldır. Bu baxımdan, yalanın sosial münasibətlər üzərində dağıdıcı təsir gücü kifayət qədər güclüdür [10, s. 6].

Yalanın psixoloji təhlilində başqa bir maraqlı məqam **adaptasiya mexanizmləri** ilə bağlıdır. İnsan bəzən özünü qorumaq, sosial münasibətlərdə harmoniyanı saxlamaq və ya qarşı tərəfi psixoloji travmadan müdafiə etmək üçün yalana müraciət edir. Burada yalan müəyyən mənada müsbət funksiyanı daşıya bilər. Lakin bu cür yalanlar da uzun müddətdə tərəflər arasında şəffaflıq və səmimiyyətin azalmasına səbəb olur. Texnoloji və elmi tərəqqi yalanın **aşkarlanma imkanlarını** da genişləndirib. [10, s. 11]. Polioqraf testləri, fMRI texnologiyaları, göz hərəkətlərinin izlənməsi və səs tonunun analizi yalanın aşkarlanmasında istifadə olunur. Bununla belə, psixoloji müstəvidə yalanın aşkarlanması hələ də birmənalı deyil. Çünki hər bir insan fərqli emosional reaksiyalara malikdir və bəzən qeyri-verbal əlamətlər tam dəqiq nəticə vermir. Bu isə göstərir ki, yalanın aşkar olunması yalnız texnologiya deyil, həm də dərin psixoloji analiz tələb edən sahədir [3, s. 121].

**Nəticə.** "Yalanın anatomiyası: psixoloji perspektivdən baxış" mövzusu göstərir ki, yalan insan davranışının təbii, lakin mürəkkəb bir hissəsidir. Onun mahiyyəti yalnız mənəvi-etik müstəvidə deyil, həm də psixoloji, sosial və neyrobioloji çərçivədə dəyərləndirilməlidir. Təhlil göstərir ki, yalan fərqli motivasiyalara əsaslanır: münasibətlərin qorunması, şəxsi mənfəət əldə edilməsi, neqativ nəticələrdən yayınmaq və ya sadəcə vərdiş halı. Bu isə yalanın müxtəlif formalarını – ağ, manipulyativ, müdafiə xarakterli və patoloji yalanları – fərqləndirməyə imkan verir. Psixoloji baxımdan yalan insan beynində əlavə idrak yükü yaradır, stressi artırır və uzunmüddətdə nevrotik hallara səbəb ola bilər. Sosial müstəvidə isə yalan inamın azalmasına, münasibətlərin zəifləməsinə və etimad böhranına gətirib çıxarır. Bununla yanaşı, bəzi hallarda yalan müsbət funksiyaları daşıya bilər: qarşı tərəfi psixoloji travmadan qorumaq və ya sosial harmoniyanı saxlamaq. Lakin bu funksiyalar müvəqqəti xarakter daşıyır və uzun müddətdə şəffaflığın azalmasına səbəb olur. Mövzunun ümumi nəticəsi ondan ibarətdir ki, yalanı tamamilə neqativ və ya tamamilə faydalı davranış kimi qiymətləndirmək düzgün olmazdı. O, həm fərdi psixoloji müdafiə mexanizmi, həm də sosial münasibətləri zədələyən risk faktoru ola bilər. Bu səbəbdən, yalanın anatomiyasını psixoloji perspektivdən öyrənmək yalnız insan davranışlarını daha yaxşı anlamaq üçün deyil, həm də sağlam sosial münasibətlərin formalaşdırılması baxımından vacibdir.

## ƏDƏBİYYAT

1. Spence, S. A., Farrow, T. F. D., Herford, A. E., Wilkinson, I. D., Zheng, Y., & Woodruff, P. W. R. (2001). Behavioral and functional anatomical correlates of deception in humans. *NeuroReport, 12*(13), 2849–2853. https://doi.org/10.1097/00001756-200109170-00019

2. Zheltyakova, M., Korotkov, A., Cherednichenko, D., Didur, M., & Kireev, M. (2024). To lie or to tell the truth? The influence of processing the opponent's feedback on the forthcoming choice. *Frontiers in Psychology, 15,* 1275884. https://doi.org/10.3389/fpsyg.2024.1275884

3. Ofen, N., Whitfield-Gabrieli, S., Chai, X. J., Schwarzlose, R. F., & Gabrieli, J. D. E. (2017). Neural correlates of deception: Lying about past events and personal beliefs. *Social Cognitive and Affective Neuroscience, 12*(1), 116–127. https://doi.org/10.1093/scan/nsw151

4. Chu, V. Q. (2016). The anatomy of deception: A literature review of the neurobiological basis, underlying cognitive processes, and motivations that facilitate lying. *Undergraduate Research Journal, University of California, Merced,* 8, 1–16. https://escholarship.org/uc/item/8js4x77z

5. Akçay, E. (2013). Yalan söyleme kabiliyeti ve hafıza: Cinsiyetler arası bir karşılaştırma [Lie ability with respect of memory power: Comparison between genders]. *Anadolu Üniversitesi Sosyal Bilimler Dergisi, 13*(3), 234–243. https://dergipark.org.tr/tr/pub/ausbd/issue/10924/130058

6. Aydın, M. Ş. (2021). Çocuklarda yalan söyleme davranışı ve gelişim süreçleri [Lie-telling behavior and developmental processes in children]. *Muhakeme Dergisi, 4*(1), 1–13. https://doi.org/10.33817/muhakeme.943205

7. Deligöz, E. (2025). Social media addiction and lie concept from a psychological perspective. *Psikiyatride Güncel Yaklaşımlar, 17*(1), 84–94. https://doi.org/10.18863/pgy.1431201

8. Deligöz, E. (2024). Psychological factors related to social media addiction and lying: A literature review. *International Anatolia Academic Online Journal for Health Sciences, 10*(1), 288–313. https://dergipark.org.tr/en/pub/iaaojh/issue/83867/1434225

9. Koç, B. (2007). Çatışma bağlamında yalan ve din ilişkisi [The relationship between religion and lying in terms of conflict]. *Dinî Araştırmalar, 10*(30), 215–242. https://dergipark.org.tr/tr/pub/dinaresearch/issue/13450/162618

10. Çakın, M. (2016). Yalanın değeri / Yorumun önemi [The value of lie / The importance of interpretation]. *ViraVerita E-Dergi, 5,* 1–14. https://dergipark.org.tr/tr/pub/viraverita/issue/26888/274555

# YALANIN ANATOMİYASİ: PSİXOLOJİ PERSPEKTİVDƏN BAXIŞ

***İbrahimova Diyanə, Həsənova Nigar***

## XÜLASƏ

"Yalanın anatomiyası: psixoloji perspektivdən baxış" mövzusu insan davranışında yalanın mahiyyətini, yaranma səbəblərini və psixoloji mexanizmlərini təhlil edir. Psixologiyada yalan yalnız etik pozuntu kimi deyil, həm də fərdin sosial mühitə uyğunlaşmasının, özünüqoruma instinktinin və emosional idarəetmə üsullarının ifadəsi kimi qiymətləndirilir. Yalanın kökləri uşaqlıqdan başlayaraq, sosial öyrənmə, valideyn nümunələri və cəmiyyətin qəbul etdiyi davranış normaları ilə formalaşır. İnsanlar müxtəlif motivasiyalarla – cəza qorxusu, şəxsi mənfəət, münasibətlərin qorunması və ya sosial imic yaratmaq məqsədi ilə yalan danışa bilirlər. Psixoloji tədqiqatlar göstərir ki, yalan söyləyərkən insan beynində emosional gərginlik və stress artır, bu da bədən dili, mimika və nitqdə müəyyən dəyişikliklərlə üzə çıxır. Yalanın aşkarlanması prosesi isə yalnız sözlərdəki uyğunsuzluqlarla deyil, həm də psixofizioloji reaksiyalarla müəyyən olunur. Yalanın növləri – ağ yalan, manipulyativ yalan, müdafiə xarakterli yalan – onların hər birinin fərqli psixoloji səbəblərə söykəndiyini göstərir. Məqalə nəticə olaraq vurğulayır ki, yalan insan münasibətlərinin təbii, lakin mürəkkəb bir hissəsidir. Onun psixoloji əsaslarını anlamaq yalnız fərdi davranışların təhlili üçün deyil, həm də sosial münasibətlərin, iş mühitinin və hüquqi-etik sistemlərin sağlam qurulması üçün vacibdir. Yalanın anatomiyasını psixoloji perspektivdən öyrənmək həm fərdi, həm də cəmiyyət səviyyəsində daha dərin anlaşma imkanı yaradır.

# АНАТОМИЯ ЛЖИ: ПСИХОЛОГИЧЕСКИЙ ВЗГЛЯД

***Ибрагимова Диянə, Хасенова Нигяр***

## АННОТАЦИЯ

Тема «Анатомия лжи: психологический взгляд» анализирует сущность лжи в человеческом поведении, её причины и психологические механизмы. В психологии ложь рассматривается не только как этическое нарушение, но и как выражение адаптации личности к социальной среде, проявление инстинкта самосохранения и способ эмоциональной регуляции. Корни лжи уходят в детство и формируются под влиянием социального научения, родительских примеров и норм поведения, признанных обществом. Люди лгут по разным причинам – из страха наказания, ради личной выгоды, для сохранения отношений или создания позитивного социального имиджа.

Психологические исследования показывают, что во время лжи в мозге человека возрастает эмоциональное напряжение и стресс, что проявляется в изменениях языка тела, мимики и речи. Процесс выявления лжи определяется не только противоречиями в словах, но и психофизиологическими реакциями. Различные виды

лжи – «белая ложь», манипулятивная ложь, оборонительная ложь – имеют свои психологические причины.

В заключение подчёркивается, что ложь является естественной, но в то же время сложной частью человеческих взаимоотношений. Понимание её психологических основ важно не только для анализа индивидуального поведения, но и для построения здоровых социальных отношений, эффективной работы в коллективе и развития правовых и этических систем. Изучение анатомии лжи с психологической перспективы позволяет глубже понять этот феномен как на индивидуальном, так и на общественном уровне.

## THE ANATOMY OF LYING: A PSYCHOLOGICAL PERSPECTIVE

***İbrahimova Diyanə, Həsənova Nigar***

## SUMMARY

"The Anatomy of Lying: A Psychological Perspective" explores the essence of lying in human behavior, its underlying causes, and psychological mechanisms. In psychology, lying is not viewed merely as an ethical violation but also as an expression of an individual's adaptation to the social environment, a form of self-preservation, and a method of emotional regulation. The roots of lying can be traced back to childhood, shaped by social learning, parental models, and socially accepted behavioral norms. People lie for various motivations, such as fear of punishment, personal gain, maintaining relationships, or building a positive social image.

Psychological research indicates that lying increases emotional tension and stress in the brain, which manifests in changes in body language, facial expressions, and speech patterns. The detection of lies is determined not only through inconsistencies in verbal communication but also through psychophysiological reactions. Different types of lies—white lies, manipulative lies, and defensive lies—reflect distinct psychological motivations.

In conclusion, the study highlights that lying is a natural yet complex part of human relationships. Understanding its psychological foundations is crucial not only for analyzing individual behavior but also for fostering healthy social interactions, workplace dynamics, and legal-ethical systems. Studying the anatomy of lying from a psychological perspective provides deeper insight at both individual and societal levels.

# PRENATAL DÖVRDƏ ORTAYA ÇIXAN TƏŞVİŞ VƏ DEPRESSİYA ARASINDAKI ƏLAQƏNİN TƏHLİLİ

***Bağırzadə Bəyim İlham qızı***
***BDU-nun I kurs magistrantı***
***baghirzadebeyim@gmail.com***

***Açar sözlər:*** təşviş pozuntusu, depressiya, prenatal dövr, simptomlar, stress, hormonal dəyişiklik
***Ключевые слова:*** тревожное расстройство, депрессия, предродовой период, симптомы, стресс, гормональный дисбаланс
***Keywords:*** anxiety disorder, depression, prenatal period, symptoms, stress, hormonal imbalance.

Hamiləlik qadının həyatında həm fiziki, həm də emosional baxımdan böyük dəyişikliklərlə müşayiət olunan mühüm dövrdür. Bu müddət ərzində qadın orqanizmində gedən hormonal dəyişikliklər, sosial və psixoloji yükün artması nəticəsində müxtəlif emosional pozuntular baş qaldıra bilər. Ən çox rast gəlinən psixoloji problemlər arasında təşviş pozuntusu və depressiya xüsusi yer tutur. Bu iki pozuntu bir-biri ilə sıx əlaqəli olub, bəzən birlikdə müşahidə olunur və hamiləliyin gedişinə, ananın psixososial funksionallığına və körpənin inkişafına mənfi təsir göstərə bilir [5].

Ana sağlamlığı hamiləlik, doğuş və doğuşdan sonrakı dövrdə qadınların sağlamlığına aiddir. Hər bir mərhələ qadınların və onların körpələrinin sağlamlıq və rifah üçün tam potensialına çatmasını təmin edən bilən olmalıdır. Təbiidir ki, sağlamlıq dedikdə yalnız fiziki sağlamlıq deyil, həm fiziki sağlamlıq, həm də psixoloji sağlamlıq nəzərdə tutulur [6].

Bu problemlər arasındakı əlaqəni və onların prenatal dövrdəki təsirini başa düşmək üçün əvvəlcə təşviş və depressiyanın nəzəri əsaslarına diqqət yetirmək lazımdır. Təşviş – real və ya qeyri-real təhlükə qarşısında yaranan, davamlı narahatlıq və gərginlik hissi ilə müşayiət olunan emosional vəziyyətdir. Depressiya isə enerji azlığı, marağın və həzz alma qabiliyyətinin azalması, ümidsizlik, konsentrasiya çətinlikləri və mənfi özqavrayış ilə xarakterizə olunur.

Araşdırmalar göstərir ki, prenatal dövrdə bu iki pozuntu tək-tək də rast gəlinə bilər, lakin çox hallarda bir-birini müşayiət edirlər [1].

Bu dövrdə hormonal dəyişikliklər (estrogen, progesteron və kortizol səviyyəsindəki artım), yuxusuzluq, sosial dəstəyin azlığı və doğum qorxusu psixi sağlamlığa mənfi təsir göstərən əsas risk faktorlarıdır [3].

Tədqiqatlar göstərir ki, təşviş və depressiya arasında ikitərəfli əlaqə mövcuddur. Təşviş pozuntusu olan hamilə qadınlarda sonrakı dövrlərdə depressiya inkişaf etmə riski yüksəkdir. Eyni zamanda, depressiv əlamətlər göstərən qadınlarda təşvişə meyl də artır. Bu pozuntuların birlikdə görülməsi, hər birinin ayrı-ayrılıqda yaratdığı fəsadlardan daha ciddi nəticələr doğura bilər [2].

Hamiləlik dövründə psixoloji dalğalanmaların bir sıra səbəbləri var ki onlardan biri də sosial və ətraf mühitin təsirləridir. Ailə münasibətləri, iş stresi və sosial dəstəyin çatışmazlığı hamiləlikdə psixi sağlamlığa mənfi təsir göstərə bilər. Həyat yoldaşının yetərsiz dəstəyi ananın özünü tənha hiss etməsinə və təşviş hissinin artmasına səbəb ola bilər. Eyni zamanda, ətraf mühitin təzyiqləri, xüsusilə doğuşdan sonrakı məsuliyyətlərlə bağlı, ana namizədində özünü yetərsiz hiss etməyə yol aça bilər.

Maddi narahatlıqlar da hamiləlik dövründə stresin artmasına səbəb olan əsas faktorlardandır. Körpə üçün lazım olan hazırlıqlar, doğuş xərcləri və gələcək maliyyə məsuliyyətləri ana namizədlərində təşviş pozuntularını tətikləyə bilər. Xüsusilə iqtisadi

qeyri-müəyyənlik dövrlərində hamiləlik zamanı depressiya riski daha yüksək ola bilər. Sosial dəstək və maddi təminat, ana namizədinin psixoloji sağlamlığını qorumaqda mühüm rol oynayır [7].

Bu iki fərqli psixoloji problemin fərqli simptomları olsa da, bəzi ortaq və oxşar əlamətləri də mövcuddur. Bunlara aşağıdakılar aiddir:

1. Yuxu pozuntuları
2. Əsəbilik və tez həyəcanlanma
3. Enerji çatışmazlığı
4. Gələcəyə qarşı ümidsizlik
5. Qeyri-real düşüncələr (məsələn, "yaxşı ana olmayacağam")

Təşviş pozuntusu və depressiyanın birlikdə görülməsi həm psixoloji, həm də fizioloji sistemləri təsirə məruz qoyaraq anada kortizol səviyyəsinin yüksəlməsinə, bu isə plasenta vasitəsilə körpəyə ötürülərək onun inkişafında problemlərə səbəb ola bilər [4].

Prenatal dövrdə rast gəlinən təşviş və depressiya fiziki, emosional və davranış səviyyəsində müxtəlif əlamətlərlə özünü göstərir.

1. Hamiləlik dövründə təşviş və depressiya müxtəlif fiziki əlamətlərlə özünü göstərə bilər. Ana namizədləri tez-tez özlərini yorğun hiss edə bilərlər və bu hal onların gündəlik həyat keyfiyyətinə mənfi təsir göstərə bilər. Davamlı aşağı enerji bədənin müqavimətinin azalmasına səbəb ola bilər. Bu dövrdə iştaha dəyişiklikləri də tez-tez müşahidə olunur. Bəzi qadınlar yemək istəyini itirərkən, bəziləri isə həddindən artıq yeməyə meylli ola bilər. Qidalanma pozuntuları həm ananın sağlamlığına, həm də körpənin inkişafına mənfi təsir göstərə bilər.

2. Hamiləlik dövründə hormonal dəyişikliklər emosional dalğalanmalara səbəb ola bilər. Təşviş və depressiya yaşayan ana namizədləri daim narahatlıq içində ola bilərlər. Gələcəyə dair qeyri-müəyyənliklər, körpəyə baxımla bağlı narahatlıqlar və doğuş prosesi ilə əlaqəli qorxular düşüncələri davamlı məşğul edə bilər. Davamlı gərginlik və əsəbilik, ətrafdakı insanlarla münasibətləri mənfi təsirləyə bilər. Ana namizədləri kiçik hadisələrə həddindən artıq reaksiya göstərə və ya narahatlıq hissi keçirə bilərlər.

3. Təşviş və depressiya insanın sosial davranışlarını da dəyişə bilər. Ana namizədləri sosial mühitlərdən uzaq durmağa və tək qalmağa üstünlük verə bilərlər. Ailə üzvləri və dostlarla daha az vaxt keçirmək depressiya əlamətlərinin daha da pisləşməsinə səbəb ola bilər. Bu dövrdə sosial dəstəyin olmaması, əhval-ruhiyyənin daha da pisləşməsinə yol aça bilər. İnsanlarla ünsiyyət qurmaq istəməmək, hamiləlik dövründə psixi sağlamlıq üçün əhəmiyyətli bir risk faktorudur [7].

İstənilən halda təşviş və depressiya insanlara bu və ya digər formada təsir edir. Eyni zamanda prenatal dövrdə təşviş və depressiyanın birlikdə müşahidə olunması istər anaya və istərsə də doğulacaq körpəyə müxtəlif şəkildə təsir edə bilər:

Anaya təsirləri:

1. Hamiləlikdən zövq almama
2. Sosial izolyasiya
3. Qidalanma pozuntuları
4. Doğuma dair irrasional qorxular

Körpəyə təsirləri:

1. Aşağı doğum çəkisi
2. Vaxtından əvvəl doğum
3. Körpənin emosional tənzimləmə çətinlikləri
4. Gələcəkdə davranış pozuntuları riski

Hamiləlik dövründə təşviş və depressiyanın qarşılıqlı təsiri ciddi klinik əhəmiyyət daşıyır. Bu pozuntuların birlikdə görülməsi daha ağır simptomatik tabloya səbəb olduğundan, erkən diaqnostika və psixoloji müdaxilə vacibdir. Psixoloji dəstək, sosial

mühitin gücləndirilməsi, mindfulness yanaşmaları və hamiləlik dövrünə uyğunlaşdırılmış psixoterapiya üsulları effektiv nəticələr verə bilər. Bu kimi problemlərin qarşısının alınması üçün vaxtında psixoprofilaktik tədbirlər və psixoloji maarifləndirilmənin həyata keçirilməsi önəmlidir. Bunun üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi ilə daha çox effektiv nəticə əldə etmək olar:

1. Hər hamilə qadına perinatal psixoloji qiymətləndirmə aparılmalıdır.
2. İctimai səhiyyə strukturları tərəfindən hamilə qadınların psixi sağlamlığını izləyən proqramlar yaradılması effektivliyi artıra bilər.
3. Ginekoloqlar və psixoloqlar arasında əməkdaşlıq artırılmalıdır.

## ƏDƏBİYYAT


1. Biaggi, A., et al. Identifying the women at risk of antenatal anxiety and depression: A systematic review. (2016).
2. Dennis, C. L., & Falah-Hassani, K. Prevalence of antenatal and postnatal anxiety: systematic review and meta-analysis (2017).
3. Field, T. Prenatal depression effects on early development: a review. (2011).
4. O'Hara, M. W., & Wisner, K. L. Perinatal mental illness: definition, description and aetiology (2014).
5. WHO – Maternal mental health. https://www.who.int
6. https://www.who.int/health-topics/maternal-health#tab=tab_1
7. https://alparslanbaksu.com.tr/en/gebelikte-anksiyete-ve-depresyon/


# PRENATAL DÖVRDƏ ORTAYA ÇIXAN TƏŞVİŞ VƏ DEPRESSİYA ARASINDAKI ƏLAQƏ

***Bağırzadə Bəyim***

## XÜLASƏ

Hamiləlik dövründə təşviş və depressiya, qadının fiziki və emosional sağlamlığını ciddi şəkildə təsir edə bilər. Bu psixoloji problemlər bir-biri ilə əlaqəli olaraq, həm anaya, həm də körpəyə mənfi təsirlər göstərə bilər. Hamiləlik dövründə hormonal dəyişikliklər, sosial dəstəyin azlığı və doğum qorxusu kimi risk faktorları bu pozuntuları daha da ağırlaşdıra bilər. Təşviş və depressiyanın birlikdə müşahidə edilməsi, ananın psixososial rifahını və körpənin inkişafını əngəlləyə bilər, bu da uzun müddətli sağlamlıq problemlərinə yol açar. Bu vəziyyətin qarşısını almaq üçün erkən diaqnostika və psixoloji müdaxilə vacibdir. Psixoterapiya, mindfulness yanaşmaları və sosial dəstək, hamilə qadınların psixi sağlamlığını qorumaq üçün effektiv üsullar arasında yer alır. Həmçinin, hamilə qadınların psixoloji vəziyyətini qiymətləndirmək və izləmək üçün psixoloji qiymətləndirmə və ginekoloq-psixoloq əməkdaşlığının artırılması tövsiyə edilir. Bu tədbirlər, hamiləlik dövründə psixoloji sağlamlığın qorunmasına kömək edə bilər.

## СВЯЗЬ МЕЖДУ ТРЕВОЖНОСТЬЮ И ДЕПРЕССИЕЙ, ВОЗНИКАЮЩИМИ В ПЕРИОД БЕРЕМЕННОСТИ

***Бейим Багырзаде***

### АННОТАЦИЯ

Тревога и депрессия в период беременности могут значительно повлиять на физическое и эмоциональное здоровье женщины. Эти психологические проблемы тесно взаимосвязаны и могут оказывать негативное влияние как на мать, так и на ребенка. Гормональные изменения, нехватка социальной поддержки и страх перед родами — это факторы риска, которые могут усугубить эти расстройства. Совместное проявление тревоги и депрессии в период беременности может нарушить психосоциальное благополучие матери и повлиять на развитие ребенка, что может привести к долгосрочным проблемам со здоровьем. Для предотвращения таких проблем необходимы ранняя диагностика и психологическое вмешательство. Психотерапия, методы майндфулнеса и социальная поддержка являются эффективными способами поддержания психического здоровья беременных женщин. Кроме того, рекомендуется проводить психологическую оценку состояния и улучшить сотрудничество между гинекологами и психологами для мониторинга психического здоровья беременных. Эти меры помогут сохранить психологическое благополучие в период беременности.

## THE RELATIONSHIP BETWEEN ANXIETY AND DEPRESSION DURING PREGNANCY

***Beyim Bagirzadeh***

### SUMMARY

Anxiety and depression during pregnancy can significantly affect a woman's physical and emotional health. These psychological issues are closely interconnected and can have negative impacts on both the mother and the baby. Hormonal changes, lack of social support, and fear of childbirth are risk factors that can exacerbate these conditions. The co-occurrence of anxiety and depression during pregnancy can hinder the mother’s psychosocial well-being and disrupt the baby’s development, leading to long-term health complications. To prevent these issues, early diagnosis and psychological intervention are essential. Psychotherapy, mindfulness approaches, and social support are effective methods for maintaining the mental health of pregnant women. Furthermore, psychological assessments and improved collaboration between gynecologists and psychologists are recommended to monitor and evaluate the mental health of pregnant women. These measures can help protect the psychological well-being during pregnancy.

# AQRESSİV DAVRANIŞIN FORMALAŞMASINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

***Əliyeva RübabəNamik qızı***
***OYU-nun II kurs magistrantı***
***liyeva1999@mail.ru***

***Açar sözlər:*** Bioloji amillər, sosial amillər, emosional reaksiya, aqressiv davranış, davranış modelləri, stress və gərginlik, psixoloji amillər
***Ключевые слова:*** Биологические факторы, социальные факторы, эмоциональная реакция, агрессивное поведение, поведенческие модели, стресс и напряжение, психологические факторы
***Keywords:*** Biological factors, social factors, emotional response, aggressive behavior, behavioral patterns, stress and tension, psychological factors

Zorakı təbiətin özünə və ya başqalarına fiziki, emosional və ya psixoloji cəhətdən zərər vermək məqsədi daşıyan geniş spektrli hərəkətləri əhatə edən sosial davranışın mürəkkəb və çoxşaxəli bir elementi olduğu başa düşülür. Genetik, koqnitiv və şəxslərarası dəyişənlərin kombinasiyasından təsirlənən bu münasibətlər gizli linqvistik antipatiya və qarşılıqlı rədddən deklarativ açıq təcavüzə qədər şiddət baxımından dəyişə bilər. Zorakı davranışı anlamaq vacibdir, çünki o, emosional qarşılıqlı əlaqələrə birbaşa təsir göstərir və əhalinin tibbi xidmətinə, təşkilati dinamikaya və vətəndaş təhlükəsizliyinə təsir kimi daha geniş institusional nəticələrə malikdir.

Bir çox araşdırmalar zorakılığın şəxsi xüsusiyyətlərlə yanaşı, zaman və bioloji amillərdən də təsirləndiyini vurğulamışdır. Məsələn, erkən həyat hadisələri, hücum qarşılıqlı əlaqəsi və ailə münasibətləri aqressiv davranışların yaranmasında əsas rol oynaya bilər. Buna uyğun olaraq, antaqonizmin özünü necə təzahür etməsinə təsir edən psixoloji elementlərə hormonal nəzarət, temperament xüsusiyyətləri və zehni ön mühakimələr daxildir. Bundan əlavə, hormon dəyişiklikləri, neyrokimyəvi disfunksiyalar və genetik tarixçələr kimi bioloji amillər aqressivlik hərəkətlərini tənzimləmək üçün ətraf mühit stimullarından istifadə edir.

Tədqiqatçılar zorakılığın mürəkkəb səbəblərini və təzahürlərini araşdıraraq uğurlu profilaktik, müalicə və nəzarət tədbirləri yaratmağa çalışırlar. Buna görə də, həm tək, həm də institusional ssenarilərdə sosial sülhü təşviq etmək, gərginliyi minimuma endirmək və arzuolunan psixoloji nəticələri inkişaf etdirmək aqressiv davranışa səbəb olan elementlərin hərtərəfli başa düşülməsini tələb edir.

Bu sahədə tədqiqatlar aparılmış, zorakılıq ideyası müxtəlif metodologiyalardan istifadə etməklə araşdırılmış və onun nevroloji elementləri araşdırılmışdır. Burada aqressivliyə motivasiya və ya hiss kimi deyil, vərdiş kimi baxılır. "Təcavüz" termininə gəldikdə isə, çoxsaylı alim və mütəxəssislərin bu məsələ ilə bağlı fikirlərini bölüşsələr də, heç kimin konkret tərif verə bilmədiyi aydındır.

E. Frommun dediyi kimi, digər fərdlərə, ev heyvanlarına və ya hətta cansız varlıqlara qarşı zorakılığa səbəb olan hər hansı bir hərəkət düşmənçilik hesab olunur.

R.S. Nemov aqressiyanı şəxslərarası qarşılıqlı əlaqədə inkişaf edən və ağrıya səbəb olmaq meyli ilə xarakterizə olunan düşmənçilik kimi təyin edir.

Zinçenkonun "psixoloji lüğət" tərcüməsi düşmənçiliyin nə olduğunu göstərir. Aqressiya sosial konvensiyaları və qaydaları pozan, fərdlərə fiziki və ya psixoloji cəhətdən xəsarət yetirən və ya həm canlı, həm də hərəkətsiz varlıqlara zərər verərək dağıntı yaradan qətiyyətli zərərli fəaliyyətdir.

V. Kleinə görə, oyanış insan inkişafı üçün vacib olan müsbət xüsusiyyətlərə malikdir. O, yaradıcılıq, əzmkarlıq və çətinliklərin öhdəsindən gəlmək qabiliyyəti kimi xüsusiyyətləri

arzuolunan xüsusiyyətlər kimi görürdü. Təcavüzün yaşamağımıza kömək edən müsbət cəhətləri ilə yanaşı, ziddiyyətli zərərli cəhətləri də var.

A. Rean və K. Bütner aqressiv ifadələrə həvəs və məyusluqdan irəli gələn bir xüsusiyyət kimi baxırdılar.

Dərc olunmuş əsərlərdə təcavüzün çoxsaylı anlayışları mövcuddur. Latın mənşəli "təcavüz" termini "tərzdə davam etmək" deməkdir və düşmənçiliklə sinonimdir. Müəyyən bir temperamentin və reaksiyanın tərifləri də bu tərifin əhatə dairəsinə daxildir. Bundan əlavə, "təcavüz" termininin latın etimologiyası var. "Agre dior" termini ona verilən adı verən latın terminidir. Bu, davam etmək, yaxınlaşmaq, bir araya gəlmək və hücuma başlamaq deməkdir.

E.From bildirirdi ki, iki növ aqressiya var: xoşxassəli və bədxassəli. Birinci növ emosiya oyunlarında daha çox yayılmışdır və "simulyasiya edilmiş antaqonizm" adlanır. Burada məqsəd başqa bir insana zərər verməkdənsə, öz qabiliyyətini və çevikliyini nümayiş etdirməkdir. Bir hədəfə çatmaq üçün özünü təsdiqləmək meyli yumşaq aqressivliyin başqa bir formasıdır. Xarakterin özünü nümayiş etdirməsi üçün belə düşmənçilik tələb olunur. Belə bir aqressivlikdən böyük bir qanunverici, cəsur bir akademik və ya iddialı bir şirkət rəhbəri öz məqsədlərinə çatmaq üçün istifadə edə bilər. Zərif aqressivliyə həmçinin həyatı məhv etmək əvəzinə, onu yaratmağı hədəfləyən düşmənçilik də daxildir.

Nifrət və qısqanclıqla əlaqəli düşmənçilik patoloji aqressivliyə nümunədir. Bu halda, bir şəxs yalnız öz istəyini yerinə yetirə bilmədiyi üçün deyil, həm də başqa bir şəxsdə bu istəyə sahib olduğu üçün şiddətlə reaksiya verir. Qisas almaq niyyəti ilə törədilən hücum başqa bir zorakılıq növüdür. Zərər artıq vurulduğu üçün bu zorakılıq müdafiə aqressivliyindən fərqli olaraq heç bir faydalı məqsədə xidmət etmir. Bu, artıq baş verənləri aradan qaldırmaq üçün açıq bir öhdəlik yaradır. Bundan əlavə, etibarın itirilməsi aqressivliklə əlaqələndirilir. Fromma görə, "düşmənçilik insanlığa olan inamı itirməyin nəticəsidir". Kimsə həyatın dəhşətli olduğunu, hər kəsin pis olduğunu və özünüz də qəddar olmalısınız olduğunu nümayiş etdirməyə çalışır.

Özlərində faydalı keyfiyyətlər tapa bilməyən insanlar, kompensasiyaedici düşmənçilik formaları nümayiş etdirməyə meyllidirlər. Bu insanlar həyatdan qisas alırlar, çünki onlar dolğun bir həyat sürmək şansından məhrumdurlar. Bunun arxasındakı məntiq "Əgər inşa edə və inkişaf etdirə bilməsəm, dağıdaram" deməkdir. "Bunu tamamlamalıyam" tənliyinə uyğundur. Bu cür davranış sadist zorakılığına bənzəyir.

Aqressiv davranışlardakı vacib elementlər:

Təcavüzkar davranış müxtəlif səbəblərdən qaynaqlanır və vahid bir fərziyyə ilə izah edilə bilməz. Təcavüzkar davranış aşağıdakı komponentlərlə əlaqələndirilir:

Keçmişdə fiziki davalar və dağıntı hallarında iştirak, narkotik və alkoqoldan sui-istifadə, zorakı hərəkətlər üçün detallı planların hazırlanması, birbaşa və dolayı hədələmə, insanları idarə etməyə meyllilik, həddindən artıq hörmət və heyranlıq tələbatı, aşağı özünəhörmət, uşaqlıq dövründə işgəncə və istismara məruz qalma, ailədə və ya cəmiyyət daxilində zorakılığa şahid olma, zorakılıqla bağlı əvvəlki təcrübələr, odlu silahların asan əlçatanlığı və gələcəkdə düşmənçilik göstərə biləcəyinə dair narahatlıq yaradan davranışlar birgə şəkildə aqressiv meyillərin formalaşmasına töhfə verən əsas risk faktorları kimi qiymətləndirilir.

R. Beron və D. Riçardson iddia edirlər ki, aqressiyaya səbəb olan əsas amillər şəxsiyyətlərarası, xarici, şəxsi və fizioloji amillərdir. Sosial dəyişənlər vacibdir, çünki aqressiya şəxsiyyətlərarası təcriddə inkişaf etmir. Təcavüz və qəzəblə bağlı çoxsahəli tədqiqatlar getdikcə populyarlaşır ki, bu tədqiqatlarda onun görünüşünün bir neçə aspekti - bioloji, mədəni və emosional aspektləri - hərtərəfli araşdırılır. V.A. Averin, L.İ. Bozhoviç, A.A. Rean, P.A. Kovalev və digərləri də daxil olmaqla rus psixoloqları da bu məsələni araşdırıblar.

Gəlin yeniyetmələrin aqressiyasına təsir edən elementləri araşdıraq.

Yeniyetmələrin zorakı davranışlarında böyüməsi mürəkkəb, çoxşaxəli bir fəaliyyətdir.

Yeniyetmələrin aqressiv davranışlarına sinif yoldaşları, ailə üzvləri, məktəblər və xəbər agentlikləri təsir göstərir.

A.Bassa görə, bir şəxsin zorakılığın artmasına təkan verən sosial və şəxslərarası qaydalardan xəbərdar olması, şəxsin zərər gördüyü halların sayı və dərəcəsi və güclü dağıdıcı davranışa səbəb olan zorakılıq vasitəsilə davamlı xoşbəxtlik hissi aqressiv davranışların gücünü müəyyən edən elementlərdir.

Hər aqressivlik məyusluqdan qaynaqlanmadığı üçün N. Kaufman və A. Bass zorakılıq və məyusluğu fərdi psixologiya çərçivəsində (sosial müzakirə hipotezi) dönməz şəkildə əlaqələndirildiyini düşünmürlər. Düşmənçilik hakimiyyət ifadəsi ola biləcəyi üçün narazılıqdan danışmaq olmaz. Bu halda, aqressivlik özünüifadə, iddialılıq, dominantlıq, təzyiq, qrup nəzarəti və şəxsi hakimiyyət fiqurunun inkişafının bir hissəsidir. Tez-tez qəbuledilməz davranış çalarlarına malik olan güc və təkəbbür inancı yeniyetmələr arasında tez-tez pərəstiş və təhrif olunmuş mühakimələrə səbəb olur. Həmyaşıdları tərəfindən heyran edilən, özünəinam hissi yüksək olan və başqaları üzərində dominantlığını göstərmək üçün dominant davranışdan istifadə edən təkəbbürlü bir yeniyetmə "qəhrəman" kimi qəbul edilir.

Zorakılıq stimulları ilə bağlı izahında L. Berkowitz əvvəllər nümayiş etdirmişdir ki, zorakılığa dərhal təhrik həyəcanı azaltsa da, ağrılı təhrik düşmənçiliyə səbəb olur. Nəticə göstərir ki, ətraf mühitə qarşı düşmənçiliyi həyata keçirmək üçün xüsusi olaraq hazırlanmış bütün silahlar əsas qüvvələrdir. Avtomobillər səs-küy salır, səs pozuntuları ilə insanları qıcıqlandırır və bu ətraf mühit siqnallarına reaksiya verərkən narazılığa və zehni aqressivliyə səbəb olur, həmçinin obyektiv qəzəbə səbəb ola bilər. Bu, əlavə olaraq, məsələn, istirahət meydançasının ərazisində tikinti işlərinin tamamlanmasını da əhatə edə bilər ki, bu da aqressiv yeniyetmənin ərazidə gəzmək şansını məhdudlaşdırır.

Şübhəsiz ki, Leonard Berkovitzin qeyd etdiyi aqressivlik strukturları və D. Dollard və N. Millerin irəli sürdüyü kəskinləşmə prosesləri aqressivliyə təsir edən amillər çərçivəsinə daxildir. Lakin N. Kaufman və A. Bassa əsasən, narazılıq avtomatik olaraq aqressivliyə səbəb olmazdı; əksinə, əks təsir göstərə və insanın şəxsi zorakılıq səviyyəsini azalda bilərdi. Fiziki, emosional və şəxslərarası aspektlər aqressiv hərəkətlər yaratmaq üçün birlikdə işləyir. Nevroloji proseslər və irsi xüsusiyyətlər insanı aqressivliyə daha çox həssas etsə də, erkən həyat müşahidələri, qohumlarla münasibətlər və emosiyaların idarə olunması qabiliyyətləri kimi hallar aqressiyanın özünü necə göstərdiyinə böyük təsir göstərir. Ümumiyyətlə, uğurlu profilaktik və müdaxilə metodlarının yaradılması bu qarşılıqlı əlaqəli amillərin fərqində olmağı tələb edir. Aqressiv davranışlar əhəmiyyətli dərəcədə azaldıla bilər və hərtərəfli strategiya ilə daha yaxşı, daha uyğunlaşa bilən sosial funksiyaya təşviq edilə bilər.

## ƏDƏBİYYAT


1. Anderson, C. A., & Bushman, B. J. (2002). Human aggression. *Annual Review of Psychology*, 53, 27–51.
2. Dodge, K. A., & Pettit, G. S. (2003). A biopsychosocial model of the development of chronic conduct problems in adolescence. *Developmental Psychology*, 39(2), 349–371.
3. Buss, A. H., & Perry, M. (1992). The Aggression Questionnaire. *Journal of Personality and Social Psychology*, 63(3), 452–459.
4. Bandura, A. (1973). *Aggression: A Social Learning Analysis*. Englewood Cliffs, NJ: Prentice-Hall.

## AQRESSİV DAVRANIŞIN FORMALAŞMASINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

***Əliyeva Rübabə***

### XÜLASƏ

Aqressiv davranış fərdlərin həyatında müxtəlif səbəblərlə meydana gəlir. Bu davranışın formalaşmasında bioloji, psixoloji və sosial amillər qarşılıqlı təsir göstərir. Sosial öyrənmə nəzəriyyəsi aqressiyanın müşahidə və təkrarlama yolu ilə öyrənilə biləcəyini göstərir. Erkən müəyyən etmə və düzgün müdaxilə aqressiyanın qarşısının alınmasında əhəmiyyətlidir.

## ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ФОРМИРОВАНИЕ АГРЕССИВНОГО ПОВЕДЕНИЯ

***Алиева Рубаба***

### АННОТАЦИЯ

Агрессивное поведение возникает в жизни человека по разным причинам. В его формировании участвуют биологические, психологические и социальные факторы. Теория социального научения предполагает, что агрессии можно научиться посредством наблюдения и повторения. Раннее выявление и адекватное вмешательство важны для предотвращения агрессии.

## FACTORS AFFECTING THE FORMATION OF AGGRESSIVE BEHAVIOR

***Aliyeva Rubaba***

### SUMMARY

Aggressive behavior arises in a person's life for various reasons. Biological, psychological, and social factors contribute to its development. Social learning theory suggests that aggression can be learned through observation and repetition. Early detection and appropriate intervention are important for preventing aggression.

# QİDA DAVRANIŞI POZUNTULARI OLAN ŞƏXSLƏRDƏ KORTİZOL SƏVİYYƏSİ VƏ ONUN STRESSLƏ ƏLAQƏSİ

***Orucova Ləman Mahir qızı,***
***BDU-nun II kurs magistrantı***
***lemanorucova03@gmail.com***
***Elmi rəhbər: Dos.Sevinc Allahyarova***

***Açar sözlər:*** Qida davranışı pozuntusu,stress,kortizol,hormonal disbalans, HPA oxu, psixoloji faktorlar
***Ключевые слова:*** расстройство пищевого поведения, стресс, кортизол, гормональный дисбаланс, ось ГГН (гипоталамо-гипофизарно-надпочечниковая ось), психологические факторы.
***Keywords:*** eating disorder, stress, cortisol, hormonal imbalance, HPA axis, psychological factors.

**Qida Davranışı Pozuntuları və Stres Hormonu Kortizol**

Qida davranışı pozuntuları—bulimiya, anoreksiya, yemək yedikdən sonra kompensator davranışlar və qeyri-sabit yemə ciddi psixosomatik nəticələrə gətirib çıxara bilər. Bu pozuntular, həm psixoloji, həm də hormonal balansda narahatlıqlara yol aça bilər. Stress hormonlarından biri olan kortizol, hipotalamus–hipofiz–adrenal (HPA) oxu vasitəsilə stresli vəziyyətlərdə artaraq, orqanizmin bioritm və metabolik sistemlərini təsir edə bilər. Əsas funksiyası "stress hormonu" kimi tanınan kortizolun rollarına daxildir: enerji balansını tənzimləmək, immunitet sistemini modulyasiya etmək və adaptasiya proseslərini dəstəkləmək [5].

Qida davranışı pozuntularında stress səviyyəsi və emosional dalğalanmalar yüksək olduğundan kortizolun uzunmüddətli (xronik) səviyyələrdə qalması mümkündür. Bu isə qida pozuntularının gedişatını mürəkkəbləşdirə bilər və bu hormonun cinsi funksiyalara təsirini artırır.

**Kortizol və Stressin Fizioloji Əsasları**

Kortizol böyrəküstü vəzilərin qabıq qatından ifraz olunan qlükokortikoid hormonudur. HPA oxunun aktivləşməsi nəticəsində qan dövranına buraxılan kortizol metabolizmin, immun cavabların və emosional vəziyyətin tənzimlənməsində əsas rol oynayır. Normal şəraitdə kortizol səviyyəsi sirkadiyal ritmə uyğun olaraq səhərlər yüksək, axşama doğru isə aşağı olur. Stress hallarında bu ritm pozula və kortizol səviyyəsi uzunmüddətli olaraq yüksələ bilər. Xroniki yüksək kortizol isə ürək-damar, immun və psixi sağlamlıq problemlərinə yol aça bilər.

**Qida Davranışı Pozuntularında Kortizol Səviyyəsi**

Sinirli anoreksiya zamanı aparılmış klinik tədqiqatlar göstərir ki, xəstələrdə kortizol səviyyəsi normal populyasiyaya nisbətən daha yüksək olur. Bu vəziyyət bədənin uzunmüddətli aclığa adaptasiya mexanizmi kimi izah edilir. Sinirli bulimiya isə kortizol səviyyəsi epizodik olaraq dəyişir və xüsusilə həddindən artıq yemə epizodlarından sonra yüksəliş müşahidə olunur.Həddindən artıq yemə pozuntusu olan şəxslərdə isə stressin təsiri ilə qida qəbulunun artdığı, və bu prosesin kortizol səviyyəsinin dəyişməsi ilə əlaqəli olduğu müəyyən edilmişdir.

**Stress, Kortizol və Qida Pozuntularının Qarşılıqlı Əlaqəsi**

Stressin qida davranışına təsiri çoxşaxəlidir. Kortizolun yüksəkliyi beyində dopamin və serotonin kimi neyrotransmitterlərin fəaliyyətinə təsir edərək iştahın artmasına və impulsiv davranışların güclənməsinə səbəb ola bilər. Bəzi şəxslərdə isə əksinə, stress nəticəsində iştah azalır və bu da anoreksiya tipli davranışların güclənməsinə gətirib çıxarır. Bununla

yanaşı, psixoloji faktorlar da mühüm rol oynayır. Özünü dəyərsiz hiss edən və ya mükəmməllik təzyiqi altında yaşayan şəxslərdə stressə cavab olaraq kortizol səviyyəsinin daha yüksək reaktivlik göstərdiyi qeyd olunur.

**2. Sinirli Anoreksiyada Kortizolun Statik və Reaktiv Xüsusiyyətləri**

- Adolesentlər arasında edilən sistematik təhlil göstərir ki,sinirli anoreksiyalı qızlarda kortizol səviyyəsi sağlam nəsil ilə müqayisədə daha yüksəkdir; bərpa mərhələsində isə kortizol səviyyəsi azalır [2].
- Uşaq və yeniyetmə anoreksiya xəstələrində həm qan, həm tüpürcək kortizol səviyyələri yüksəkdir, bərpa sonrası isə bu səviyyənin normallaşması müşahidə edilir.

Stress indoksiyası altında aparılan digər bir tədqiqatda, anoreksiyalı xəstələrin bazal kortizol səviyyəsinin yüksək olduğu, lakin stressə reaktivlik baxımından blunted (axsatılmış və gecikmiş) reaksiya göstərdiyi görülmüşdür; bərpa mərhələsində isə bu reaktivlikdə pozulma qalmaqda davam edir [4].

**3. Həddindən Artıq Yemə Pozuntusu(Binge-Eating Disorder) və Bulimiyada HPA Reaktivliyində Pozulmalar**

- Həddindən artıq yemə pozuntusu olan xəstələrə stress testi (TSST) tətbiq edildikdə, onların kortizol reaksiyasının "donuq" olduğu, yəni normal aktiv reaktivlik nümayiş etdirmədiyi müşahidə edilmişdir. Bu qrupda post-stress vəziyyətində "həddindən artıq yemə istəyi" və şirniyyata qarşı çəkiliş hissi artaraq, kortizol reaksiyası ilə müsbət korelyasiya göstərmişdir.[3]
- Həm anoreksiya, həm də bulimiya xəstələrini əhatə edən daha geniş tədqiqatlarda, bulimik simptomlu xəstələrdə stressə kortizol reaksiyasının azalmış olduğu müəyyən edilmişdir [1].

**4. Qida Alışqanlığının Beyin və Subyektiv Nəticələri: HPA Disfunksiyası və Yemək Motivasiya Siqnalları**

Anoreksiya zamanı HPA ox disfunksiyası (hiperkortizolizm) subyektiv aclıq və yemək motivasiyasının pozulmasına səbəb olur. Bu da beynin aparıcı motivasiya və mükafat sistemlərini əhatə edən sahələrində (hipotalamus, amiqdala, OFC, insula və sair) aktivliyin azalması ilə müşahidə edilmişdir [6].

Beləliklə, steroid hormonu olan kortizol yalnız metabolik deyil, həm də mərkəzi motivasiya sistemlərinə təsir edərək anoreksiya simptomlarının qorunmasına fəaliyyət göstərir.

**5.Qida Davranışı Pozuntularında Kortizol və Stress Arasındakı Fərqli Dinamikalar**

| **Pozuntu Növü** | **Bazal Kortizol** | **Stresə Reaksiya (HPA Reaktivlik)** | **Qeydlər** |
|---|---|---|---|
| Anoreksiya (AN) | Yüksək | Donuq və gecikmiş reaksiya | Bərpa sonrası normallaşır, lakin reaktivlik pozğunluqları qala bilər. |
| Yeniyetmələrdə AN | Yüksək, bərpa sonrası azalır | _ | HPA hiperaktivliyi adaptiv syanoz rolundadır. |
| BED / Bulimiya (BN) | Normala yaxın / bir qədər yüksək | Donma reaksiya; həddindən artıq yemə istəyi ilə bağlı | Kortizol reaksiya idarəsiz çox yemə istəyi ilə müsbət korelyasiya göstərir. |

Kortizolun bu fərqli təsir yolları, qida alışqanlığı pozuntularında hem fizioloji, hem də davranışsal modellərin fərqli strukturlarda olduğunu göstərir. Stress bir tərəfdən

anoreksiyada motivasiya sistemlərini inhibə edir, digər tərəfdən bulimiya/BED-də nəzarətsiz yemə davranışı üçün stimul rol oynayır.[4]

**6. Təkliflər və Klinik Yanaşmalar**

A. Diaqnostik Yanaşmalar

- Qida davranışı pozuntularında kortizolun həm bazal, həm də reaktiv qiymətləndirilməsi diaqnostik və terapevtik planlama üçün faydalıdır.
- TSST kimi stres testləri ilə reaktivlik ölçülməsi, xəstəliyin gedişi və risk profilini dəqiq müəyyən edə bilər.

B. Terapevtik Müdaxilələr

- Stressin idarəsi (psixoterapiya, HPA reaktivliyini modulyasiya edən metodlar) anoreksiya və bulimiya/BED fərqliliklərinə cavab verə biləcək yönlənmiş yanaşma tələb edir.
- Qidalanma bərpası (anoreksiya vəziyyətində) kortizol səviyyəsini normallaşdıra bilər və beyində motivasiya sistemlərinin funksiyasına müsbət təsir göstərə bilər.
- BED/Bulimiya hallarında stress və yemə arzusu arasında kortizolun rolu nəzərə alınaraq, stress-reaksiyanı azaltmağa yönəlik Koqnitiv Davranışçı Terapiya (CBT), diqqət yönəltmə strategiyaları və emosional regulyasiya metodları tətbiq oluna bilər [1].

## ƏDƏBİYYAT

1. Kaye, W. H. (2008). Neurobiology of anorexia and bulimia nervosa. Physiology & Behavior
2. Monteleone, A. M., Monteleone, P., & Maj, M. (2016). Dysfunctions of leptin, ghrelin, BDNF and endocannabinoids in eating disorders: Beyond the homeostatic control of food intake. Psychoneuroendocrinology
3. Gluck, M. E. (2006). Stress response and binge eating disorder.
4. PubMedjped.elsevier.es
5. Memorial Sağlık Grubu.
6. Наццентр биотехинформации.

## QİDA DAVRANIŞI POZUNTULARI OLAN ŞƏXSLƏRDƏ KORTİZOL SƏVİYYƏSİ VƏ ONUN STRESSLƏ ƏLAQƏSİ

***Sevinc Allahyarova, Ləman Orucova***

## XÜLASƏ

Qida davranışı pozuntuları (anoreksiya, bulimiya və həddindən artıq yemə pozuntusu) stress və kortizol səviyyəsi ilə sıx bağlıdır. Anoreksiyada bazal kortizol yüksək, stressə reaktivlik isə zəifdir, bulimiya və həddindən artıq yemə pozuntusunda isə kortizol reaksiyası zəifləyir və yemək istəyi ilə əlaqəlidir. Bu fərqliliklər qida motivasiyası və davranışlarını təsir edir. Klinik yanaşmada stresin idarəsi və qidalanmanın bərpası kortizol səviyyəsini normallaşdırmağa kömək edir. Nəticədə, kortizol və stressin izlənməsi qida davranışı pozuntularının diaqnostikası və müalicəsində əhəmiyyətlidir.

## УРОВЕНЬ КОРТИЗОЛА И ЕГО СВЯЗЬ СО СТРЕССОМ У ЛЮДЕЙ С РАССТРОЙСТВАМИ ПИЩЕВОГО ПОВЕДЕНИЯ

***Севиндж Аллахярова, Ляман Оруджова***

### АННОТАЦИЯ

Расстройства пищевого поведения (анорексия, булимия и переедание) тесно связаны со стрессом и уровнем кортизола. При анорексии базальный уровень кортизола повышен, но реакция на стресс снижена; при булимии и переедании реакция кортизола ослаблена и связана с желанием есть. Эти различия напрямую влияют на мотивацию к приему пищи и пищевое поведение. В клинической практике управление стрессом и восстановление питания помогают нормализовать уровень кортизола. Таким образом, мониторинг кортизола и стресса имеет важное значение для диагностики и лечения расстройств пищевого поведения.

## CORTİSOL LEVELS AND THEİR RELATİONSHİP WİTH STRESS İN INDİVİDUALS WİTH EATİNG DİSORDERS

***Sevinj Allahyarova, Ləman Orujova***

### SUMMARY

Eating disorders (anorexia, bulimia, and binge-eating) are closely associated with stress and cortisol levels. In anorexia, basal cortisol is elevated, but stress reactivity is reduced; in bulimia and binge-eating, cortisol responses are blunted and related to food craving. These differences directly affect food motivation and behavior. Clinically, stress management and nutritional rehabilitation help normalize cortisol levels. Therefore, monitoring cortisol and stress is essential for the diagnosis and treatment of eating disorders.

# SƏSSİZLİKLƏ ŞƏRTLƏNMİŞ UŞAQLIQ: SELEKTİV MUTİZMİN PSİXOLOJİ VƏ PEDAQOJİ ASPEKTLƏRİ

***Muradova Zəhra Rizvan qızı***
***BDU-nun II kurs magistrantı***
***zahramuradovva@gmail.com***

***Açar sözlər:*** selektiv mutizm, ibtidai məktəb yaş dövrü, nitq və dil inkişafı
***Ключевые слова:*** селективный мутизм, возраст начальной школы, речь и развитие языка
***Keywords:*** selective mutism, primary school age, speech and language development.

Uşaqlarda nitq və kommunikasiya bacarıqları onların sosial, emosional və akademik inkişafında həlledici rol oynayır. Bu bacarıqlar uşağın ətraf mühitlə qarşılıqlı əlaqə qurmasına, öz fikirlərini ifadə etməsinə və sosial mühitə uyğunlaşmasına xidmət edir. Lakin bəzi hallarda uşaqlarda müəyyən sosial şəraitlərdə danışmamaq kimi qeyri-adi davranışlar müşahidə olunur (Langbacka, 2016; Nergaard Nilsen, 2020). Bu vəziyyət 6–11 yaş arası kiçik məktəbli dövründə xüsusilə nəzərə çarpır və psixoloji bir pozuntu olan selektiv mutizm (SM) ilə izah olunur.

Selektiv mutizm termini ilk dəfə 1930-cu illərdə tibb sahəsində işlənməyə başlamışdır. Uşaqların danışmaqdan çəkinməsi və müəyyən situasiyalarda danışa bilməməsi halları ilk olaraq psixiatrik kontekstdə müşahidə edilmişdir. Selektiv mutizm nisbətən nadir görülən pozuntu hesab olunur. Selektiv mutizmin səbəbləri ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Bunlara aşağıdakıları nümunə göstərə bilərik:

- Qorxu və narahatlıq
- Genetik meyillilik
- Erkən uşaqlıq travması və ya travmatik sosial təcrübələr
- Valideynlərin həddən artıq qoruyucu olması
- İki və ya çox dilli mühitdə böyümə (bəzi hallarda) (Karaman, Ö. (2018). Selektif mutizm olgusu).

Statistik məlumatlara görə, uşaqların təxminən 0.7–2%-də bu pozuntu müşahidə edilir. Cinsiyyət olaraq selektiv mutizm qızlarda oğlanlara nisbətən 1,5-2,5 dəfə daha çox görülür. Ən çox 3–5 yaş arasında başlayır və 6–11 yaş arası məktəb dövründə müşahidəsi artır. Əgər müalicə edilməzsə, yeniyetməlik və nadir hallarda yetişkinliyə qədər davam edə bilər. Diaqnostika zamanı uşağın istifadə etdiyi dil və bu dildəki təcrübələri diqqətlə qiymətləndirilməlidir. Məsələn, miqrant uşaqlarda dil bilməmək səbəbiylə mutizm yaşana bilər. Eyni zamanda, inkişaf pozuntuları və psixotik xəstəliklər mutizmə səbəb ola bilər. Bunların xaricində uşağın bir aydan uzun sosial mühitdə və xüsusilə məktəbdə danışmaması ilə diaqnoza gedilir. Məktəbə yeni başlayanlarda ilk aydakı utancaqlıq və çəkingənlik kimi səbəblərlə danışmamaq müşahidə oluna bilər. Buna görə məktəb başlanandan sonrakı iki aylıq danışmama vəziyyəti qiymətləndirilməlidir (Frontiers in Psychology, 2021).

Selektiv mutizmin əlamətlərinə aşağıdakılar aiddir:

- Məktəbdə və ya ictimai yerlərdə danışmamaq;
- Yad insanlarla ünsiyyətdən qaçmaq;
- Göz kontaktından çəkinmək;
- Emosional gərginlik və susqunluq;
- Evdə danışa bilmə, lakin məktəbdə tam səssizlik;
- Qeyri-verbal ünsiyyət (başla işarə etmək, yazmaq və s.).

Məsələn, bir uşaq evdə valideynləri və yaxın qohumları ilə sərbəst danışdığı halda, sinif yoldaşları və müəllimləri ilə danışmaqda çətinlik çəkə bilər. Bu hal təkcə sosial münasibətləri deyil, eyni zamanda təhsil prosesində iştirakını və psixoloji rifahını da ciddi şəkildə poza bilər.

Müxtəlif araşdırmalar selektiv mutizmin əsasən anksiyete (narahatlıq) pozuntuları, xüsusilə də sosial fobiya ilə əlaqəli olduğunu ortaya qoyur. Bu pozuntuya malik uşaqlar bəzən özlərini daim müşahidə altında hiss edir, ictimai çıxışlardan çəkinir və nəticədə sosial fəaliyyətlərdən uzaq qalırlar. Bu isə həm sosial inteqrasiyanın zəifləməsinə, həm də məktəbdə psixoloji təcridə səbəb olur. Əlavə olaraq, selektiv mutizmli uşaqlarda emosional gərginlik, özgüvən çatışmazlığı və davranış pozuntuları da müşahidə oluna bilər.

Xüsusilə 6–11 yaş dövrü uşaqların məktəbə adaptasiya dövrü, dostluq münasibətlərinin formalaşdığı və akademik biliklərin təməlinin qoyulduğu mühüm mərhələdir. Bu səbəbdən selektiv mutizmin bu yaş dövründə meydana çıxması uşaq üçün həm akademik, həm də sosial baxımdan əhəmiyyətli çətinliklər yarada bilər. Problemin vaxtında tanınması və müvafiq müdaxilə tədbirlərinin görülməsi uşağın gələcək inkişafı baxımından olduqca vacibdir.

Selektiv mutizmin təsirlərini minimuma endirmək və uşağın sosial və emosional inkişafını dəstəkləmək üçün psixoloji və pedaqoji yanaşmaların birgə tətbiqi çox vacibdir. Bu yanaşma, müəllim, valideyn və digər mütəxəssislər arasında əməkdaşlıq prinsiplərinə əsaslanır, uşağın fərdi xüsusiyyətlərini nəzərə alaraq uyğun dəstək mühitinin yaradılmasına imkan verir. Müəllim və valideynlər arasında sıx əlaqə, uşağın məktəbdə və evdə qarşılaşdığı çətinliklərin izlənməsini və müvafiq müdaxilələrin vaxtında tətbiqini təmin edir. Psixoloq və ya digər mütəxəssislər isə uşağın narahatlıq səviyyəsini qiymətləndirir, fərdi müdaxilə strategiyalarını hazırlayır və ailəyə praktik tövsiyələr verir.

Bu əməkdaşlıq uşağa tədricən sosial mühitlərdə danışmaq və ünsiyyət qurmaq bacarıqlarını inkişaf etdirməyə imkan yaradır. Nəticədə, selektiv mutizmi olan uşaq həm sosial qarşılıqlı əlaqələrdə, həm də akademik fəaliyyətlərdə daha fəal iştirak edə bilir.

Selektiv mutizmin psixoloji bazası əsasən sosial anksiyete və emosional reaktivliklə əlaqələndirilir. Araşdırmalar göstərir ki, selektiv mutizmi olan uşaqlar sosial vəziyyətlərdə yüksək səviyyədə narahatlıq yaşayır, bu da danışma bacarıqlarını çətinləşdirir. Xüsusilə 6–11 yaş dövründə uşaq həm akademik, həm də sosial bacarıqlarını inkişaf etdirərkən, sosial anksiyete onların sinifdə iştirakını məhdudlaşdırır və nitq fəaliyyətini bloklayır. Bundan əlavə, temperament faktoru və nitq inkişafı problemləri də selektiv mutizmin yaranmasında mühüm rol oynayır. Məsələn, dil və nitq inkişafında gecikmə, utancaqlıq və ya yüksək səviyyədə perfeksionizm uşaqda danışmama hallarını gücləndirə bilər (Langbacka, 2016; Störungsbeschreibung, 2019). Komorbid pozuntular, məsələn sosial fobiya, depressiya və diqqət pozuntuları, selektiv mutizmin simptomlarının şiddətini artırır və müdaxilə ehtiyacını daha da vacib edir.

Pedaqoji baxımdan, selektiv mutizm xüsusilə məktəb mühitində özünü göstərir. Uşağın sinifdə danışmaması yalnız fərdi problem deyil; bu, həm də onun sosial münasibətlərinə, akademik fəaliyyətinə və özünəinamına təsir göstərən kompleks bir vəziyyətdir. Bu səbəbdən müəllimlərin uşağın davranışını necə dəyərləndirməsi və hansı şəkildə dəstək verməsi böyük əhəmiyyət daşıyır. Sinifdəki sosial mühitin quruluşu, həmyaşıdlarla qarşılıqlı münasibətlərin təşkili və uşağın təhlükəsiz, dəstəkləyici mühitdə olması onun nitq bacarıqlarının inkişafına birbaşa təsir edir. Uşağın danışmaqdan çəkinməsini cəzalandırmaq və ya tənqid etmək əvəzinə, onu müsbət təşviq və kiçik addımlarla irəliləməyə təşviq etmək lazımdır. Məsələn, uşağın sinifdə qısa ifadələr deməsi və ya sadə suallara cavab verməsi mükafatlandırılmalı, beləliklə, uşağın özünəinamı və ünsiyyətə cəsarəti artırılmalıdır. Valideynlərin və müəllimlərin maarifləndirilməsi də böyük rol oynayır. Valideynlər uşağın evdə danışmağa təşviq edici, səbirli və müsbət mühit yaratmalı, uşağı zorla danışdırmaq

əvəzinə təhlükəsiz və dəstəkləyici mühit təmin etməlidirlər. Müəllimlər isə sinifdə uşağın bacarıqlarına uyğun kiçik və mərhələli ünsiyyət tapşırıqları verərək, həm sosial, həm də akademik inkişafı dəstəkləməlidirlər (Störungsbeschreibung (2019). Störung der Sprachentwicklung: Selektiver Mutismus).

Selektiv mutizmin müalicəsində ən çox istifadə olunan yanaşmalar davranış dəyişiklikləri yaradan psixoloji üsullar və müxtəlif terapevtik metodlardır. Bu metodlar uşağın danışmama problemini tədricən həll etməyə və sosial vəziyyətlərdə özünü ifadə etmək bacarığını artırmağa yönəlib. Metodlar arasında ən geniş tətbiq olunanı koqnitiv-bihevioral terapiyadır (CBT). Bu terapiya uşağa öz qorxuları və narahatlıqları ilə başa çıxmağı, həmçinin danışmağa cəsarət etməyi öyrədir. Terapiya zamanı uşağın narahat olduğu vəziyyətlər tədricən təqdim olunur, kiçik addımlarla uşaq sosial mühitə uyğunlaşmağa başlayır. Beş il müddətində selektiv mutizmi olan uşaqlar üzərində aparılan bir araşdırmada, CBT alan uşaqların əksəriyyətinin evdən kənarda da danışmağa başladığı və anksiyete simptomlarının əhəmiyyətli dərəcədə azaldığı müşahidə edilmişdir. Bu nəticələr göstərir ki, CBT uşaqlarda yalnız danışma bacarığını artırmır, həm də onların özünəinamını və sosial adaptasiyasını gücləndirir.

Selektiv mutizmlə mübarizədə terapiya zamanı tətbiq edilən bəzi əsas metodlar bunlardır:

- Duyarsızlaşdırma (Desensitization)
- Məruz qalma (Exposure)
- Mükafatlandırma (Reinforcement)
- Şəkilləndirmə (Shaping)

Duyarsızlaşdırma – Həssaslığın azaldılması metodu:

Selektiv mutizmin müalicəsində istifadə olunan əsas psixoloji metodlardan biri duyarsızlaşdırma, yəni narahatlıq yaradan vəziyyətlərə qarşı həssaslığın tədricən azaldılmasıdır. Bu yanaşma uşağın qorxu və ya narahatlıq hiss etdiyi sosial situasiyalarla təhlükəsiz və nəzarətli şəkildə qarşılaşmasını təmin edir. Məqsəd – bu vəziyyətlərin artıq təhlükə kimi qəbul olunmaması və uşaqda emosional rahatlığın yaranmasıdır.

Əvvəlcə uşaq üçün narahatlıq doğuran şərait müəyyən edilir. Məsələn, müəllimin qarşısında danışmaq, sinif yoldaşının yanında bir söz demək və ya ictimai yerdə adını çəkmək. Bu vəziyyətlər uşağın emosional reaksiya verdiyi, yəni danışmaqda çətinlik yaşamasına səbəb olan faktorlardır. Terapiyada uşaq bu şəraitlə birbaşa deyil, tədricən və mərhələli şəkildə qarşı-qarşıya qoyulur. Əvvəlcə sadəcə həmin mühitdə olmaq, daha sonra isə az səslə danışmaq, cavab vermək və nəhayət sərbəst şəkildə danışmaq məqsədi güdülür. Uşaq ilk dəfə müəllimlə bir cümlə danışdıqda bunu böyütmədən, amma təqdir və müsbət münasibətlə qarşılayaraq, uşağa "Sən bunu bacardın" hissini yaşatmaq çox vacibdir.

Məruz Qalma metodu:

Məruz qalma metodu uşağın qorxduğu və narahatlıq keçirdiyi vəziyyətlərlə təhlükəsiz, nəzarətli və mərhələli şəkildə qarşılaşdırılmasıdır. Bu metodun əsas məqsədi uşağın qorxularını idarə etməyi öyrənməsi, həmin vəziyyətlərə öyrəşməsi və zamanla bu qorxuların gücünü itirməsidir. Bu zaman mütəxəssis, yəni psixoloq və ya psixoterapevt, uşağın danışmaqdan çəkinməsinə səbəb olan xüsusi sosial vəziyyətləri müəyyən edir. Bu, çox vaxt başqalarının yanında danışmaq, müəllimə cavab vermək, tanımadığı insanlarla ünsiyyət qurmaq kimi hallardır. Psixoloq həmin vəziyyətlərlə uşağın təhlükəsiz bir mühitdə və tədricən qarşılaşmasını təşkil edir. Məsələn, əgər uşaq sinif yoldaşının və ya müəllimin yanında danışmaqdan qorxursa, ilk mərhələdə o, sadəcə həmin şəxslə eyni məkanda sakitcə oturur. Növbəti mərhələdə isə sadə, tələbsiz tapşırıqlar verilir. Məsələn, sözlə yox, başla təsdiq etmək, kart göstərmək, pıçıltı ilə cavab vermək. Uşaq bu mərhələlərdən öz rahatlıq səviyyəsinə uyğun olaraq, tələsmədən və zorlamadan keçir.

Mükafatlandırma metodu:

Bu metod uşağın göstərdiyi istənilən, hətta kiçik pozitiv davranışların diqqətə alınması və dəstəklənməsi üzərində qurulur. Məqsəd – uşağın qorxduğu və ya çətinlik çəkdiyi vəziyyətlərdə göstərdiyi cəsarəti tanımaq, dəyərləndirmək və onu təkrar etməyə cəsarətləndirməkdir. Psixoloq və ya valideyn uşaqla birgə işləyərək ona özünü necə müsbət ruhda motivasiya etməyi öyrədir. Məsələn, əgər uşaq müəllimin verdiyi suala pıçıltı ilə də olsa cavab verə bilibsə, bu, bir uğurdur və müsbət reaksiya ilə qarşılanmalıdır. "Afərin, sən cəhd etdin!" kimi sadə ifadələr uşağın özünə olan güvənini artırır və davranışı gücləndirir. Bu metod həm də uşağın öz daxilində baş verən mənfi düşüncə tərzini dəyişməyə kömək edir. Uşaqlar çox vaxt "Danışsam səhv edərəm", "Məni dinləməzlər" kimi fikirlər içində boğulurlar. Terapiyada onlara bu cür fikirləri "Mən cəhd edə bilərəm", "Səssiz danışsam da, bu da irəliləyişdir" kimi daha konstruktiv və müsbət ifadələrlə əvəzləmək öyrədilir. Bu dəyişiklik təkcə davranış səviyyəsində deyil, həm də daxili emosional güclənmədə mühüm rol oynayır.

Mükafatlandırma maddi hədiyyə və ya konkret mükafat olmaq məcburiyyətində deyil. Əksinə, emosional diqqət, sevimli fəaliyyətə icazə vermək və ya valideynin birgə keçirdiyi xüsusi vaxt da uşaq üçün çox güclü motivasiya ola bilər. Əsas olan budur ki, uşaq doğru yöndə atdığı hər bir kiçik addımın dəyərli olduğunu hiss etsin.

Şəkilləndirmə metodu:

Bu metod uşağın hədəflənən – yəni arzu olunan davranışı mərhələli şəkildə öyrənməsi və gücləndirilməsi prinsipi üzərində qurulur. Əsas məqsəd odur ki, uşaq bir anda deyil, kiçik və idarəolunan addımlarla irəliləsin, hər addımı üçün dəstək alsın və nəticədə daha böyük, kompleks davranışları sərbəst şəkildə yerinə yetirə bilsin.

Şəkilləndirmədə hər bir irəliləyiş nə qədər kiçik olsa da, uğur kimi qiymətləndirilir. Məsələn, selektiv mutizmi olan bir uşaq əvvəllər tamamilə susqun idisə, ilk mərhələdə sadəcə göz kontaktı qurması, başı ilə təsdiq etməsi və ya pıçıltı ilə bir söz deməsi belə təqdir və mükafatla qarşılanır. Bu sadə görünən davranışlar, əslində, uşaq üçün ciddi irəliləyiş deməkdir. Valideynlər və müəllimlər şəkilləndirmə metodunda mühüm rol oynayır. Onlar uşağın hər mərhələdə göstərdiyi kiçik irəliləyişləri dəqiq şəkildə izləməli və uyğun vaxtda müsbət reaksiyalarla motivasiya etməlidirlər. Burada əsas qayda, mükəmməllik gözləmək deyil, irəliləyişə fokuslanmaqdır.

Dərman Müalicəsi:

Selektiv mutizmin müalicəsində ilk seçim adətən psixoloji və pedaqoji müdaxilə metodları olsa da, bəzən bu yanaşmaların təkbaşına kifayət etmədiyi hallar olur. Xüsusilə, əgər uşağın anksiyete səviyyəsi çox yüksəkdirsə, yəni sosial vəziyyətlərdə sadəcə narahatlıq deyil, ciddi panika, özünəqapanma və ya fiziki gərginlik kimi əlamətlər müşahidə olunursa, bu zaman psixiatriya müdaxiləsinə və dərman müalicəsinə də ehtiyac yarana bilər. Dərman müalicəsi heç vaxt təkbaşına bir çıxış yolu deyil. O, terapiya prosesinə dəstək vermək üçün istifadə olunur və psixoloq-psixiatriya əməkdaşlığı çərçivəsində aparılmalıdır (Nergaard Nilsen, N. (2020). Selective Mutism: Psychological and Educational Aspects in School-aged Children).

## ƏDƏBİYYAT


1. Nergaard Nilsen, N. (2020). Selective Mutism: Psychological and Educational Aspects in School-aged Children. NordOpen.
2. Störungsbeschreibung (2019). Störung der Sprachentwicklung: Selektiver Mutismus.
3. Langbacka, I. (2016). Selective mutism hos barn: en psykologisk och pedagogisk översikt. Doria.
4. Hayden T L. The classification of elective mutism. Journal of American Academy of Child Psychiatry, 191.
5. Karaman, Ö. (2018). Selektif mutizm olgusu. Klinik Tıp Aile Hekimliği Dergisi, 10(2).

# SƏSSİZLİKLƏ ŞƏRTLƏNMİŞ UŞAQLIQ: SELEKTİV MUTİZMİN PSİXOLOJİ VƏ PEDAQOJİ ASPEKTLƏRİ

*Muradova Zəhra*

## XÜLASƏ

Bu məqalə selektiv mutizmin uşaqların sosial, emosional və akademik inkişafına təsirini araşdırır. İşin məqsədi, uşaqların müəyyən sosial mühitlərdə danışmama davranışının səbəblərini və nəticələrini müəyyən etməkdir. Selektiv mutizm əsasən sosial anksiyete və emosional reaktivliklə əlaqələndirilir. Tez-tez sosial fobiya, depressiya və diqqət pozuntuları ilə müşayiət olunur. Uşağın temperament xüsusiyyətləri, ailə dəstəyi, nitq inkişafındakı gecikmələr, məktəb mühitindəki sosial qarşılıqlı münasibətlər pozuntunun yaranmasında mühüm rol oynayır. Valideyn, müəllim və mütəxəssislər arasında əməkdaşlıq uşağın nitq bacarıqlarını artırmaq və sosial uyğunlaşmasını gücləndirmək üçün vacibdir. Nəticə olaraq, erkən diaqnoz və sistemli, fərdi yanaşmalar selektiv mutizmin mənfi təsirlərini minimuma endirmək və uşağın inkişafını dəstəkləmək üçün əsas amildir.

# ДЕТСТВО, ОБУСЛОВЛЕННОЕ МОЛЧАНИЕМ: ПСИХОЛОГО-ПЕДАГОГИЧЕСКИЕ АСПЕКТЫ СЕЛЕКТИВНОГО МУТИЗМА

*Мурадова Захра*

## АННОТАЦИЯ

В данной статье рассматривается влияние селективного мутизма на социальное, эмоциональное и академическое развитие детей. Цель работы – определить причины и последствия нежелания детей консультироваться в определённых социальных средах. Селективный мутизм, прежде всего, связан с социальной тревожностью и эмоциональной реактивностью. Люди часто страдают от социальной фобии, депрессии и тревожных расстройств. Особенности темперамента ребёнка, поддержка семьи и задержки в развитии брака играют важную роль в формировании социальных взаимоотношений в школьной среде. Коллегиальность между родителями, учителями и специалистами важна для повышения моральных качеств детей и укрепления их социальной адаптации. Следовательно, ранняя диагностика и систематический индивидуальный подход являются основными факторами минимизации негативных последствий селективного мутизма и поддержки развития ребёнка.

# CHILDHOOD CONDITIONED BY SİLENCE: PSYCHOLOGİCAL AND PEDAGOGİCAL ASPECTS OF SELECTİVE MUTİSM

***Muradova Zahra***

## SUMMARY

This article examines the impact of selective mutism on children's social, emotional, and academic development. The aim of the study is to determine the causes and consequences of children's non-verbal behavior in certain social settings. Selective mutism is mainly associated with social anxiety and emotional reactivity. It is often accompanied by social phobia, depression, and attention deficit hyperactivity disorder. The child's temperament, family support, delays in speech development, and social interactions in the school environment play an important role in the development of the disorder. Collaboration between parents, teachers, and professionals is essential to improve the child's speech skills and strengthen social adaptation. Consequently, early diagnosis and systematic, individualized approaches are key factors in minimizing the negative effects of selective mutism and supporting the child's development.

# SOSİAL-PASİXOLOJİ PROBLEMLƏRİN TƏDBİQİ ASPEKTLƏRİ EMOSİONAL ZƏKA ŞƏXSİYYƏTİN SOSİAL- PSİXOLOJİ RESURSU KİMİ

***Qurbanova Nərminə***
***BDU-nun Sosial və pedaqoji psixologiya kafedrası***
**narminagurbanova@yahoo.co.uk**

***Açar sözlər***: emosional zəka, emosional intellekt şəxsiyyətin formalaşması, empatiya, dəstəkverici əlaqələr, təhsil mühiti, liderlik keyfiyyətləri
***Ключевые слова***:**эмоциональный интеллект, формирование личности, эмпатия, образовательная среда, взаимоподдержки, лидерские качества**
***Keywords:*** **emotional intelligence, personality formation, empathy, supportive relationships, educational environment, leadership qualities.**

Emosional Zəka (Emotional Intelligence) konsepsiyası psixologiya və sosial elmlərin müxtəlif sahələrində ən çox araşdırılan problemlərdən biridir. Müasir psixologiya Emosional Zəka-ı (Eİ) fərdin öz emosiyalarını dərk etmək, başqaların hisslərini anlamaq və bu məlumat əsasında davranışı tənzimləmək, qərar qəbul etmək və sosial münasibətlər qurmaq üçün istifadə edə biləcək bacarığı kompleks qabiliyyət kimi qiymətləndirir. Emosional intellekt anlayışı ilk dəfə Con Meyer və Piter Salovey tərəfindən ətraflı şəkildə təsvir edilmişdir (Salovey & Mayer 1990). Onlar EZ-ı emosiyaları tanımaq, təhlil etmək, interpretasiya etmək və idarə etmək aspektləri özündə birləşdirən koqnitiv-emosional qabiliyyət kimi müəyyən etmişlər hansı ki, fərdin uğurlu adaptasiyasına və inkişafına xidmət edir. Daha sonra Daniel Qoulman və Ruven Bar-On anlayışı genişləndirərək emosional və sosial kompetensiyaların birləşməsi kimi təqdim etmişlər; bu kompetensiyalar həyat keyfiyyətinə, şəxsiyyətarası münasibətlərə və peşəkar səmərəliliyə təsir göstərir (**Goleman, 1995;** Bar-On, 2006).

Tədqiqatçıların qeyd etdiyinə görə, emosiyalar sadəcə reaksiyalar deyil, şəxsiyyətin mühüm informasiya sistemidir. Emosional intellekt bu məlumatı yalnız tanımaq üçün yox, həm də düşüncəni, motivasiyanı və davranışı dəstəkləyən resursa çevirməyə imkan verir.

Emosional intellektin inkişafı- yetkin, sabit və inteqrasiya olunmuş şəxsiyyətin formalaşması üçün əsas şərtlərdən biridir. Emosional şüur insanın öz motivlərini, reaksiyalarını və ehtiyaclarını daha dərindən anlamağa imkan verir və onun özünüdərk sisteminin formalaşmasına şərait yaradır. Qoulmanın fikrincə, məhz bu amil psixoloji yetkinliyin və effektiv özünütənzimləmənin əsasını təşkil edir. Emosional sabitliyin, dayanığlığın inkişafına kömək edir: yüksək EZ-ya malik olan insanlar stressə daha davamlıdır, daha uyğunlaşa bilən davranış strategiyalarını seçir, düşüncə çevikliyi nümayiş etdirir və impulsiv reaksiyaları daha yaxşı idarə edirlər (**Goleman, 1995).** Meyerin araşdırmaları göstərir ki, yüksək EZ daha səmərəli qərarvermə ilə əlaqəlidir, çünki bu halda emosiyalar maneə yox, dəyərli informasiya mənbəyinə çevrilir (Salovey & Mayer 1990).

Bundan əlavə, emosional intellekt sosial identiklik və şəxsiyyətlərarası bacarıqların formalaşmasında mühüm rol oynayır. O, insanların davamlı münasibətlər qurmasına, ünsiyyətin emosional kontekstini anlamağa, empatiya göstərməyə və dağıdıcı davranış nümunələrindən qaçmağa kömək edir.

Meyer və Salovey qeyd edirlər ki, yüksək EZ mehribanlıq, yeni təcrübəyə açıq olmaq və inkişaf etmiş özünütənzimləmə ilə müsbət əlaqəlidir. Belə insanlar adətən sabit özünəqiymətləndireməyə, güclü daxili motivasiyaya və refleksiya qabiliyyətinə malik olurlar (Salovey & Mayer 1990).

Mark Braketin araşdırmaları EZ-nın emosional sabitlik, narahatlığın aşağı səviyyəsi və münaqişələri konstruktiv həll etmək bacarığı ilə əlaqəsini vurğulayır. Bu xüsusiyyətlər

insanın sosial vəziyyətlərdə daha effektiv fəaliyyət göstərməsinə, daxili tarazlığını qorumasına və əməkdaşlığa hazır olmasına şərait yaradır. Qoulman isə EZ-ı liderlik keyfiyyətlərinin- empatiya, sosial həssaslıq, məsuliyyət və idarəetmə çevikliyi -əsası kimi xarakterizə edir (Brackett, Rivers, & Salovey, 2011).

Beləliklə, emosional intellekt təcrid olunmuş bir xüsusiyyət deyil. O, şəxsiyyətin koqnitiv, motivasiya və sosial-davranış komponentləri ilə sıx bağlıdır və onun bütövlüyünü və adaptiv potensialını formalaşdırır.

Təhsil sahəsində emosional intellekt xüsusi əhəmiyyət kəsb edir. Brakett, Meyer və müasir pedaqoji məktəblərin araşdırmaları göstərir ki, EZ akademik uğurun mühüm proqnozlaşdırıcısıdır. Yüksək emosional intellektə malik tələbələr tədris tələblərinə daha asan uyğunlaşır, stress vəziyyətləri ilə daha yaxşı mübarizə aparır, qiymətləndirmə prosesini daha inamla keçir və yüksək tədris motivasiyası nümayiş etdirirlər (Brackett, Mayer & Salovey, 2006).

Emosional intellekt həmçinin təhsil mühitinin keyfiyyətini artırır: empatiyanı gücləndirir, dəstəkverici münasibətləri inkişaf etdirir və tədris prosesində konstruktiv qarşılıqlı əlaqəni təşviq edir. Yüksək EZ-ya malik olan müəllimlər daha sərbəst və motivasiyaedici mühit yaradır, tələbələr isə daha yaxşı sosial bacarıqlar və yüksək iştirakçılıq nümayiş edirirlər.

Meyer, Salovey, Qoulman, Brakett və digər alimlərin araşdırmaları sayəsində emosional intellekt bu gün şəxsi inkişafın və peşəkar səmərəliliyin əsas mexanizmlərindən biri kimi qiymətləndirilir.

## ƏDƏBİYYAT

1. Goleman, D. (2013). *Emosional zəka: Niyə IQ-dan daha vacib ola bilər*. Bakı: Təhsil Nəşriyyatı..
2. Бар-Он, Р. (2006). *Эмоциональный и социальный интеллект: Модель Bar-On и практическое применение*. Санкт-Петербург: Питер.
3. Гоулман, Д. (2024). *Эмоциональный интеллект: Почему он может быть важнее IQ*. Москва: АСТ
4. Goleman, D. (1995). *Emotional intelligence: Why it can matter more than IQ*. Bantam Books.
5. Salovey, P., & Mayer, J. D. (1990). Emotional intelligence. *Imagination, Cognition and Personality, 9*(3), 185–211.

# SOSİAL-PASİXOLOJİ PROBLEMLƏRİN TƏDBİQİ ASPEKTLƏRİ EMOSİONAL ZƏKA ŞƏXSİYYƏTİN SOSİAL- PSİXOLOJİ RESURSU KİMİ

***Qurbanova Nərminə***

## XÜLASƏ

Məqalə emosional zəkanın şəxsiyyətin sosial-psixoloji resursu kimi əhəmiyyətini araşdırır. Emosional zəka insanın öz emosiyalarını dərk etməsi, başqalarının hisslərini anlaması və bu məlumat əsasında davranışı tənzimləməsi bacarığı kimi müəyyən edilir. Məqalədə Con Meyer, Piter Salovey, Daniel Qoulman və Ruven Bar-On kimi görkəmli tədqiqatçıların konsepsiyaları təhlil edilir. Tədqiqat göstərir ki, yüksək emosional intellektə malik insanlar stressə daha davamlıdır, effektiv qərar qəbul edir və sabit sosial münasibətlər qurur. Emosional zəka şəxsiyyətin kognitiv, motivasiya və sosial-davranış komponentləri ilə sıx əlaqəlidir və onun bütövlüyünü formalaşdırır. Təhsil sahəsində emosional intellekt

akademik uğurun mühüm proqnozlaşdırıcısı və dəstəkverici təhsil mühitinin yaradılmasında əsas amil kimi qiymətləndirilir. Məqalə emosional intellektin liderlik keyfiyyətlərinin inkişafı, psixoloji yetkinlik və peşəkar səmərəlilik üçün əhəmiyyətini vurğulayır

## ПРИКЛАДНЫЕ АСПЕКТЫ СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИХ ПРОБЛЕМ ЭМОЦИОНАЛЬНЫЙ ИНТЕЛЛЕКТ КАК СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЙ РЕСУРС ЛИЧНОСТИ

***Гурбанова Нармина***

### АННОТАЦИЯ

В статье исследуется значение эмоционального интеллекта как социально-психологического ресурса личности. Эмоциональный интеллект определяется как способность осознавать собственные эмоции, понимать чувства других людей и регулировать поведение на основе этой информации. В статье анализируются концепции выдающихся исследователей, таких как Джон Мейер, Питер Сэловей, Дэниел Гоулман и Реувен Бар-Он. Исследования показывают, что люди с высоким эмоциональным интеллектом более устойчивы к стрессу, принимают эффективные решения и выстраивают стабильные социальные отношения. Эмоциональный интеллект тесно связан с когнитивными, мотивационными и социально-поведенческими компонентами личности и формирует её целостность. В сфере образования эмоциональный интеллект оценивается как важный предиктор академической успешности и основной фактор создания поддерживающей образовательной среды. Статья подчеркивает значение эмоционального интеллекта для развития лидерских качеств, психологической зрелости и профессиональной эффективности.

## APPLIED ASPECTS OF SOCIAL-PSYCHOLOGICAL PROBLEMS EMOTIONAL INTELLIGENCE AS A SOCIAL-PSYCHOLOGICAL RESOURCE OF PERSONALITY

***Gurbanova Narmina***

### SUMMARY

This article examines the significance of emotional intelligence as a social-psychological resource of personality. Emotional intelligence is defined as the ability to recognize one's own emotions, understand others' feelings, and regulate behavior based on this information. The article analyzes the concepts of prominent researchers such as John Mayer, Peter Salovey, Daniel Goleman, and Reuven Bar-On. Research demonstrates that individuals with high emotional intelligence are more resilient to stress, make effective decisions, and build stable social relationships. Emotional intelligence is closely connected with cognitive, motivational, and social-behavioral components of personality and shapes its integrity. In the educational sphere, emotional intelligence is evaluated as an important predictor of academic success and a fundamental factor in creating supportive learning environments. The article emphasizes the importance of emotional intelligence for the development of leadership qualities, psychological maturity, and professional effectiveness.

# DEVİANT DAVRANIŞ CƏMİYYƏTİN AKTUAL PROBLEMİ KİMİ

***Səfərəliyeva Xədicə Sakit***
***BDU-nun 2-ci kurs magistrantı***
***sfrva.xadica19@gmail.com***

***Açar sözlər:*** cəmiyyət, deviant davranış, norma, deviasiya, amillər, şəxsiyyət, yeniyetmə.
***Ключевые слова:*** общество, девиатное поведение, норма, факторы, девиация, личность, подросток.
***Keywords:*** society, deviant behavior, norm, deviation, factors, personality, teenager.

Deviant davranış cəmiyyətə çoxcəhətli təsir göstərir: sosial normaların pozulması, cinayətkarlığın artmasını, eləcə də birbaşa iqtisadi və mənəvi itkiləri özündə birləşdirir. Eyni zamanda, bəzi hallarda deviant davranış sosial dəyişikliklərin katalizatoru rolunu oynaya bilər cəmiyyətin bu cür davranışa reaksiyası nəticəsində sosial normaları möhkəmləndirir və bəzən müsbət sosial yeniliklərə gətirib çıxarır. Deviant davranış – kifayət qədər zərərli bir hadisədir, bəzi insanlar hesab edirlər ki, deviant davranış təşviq edilməli bir şeydir, müasir cəmiyyətin göstərdiyi konformizmə qarşı mühüm bir əks-tarazlıqdır. Digər tərəfdən, normadan kənar davranış mədəniyyətin sosial dəyişikliklərə uyğunlaşmasının yollarından biridir. Elə bir müasir cəmiyyət yoxdur ki, uzun müddət statik vəziyyətdə qalsın. Hətta dünya sivilizasiyasından tamamilə təcrid olunmuş icmalar da ətraf mühitin dəyişməsi səbəbindən zaman-zaman öz davranış modellərini dəyişməyə məcburdurlar. Lakin yeni mədəni normalar nadir hallarda müzakirə yolu ilə və bütün sosial qrup üzvləri tərəfindən qəbul etməsi ilə formalaşır [4, s. 5]. Yeni sosial normalar gündəlik fərdi davranışlar nəticəsində, daim yaranan sosial şəraitlərin toqquşması fonunda meydana çıxır və inkişaf edir. Köhnə, vərdiş olunmuş normalardan kənara çıxan azsaylı fərdlərin davranışı yeni normativ modellərin yaranmasının başlanğıcı ola bilər [3. s. 5]. Tədricən, ənənələri yox edərək, yeni həyat qabiliyyətləri normaları özündə ehtiva edən bu davranışı mənimsədikcə, o, artıq normadan kənar hesab edilmir. Deviasiyalar fərdi və qrup xarakterli ola bilər: fərdi deviasiyalar o hallarda müşahidə olunur ki, ayrı-ayrı şəxs öz mədəniyyətinin normalarını rədd edir; qrup deviasiyaları isə deviant qrup üzvünün həmin qrupun subkulturasına uyğun konform davranışı əsasən deviasiyanın qrup formalarına aid etmək olar, çünki cinayət törətmə çox vaxt kriminal subkultura daxilində kollektiv xarakter daşıyır. Deviant davranışın cəmiyyətə təsiri haqqında müəyyən tədqiqatçılar tərəfindən fikirlər söylənilmişdir [1, s. 3].

M. Veberin fikrincə, sosial-mədəni determinantlara postindustrial şəxsiyyət böhranı da daxildir; bu böhran insanın özünü müəyyənləşdirməsi və azadlıq problemi kimi təzahür edir. V.Franklın fikrincə, müxtəlif davranış normalarının mənbəyi, köhnə dəyərlər və ənənələrin dağılması nəticəsində yaranan mənasızlıq hissidir, həmçinin insanın özünəməxsus yolla həyat mənasına gəlməsinə imkan verən refleksiya mədəniyyətinin olmamasıdır. Digər istiqamətlərin tədqiqatçıları isə (K. Xorni, S.A.Zavrajin, K.V. Xartanoviç, A.V.Purbuev, R.S.Çerkasov, Q.Xant və Barker) isə deviant davranış formalarının yaranma səbəbini gündəlik həyatda çoxsaylı ziddiyyətli normaların mövcudluğunda görürlər. Deviant davranışın ümumi sosial səbəbləri mövcuddur, bunlara daxildir:

1. Sosial bərabərsizlik, anlayışının tərəfdarları isə L.E.Keselman, L.Q.Borisova, T.S.Solodova hesab olunurdu.
2. Deviant davranışın mənəvi-etik amili (V.İ.İvanov, A.M.Kravçenko, A.B.Purbuyev) cəmiyyətin mənəvi-əxlaqi səviyyəsinin aşağı olması ilə ifadə olunurdu.

3. A.Q.Zdravomıslov və Q.V.Littlın fikrincə, ətraf mühit deviant davranışa neytral münasibət bəsləyir. Cəmiyyət sosial patologiyanın müxtəlif formalarını əsaslandırır, onlarla mübarizə aparmağı, hətta onları qınamağı dayandırır. Bəzi tədqiqatçılar (B.N.Almazov, E.M.Korjeva, Q.F.Kunqurtseva) deviant davranışın artma səbəbləri sırasında cəmiyyətdə artan narazılığı, fərdlərin yeni ünsiyyət formaları axtarışını və mövcud ictimai münasibət formalarına qarşı etirazı qeyd edirlər [1, s. 2]. Cəmiyyətdə deviant davranış aktual bir movzu kimi hesab olunduğu üçün, bir çox tədqiqatçılar tərəfindən qeyd olunur ki, deviant davranışın formalaşmasında tərbiyənin rolu əsas təşkil edir. Yeniyetmə dövrü yaş dövrlərinin imkanları ilə əlaqəlidir və bu dövr sosial məkanın səthinə yeni aksioloji (dəyərlər sistemi ilə bağlı) istiqamətləri ortaya çıxarır. Disfunksional ailənin üzvü olan şəxsiyyətin deviant davranışa meyilli olması daha çox mümkündür [2, s. 3].

Şəxsin böyümə dövrü reallığın təhrif olunmuş qavrayışına düşmə təhlükəsi daşıyır, buna görə də deviant davranış cəmiyyət çərçivəsində yeniyetmələr üçün daha çox xarakterikdir. Yeniyetmələrin bu cür davranışı onlar üçün vacib məqsədlərə çatmaq, özünü təsdiqləmək və daxili gərginliyi aradan qaldırmaq vasitəsi kimi izah olunur [5, s. 2]. Digər tərəfdən isə deviant davranışın səbəbləri cəmiyyətin öz strukturunda mövcuddur, digər tərəfdən isə sosiallaşmanın əsasını fərdiyyətin rolu təşkil edir [7, s. 3]. Şəxs formalaşma mərhələlərindən keçdikdən sonra özünüdərk obyektiv fəaliyyət prosesində öz subyektivliyini ifadə edir. Eyni şəraitdə, və yaxud eyni mühitdə olan insanlar müxtəlif şəkildə davranış nümayiş etdirə bilərlər. Psixoloji amillərin pozulması ehtiyac və maraqların məhdudluğu; onların müxtəlif növləri arasında tarazlığın pozulması; «nə yaxşıdır, nə pisdir» anlayışının təhrif olunması; eləcə də öz ehtiyac və maraqlarını təmin etmək üçün anti-ictimai üsullardan istifadə imkanının qəbul edilməsi ilə ifadə olunur ki, bu da deviasiyanın inkişafına gətirib çıxarır. Bundan əlavə, deviant davranışın formalaşmasının psixososial determinantları da fərqləndirilir. A.R. Ratinov deviant davranışlı insanlarda dəyər-normativ təsəvvürlər sisteminin təhrif olunduğunu göstərir ki, bu da mövcud norma və qaydalara yanlış münasibətdə və ya onların səhv şərhində ifadə olunur, nəticədə həmin normaların pozulmasına gətirib çıxarır və özünühaqlandırmanın müdafiə mexanizmi kimi çıxış edir]. Ümumillilikdə, tədqiqatçılar qeyd edir ki, deviant davranışın inkişafının hərəkətverici mexanizmi şəxsin daxil olduğu sosial mühit və həmin şəxsin malik olduğu sosial-psixoloji xüsusiyyətlər kompleksidir (baxışlar, meyllər və s. sistemi). Şəxsin deviant davranış formalarına keçidi prosesinin mərkəzi insanın ehtiyacları, motivləri və arzularıdır. Fərd bu prosesləri hər hansı səbəblərdən cəmiyyət tərəfindən qəbul edilmiş mənəvi-əxlaqi normalara uyğun şəkildə ödəyə bilmir. Bu zaman hüquqa zidd əməl üçün motivin formalaşması baş verir. Motivdən sonra isə müəyyən bir hərəkətin (deviant hərəkətin) qabaqcadan nəzərdə tutulan və arzu olunan nəticəsi kimi məqsəd yaranır [8, s. 3]. Deviant davranış mənfi münasibət doğurur və hətta şəxsi sağlam sosial mühitdən kənarlaşdırmağa qədər aparır. Bu isə şəxsin ünsiyyətinin intensivləşməsinə səbəb olur, nəticədə sosial nəzarət imkanlarını zəiflədir və deviant davranışın daha da güclənməsinə və ona meyilliliyin artmasına şərait yaradır. Bu vəziyyət üçün insanın ailədəki münasibətləri ilə onun deviant qruplara cəlb olunma dərəcəsi arasında əks asılılığın formalaşması xarakterikdir. Bu proseslərin nəticəsində şəxs cinayətkar mühitə qoşulur, anti-ictimai və hüquqa zidd davranış stereotipi formalaşır. Deviant davranışın cəmiyyyətə təsiri sosial və bioloji amillərə əsaslanır. Bioloji amillərə daxildir: cins, yaş və sağlamlıq vəziyyəti və s. Sosial amillərə isə daxildir: 1) Makrososial ( fərdin yaşadığı mühit ilə əlaqəli olan); 2) Mikrososial (fərdin yaxın olduğu, daimi şəkildə ünsiyyətdə olduğu mühit). Deviant davranışın ən təhlükəli növü delinkvent davranışdır. Məhz cinayət xarakterli davranışın vəziyyətinə əsasən cəmiyyətin sosial sağlamlığı barədə mühakimə yürüdülür. Bu növ deviasiya üzrə statistika müasir vəziyyətin son dərəcə əlverişsiz olduğunu göstərir [6, s. 1].

Deviant davranışın geniş sosioloji izahı 2 mövqeni əhatə edir. Onların bir qismi konstruktiv sosial dəyişikliklərə şərait yaradır və mahiyyət etibarilə pozitivdir. Digərləri isə neqativ xarakter daşıyır, disfunksionaldır, çünki sosial sistemi dezorqanizasiya edir və onun mövcudluğuna təhdid yaradır. Beləliklə, fərdin neqativ və pozitiv deviasiyalarının əsas təzahürlərini nəzərdən keçirib, sapmaların mümkün nəticələrini təhlil etdikdən sonra aşağıdakı nəticələri çıxarmaq mümkündür:

• neqativ deviasiya neytral və pozitiv deviasiyadan fərqli olaraq daha tez formalaşır və özünü göstərir;

• istənilən deviasiya istənilən şəraitdə meydana çıxa bilər, lakin pozitiv və neqativ sapmaların formalaşmasına təsir edən mühit xüsusi əhəmiyyət kəsb edir;

• pozitiv deviasiyalar digər davranışlardan fərqli olaraq əsasən konstruktiv xarakter daşıyır və cəmiyyətə müsbət təsir göstərir, halbuki neqativ davranış həm fərd, həm də bütövlükdə cəmiyyət üçün təhlükəlidir [9, s. 4].

Deviant davranışın müasir cəmiyyətdə təsiri bir neçə aspektlərdə əks olunur: 1) Müasir dövrdə deviant davranış sosial institutların sabitliyini pozaraq cəmiyyətin funksional balansına birbaşa təsir göstərir. 2) Deviant davranışın artması sosial nəzarət mexanizmlərinin zəifləməsinə və normativ sistemin effektivliyinin azalmasına səbəb olur. 3) Gənclər arasında deviant davranış tendensiyaların güclənməsi sosiallaşma prosesində dəyərlərin deqradasiyasını sürətləndirir. 4) Neqativ deviasiya sosial mühitdə gərginliyin artmasına və cəmiyyətin sosial təhlükəsizliyinin zəifləməsinə gətirib çıxarır. 5) Pozitiv deviasiya isə innovativ davranış formalarının yaranmasına və sosial inkişafın dinamikasına töhfə verir. 6) Deviant qrupların formalaşması cəmiyyətdə marginalizasiya və sosial təcrid proseslərinin genişlənməsinə şərait yaradır. 7)Müasir informasiya mühiti deviant davranış nümunələrinin daha sürətlə yayılmasına və normaların transformasiyasına təsir edir.

Nəticədə, əhali aşağı səviyyə həyat tərzi nəticəsində müəyyən qayda pozuntuları törədirlər, təhsil müəssisəsi tərəfindən fərdi-profilaktik işlərıin aparılmaması, kifayət qədər diqqət göstərilməməsi, internet-asılılığın mövcudluğu, valideynin nəzarətinin zəifləməsi burada deviant davranışın formalaşmasına gətirib çıxara bilə. Cəmiyyətdə hüquq pozuntularının qarşısının alınması məqsədi ilə tədbirlər həyata keçirilir. Ümumillikdə qeyd etmək olar ki, müasir dövrdə deviant davranış cəmiyyətin sosial, iqtisadi və mədəni inkişafına mənfi təsir göstərən əsas probləmlərdən biri kimi çıxış edir.

## ƏDƏBİYYAT

1. Аутсайдеры: исследования по социологии девиатности/ Говард Беккер; пер. с англ. Н. Г. Фархатдинова; под ред. А. М. Корбута. -Москва: Элементарные формы, 2018. - 272 с.

2. Губская М. А. Проблема девиатного поведения в современном обществе. Текст по научной статьи по специальности “Социологические науки”. УДК 316.624.2. Донский государственный университет. г. Ростов-на-Дону, 2018.

3. Федулова А. В. Социокультурные составляющие девиатного поведения несовершеннолетних/ А.В.Федулова. - М., 2014.

4. Змановская, Е. В., Рыбников, В. Ю. Девиатное поведение личности и группы: Учеб. Пособие/ Е.В. Змановская, В.Ю. Рыбников. - Спб.: Питер, 2015. – 31 с.

5. Болдина Марина Александровна, Никонов Юрий Сергеевич..Девиатное поведение подростков как социальное проблема. Тамбовский государственный университет, имени Г. Р. Державина, Россия, г. Тамбов. УДК. 15, №1, 2016.

6. Р.И. Меркулов.Факторы, влияющие на девиатное поведение несовершеннолетних. Российская академия народного хозяйства и государственной службы ( Россия, г. Новосибирск.), 2021.

7. А.Г.Терещенко, Н.Г. Васильев. Особенности социальной обусловленности девиатного и делинкветного поведения. Пролог: журнал о праве/ Prologue: Law Journal.-2016.- №1. 01.07.2015.
8. В. Б. Салахова. Проблема девиантного поведения в современном обществе. Россия, г. Ульяновск, ул. Льва Толстого, г. 2016.
9. Назарова Г. И. Проблема девиантного поведения в современном Российском обществе. Россия, г. Уфа, УДК: 316.624, г. 2017.

## DEVİANT DAVRANIŞ CƏMİYYƏTİN AKTUAL PROBLEMİ KİMİ

***Xədicə Səfərəliyeva***

### XÜLASƏ

Məqalədə qeyd olunur ki, deviant davranışın formalaşmasında əsasən ailə mühiti, sosial və iqtisadi problemlər və mədəni dəyişikliklər mühüm rol oynayır. Ümumillikdə qeyd etmək olar ki, deviant davranışın geniş şəkildə yayılması cəmiyyətin mənəvi dəyərlərinə və sosial sabitliyinə mənfi təsir edir. Müəyyən tədqiqatçıların da fikirlərinə əsaslanaraq, belə bir nəticəyə gəlmək olar ki, cəmiyyətdə deviant davranışın formalaşması insanlara emosional, sosial-psixoloji təsir göstərir.

## ДЕВИАТНОЕ ПОВЕДЕНИЕ КАК АКТУАЛЬНАЯ ПРОБЛЕМА ОБЩЕСТВА

***Хадиджа Сафаралиева***

### АННОТАЦИЯ

В статье отмечается, что в формировании девиатного поведения важную роль играют, прежде всего, социально-экономические проблемы, культурные изменения и семейная среда. В целом можно отметить, что широкое распространение девиатного поведения оказывает отрицательные влияние на моральные ценности и социальную стабильность общества. Основываясь на мнения многих исследователей, можно сделать вывод, что формирование девиатного поведения в обществе оказывает эмоциональное и социально-психологические воздействие на людей.

## DEVİANT BEHAVİOR AS A CURRENT SOCİAL ISSUE

***Khadija Safaraliyeva***

### SUMMARY

The article notes that the formation of deviant behavior is mainly influenced by the family enviroment, social and cultural changes. Overall, it is emphasized that the widespread occurence the moral values and social stability of society. Based on the views of certain researchers, it can be concluded that the formation of deviant behavior in society has emotional and socio-psychological effects on individuals.

# ÖYRƏNMƏ STRATEGİYALARI VƏ EMOSİONAL ZƏKA ARASINDA QARŞILIQLI ƏLAQƏNİN BƏZİ PSİXOLOJİ MƏSƏLƏLƏRİ

***Nəsirova Aysu Elçin qızı***
***BDU-nun II kurs magistrantı***
***aysu.nesirova.02@mail.ru***

***Açar sözlər :*** öyrənmə strategiyaları, emosional zəka, psixoloji amillər, akademik nailiyyət, özünü tənzimləmə, sosial-emosioanal öyrənmə, motivasiya
***Ключевые слова:*** стратегии обучение, емоционалый интеллект, психологические факторы, академическая успеваемость, саморегуляция, социально-емоционалное обучение, мотивация
***Keywords:*** learning strategies, emotional intelligence, psychological factors, academic achievement, self-regulation, social-emotional learning, motivation.

Müasir akademik təhsil mühitində mühüm əhəmiyyət kəsb edən məqamlardan biri yalnızca texniki bilik və bacarıqların mənimsənilməsinə üz tutmaq deyil, həmçinin tələbələrin emosional və psixoloji inkişafına dəstək olmaq olmalıdır. Qloballaşan dünyanın informasiya bolluğu və rəqabətcil məkan olması şəxslərdən daha çox öz üzərində işləyərək, öz emosiyalarını tanımaq və idarə etməyi bacarmağı tələb edir. Məhz bu baxımdan, emosional zəka ilə öyrənmə strategiyaları paralel şəkildə işlənilməli və onların qarşılıqlı əlaqəsi aktuallıq kəsb edən mövzu olmalıdır.

Məqalənin aktuallığı ondan ibarətdir ki, beynəlxalq ədəbiyyatlar və o cümlədən ölkəmizdə aparılmış tədqiqatlar emosional zəka ilə öyrənmə strategiyaları arasında qarşılıqlı əlaqəni araşdırmış  və bu prizmadan psixoloji aspektlərin öyrənilməsinin təhsilin keyfiyyətinin artırılmasına və tələbələrin akademik nailiyyətlərinin yüksəldilməsinə, eləcə də şəxsiyyətin harmonik inkişafına yol açdığını tədqiq etmişdir.

Emosional zəka son onilliklərdə psixologiya və pedaqogika elmlərində ən aktual anlayışlardan biridir. İlk dəfə olaraq bu termin Salovey və Mayer tərəfindən elmi dövriyyəyə daxil edilmiş və insanın emosiyaları dərk etmə, onları qiymətləndirmə və idarə etmə bacarığı kimi izah olunmuşdur. Və bu nöqteyi-nəzərdən tədqiqatçılar emosional zəkanı intellektin bir forması kimi qəbul etmiş, bu məfhumun sosial münasibətlərin qurulmasında və insan davranışlarının tənzimlənməsində xüsusi əhəmiyyət daşıdığını qeyd etmişlər. Daniel Goleman bu anlayışı populyarlaşdıraraq  geniş ictimaiyyətə təqdim etmiş və EQ-nun liderlikdə, akademik müvəffəqiyyətdə, həmçinin peşəkar fəaliyyətdə mühüm rol oynadığını vurğulamış və beləcədə emosional zəkanın təkcə şəxsi münasibətlərdə əsas olmadığı fikrini daha da qabartmışdır. Müasir ədəbiyyatlarda emosional zəkanın müxtəlif nəzəri əsaslandırılmış modelləri mövcuddur. Salovey və Mayerin “bacarıq modeli” emosional zəkanı dörd əsas qabiliyyətlə - emosiyaları dərk etmək, emosiyalardan istifadə etmək, onları anlamaq və idarə etmək – izah edir. Bu yanaşmada emosional zəka koqnitiv proseslərə inteqrasiya edilən bir intellekt forması kimi qəbul olunur. R. Bar-On isə emosional-sosial modeli irəli sürərək emosional zəkanı şəxsin psixososial uyğunlaşma qabiliyyəti kimi dəyərləndirmişdir. Golemanın modeli isə daha praktik yönümlüdür və beş əsas sahəyə diqqət yetirir : özünüdərk, özünüidarəetmə, daxili motivasiya, empatiya və sosial bacarıqlar. Bu model xüsusilə idarəetmə, liderlik və əməkdaşlıq münasibətlərində geniş tətbiq edilir. Emosional zəkanın strukturunda ən çox vurğulanan komponentlərdən biri özünüdərkdir. Özünüdərk insanın öz emosiyaların dərk etməsi, eləcədə onların davranışına təsirini anlaması və öz güclü və zəif tərəflərini tanıması ilə bağlıdır. Çünki bu qabiliyyət olmasa emosiyaların  idarə olunması mümkün deyildir. Özünüidarəetmə isə emosiyaların nəzarətdə saxlanılması, stresin aradan qaldırılması və məqsədyönlü fəaliyyətin davam etdirilməsi bacarığını ifadə edir. Motivasiya da-

xili güc və məqsəd şüuru ilə bağlıdır; yüksək motivasiyaya malik fərdlər çətinliklər qarşısında davamlı davranır və öyrənmədə daha çox səy göstərirlər. Empatiya başqalarının emosiyalarını və baxış bucaqlarını anlamaq, sosial münasibətlərdə onların hisslərini nəzərə almaq qabiliyyətidir. Sosial bacarıqlar isə ünsiyyət, əməkdaşlıq, konfliktlərin həlli və liderlik kimi proseslərdə emosiyalardan səmərəli istifadə etməyi nəzərdə tutur.

Əldə olunmuş elmi nəticələr emosional zəkanın təhsil prosesində mühüm funksiyalar yerinə yetirdiyini təsdiqləyir. Yüksək EQ səviyyəsinə malik olan tələbələr öyrənmə proseslərində daha səmərəli planlaşdırılma edir, müəllim və qrup yoldaşları ilə konstruktiv münasibətlər qurur, stresslə daha asan mübarizə aparır və motivasiyalarını qoruyub saxlaya bilirlər. Məsələn, Goleman qeyd edir ki, emosional zəkanın yüksəkliyi insanın yalnız şəxsi rifahına deyil, həm də komanda işində effektivliyinə və kollektiv mühitdə uyğunlaşma bacarığına bilavasitə təsir göstərir. Bu da göstərir ki, emosional zəka təhsil mühitində həm fərdi, həm də sosial nəticələrin formalaşmasında həlledici amillərdəndir. Emosional zəka insanın emosional və sosial həyatını tənzimləyən vacib psixoloji konstrukt olmaqla yanaşı, öyrənmə prosesinin effektivliyinə də güclü təsir göstərir. Nəzəri modellərin müxtəlifliyi də məhz bu anlayışın çoxşaxəli olduğunu göstərir. Xüsusən də emosional zəkanın təhsil kontekstində tətbiq edilməsi öyrənmə motivasiyasının, stresslə mübarizə və akademik mühitə adaptasiya kimi məslələrdə üstün nəticələrə yol açacağına dəlalət edir.

Öyrənmə prosesi yalnız biliklərin ötürülməsi deyil, həm də fərdin bu bilikləri mənimsəməsi, yadda saxlaması və praktikada tətbiq etməsi ilə bağlıdır. Bu baxımdan öyrənmə strategiyaları tələbənin koqnitiv, metakoqnitiv və motivasiya fəaliyyətlərini əhatə edən kompleks bir anlayışdır. Psixoloji sahədə öyrənmə strategiyaları "öyrənən şəxsin öz bilik qazanma prosesini idarə etmək və optimallaşdırmaq üçün istifadə etdiyi üsul və texnikalar" kimi müəyyənləşdirilir. Yanaşmalar göstərir ki, öyrənmə strategiyaları sadecə yadda saxlama üsulları deyil, həm də idrak proseslərini tənzimləyən psixoloji mexanizmlərdir.

Müasir nəzəriyyələrdə öyrənmə strategiyaları bir neçə istiqamətdə təsnifatlaşdırılmışdır. Ən geniş yayılmış yanaşmalardan biri isə onları koqnitiv, metakoqnitiv və resursları idarə etmə strategiyalarına ayırmaqdır. Koqnitiv strategiyalar yeni məlumatı mənimsəmək üçün istifadə olunan üsulları əhatə edir: təkrar etmə, xülasə hazırlama, qrafik sxemlərdən istifadə, assosiasiyalar qurma və s. Metakoqnitiv strategiyalar isə öyrənənin öz öyrənmə prosesini izləməsi, qiymətləndirilməsi və lazım gəldikdə düzəlişlər etməsi ilə bağlıdır. Bu kateqoriyaya planlaşdırılma, özünümonitorinq və özünüqiymətləndirmə daxildir. Resursları idarə etmə strategiyaları isə vaxtın düzgün bölüşdürülməsi, diqqətin cəmlənməsi, motivasiyanın qorunması və sosial dəstək axtarışı kimi bacarıqlarla bağlıdır.

Psixoloji baxımdan öyrənmə strategiyalarının əhəmiyyəti onların tələbənin uğur səviyyəsi ilə birbaşa əlaqəli olmasıdır. Çoxsaylı empirik araşdırmalar göstərir ki, effektiv öyrənmə strategiyalarından istifadə edən tələbələrdə akademik nailiyyətlər daha yüksək olur. Məsələn, Pintrich və De Groot qeyd edir ki, metakognitiv strategiyalardan istifadə edən tələbələr öz öyrənmələrinə nəzarət edir, məqsədlərini daha aydın müəyyənləşdirir və nəticə etibarilə daha yaxşı göstəricilər əldə edirlər. Oxford isə dil öyrənməsində öyrənmə strategiyalarını əsas amillərdən biri hesab edərək onları koqnitiv və affektiv aspektlərə görə geniş təsnifləşdirmişdir.

Öyrənmə strategiyalarının motivasiya ilə əlaqəsi də xüsusi diqqətə layiqdir. Tədqiqatlar göstərir ki, yüksək motivasiyaya malik tələbələr daha çox metakoqnitiv strategiyalardan istifadə edir və bu da onların akademik uğurunu artırır. Buradan da aydın olur ki, öyrənmə strategiyaları yalnız idrak fəaliyyətini deyil, həm də emosional-motivasiya mexanizmlərini əhatə edir. Bu baxımdan öyrənmə prosesinin psixoloji əsasları daha geniş şəkildə emosional zəka ilə uzlaşır və tələbənin öz emosiyalarını, diqqətini və davranışını təznimləməsinə xidmət edir.

Təhsil mühitində öyrənmə strategiyalarının tətbiqi tələbənin idrakını təşkil edən əsas psixoloji alətlərdir. Təsnifatlar müxtəlif olsa da, bütün nəzəri yanaşmalar bu strategiyaların akademik uğurun mühüm prediktoru olduğunu təsdiq edir. Koqnitiv və metakoqnitiv strate-

giyaların emosional və motivasyon amillərlə qarşılıqlı əlaqəsi onların daha geniş psixoloji kontekstdə öyrənilməsini tələb edir.

Müasir təhsil psixologiyasında öyrənmə prosesinə yanaşma təkcə koqnitiv amillərlə məhdudlaşmır, həm də emosional və sosial bacarıqların nəzərə alınmasını tələb edir. Bu baxımdan, emosional zəka ilə öyrənmə strategiyaları arasında qarşılıqlı əlaqənin öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Çünki emosional zəkanın səviyyəsi tələbələrin öz öyrənmə proseslərinə münasibətini, öyrənmə üsullarının seçimini və tətbiqini bilavasitə müəyyən edir. Emosional zəka motivasiyanın sabit qalmasını təmin etməklə tələbənin seçdiyi strategiyalardan davamlı və məqsədyönlü istifadə etməsinə şərait yaradır. Yüksək emosional zəka tələbələrə öz emosiyalarını tanımaq, mənfi hisslərin təsirini azaltmaq, daxili motivasiyanı gücləndirmək və uzunmüddətli məqsədlərə fokuslanmaq imkanı verir. Bundan əlavə, emosional zəkanın empatiya və sosial bacarıqlar komponenti öyrənmə prosesində əməkdaşlığı gücləndirir. Qrup işlərində və müzakirələrdə emosional zəkanın yüksəkliyi tələbələrin sosial dəstəkdən yararlanmasına və yeni öyrənmə strategiyalarını mənimsəməsinə imkan yaradır. Bu baxımdan emosional zəka yalnız fərdi deyil, həm də kollektiv öyrənmənin keyfiyyətini artıran amildir. Emosional zəka və öyrənmə strategiyaları arasında qarşılıqlı əlaqə çoxşaxəlidir. Emosional zəka öyrənmə prosesini tənzimləyir, motivasiyanı gücləndirir və tələbənin stressə davamlılığını artırır, öyrənmə strategiyaları isə biliklərin daha sistemli mənimsənilməsinə və idrak fəaliyyətlərinin səmərəliliyinə xidmət edir. Bu iki amilin inteqrasiyası təhsil sistemində uğurlu nəticələrin əldə olunması üçün fundamental şərtlərdəndir.

Emosional zəka və öyrənmə strategiyalarının qarşılıqlı əlaqəsi yalnız pedaqoji deyil, həm də dərin psixoloji məsələlərlə bağlıdır. Təhsil mühitində tələbələrin davranış və nailiyyətlərini müəyyən edən əsas amillərdən biri onların emosional tənzimləmə qabiliyyətidir. Psixoloji tədqiqatlar göstərir ki, emosional zəkanın yüksək səviyyəsi stresslə mübarizədə, motivasiyanın qorunmasında və özünəinamın möhkəmlənməsində mühüm rol oynayır. Bu amillər öyrənmə prosesinə birbaşa təsir göstərərək seçilən strategiyaların səmərəliliyini artırır.

Emosional zəkanın inkişafı yalnız fərdi öyrənmə strategiyalarının tətbiqinə deyil, həm də tələbələrin psixoloji rifahına xidmət edir. Yüksək rifah səviyyəsi isə təbii olaraq öyrənməyə marağı və idrak fəaliyyətlərinin dayanıqlığını gücləndirir. Eyni zamanda, psixoloji məsələlər arasında motivasiya ilə emosional zəkanın qarşılıqlı təsiri xüsusi vurğulanmalıdır. Deci və Ryanın özünü-müəyyənetmə nəzəriyyəsinə əsasən, insanın daxili motivasiyası onun ehtiyac duyduğu muxtariyyət, kompetensiya və sosial əlaqələrin ödənilməsi ilə bağlıdır. Emosional zəka isə bu ehtiyacların balanslaşdırılmasına şərait yaradır, çünki fərd öz emosiyalarını və başqalarının hisslərini anlamaqla daha sağlam sosial əlaqlər qurur və nəticədə öyrənmə prosesində daxili motivasiya güclənir.

Psixoloji aspektlərdən biri də stressin idarə olunmasıdır. Akademik mühitdə tələbələrin qarşılaşdığı təzyiq və çətinliklər emosional tənzimləmə mexanizmləri ilə kompensasiya olunur. Pekrun və Perry qeyd edirlər ki, akademik emosiyalar öyrənmə fəaliyyətlərinə müsbət və ya mənfi təsir göstərə bilər. Onların araşdırmalarına görə, müsbət emosiyalar ( məsələn, maraq, ümid, qürur ) öyrənmə motivasiyasını artırır, mənfi emosiyalar isə ( narahatlıq, hirs, kədər ) öyrənməni əngəlləyə bilir.

Bununla yanaşı, özünü tənzimləmə bacarığı psixoloji məsələlərin mərkəzində dayanır. Zimmerman qeyd edir ki, özünü tənzimləyən öyrənənlər məqsədlərini müəyyən edir, strategiyalar seçir və nəticələrini qiymətləndirirlər. Emosional zəka isə bu prosesin emosional tərəfini tənzimləyir – məsələn, uğursuzluq zamanı özünü toparlamaq və öyrənməyə davam etmək.

Bu psixoloji məsələlərin təhlili göstərir ki, emosional zəka yalnız əlavə bir bacarıq deyil, öyrənmə prosesinin səmərəli təşkilində fundamental psixoloji əsasdır. Beləliklə, emosional zəka və öyrənmə strategiyalarının qarşılıqlı əlaqəsi tələbələrin həm akademik, həm də şəxsi inkişafı üçün zəruri şərt kimi çıxış edir. Emosional zəka və öyrənmə strategiyaları arasındakı qarşılıqlı əlaqənin öyrənilməsi yalnız nəzəri baxımdan deyil, həm də praktiki müstəvidə

böyük əhəmiyyət daşıyır.Təhsil prosesində bu iki amilin inteqrasiyası tələbələrin akademik nailiyyətini artırmaqla yanaşı, onların şəxsi inkişafına və sosial adaptasiyasına da müsbət təsir göstərir. İlk növbədə, emosional zəkanın inkişafı tələbələrin özünü tənzimləmə bacarıqlarını gücləndirir. Bu isə öyrənmə prosesində daha məqsədyönlü strategiyaların seçilməsinə və tətbiqinə imkan verir. Tədqiqatlar göstərir ki, emosional zəkanın inkişafına yönəlmiş proqramlarda iştirak edən tələbələr öyrənmə prosesində daha fəal olur, diqqəti daha yaxşı cəmləşdirir və stresə qarşı daha davamlı davranış nümayiş etdirirlər. İkinci mühüm nəticə müəllimlərin pedaqoji fəaliyyətinə aiddir. Müəllimlərin emosional zəka bacarıqları yüksək olduqca onlar tələbələrin emosional ehtiyaclarını daha yaxşı dərk edir, onlarla empatik ünsiyyət qurur və öyrənməni dəstəkləyən mühit yaradırlar. Bu baxımdan, emosional zəka yalnız tələbələrin deyil, həm də müəllimlərin peşəkar hazırlığının vacib komponenti kimi nəzərdən keçirilməlidir. Üçüncü praktik nəticə isə təhsil siyasəti ilə bağlıdır. Əgər emosional zəka və öyrənmə strategiyalarının qarşılıqlı əlaqəsi nəzərə alınarsa, təhsil proqramlarında yalnız koqnitiv biliklərə deyil, həm də sosial-emosional bacarıqların inkişafında xüsusi yer ayrılmalıdır. Bu, beynəlxalq təcrübədə də öz təsdiqini tapır. CASEL-in (Collaborative for Academic, Social, and Emotional Learning) araşdırmalarına görə , sosial və emosional öyrənmə proqramları tətbiq olunan məktəblərdə akademik göstəricilər 11 faizədək yüksəlmişdir.

Beləliklə, emosional zəkanın öyrənmə strategiyaları ilə inteqrasiyası təhsil prosesində həm fərdi, həm də institusional səviyyədə fayda gətirir. Fərdi səviyyədə tələbələrin akademik performansı, motivasiyası və psixoloji rifahı artır, institusional səviyyədə isə daha sağlam və dəstəkləyici təhsil mühiti formalaşır. Bu səbəbdən emosional zəka bacarıqlarının inkişafına yönəlmiş sistemli yanaşma müasir təhsil sistemində zəruri islahat istiqamətlərindən biri kimi qəbul edilməlidir.

## ƏDƏBİYYAT


1. Besharat, M. A., Azizi, K., & Pourbohlool, S. (2020). The relationship between emotional intelligence and learning strategies with academic achievement / Journal of Education and Health Promotion

2. Deci, E. L., & Ryan, R. M. (2000). Self-determination theory and the facilitation of intrinscic motivation, social development, and well-being.

3. Durlak, J. A ., Weissberg, R. P., Dymnicki, A.B., Taylor, R. D., & Schellinger, K. B. (2011). The impact of enhancing students' social and emotional learning: A meta-analysis of school-based universal interventions.

4. Jennings, P. A., & Greenberg, M. T. ( 2009) . The prosocial classroom: Teacher social and emotional competence in relation to student and classroom outcomes.

5. Nelis , D., Quoidbach, J., Mikolajczak, M., & Hansenne, M. ( 2009) Increasing emotional intelligence.

6. Pekrun , R., & Perry, R.P. ( 2014 ). Control-value theory of achievement emotions. International handbook of emotions in education.

7. Pintrich , P.R. ( 1999). The role of motivation in promoting and sustaining self-regulated learning.

8. Salovey, P.,& Mayer, J.D. ( 1990 ). Emotional intelligence.

9. Salovey, P., Mayer, J.D., Caruso, D.R., & Yoo, S.H. ( 2009) . The positive psychology of emotional intelligence.

10. Schutte, N. S., Malouff, J.M., Thorsteinsson, E. B., Bhullar, N., & Rooke, S. E. (2007). A meta-analytic investigation of the relationship between emotional intelligence and health.

## ÖYRƏNMƏ STRATEGİYALARI VƏ EMOSİONAL ZƏKA ARASINDA QARŞILIQLI ƏLAQƏNİN BƏZİ PSİXOLOJİ MƏSƏLƏLƏRİ

***Nəsirova Aysu***

### XÜLASƏ

Aparılmış nəzəri və empirik təhlillər göstərir ki, emosional zəka və öyrənmə strategiyaları arasında qarşılıqlı əlaqə təhsil prosesinin uğurla təşkilində mühüm rol oynayır. Emosional zəka tələbələrin emosional tənzimləmə, motivasiya, stressin idarə olunması və sosial münasibətlər qurmaq bacarıqlarını gücləndirərək öyrənmə strategiyalarının səmərəli tətbiqini dəstəkləyir. Digər tərəfdən, öyrənmə strategiyaları da emosional zəkadan qaynaqlanan daxili motivasoya və özünü tənzimləmə imkanlarını genişləndirir. Bu qarşılıqlı asılılıq göstərir ki, öyrənmə yalnız koqnitiv proses deyil, həm də emosional və sosial mexanizmlərlə zənginləşdirilmiş kompleks bir fəaliyyətdir. Məqalənin əsas nəticələrindən biri ondan ibarətdir ki, emosional zəkanın yüksək səviyyəsi tələbələrin akademik nailiyyətinə müsbət təsir göstərir.

Salovey və Mayerin emosional zəkanın fundamental tərəfindən başlayaraq müasir tədqiqatların nəticələrinə qədər aydın olur ki, emosiyaların tanınması, idarə edilməsi və istifadəsi öyrənmə prosesində mühüm psixoloji vasitədir. Digər mühüm məqam emosional zəkanın yalnız fərdi deyil, həm də sosial ölçülərinin öyrənmə strategiyalarına təsir göstərməsidir. Qrup işlərində, müzakirələrdə və əməkdaşlığa əsaslanan təhsil mühitlərində emosional zəkanın empatiya və sosial dəstək formalaşdırmaq imkanları öyrənmənin keyfiyyətini artırır. Bu, həm də tələbələrin psixoloji rifahını möhkəmləndirərək öyrənməyə qarşı müsbət münasibət yaradır.

Ümumilikdə, bu məqalə göstərir ki, emosional zəka və öyrənmə strategiyalarının qarşılıqlı əlaqəsi müasir təhsil sistemində nəzərə alınmalı olan əsas psixoloji və pedaqoji amillərdəndir. Onların inteqrasiyası yalnız akademik nailiyyətləri artırmaqla kifayətlənmir, həm də tələbələrin şəxsi inkişafına, sosial adaptasiyasına və psixoloji rifahına mühüm töhfə verir.

## НЕКОТОРЫЕ ПСИХОЛОГИЧЕСКИЕ ВОПРОСЫ ВЗАИМОСВЯЗИ СТРАТЕГИЙ ОБУЧЕНИЯ И ЭМОЦИОНАЛЬНОГО ИНТЕЛЛЕКТА

***Насирова Айсу***

### АННОТАЦИЯ

Проведенный теоретический и эмпирический анализ показывает, что взаимодействие эмоционального интеллекта и стратегий обучения играет важную роль в успешной организации образовательного процесса. Эмоциональный интеллект способствует эффективному применению стратегий обучения, укрепляя эмоциональную регуляцию, мотивацию, навыки управления стрессом и построения социальных отношений у учащихся. С другой стороны, стратегии обучения также расширяют возможности внутренней мотивации и саморегуляции, обусловленные эмоциональным интеллектом. Эта взаимозависимость показывает, что обучение – это не только когнитивный процесс, но и сложная деятельность, обогащенная эмоциональными и социальными механизмами. Один из основных выводов статьи заключается в том, что высокий уровень эмоционального интеллекта положительно влияет на академическую успеваемость учащихся. Исходя из основ эмоционального интеллекта, предложенных Саловеем и Майером, и результатов современных исследований, становится ясно, что распознавание, управление и использование эмоций являются важными психологическими инструментами в процессе

обучения. Другой важный момент заключается в том, что не только индивидуальные, но и социальные аспекты эмоционального интеллекта влияют на стратегии обучения. Способность эмоционального интеллекта формировать эмпатию и социальную поддержку в групповой работе, дискуссиях и совместной образовательной среде повышает качество обучения. Это также укрепляет психологическое благополучие учащихся и формирует позитивное отношение к учебе.

В целом, данная статья показывает, что взаимодействие эмоционального интеллекта и стратегий обучения является одним из основных психолого-педагогических факторов, которые необходимо учитывать в современной системе образования. Их интеграция не только повышает академическую успеваемость, но и вносит значительный вклад в личностное развитие, социальную адаптацию и психологическое благополучие учащихся.

## SOME PSYCHOLOGICAL ISSUES OF THE INTERRELATIONSHIP BETWEEN LEARNING STRATEGIES AND EMOTIONAL INTELLIGENCE

***Nasirova Aysu***


### SUMMARY

The conducted theoretical and empirical analyses show that the interaction between emotional intelligence and learning strategies plays an important role in the successful organization of the educational process. Emotional intelligence supports the effective application of learning strategies by strengthening students' emotional regulation, motivation, stress management and social relationship building skills. On the other hand, learning strategies also expand the intrinsic motivation and self-regulation capabilities stemming from emotional intelligence. This interdependence shows that learning is not only a cognitive process, but also a complex activity enriched with emotional and social mechanisms.

One of the main conclusions of the article is that a high level of emotional intelligence has a positive effect on students' academic achievement. Starting from the fundamentals of emotional intelligence by Salovey and Mayer to the results of modern research, it is clear that the recognition, management and use of emotions are important psychological tools in the learning process. Another important point is that not only individual, but also social dimensions of emotional intelligence affect learning strategies. The ability of emotional intelligence to form empathy and social support in group work, discussions and collaborative educational environments increases the quality of learning. It also strengthens students' psychological well-being and creates a positive attitude towards learning.

Overall, this article shows that the interaction between emotional intelligence and learning strategies is one of the main psychological and pedagogical factors that should be taken into account in the modern education system. Their integration not only increases academic achievement, but also makes a significant contribution to the personal development, social adaptation and psychological well-being of students.

# MÜƏLLİM NÜFUZU: ONUN PEDAQOJİ PROSESDƏ ROLU, QAZANILMASI VƏ QORUNMASI ŞƏRTLƏRİ

***prof. Məcid İsmixanov***
***BDU-nun Pedaqogika kafedrası***
***m.ismixanov@mail.ru***

***Açar sözlər***: müəllim nüfuzu, pedaqoji prosesdə onun rolu, nüfuzu qazanmaq və qorumaq şərtləri
***Ключевые слова***: авторитет учителя, его роль в педагогическом процессе, условия приобретения и оберегания авторитета
***Keywords***: teacher authority, its role in the pedagogical process, conditions for acquiring and maintaining authority

Təhsil və tərbiyə işinin səmərə və keyfiyyətinin yüksəldilməsində müəllim amili mühüm rol oynayır. Ölkəmizdə həyata keçirilən təhsil islahatı, hər şeydən əvvəl, məktəbdən və müəllimdən başlayır. Müasir dövrdə məktəbin yenidən qurulmasında, təhsil və tərbiyə işinin keyfiyyətinin artırılmasında müəllimin üzərinə böyük məsuliyyət düşür. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda bu məsələyə xüsusi diqqət yetirilmiş və mühüm vəzifə kimi qarşıya qoyulmuşdur: “Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması zəruridir” [1].

Pedaqoji nüfuz pedaqoji proseslə, onun nəticələri ilə sıx bağlı olan və böyük əhəmiyyət kəsb edən ən mühüm pedaqoji-etik kateqoriyadır. Məktəbdə müəllim və şagirdlər, habelə valideynlər arasında yüksək nüfuz qazanan müəllimin pedaqoji fəaliyyəti də səmərəli nəticə verir və əksinə.

Görkəmli Ukrayna pedaqoqu V.A.Suxomlinskinin sözləri ilə desək, tərbiyənin müdrikliyi ondadır ki, şagird, xüsusən yeniyetmə kimdənsə nümunə götürür, kiməsə inanır və onu özünə ideal seçir. Belə bir ideal isə müəllim olmalıdır; o, öz daxili zənginliyi ilə gənc ağlı özünə aludə etməyi və ruhlandırmağı bacarmalı, yüksək nüfuz qazanmalıdır. Müəllimin şagirdlər yanında hörmət və nüfuzu yoxdursa, uşaqlar ona inanmırlarsa, bu halda tərbiyə də yoxdur.

Tərbiyə işində müəllim nüfuzunun böyük təsir gücünü dünya şöhrətli pedaqoq K.D.Uşinski yüksək qiymətləndirərək demişdir: tərbiyəçinin şəxsiyyətinin cavan ruha olan təsiri elə bir tərbiyə qüvvəsidir ki, onu nə dərs kitabları ilə, nə əxlaqi nəsihətlərlə və nə də cəza, mükafat sistemi ilə əvəz etmək olar.

Pedaqoji-etik ədəbiyyatda pedaqoji nüfuzun mahiyyəti müəllimin kollektivdəki və uşaqlar yanındakı mənəvi statusu, hörməti kimi səciyyələndirilir. “Nüfuz” latın sözündən götürülmüş avtoritet (auctoritas) - hakimiyyət, təsir deməkdir. O şəxsiyyətin (kollektivin) hərəkət və fəaliyyətinin ictimaiyyət tərəfindən qəbul edilmiş təsir gücünü ifadə edir. Bəzi müəllim və tərbiyəçilər belə hesab edirlər ki, guya müəllimlik işi özlüyündə ona nüfuz gətirir. Bu fikir pedaqoji peşə nüfuzuna münasibətdə qəbul edilə bilər; lakin müəllimin fərdi nüfuzu isə peşə nüfuzundan daha çox onun şəxsi məziyyətləri ilə, mənəvi və iş keyfiyyətləri ilə bağlıdır.

Psixoloji baxımdan nüfuzun iki növü fərqləndirilir: həqiqi və saxta nüfuz. Həqiqi nüfuz – insanın başqa adamlara təsir gücündə ifadə olunur; bu təsir məcburiyyətə, insanın sosial vəziyyətinə, habelə vəzifə və səlahiyyətlərinə deyil, onun xidmətinə, əxlaqi məziyyətlərinə və qazandığı hörmətə əsaslanır. Saxta nüfuz isə subyektiv mülahizə və münasibətlərə, habelə müxtəlif yollarla insanların ələ alınmasına əsaslanan süni, yalançı nüfuzdur. O, insanın özü haqqında yalan rəy yaratması və saxta hörmət qazanması niyyəti güdür. Riyakarlıqla,

hiylə və yalanla, hay-küylə, özünü gözə saxlamaqla qazanılan saxta «nüfuz» uzun sürmür; çox keçmədən beləl期rinin əsl siması üzə çıxır və onlar "qazandıqları hörmət və nüfuzdan" məhrum olurlar.

Pedaqoji ədəbiyyata pedaqoji nüfuzun müxtəlif sahələri nəzərdən keçirilir: peşə nüfuzu, ünsiyyət-münasibət nüfuzu. Bəzən də ayrı-ayrı sahələr müxtəlif istiqamətlərdə təsnif olunur: müəllimin şəxsi mədəniyyəti, əxlaqi və estetik mədəniyyəti, bəşəri mədəniyyəti və s.

Müəllim nüfuzunun təsnifatına belə yanaşma onu çox müxtəlif və mürəkkəb fenomen kimi səciyyələndirir, nüfuz qazanmağın (və ya onu qorumağın) çoxamilli, çətin və rəngarəng prosesə kompleks yanaşmağın zəruriliyini göstərir. Pedaqoji mənbələrdə qeyd edilən nüfuz sahələri ayrılıqda yox, vəhdət halında müəllim nüfuzunun formalaşmasını şərtləndirən amillər kimi çıxış edir. Başqa sözlə, göstərilən nüfuz sahələri bir-birindən ayrılmazdır və biri digərini şərtləndirir və tamamlayır. Professor F.Rüstəmovun qeyd etdiyi kimi, müəllimlikdə şəxsi keyfiyyətlərlə peşə keyfiyyətləri vəhdət təşkil edir. Peşə keyfiyyətlərinə tədris etdiyi fənni bilmək, psixoloji hazırlıq, ümumi erudisiya, geniş mədəni səviyyə, pedaqoji ustalıq, pedaqoji takt, pedaqoji texnika, natiqlik məharəti və başqa keyfiyyətlər daxildir [9, s. 48].

Bəs həqiqi nüfuz necə əldə edilir? Onun hansı şərtləri vardır?

Nüfuz qalanmağın şərtləri çoxdur. Onların əsaslarını nəzərdən keçirək. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, nüfuz hazır verilmir, onu qazanmaq lazımdır. Bu isə birdənbirə başa gəlmir; müəllimin gündəlik, səbrlə öz zehni, mənəvi, peşə keyfiyyətlərinin formalaşması və inkişafı qeydinə qalmalıdır.

Pedaqoji nüfuzun başlıca şərti müəllimin şəxsiyyət kimi yüksək insani keyfiyyətlərə yiyələnməsi və şagird şəxsiyyətinə səmərəli təsir göstərməsidir. Uşaqların faydalı şəxsiyyətlər kimi yetişməsi üçün onların ağıllı, bacarıqlı, müdrik tərbiyəçiyə - Şəxsiyyətə ehtiyacı vardır. V.A.Suxomlinski müəllimlik peşəsini «insanşünaslıq» adlandıraraq göstərirdi ki, müəllim müntəzəm olaraq şagirdlərin mürəkkəb daxili aləminə nüfuz etməli, onda nə isə yeni şey tapmalı və bundan qürur duymalıdır. O, insanı inkişafda görməli və onun mənəvi yüksəlişinə kömək göstərməlidir.

Bu hal müəllim nüfuzunun formlaşmasında da özünü göstərir. Prof. Müseyib İlyasov müəllim nüfuzu və onun yaranması ilə bağlı məsələdən bəhs edərək göstərir ki, müəllim nüfuzu təkcə onun adı ilə yaranmır. Bu, şagirdlərlə fəal fəaliyyət, ünsiyyət və pedaqoji etikanın tələbləri gözlənməklə yaranır, inkişaf edir. Başqa sözlə, bunu müəllim özü, özünün fəaliyyəti ilə qazanır. Nüfuza malik olmayan müəllim bunun səbəbini başqa yerlərdə yox, məhz özündə axtarmalı və tapmalıdır. Bunun üçün şagirdlərin inamını, etibarını və ehtimadını qazanmaq lazımdır. Onları isə başqa heç nə ilə, yalnız özünün biliyi, bacarığı, mədəni dünyagörüşü, təmizliyi, ləyaqəti və vicdanı ilə qazanmaq mümkündür. Müəllimin şəxsi mədəniyyəti onun özünəməxsus keyfiyyət kimi nüfuzunu yüksəldir, onu hörmətli edir [5, s. 63].

Pedaqoji nüfuzun digər vacib şərti öz yetirmələrinin zehni, mənəvi inkişafı və hər birinin taleyi üçün müəllimin böyük mənəvi məsuliyyət hissi ilə çalışmasıdır. Müəllim ən qiymətli kapital olan insanla işləyir. Bu işdə isə səhvə yol vermək olmaz. Böyük yunan filosofu Platon bu münasibətlə demişdir ki, başmaqçı zay başmaq tikərsə, bundan ancaq bir adam zərər çəkər; müəllim öz işinin öhdəsindən pis gələrsə, cəmiyyətdə cahil və yaramaz adamlardan ibarət bütöv bir nəsil yetişəcəkdir. Bu sözlərdə böyük həqiqət vardır. Müəllim daim məsuliyyət hissi ilə yaşamalı və öz işinə də böyük məsuliyyətlə yanaşmalıdır.

Məsuliyyət hissi pedaqoji nüfuzun vacib bir keyfiyyəti və şərti ilə - insana hörmət və sevgi ilə sıx bağlıdır. Müəllim peşəsi insandan humanizm, həssaslıq, səmimilik tələb edir. Pedaqoji işdə hər şey insana - şagirdə (tələbəyə) xeyirxah münasibətdən, sevgidən başlayır. Pedaqogika tarixindən tanıdığımız bütün görkəmli pedaqoqlar (Y.Komenski, İ.Pestalotsi, K.Uşinski, L.Tolstoy, Y.Korçak, A.S.Makarenko, V.Suxomlinski, Y.Talıbov və b.) uşaqlara yüksək məhəbbət göstərməklə pedaqoji zirvələrə yüksələ bilmişlər. Həm də uşağa sevgi

kor-koranə yox, qəlb hərarəti və xeyirxah münasibətlə, müdrikcəsinə olmalıdır. İnsanı sevmədən onu dərk etmək, düzgün formalaşdırmaq və qəlbinə yol tapmaq mümkün deyildir. V.Suxomlinski bu münasibətlə demişdir ki, uşağı tanımadan, onun qəlbində gedən mürəkkəb prosesləri başa düşmədən verilən tərbiyə kordur və buna görə də mənasızdır. Pedaqogika klassikləri müəllimin uşaqlara sevgi və qayğısını bağban qayğısı ilə müqayisə etmişlər: yaxşı bağban kimi, yaxşı müəllimin də məhsulu keyfiyyətli və sağlam olmalıdır.

İnsana, şagirdə sevgi müasir dövrümüzdə də müəllim nüfuzunu yüksəldən vacib amil kimi diqqət mərkəzində durur. Müəllim-şagird münasibətlərinin elmi, pedaqoji, mənəvi və psixoloji əsaslarını aydın təsəvvür edən, uşaqları sevən, gözünün nurunu, qəlbinin atəşini yetirmələrinin gələcək həyatına sərf edən müəllimlər sağlıqlarında öz heykəllərini ucaldırlar [3, s. 503]. Belə müəllimlər bu yolla böyük nüfuz qazanırlar.

Müəllimlik işində insana sevgi fənnə və peşəyə sevgi ilə çulğalaşır. Müəllimin nüfuzu, ilk növbədə, onun biliyi, elmi hazırlığı və peşəkarlığı ilə şərtlənir. Müəllim təhsilli, ağıllı məlumatlı, öyrənməyə və axtarışa can yandıran əsl ziyalı olmalıdır. Pedaqogikanın banisi, görkəmli Çex pedaqoqu Y.A.Komenski, haqlı olaraq, biliksiz müəllimi işıqsız lampaya, susuz bulağa bənzədirdi. Şagirdlər müəllimə qiymət verərkən onun elmi hazırlığını, fənnini nə dərəcədə bilməsi və sevməsini ön plana çəkirlər.

Yaxşı müəllim fənnini tədris proqramında olduğundan qat-qat çox bilir; tədris fənni onun üçün ancaq elmin əlifbasıdır. Əsl müəllim bununla kifayətlənmir; öz elmi hazırlığı üzərində müntəzəm çalışır, elmi yenilikləri izləyir və onları sinif otağına gətirir. Dərin bilik, geniş dünyagörüşü, elmi problemlərə canlı maraq sayəsində müəllim şagirdlər qarşısında biliklərin, fənnin, elmin cazibə qüvvəsini açır, onlarda fənnə və elmi biliklərə maraq oyadır. Müəllimin pedaqoji nüfuzunun əsas sirri bundadır. V.A.Suxomlinski müəllimin dərin biliyə, geniş elmi görüşə, erudisiyaya malik olmasını və daim mütaliə etməsini pedaqoji mədəniyyətin əsası adlandıraraq göstərirdi ki, kitabsız, mütaliəsiz müəllim yoxdur; mütaliə - pedaqoqun fikir və yaradıcılıq mənbəyidir, həyatın özüdür. Müəllim tək bircə gün öz intellektual inkişafından qalarsa, o yetirmələri üçün bilik məşəli olmaqdan məhrum olacaqdır.

Pedaqoji nüfuza təsir edən başlıca amillərdən biri də müəllim-şagird münasibətləridir. Psixoloji ədəbiyyata (Ə.Bayramov, Ə.Əlizadə, H.Əlizadə və b.) müəllim-şagird münasibətlərinin yeni əsaslarda qurulmasının vacibliyi qeyd edilir. Məktəbin humanistləşdirilməsi təlim-tərbiyə prosesində yeni tipli müəllim-şagird münasibətlərinin bərqərar olmasını nəzərdə tutur: “Şagirdin insan ləyaqətinə hörmət etmək, ona etibar və inamla yanaşmaq, bir şəxsiyyət kimi onun məqsədləri, tələbatları və mənafeyi ilə hesablaşmaq – məhz bu keyfiyyətlər məliimlərin şagirdlərlə münasibətlərinə nurlu insani çalarlar bəxş edir” [4, s. 366]. Bu həm də şagird nəzərində müəllim nüfuzunun daha da yüksəlməsinə gətirib çıxarır.

Müəllimlik humanist peşədir. Tərbiyənin məqsədi – insanlıq, vasitəsi isə - insana qayğı, hörmət və sevgidir. Humanizm xeyirxahlıqla, ədalətliliklə, hörmət və tələbkarlıqla vəhdət təşkil edir: “Ədalət pedaqoji mədəniyyətin əsasıdır. Buna görə də ədalət ruhu məktəbdə, ailədə, müəllim-şagird münasibətlərində hakim olmalıdır: “Ədalətli müəllim uşaq və gənclərlə münasibətdə həmişə yüksək hörmət və nüfuz qazanır” [6, s.126].

Bu münasibətlər qarşılıqlı inam, etimad və səmimiyyətə əsaslandıqda müəllimin uşaq yanında nüfuzu bir o qədər yüksək olur. İnsana etibar etmək və inanmaq tərbiyədə böyük təsir gücünə malikdir: bundan o, özündə mənəvi qüvvə tapır, çətinlikləri dəf edir. Yaxşı müəllim-tərbiyəçi şagirdə, onun mənəvi və fiziki imkanlarına, xeyirxah başlanğıcına inanmalı, onu öz şübhələri və inamsızlığı ilə təlim-tərbiyə işindən soyutmamalıdır. Müdrik pedaqoqlar uşağa inanmadan onu tərbiyə etməyin mümkün olmadığını qeyd etmişlər: belə inam və etibar olmadan bütün pedaqoji müdriklik, bütün metod və priyomlar kağız evcik kimi dağılıb məhv olacaqdır.

Müəllim-şagird münasibətlərində hörmət yə tələbkarlığın vəhddti mühüm əhəmiyyət kəsb edir. Şəxsiyyətə hörmət - özünəhörmətin ilkin şərtini təşkil edir. Özünə hörmət alma-

dan əxlaqi saflıq və şəxsiyyətin mənəvi zənginliyi də yoxdur. Pedaqoji prosesdə qarşılıqlı münasibətlər həm insanın özü üçün, həm də başqaları üçün sevinc yaratmaq arzusu və səyinin yaranmasına yönəlməli və bundan doğan şəxsi ləyaqət və iftixar hisslərinin formalaşmasına gətirib çıxarmalıdır. Humanizm, xeyirxahlıq, başqa adamlar və kollektiv üçün fədakarlıq mənəvi tələbata çevrildikdə şəxsiyyətin ən qiymətli sərvəti olur, insana böyük hörmət və nüfuz gətirir.

Tələbkarlıq təkcə başqa adamlara (şagirdlərə) yox, həm də insanın özünə münasibətlə bağlı olmalıdır. Özünə tələbkarlıq məsuliyyət hissi ilə, daxili mütəşəkkillik və intızamla bağlıdır. Hər kəs əvvəlcə özündən tələb etməli, özündən başlamalıdır. Prof. Z.Göyüşovun yazdığı kimi, tələbkar adamın özü səmimi və mənəvi cəhətdən saf olmalıdır. Özü natəmiz, riyakar, xəbis, həyatda yüz dona girən adamın tələbkarlığı nəinki heç bir mənəvi təsir qüvvəsinə və nüfuza malik olmur, həm də insanda hiddət doğurur: özünə tələbkar olmayıb başqalarına yüksək tələbkarlıq göstərənlərin niyyəti lazımi nəticə verə bilməz. Sərtliklə, qışqırıq və hay-küylə, adamları qorxutmaq və hədələmək yolu ilə nüfuz qazanmaq mümkün deyil.

Biz yuxarıda pedaqoji nüfuzun ən mühüm şərtlərini nəzərdən keçirdik. Onların hər hansı biri gözlənilmədikdə müəllimin (və ya məktəb rəhbərinin) nüfuzu zəifləyə və ya itə bilər. Buna görə də qazanılan nüfuzun möhkəmləndirilməsi vacibdir. Bunun üçün, ilk növbədə, nüfuza xələl gətirən səbəbləri öyrənmək və onları aradan qaldırmaq lazımdır. Onlardan başlıcaları aşağıdakılardan ibarətdir:

- pedaqoji kollektivdə lazımi səviyyədə mənəvi-psixoloji iqlimin olmaması, ictimai rəyin və qınağın zəifliyi, habelə müəllimin nüfuzu haqqında kollektiv qayğının olmaması;
- bəzi məktəb rəhbərləri tərəfindən müəllimlərin fəaliyyətinin düzgün qiymətləndirilməməsi, müəllimlər arasında ayrıseçkilik qoyulması; müəllimlərə qarşı sərt tələbkarlığın göstərilməsi; onların hörmət və nüfuzunun aşağı olması;
- bir qisim müəllim və tərbiyəçilərin mənəvi mədəniyyətinin aşağı səviyyədə olması, onların mənəvi-etik və elmi-metodik hazırlığının zəifliyi;
- müəllimlərin müəyyən hissəsində əxlaqi borc, nüfuz və şəxsi ləyaqətə dair təsəvvürlərin məhdudluğu; pedaqoji fəaliyyətə və uşaqlara baxışlarda mühafizəkarlığın, təfəkkür stereotiplərinin mövcudluğu, yeni pedaqoji təfəkkürün formalaşmaması;
- bəzi müəllimlərin pedaqoji taktı pozmaları; uşaq şəxsiyyətinə hörmətlə yanaşmamaları, onlara qarşı kobud, təhqiredici münasibət göstərmələri; şagirdlərin maraq və ehtiyaclarına qayğısız münasibətləri; yeniyetmə və gənc qız və oğlanların dostluğuna hörmətsizlik; uşaq kollektivinin rəyinə laqeydlik göstərmələri; qiymətləndirmədə obyektivliyin gözlənilməməsi; müəllimlərin öz səhvlərim etiraf etməmələri və s.

Müasir həyat müəllimə, onun şəxsiyyətinə, mənəviyyatına və peşə keyfiyyətlərinə yüksək tələblər verir. Müəllim və tərbiyəçilər bu tələblərə cavab vermək üçün daim öz şəxsi və peşə keyfiyyətlərini inkişaf etdirməli, şagirdlərin görmək istədikləri ideal müəllim obrazına çatmağa çalışmalıdırlar. Pedaqoji kollektivlər isə bütövlükdə kollektivin və ayrı-ayrı müəllimlərin nüfuzunu yüksəltmək istiqamətində mübarizə aparmalıdır. Bu mübarizə nə qədər prinsipial və kollektiv, nə qədər sağlam olarsa, oradakı mənəvi-psixoloji mühit nə qədər əlverişli olarsa, hər bir müəllimin nüfuzu da bir o qədər yüksək olar. Unutmaq olmaz ki, nüfuzu qazanmaq çətin, onu itirmək isə asandır: yersiz bir hərəkət, ehtiyatsız bir söz, ədalətsiz münasibət müəllimi nüfuzdan sala bilər. Buna görə də hər bir müəllim sözlərinə və hərəkətlərinə diqqət və məsuliyyətlə yanaşmalı, öz nüfuzunun keşiyində durmalıdır.

Əsl müəllim elmi səriştəsi, mənəvi saflığı, yüksək mədəniyyəti, insani keyfiyyətləri, düzgün davranışı, humanizmi, obyektivliyi ilə yanaşı, nüfuza xələlə gətirən amillərin təsirini də nəzərə almalı, danışığında, davranış və münasibətlərində son dərəcə diqqətli olmalı, hər sahədə əsl nümunə göstərməlidir. Bu halda o, yüksək nüfuz əldə edib, onu daim qoruya bilər. Yüksək nüfuz müəllimin pedaqoji ustalığının mühüm göstəricisi və nəticəsidir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Təhsil Qanunu. B., 2009
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. B., 2013
3. Akif Abbasov və b. Pedaqogika: Müntəxəbat. B., 2021
4. Əlizadə Ə., Əlizadə H. Əsrin meqameylləri: psixopedaqoji problemlər. B., 2008
5. İlyasov M. Müəllimin pedaqoji ustalığı. B., 2013
6. İsmixanov M., Bayramov H. Pedaqogika. B., 2022
7. Qasımova L., Mahmudova R. Pedaqogika (Dərslik). B., 2021
8. Rüstəmov F. Karl Rocers və şəxsiyyətyönümlü təhsil. B., 2019
9. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. B., 2002


## MÜƏLLİM NÜFUZU: ONUN PEDAQOJİ PROSESDƏ ROLU, QAZANILMASI VƏ QORUNMASI ŞƏRTLƏRİ

*Məcid İsmixanov*


## XÜLASƏ

Məqalədə müəllimin pedaqoji nüfuzu, onun qazanılması və qorunması şərtləri şərh olunur. Müəlliflər pedaqoji-psixoloji, fəlsəfi-etik tədqiqatların təhlili və ümumiləşdirilməsi əsasında pedaqoji prosesdə müəllimin nüfuzu, onun rolu və formalaşmasına müasir yanaşmaları, habelə aktuallığı, mahiyyəti, səciyyəvi cəhətləri, növləri, yaranması və qorunması şərtlərini nəzərdən keçirmişlər.


## АВТОРИТЕТ УЧИТЕЛЯ: РОЛЬ И УСЛОВИЯ ЗАВОЕВАНИЯ И ОБЕРЕЖЕНИЯ ЕГО В ПЕДАГОГИЧЕСКОМ ПРОЦЕССЕ

*Маджид Исмиханов*


## АННОТАЦИЯ

В статье рассматриваются вопросы авторитета учителя, роль и условия завоевания и сбережения его в педагогическом процессе. Авторы на основы анализа и обобщения педагогико-психологических, философо-этических исследований излагают современные подходы к процессу завоеван я и сбережения авторитета учителя, а также выявляют актуальность, сущность, виды, содержание, условия и специфические особенности их применения.


## TEACHER AUTHORITY: ITS ROLE IN THE PEDAGOGICAL PROCESS, CONDITIONS FOR ITS ACQUISITION AND PRESERVATION

*Majid Ismikhanov*


## ABSTRACT

This article explores the concept of teacher authority within the pedagogical process, focusing on the conditions necessary for its acquisition and preservation. Based on the analysis and synthesis of pedagogical, psychological, philosophical, and ethical studies, the authors examine the role of teacher authority, contemporary approaches to its formation, as well as its relevance, essence, distinctive characteristics, types, emergence, and the conditions required for its maintenance.

# HƏSƏN BƏY ZƏRDABİNİN MÜƏLLİMLİK FƏALİYYƏTİ VƏ PEDAQOJİ İDEYALARI

***Mehparə Alış qızı Quliyeva***
***BDU-nun Pedaqogika kafedrasının dosenti***
***maya.kuliyeva20@gmail.com***

***Açar sözlər:*** Həsən bəy Məlikov Zərdabi, təlim və tərbiyə, sağlam həyat, vətənpərvərlik, Azərbaycan maarifçiliyi, "Əkinçi" qazeti.
***Ключевые слова:*** Гасан бей Маликов Зардаби, обучение и воспитание, здоровый образ жизни, патриотизм, азербайджанское просвещение, газета «Экинчи».
***Keywords:*** Hasan bey Melikov Zardabi, education and upbringing, healthy lifestyle, patriotism, Azerbaijani enlightenment, the newspaper "Akinchi".

Həsən bəy Məlikov Zərdabi 1837-ci il noyabrın 12-də Göyçay qəzasının Zərdab kəndində anadan olmuşdur. İlk təhsilini ərəb və fars dillərində almış, 1852-ci ildə atası tərəfindən Şamaxıya aparılaraq rus dilində təhsil verən məktəbə daxil edilmişdir. Şamaxı məktəbində Qafqaz dairəsinin maarif müdiri baron Nikolay tərəfindən hazırlığı bəyənilmiş və hökumət hesabına Tiflis gimnaziyasına qəbul olunmasına icazə verilmişdir. Həsən bəy rus dilini böyük çətinliklə mənimsəmişdir. 1861-ci ildə Tiflis gimnaziyasını gümüş medalla başa vurmuş, hökumət hesabına Moskva Universitetinin riyaziyyat fakültəsinin təbiət elmləri şöbəsinə imtahansız qəbul olunmuşdur. Universiteti fərqlənmə attestatı ilə bitirmiş, universitet şurasının qərarı ilə namizədlik elmi dərəcəsinə layiq görülmüşdür.

Daha sonra Həsən bəy Tiflisdə dövlət idarəsində xidmətə göndərilmişdir. Kəndlilərin mənafeyini müdafiə etdiyi üçün çar məmurları ilə ziddiyyət yaşamış, idarə rəisinin tələbi ilə vəzifəsini tərk etmişdir. 1867-ci ildə "Tubernsky Pravleniye"də xidmətə başlamış, lakin məmurların kəndlilərə qarşı ədalətsizliyini görərək 1868-ci ildə Qubada məhkəmə katibi vəzifəsinə işləmişdir. Burada da çar məmurlarının ədalətsizliyi və rüşvətxorluğu səbəbindən vəzifədən azad olunmuş və müəllimlik fəaliyyətinə yönəlmişdir. 1869-cu ilin 18 noyabrından Bakı gimnaziyasında dərs deməyə başlamış, azərbaycanlı şagirdlərin təhsilinə dəstək məqsədilə "Cəmiyyəti-xeyriyyə"nin yaradılmasını qərara almışdır. Bu məqsədlə 1873-cü ildə M.F. Axundovun "Hacı Qara" pyesi gimnaziya şagirdləri və N. Vəzirovun köməyi ilə ilk dəfə Azərbaycan dilində tamaşaya qoyulmuşdur. Lakin "Cəmiyyəti-xeyriyyə" fəaliyyətə başlaya bilməmişdir. Buna baxmayaraq, gimnaziyada oxuyan şagirdlərin sayı ilbəil artmışdır.

Doğma xalqına böyük məhəbbət bəsləyən Həsən bəy Zərdabi qəzet nəşr etməyin zəruriliyini dərk etmişdir. O, qəzetin xalqın maariflənməsinə və mədəniyyətin inkişafına xidmət edəcəyini bilmiş və dövrünün qabaqcıl simalarını millətin tərəqqisinə çağırmışdır. Uzun zəhmət və əziyyətdən sonra 1875-ci ildə "Əkinçi" qəzetinin nəşrinə başlamış, qəzetin bütün buraxılışlarında məktəb və maarif məsələlərinə xüsusi yer vermişdir. 1877-ci ildə çar hökuməti "Əkinçi"ni bağlamışdır. Məktəb açmaq istəyi icazə verilmədiyi üçün Zərdabi Ucar məhkəməsində vəkillik etmişdir. Ucardakı vəkillik fəaliyyətindən sonra Bakıya qayıtmış, 1906-cı ildə Azərbaycan müəllimlərinin I qurultayının keçirilməsində yaxından iştirak etmiş və qurultaya sədrlik etmişdir.

Həsən bəy Məlikov Zərdabi 1907-ci il noyabrın 28-də Bakıda vəfat edir. Onun son sözləri bu olur: "Xalqın maarifinə kömək edin!"

Azərbaycan ziyalıları H.Zərdabini xalqın mənəvi atası adlandırırlar. H.Zərdabi bütün mənalı həyatını xalqın maarif və mədəniyyətə çatması uğrunda mübarizəyə həsr etmişdir.

Zərdabi elmdən xalqın xoşbəxtliyi, vətənin qüdrəti üçün istifadə etməyə çağırırdı. Zərdabiyə görə o xalq tərəqqi edər ki, məktəb və maarifin inkişafına ciddi fikir versin.

Zərdabi xalqın zülm və əsarətdən qurtarmasının mühüm çarəsini maarifdə, elm və bilik kəsb etməkdə görürdü. Zərdabi maarifi elmi həyatın inkişafına kömək edən, Azərbaycan xalqına öz dostu ilə düşmənini tanıtdıra bilən və onu yeni yaşayış uğrunda mübarizəyə qaldıra bilən əsas vasitələrdən biri hesab edirdi. O bir dəfə dəmirçiyə belə demişdi: "Zindanını, çəkicini sat ancaq oğlunu oxut!"

H. Zərdabi əqli, əxlaqi, hissi, əməyi, estetik tərbiyəyə yüksək əhəmiyyət verir və deyirdi ki, bunların arasında qarşılıqlı əlaqə vardır. Zərdabi yeni tipli məktəblərin yaradılmasına və həmin məktəblərdə təbiətşünaslıq elmlərinin tədris edilməsi uğrunda yorulmadan çalışırdı. H. Zərdabi "Bədii sənaye məktəb məsələləri", "Bizim kənd məktəblərimiz", "Amerikada əqli inkişafla əl əməyini birləşdirən yeni məktəb sistemi" və "Kənd məktəbi sistemi" adlı məqalələrində, hər işin öhdəsindən gələ bilən kənd nəsli yetişdirmək vəzifəsini qarşısına qoyur və deyirdi ki, həyatla əlaqələndirilməyən bilik qumsal, daş torpağa səpilən toxuma bənzəyir. Zərdabi kənd məktəblərində şagirdlərin əqli inkişafı ilə əl əməyinin birləşdirilməsinə xüsusi diqqət yetirir, həmin məktəblərdə bitkiçilik və maldarlığa aid yeni fənlərin keçilməsini tələb edirdi. O, deyirdi ki, həyatla, təcrübə ilə əlaqələndirilməyən məktəb sistemi uşaqları şikəst edir. Belə şəraitdə oxuyan uşaqlar materialı əzbərləyir, əməyə hörmət etmir, tənbəl olurlar. Bundan başqa, o, əlavə olaraq bildirirdi ki, əl əməyinin uşaqlarda əməyə hörmət, işgüzarlıq və əməksevərlik təbliğ edir. H. Zərdabi əl əməyinin gənc nəslin böyüməsində, onların səliqə və təmiz əxlaqla yiyələnməsində mühüm rol oynadığını qeyd edir və deyirdi ki, düzgün və yaxşı təşkil edilən əmək təlimi "islah edilməzləri" islah etmək və onları cəmiyyətin faydalı üzvünə çevirməkdə kömək edir.

O, Azərbaycanın təbiətinin gözəlliyi ilə, qarlı dağları ilə, yaşıl bağları ilə, bumbuz sulu bulaqları ilə, əməksevər insanları ilə fəxr edirdi. Kim heç olmasa bir dəfə dağ seyrinə çıxıbsa, dağların möcüzəli gözəlliyini, çiçəklərini, xüsusilə günəşin doğduğu vaxt quşların nəğməsini heç vaxt unuda bilməz. Buna görə də belə yerləri seyrə çıxan hər kəs bədahətli şeir deyir, oxuyur. Bəli, bu yerlər şeir sevənlər, poeziya yaradanlar üçün əsl məktəbdir. O, bütövlükdə Zaqafqaziyanın, xüsusilə Azərbaycanın, Bakının meşələrə, yaşıllıqlara qərq olmasını arzulayırdı.

H. Zərdabi vətənpərvərliyinin əsl mahiyyəti onun doğma dilinə münasibətində daha qabarıq şəkildə özünü büruzə verir. O, gənclərə müraciətində deyirdi ki, əsl vətənpərvər o adamdır ki, vətəninə, xalqına təmənnasız kömək edir, heç bir mükafat gözləmir, vətəninin şöhrət və qüdrətini, rifah halını artırır. "Dil və din", "Dil uğrunda mübarizə", "Dil vahidliyi" və digər məqalələrində H. Zərdabi Azərbaycan dilinin təmizliyi uğrunda mübarizə aparırdı. Ana dilinə laqeyd münasibət nadanlıqdır, aqillik deyildir. Zərdabi milli iftixar hissinə yüksək qiymət verirdi.

H. Zərdabi məktəb və tərbiyəni ailədən, ailə tərbiyəsindən ayırmır, ailənin uşağın tərbiyəsindəki roluna xüsusi diqqət yetirirdi. Zərdabiyə görə ata və analar övladlarının tərbiyəsinə qayğı göstərməli, onları düzgün tərbiyə etməlidirlər. Çünki uşaqlar tərbiyənin ilkin əlamət və keyfiyyətlərini ailədə yiyələnirlər. Zərdabiyə görə tərbiyənin də, tərbiyəsizliyin də ilk mənbəyi ailədir. Buna görə də məktəb ailəyə kömək etməli, övladının tərbiyəsində çətinlik çəkən valideynlərə pedaqoji məsləhətlər verməlidir.

H. Zərdabi sağlam və fiziki tərbiyə haqqında fikirlərini "Bədəni salamat saxlamaq düstur əməlidir." /Gigiyena/ adlı əsərində şərh etmişdir. Zərdabi həmin əsərində deyirdi ki, hər bir kəs xoşbəxt olmaq istəyir. Bunun üçün sağlam olmağa çalışmaq lazımdır. Salamat bədən böyük nemətdir. Xoşbəxtlik mal-dövlətlə deyil, bədənin sağlamlığı ilədir. Buna görə də bədənin salamat olmasına uşaqlıqdan, gənclikdən qayğı göstərilməlidir. H. Zərdabi sağlamlığın gözlənilməsinin təmin edən amillərə evi, havanı, suyu, xörəyi, bədəni saxlamağı, paltarı, yuxunu və günəş işığını daxil edir və bunların arasındakı qarşılıqlı əlaqələri maraqlı həyati misallarla izah edirdi. Zərdabi sağlamlığın qorunmasına yalnız bioloji, pedaqoji-tibbi problem kimi deyil, həm də sosial problem kimi baxırdı.

Sağlamlığın qorunmasında ev təmizliyinin mühüm amil olduğunu qeyd edən Zərdabiyə görə, ev pis olanda insan xəstə olar. "Yaxşı ev" deyərkən o, evin geniş, işıqlı olmasını, hündür yerdə tikilməməsini, qapı və pəncərələrinin qibləyə tərəf olmasını nəzərdə tuturdu. Zərdabiyə görə, üzü şimala və gün doğana tərəfə olan evlərdə naxoşluq olar. O, alman məsəlini yada salırdı: "Əgər evə işıq gəlmirsə, oraya gərək həkim gəlsin."

H. Zərdabi ev havasının tez-tez dəyişdirilməsini zəruri sayır və deyirdi ki, havası dəyişdirilməyən evdə orqanizm günbəgün zəifləyir, tədricən gücünü itirir və nəticədə asanlıqla xəstələnə bilər. "Havasızlıq insan səhhətinin ən böyük düşmənidir." Havanın təmiz olması həyat, xarab olması isə ölümdür[4]. Xarab olmuş hava ilə nəfəs almaq başqa formada zəhərlənməkdən pisdir. Evin işıqlı olması vacibdir. Zərdabi təbii işığın və təmiz havanın əhəmiyyətini vurğulayır, hava və işığın bərabər girməsini təmin edən şəraitin yaradılmasını tövsiyə edirdi. O, təbii işığa və təbiət parıltısına elektrik işığından daha çox üstünlük verirdi, çünki onun fikrincə, bu, insan sağlamlığı üçün daha faydalıdır.

Zərdabiyə görə, sağlamlığın qorunması üçün hər kəs gigiyena qaydalarına əməl etməlidir. Əgər insan yeməkdən sonra əllərini yumazsa, tez-tez xəstələnər. O bildirirdi ki, "evin, paltarın, qab-qacağın təmizliyi insanın sağlamlığı üçün əsas şərtdir."

Zərdabi rejimə, xüsusilə də yemək rejiminə xüsusi əhəmiyyət verirdi. O, insanların fərdi xüsusiyyətlərinə uyğun olaraq hər kəsin özünəməxsus qidalanma qaydasına malik olmasının vacibliyini vurğulayırdı. Zərdabiyə görə uşaqlar, gənclər və böyüklər üçün yeməklər ayrıca şəkildə hazırlanmalıdır.

O, uşaqların qidalanmasının onların yaşına və fizioloji xüsusiyyətlərinə uyğun olmasını vacib sayırdı. Xüsusilə ana südünün əvəzsiz rolunu qeyd edirdi. Zərdabi klassik pedaqoqların fikirləri ilə həmrəy olaraq bildirirdi ki, uşaq ən azı bir il ana südü ilə qidalanmalıdır.

Zərdabi deyirdi ki, bəzi analar uşaqlarını özləri əmizdirmək istəmir, onları yad qadınlara əmizdirdir. Halbuki bu, yalnız o halda mümkündür ki, uşaq anasının özü xəstə olsun. Əgər ana sağlamdırsa, övladını özü əmizdirməlidir. Əmizdirilən uşaqla ana arasında xüsusi mənəvi bağ yaranır və bu, uşağın həm fiziki, həm də psixoloji sağlamlığına müsbət təsir göstərir.

Əgər ana südü olmadıqda uşağa inək südü verilə bilər, lakin Zərdabi xəbərdarlıq edirdi ki, inək südündə piy çox, şəkər isə azdır. Bu səbəbdən, uşağa verilən süd düzgün hazırlanmalı və uşaq üçün uyğun hala gətirilməlidir.

H. Zərdabi spirtli içkilərin qəti əleyhinə olmuşdur. O, "Sərxoşluq adətlərinə qarşı" adlı məqaləsində alkoqolun dağıdıcı və zərərli xüsusiyyətlərini elmi şəkildə təhlil etmiş, spirtli içkiləri "bədənin düşməni" adlandırmışdır. Sərxoşluq insanı yalnız fiziki cəhətdən eybəcərləşdirmir, həm də mənəvi cəhətdən onu şikəst edir. Sərxoşluq həyatı və vicdanı məhv edir. Zərdabi həmin məqaləsində görkəmli fizioloqlardan Ru, Borel, Breçka, Çio, Fredi, Brok, Sapalye, Tibo, Meçnikov və başqalarının alkoqolizm haqqında fikirlərini təhlil edərək, alkoqolun insan orqanizminə təsirini zəhərlə müqayisə edir və bütün ağıl adamlarını, insanlığın dostlarını çox ciddi sosial şər olan insan sağlamlığının düşməni alkoqola qarşı mübarizəyə, ictimai həyatın ən aşağı pilləsinə yuvarlanan bədbəxt adamlara kömək etməyə çağırırdı. Zərdabi müxtəlif xalqların, böyük zəka sahiblərinin sərxoşluğu pislədiyini qeyd etməklə, yeri gəldikcə onların fikirlərinə də istinad edirdi. Sərxoşluq könüllü dəlilikdir. Sərxoşluq bütün pis adətlərin anasıdır. İçkinin başlanğıcı günah, ortası sərxoşluq, sonu fəlakətdir. Stəkanda boğulanlar dənizdə boğulanlardan çoxdur. Araq dənizində qəhrəmanlar da batır. Sərxoş olub kişilikdən dönənin qeyrəti araq şüşəsində olar.

H. Zərdabi papiros çəkməyin, nikotin qəbul etməyin, tiryəkdən, tünd çay və qəhvə içməyin də sağlamlığa zərər vurduğunu bildirirdi. Tiryək atanın əlləri titrəyir, başı əsir, ayaqları yerdə durmur, mədəsi həzm etmir və s.

H. Zərdabi insanın sağlamlığında paltarın əhəmiyyətinə, alt paltarlarının təmiz saxlanmasına, paltarın rənginə də diqqət yetirməyi zəruri sayırdı. Zərdabiyə görə, dünyada bədənin sağlamlığından artıq dövlət yoxdur. Hər fəsilin özünəməxsus paltarı olur. Paltarı vaxtında dəyişdirməmək ac qalmaqdan da pisdir. O, uşaq paltarları və səfər geyimləri haqqında da maraqlı fikirlər söyləmişdir. Uşağın oyunsuz keçinə bilmədiyini nəzərə alaraq, onun paltarlarını geniş tikmək vacibdir ki, rahat hərəkət edə bilsin.

Zərdabi sağlamlığın qorunmasında yuxuya, yatacaq paltarlarına da diqqət yetirmişdir. İnsan yorğunluğunu almaq üçün dincəlməlidir. Bu işdə yuxu əvəzsizdir. Zərdabiyə görə, işləmək təkcə pul qazanmaq üçün deyil, həm də bədənin sağlamlığı üçündür. İşləyən adamın iştahası daha çox olur, qidası yaxşı həzm olunur. Kim çox oxuyursa, onun anlayışı və zehni qabiliyyəti artır, amma oxumayan insanın qabiliyyəti pas tutmuş, cilalanmamış qızıl kimi qalır. Yaxşı, rahat yatmaq üçün qaranlıq və sakit yer olmalıdır. Zərdabiyə görə, uşaq 9 saat, 30–40 yaşlı adam isə 6 saat yatmalıdır. Yatarkən çöldə soyuq deyilsə, pəncərəni açıq qoymaq olar. Arxa üstə və ya sağ çiyin üstə yatmaq faydalıdır. Çarpayı geniş və rahat olmalıdır.

H. Zərdabi fiziki tərbiyəyə ictimai problem kimi baxmışdır. O, fiziki əməyin fiziki tərbiyənin tərkib hissəsi olduğunu qeyd edir və deyirdi ki, fiziki tərbiyə şəxsiyyətin ahəngdar inkişafının mühüm şərtlərindən biridir. Bu gün müəllimlər onun faydalı fikirlərindən istifadə etməlidirlər.

## ƏDƏBİYYAT

1. Azərbaycan Milli Elmlər Akademiyası. (2009). Azərbaycan Milli Ensiklopediyası (maddə: "Həsən bəy Məlikov Zərdabi"). Bakı: AMEA nəşriyyatı.
2. Azərbaycan Respublikasının Təhsil Nazirliyi. (2011). Azərbaycan pedaqoji fikir tarixi. Bakı: Maarif nəşriyyatı.
3. Əlizadə, H. (2007). Həsən bəy Zərdabi – həyat və fəaliyyəti. Bakı: Elm nəşriyyatı.
4. H.Zərdabi, Seçilmiş əsərləri, Bakı, 1960, səh. 419.
5. Məmmədova, A. (2013). Zərdabinin maarif və mədəni irsi. Bakı: Şərq-Qərb nəşriyyatı.
6. Zərdabi, H. B. M. (1875–1877). "Əkinçi" qəzeti məqalələri. Bakı: Qəzet arxiv materialları əsasında tərtib olunmuşdur.

## HƏSƏN BƏY ZƏRDABİNİN MÜƏLLİMLİK FƏALİYYƏTİ VƏ PEDAQOJİ İDEYALARI

***Quliyeva Mehparə***

## XÜLASƏ

Həsən bəy Məlikov Zərdabi Azərbaycan maarifçiliyinin banilərindən biri kimi xalqın elmə, təhsilə və tərəqqiyə yönəlməsində mühüm rol oynamışdır. O, maarifin və məktəbin xalqın azadlığı və inkişafı üçün əsas vasitə olduğunu vurğulamış, təhsilin ailə tərbiyəsi ilə sıx bağlılığını önə çəkmişdir. Zərdabiyə görə, sağlam və xoşbəxt cəmiyyətin formalaşması üçün gigiyenik qaydalara riayət, düzgün qidalanma və əməksevərlik vacib şərtlərdəndir. O, fiziki, əqli və əxlaqi tərbiyəni bir-biri ilə qarşılıqlı əlaqədə dəyərləndirmiş, gənc nəslin həm biliyə, həm də əməyə hörmət ruhunda böyüməsini vacib saymışdır. Zərdabinin vətəndaşlıq haqqında baxışları vətənə sədaqət, milli dəyərlərə hörmət və maarifə xidmət prinsipi üzərində qurulmuşdur. Onun pedaqoji, ictimai və vətənpərvərlik görüşləri bu gün də milli maarifçilik ənənələrinin formalaşmasında mühüm əhəmiyyət daşıyır.

# ПРЕПОДАВАТЕЛЬСКАЯ ДЕЯТЕЛЬНОСТЬ И ПЕДАГОГИЧЕСКИЕ ИДЕИ ХАСАН-БЕЯ ЗАРДАБИ

***Мехпара Гулиева***

## АННОТАЦИЯ

Гасан бей Маликов Зардаби, как один из основоположников азербайджанского просвещения, сыграл важную роль в направлении народа к науке, образованию и прогрессу. Он подчеркнул, что образование и школа являются основными инструментами свободы и развития народа, и подчеркнул тесную связь между образованием и семейным воспитанием. По мнению Зардаби, соблюдение правил гигиены, правильное питание и трудолюбие являются важными условиями формирования здорового и счастливого общества. Он ценил физическое, умственное и нравственное воспитание во взаимодействии друг с другом и считал важным, чтобы молодое поколение росло в духе уважения как к знаниям, так и к труду. Взгляды Зардаби на гражданство основаны на принципах верности Родине, уважения национальных ценностей и служения образованию. Его педагогические, общественно-патриотические встречи до сих пор имеют большое значение в формировании национальных образовательных традиций.

## HASAN BEY ZARDABI'S TEACHING ACTIVITY AND PEDAGOGICAL IDEAS

***Guliyeva Mehpara***

## SUMMARY

Hasan Bey Malikov Zardabi, as one of the founders of Azerbaijani enlightenment, played an important role in directing the people to science, education and progress. He emphasized that education and school are the main tools for the freedom and development of the people, and highlighted the close connection between education and family upbringing. According to Zardabi, compliance with hygienic rules, proper nutrition and hard work are important conditions for the formation of a healthy and happy society. He valued physical, mental and moral education in interaction with each other and considered it important for the young generation to grow up in the spirit of respect for both knowledge and work. Zardabi's views on citizenship are based on the principles of loyalty to the motherland, respect for national values and service to education. His pedagogical, social and patriotic meetings are still of great importance in the formation of national educational traditions.

# FIRUDIN BƏY KÖÇƏRLININ TƏLIM-TƏRBIYƏ ILƏ BAĞLI DÜŞÜNCƏLƏRI

***Allahverdiyeva Səfurə Bayram qızı***
***Əməkdar müəllim, Pedaqogika kafedrasının dosenti***
***safuraallahverdiyeva@bsu.edu.az***

***Açar sözlər:*** Ana dili, təhsil, tərbiyə, uşaq ruhu, şəxsiyyət
***Ключевые слова:*** Родной язык, образование, воспитание, детский дух, личность
***Keywords:*** Native language, education, upbringing, child spirit, personality.

XIX əsrin axırları, XX əsrin əvvəllərində yaşayıb-yaradan, Azərbaycan ədəbiyyatının və pedaqoji fikrinin inkişafında misilsiz xidmətləri olan F.Köçərli bütün varlığı ilə xalqına, millətinə bağlı olan bir ziyalı idi. O, özünün yazılarında, publicist məqalələrində həmişə xalqını cəhalətdən qurtarmağa səy göstərirdi. Onun bütün pedaqoji fəaliyyəti xalqın səadəti, maariflənməsi, xoşbəxt gələcəyi uğurunda mübarizədə birləşirdi. F.Köçərli məktəblərdə həyata keçirilən təlimdə vaxtı keçmiş sxolastik üsulun əleyhinə çıxaraq cəsarətlə göstərirdi ki, öz gözəl uşaqlıq illərini Quranın anlaşılmaz ayələrini əbərləməklə keçirən övladlarımızın zəhməti hədər gedir, hafizələri kütləşir, heç bir bilik qazanmır, savadsız qalır. Bütün bunları dərk edən Köçərli yeni tipli xalq məktəblərinin açılmasına çalışırdı. İcbari təhsil ideyasını da irəli sürürdü. F.Köçərli yaradıcılığına nəzər saldıqda görürük ki, o, təhsilin ana dilində aparılmasını vacib hesab edirdi. Hətta onun bu fikirləri böyük rus pedaqoqu Uşinskinin xəlqilik ideyası ilə üst-üstə düşürdü.

F.Köçərli məktəblərdə ana dilinin tədrisinə biganə yanaşan, mane olan maarif çinovniklərini kəskin tənqid edərək deyirdi: “Bir millətin malını, dövlətini və hətta vətənini əlindən alsan, ölüb-itməz, amma dilini alsan, ondan nişan qalmaz”.

Böyük düha sahibi Köçərli Azərbaycan dilini kasıb dil hesab edənlərə qarşı çıxaraq deyirdi ki, biz dilimizi bilmirik, bunun da təqsiri bizdədi, dilimizdə deyil, əcnəbi dillərdə (ərəb, fars, rus) danışırıq. Həmin dillərdə olan qəliz sözləri dilimizin tələbinə və xüsusiyyətlərinə uyğunlaşdırmadan dilimizə qarışdırmışıq, necə ki, xoşagəlməz inciləri necə gəldi paltarımıza yamamışıq. Onun dilimiz haqqında dediyi fikirlər bu gün də aktual və maraqlıdır. Köçərli ana dilinin təlimi üçün bilik mənbəyi olan dərsliklərin də tərtibinə çox əhəmiyyət verərək göstərirdi ki, dərsliklər məzmunca dolğun, formaca maraqlı və stabil olmalıdır. Dərslik və proqramların tərtibinə xüsusi əhəmiyyət verirdi, çünki, bu minlərlə balaların istifadə etdiyi bilik mənbəyidir. O, dərslikləri hazırlayarkən xalq yaradıcılığına istinad etməyi, həyatla əlaqəsini və uşaq psixologiyasının nəzərə alınmasını vacib hesab edirdi. Köçərli uşaqlar üçün dərslik yazmağın çox mühüm və çətin iş olduğunu göstərərək qeyd edirdi ki, bu işdə tələsməməli, diqqətli olmalı, hər cəhətdən ehtiyatlı yanaşılmalıdır. Uşaq üçün dərslik yazan adam uşaq ruhuna dərindən bələd olan, onu duyan, xalqın həyatını, dilini gözəl bilən bir pedaqoq olmalıdır. Köçərlinin “Balalara hədiyyə”si öz vətəninə, xalqına, onun qədim və zəngin söz sənətinə, uşaqların bədii zövq tərbiyəsinə məhəbbətini əks etdirir. Bu əsər təkcə uşaq və yeniyetmələrin deyil, həm də böyüklərin təlim-tərbiyəsində əvəzsizdir. “Balalara hədiyyə” əsərində Köçərli uşaqlar üçün topladığı “Göyçək Fatmanın nağılı”, “İt və pişik”, “Tülkü və üzüm” və s. nağıl və hekayələrində onları maraqlandıran, ruhlarını oxşayan maraqlı fikirlər irəli sürürdü.

F.Köçərli uşaqlar üçün yazılmış kitablarında pedaqogikanın, psixologiyanın və didaktikanın əsas tələblərinə, onun prinsip və qaydalarına, uşaqların yaş xüsusiyyətlərinə, əyaniliyə, ardıcıllığa, elmiliyə, sadədən-mürəkkəbə kimi qaydaları nəzərə almışdır. O, təlimdə yüksək nəticə əldə olunmasında tədris proqramının düzgün tərtib olunmasına xüsusi əhəmiyyət verərək qeyd edirdi ki, tədris proqramı əhatəli və ardıcıllıq prinsipi əsasında tərtib olunmalıdır. Bu mənada 1917-1918-ci tədris ili üçün A.Şaiqin tərtib etdiyi

"Ana dili" proqramını çox bəyənərək yazırdı: "Həmin proqram əsasında dərs keçsəniz, sizin şagirdlər kursu tamam etdikdə azərbaycanca gərək yaxşı savadlı olsunlar. Mənim buna şəkkinm yoxdur". F.Köçərli ana dili ilə yanaşı başqa dillərin də öyrənilməsini vacib hesab edirdi. Qeyd edirdi ki, uşaqlar başqa dilləri öyrənməklə həmin xalqın ziyalılarının, yaradıcı insanlarının fikirləri ilə yaxından tanış olurlar.

F.Köçərli gənc nəslin bir vətəndaş, şəxsiyyət kimi yetişməsində təhsilin əhəmiyyətli rolunu göstərməklə yanaşı tərbiyənin də əhəmiyyətini xüsusi vurğulayırdı. O, tərbiyə məsələsinə "Yerevan vilayətinin xalq məktəblərinin müəllimləri cənablarına müraciət" (1905) başlığı ilə yazdığı məqaləsində və digər yazılarında da toxunmuşdur.

Köçərli pedaqoji fəaliyyətdə əsas sima olan müəllimin işini yüksək qiymətləndirərək, onun qarşısında mühüm vəzifələr qoyurdu. Şərəfli müəllimlik peşəsinə xidmət edən insan hər cür çətinliyin öhdəsindən gəlməyi bacarmalıdır. Müəllimlik peşəsinə yüksək qiymət və dəyər verən F.Köçərli qeyd edirdi ki, könüllü şəkildə bu peşəni seçən hər bir müəllimdə bu keyfiyyətlər olmalıdır. İlk növbədə müəllim peşəsini və uşaqları sevməli, onlara qayğı ilə yanaşmalıdır. Müəllim həm də zəhmətkeş, ədalətli, obyektiv, ağıllı və bilikli olmalıdır. Onun fikrincə təlim və tərbiyənin nəticəsi müəllimin uşaqlara göstərdiyi qayğılı, ədalətli, düşüncəli, səmimi münasibətindən çox asılıdır. Eyni zamanda müəllim öz peşəsinin müqəddəsliyini dərk edərək uşaqlarla yorulmadan, əzmlə, qayğı və məhəbbətlə işləməlidir. Müəllim öz hərəkət və davranışı ilə şagirdlərə nümunə olmalı, onların qəlblərində xeyirxahlıq, böyüklərə hörmət, vətənə sevgi, elmə maraq hissi yaratmalıdır. Hər bir xalqın, millətin gələcəyi müəllimlərdən, onların fəaliyyətlərindən asılıdır.

Müəllim bilikli, savadlı olmalı, bununla yanaşı həyat təcrübəsi, uşaqlara qayğılı münasibəti də vacibdir. Bu peşənin sahibi daim öz üzərində çalışmalı, yeniliklərə açıq olmalıdır. Könülsüz dərs deyən, uşaqlara laqeyd olan müəllimləri Köçərli "yarımçıqlar" adlandırırdı. Müəllim şəxsiyyəti təlim prosesində elə bir təsirə malikdir ki, onu heç nə ilə əvəz etmək mümkün deyil. Bu mənada gənc ikən qocaman pedaqoq, yazıçı A.Şaiqə yazdığı məktub çox maraqlıdır. O, yazırdı: "Əgər müəllim istəsə, nə cür şərait və mühit içərisində olmuş olsa da, öz şagirdlərinə çox şey öyrədə bilər. Qabiliyyətli, bacarıqlı və istedadlı müəllimin əlində naqabil və korafəhm şagird də az-çox elm və bilik ala bilər".

Müəllim təkcə bilik vermir, o, həm də gələcək şəxsiyyət yetişdirir, tərbiyə edir. Məktəblərdə çubuq zoruna dərs öyrətməyin təhlükəli olduğunu, tərbiyə işinə ciddi ziyan vurduğunu göstərərək yazırdı: "Şagirdləri döymək, təhqir etmək, şəxsiyyətinə toxunmaq, yaxud onların birini digərinə döydürmək nəticəsində uşaqlar kobudlaşır, bir-birinə nifrət bəsləyir. Sonunda belə tərbiyə almış uşaqlar dəhşətli caniyə çevrilir".

Məktəbdə qorxu, vahimə, təhqir, hədələmə kimi cəzaya yol verilməməli, onlarla səmimi münasibətə, dostluğa üstünlük verilməlidir. Belə olduqda şagirdlər onları narahat edən problemləri müəllimləri ilə bölüşə bilir, məsləhət ala bilirlər. Müəllim bilməlidir ki, qorxu hissi uşaqlarda yalançılıq, ikiüzlülük, hiyləgərlik və s. mənfi keyfiyyətlərin yaranmasına səbəb olur.

Tərbiyə məsələləri ilə bağlı Köçərlinin bu fikirləri bir pedaqoq kimi bu günün tərbiyə prinsip və metodları ilə üst-üstə düşür. Belə ki, onun fikrincə pedaqoji fəaliyyətdə bilik, dərin düşüncə və əməksevərliklə yanaşı həm də, sevgi ilə dolu ürək və qəlb vacibdir. Tərbiyə prosesində qorxu yox, uşaqlara sevgi, qayğı, qarşılıqlı məhəbbət və səmimiyyət olmalıdır. Ən əsası da odur ki, tərbiyə həyatla əlaqələndirilməli, dövrün tələblərinə cavab verməlidir. Tərbiyəçi uşaqlara vəzifə borcu ilə alicənab davranış qaydaları: ədalətli, xeyirxah olmağı aşılamalıdır. Bütün bunları tərbiyəçi öz hərəkət və davranışı ilə, öz nümunəsi ilə öyrətməlidir. Tərbiyədə müvəffəqiyyət qazanmaq üçün müəllim uşaqları hərtərəfli öyrənməli və ona uyğun davranmalıdır.

Göründüyü kimi F.Köçərlinin tərbiyə haqqındakı fikirləri bu gün də aktualdır. Onun ailə tərbiyəsi ilə bağlı da maraqlı fikirləri var. Köçərli ailəni, təbiəti, məktəbi və ictimai mühiti

tərbiyənin daim təsir göstərən amilləri hesab edirdi. F.Köçərli yazırdı: uşaq öz bilik, öz x mənəviyyəsinin əsas dünyasını ailədə alır. Burada onun qəlbinə bəyənilmiş xasiyyətlərin, yaxud qəbahətlərin toxumu saçılır, ailədə hökm-fərman olan mənəvi ideyalar yavaş-yavaş onun qəlbinə yer eyləyir. Ailədə uşağın tərbiyəsinə bilavasitə təsir göstərən ata, ana, bacı, qardaş, nənə və digər ailə üzvləridir. Lakin pedaqoqlar bunların arasında birinci yeri ana tutduğunu qeyd edirlər. Çünki övlad kiçik yaşlarından günün böyük bir hissəsini anası ilə bərabər olur və ana öz rəftar və davranışı ilə uşaqlarının gələcəyi üçün mənəvi məsuliyyət daşıyır. Valideynlər öz uşaqları üçün nümunə olmalı, çünki uşaqlar eşitdiklərindən çox, gördüklərindən öyrənirlər.

F.Köçərli ailə tərbiyəsini uşaqların tərbiyəsinin əsas amili olduğunu qeyd edərək, göstərirdi ki, ailə tərbiyəsinin bünövrəsi möhkəm və düzgün qurulmalıdır, əks halda uşağın bütün həyatı yarımçıq və natamam olacaqdır. Ailədə düzgün tərbiyə almayan uşaq yalnız özü üçün deyil, xalq üçün, ətrafdakılar və ictimaiyyət üçün də zərərli bir qüvvəyə çevrilir.

Ailədə valideynlər arasında səmimiyyət, həmrəylik, qarşılıqlı hörmət və sevgi olmalı, sözləri ilə əməlləri üst-üstə düşməli, ziddiyyət olmamalıdır. Bir sözlə, valideynlər övladlarına yaxşı nümunə, örnək olmağı bacarmalıdırlar.

Köçərlinin fikrincə ailədə uşaqların düzgün tərbiyəsi, cəmiyyətin inkişafına onun daha da gümrahlaşmasına təsir göstərir. F.Köçərli yaradıcılığı ilə tanışlıq göstərir ki, onu bir pedaqoq kimi ən çox təlim-tərbiyə məsələləri, dilin saflığı, müəllimlərin rəftar və davranışları yanaşı, həm də ailədə uşağın tərbiyəsi məsələləri daha çox düşündürmüşdür.

Göründüyü kimi Köçərlinin toxunduğu bu məsələlər bu gün də aktualdır, pedaqoq və psixoloqların tədqiqat obyektidir.

## ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, 2-ci cild. Bakı, 1960
2. Abbasov A., Əlizadə H. Pedaqogika. Bakı, 2024
3. Əhməədov H. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı, 2001
4. Əlizadə H., Qasımova L., İmamverdiyeva N. Dünya pedaqoji fikir tarixi. Bakı, 2024.

## FİRUDİN BƏY KÖÇƏRLİNİN TƏLİM-TƏRBİYƏ İLƏ BAĞLI DÜŞÜNCƏLƏRİ

***Allahverdiyeva Səfurə***

## XÜLASƏ

Məqalədə F. Köçərli yaradıcılığında təlim, tərbiyə təhsillə bağlı fikirləri araşdırılaraq təhlil edilmişdir. F. Köçərli uşaqlar üçün yazılmış kitablarında pedaqogikanın psixologiyanın və didaktikanın əsas tələblərinə onun prinsip və qaydalarına, uşaqların yaş xüsusiyyətlərinə, əyaniliyə, ardıcıllığa, elmiliyə, sadədən- mürəkkəbə kimi qaydaları nəzərə almışdır. Göründüyü kimi F. Köçərlinin toxunduğu bütün məsələlər bu gün də aktualdır, əhəmiyyətlidir.

## МЫСЛИ ФИРУДИНА БЕЯ КОЧЕРЛИ ОБ ОБРАЗОВАНИИ

***Аллахвердиева Сафура***

### АННОТАЦИЯ

В статье исследованы и проанализированы взгляды Ф. Кочерли на обучение, воспитание и образование. В книгах, написанных им для детей, Ф. Кочерли учитывал основные требования педагогики, психологии и дидактики — их принципы и правила, возрастные особенности детей, наглядность, последовательность, научность и принцип перехода от простого к сложному. Как видно, все вопросы, к которым обращался Ф. Кочерли, остаются актуальными и важными и сегодня.

## FIRUDIN BEY KOCHERLI'S THOUGHTS ON EDUCATION

***Allahverdiyeva Safura***

### SUMMARY

In the article, F. Kocherli’s ideas on education, upbringing, and teaching in his works are examined and analyzed. In the books he wrote for children, F. Kocherli took into account the main requirements of pedagogy, psychology, and didactics — their principles and rules, children’s age characteristics, visuality, sequence, scientific approach, and the rule of moving from simple to complex. As can be seen, all the issues addressed by F. Kocherli remain relevant and significant even today.

# МЕХАНИЗМЫ ОБЕСПЕЧЕНИЯ КАЧЕСТВА В ШКОЛЕ

***Магарламова Аиша Рамин кызы***
***магистрант II курса БГУ***
***magarlamova.aisha@mail.ru***

***Açar sözlər:*** keyfiyyət, monitorinq, müəllim, qiymətləndirmə, yoxlama, idarəetmə
***Ключевые слова:*** качество, мониторинг, учитель, оценка, проверка, управление
***Keywords:*** quality, monitoring, teacher, evaluation, inspection, management.

В контексте образования мониторинг рассматривается как комплексная система сбора, обработки, хранения и распространения информации о состоянии образовательной системы в целом или её отдельных компонентов. Основная задача образовательного мониторинга заключается в предоставлении актуальной информации для обеспечения эффективного управления, что позволяет в любой момент получить объективное представление о состоянии исследуемого объекта и сделать прогнозы относительно его дальнейшего развития.

В педагогическом процессе мониторинг выполняет ряд ключевых функций. Ориентировочная функция заключается в обеспечении субъектов образовательной деятельности необходимой информацией для ориентации в образовательной среде и более широком жизненном пространстве.

Конструктивная функция способствует формированию и укреплению индивидуальной позиции личности. С одной стороны, это процесс внутренней кристаллизации взглядов и ценностей, с другой — расширение личностного пространства через установление положительных контактов и взаимодействие с окружающими.

Организационно-деятельностная функция обеспечивает выбор наиболее эффективной стратегии поведения личности в процессе выполнения различных видов деятельности. Это становится возможным благодаря постоянной интеграции поступающей информации и теоретических знаний.

Коррекционная функция предусматривает своевременное внесение изменений как в характер выполняемых задач, так и в поведенческие установки личности в процессе её деятельности.

Оценочно-прогностическая функция представляет собой последовательное сопоставление полученных в ходе мониторинга данных с установленными контрольными точками и запланированными результатами, что позволяет корректировать стратегию развития на основе анализа текущих достижений. С. Е. Шишов и В. А. Кальней считает, что *«к обучению можно выделить следующие виды мониторинга: по масштабу целей образования – стратегический, тактический, оперативный; по этапам обучения – входной или отборочный, учебный или промежуточный, выходной или итоговый; по временной зависимости – ретроспективный, предупредительный или опережающий, текущий; по частоте процедур – разовый, периодический, систематический; по охвату объекта наблюдения – локальный, выборочный, сплошной; по организационным формам – индивидуальный, групповой, фронтальный; по формам объект-субъектных отношений – внешний или социальный, взаимоконтроль, самоанализ; по используемому инструментарию – стандартизованный, нестандартизованный, матричный и др.»* [6, с.126].

В педагогической практике различают несколько основных видов мониторинга образовательного процесса:

1. Дидактический мониторинг заключается в систематическом отслеживании различных аспектов учебно-образовательной деятельности. Его цель —

анализировать динамику освоения обучающимися образовательных программ, эффективность применяемых методик и форм обучения.

2. Воспитательный мониторинг направлен на наблюдение за различными сторонами воспитательно-образовательного процесса. При этом особое внимание уделяется системе взаимоотношений, характеру взаимодействия и связи между всеми участниками образовательной среды.

3. Управленческий мониторинг включает контроль за взаимодействием на различных уровнях управления образовательной организацией. В его поле зрения находятся отношения между руководителем и педагогическим коллективом, учениками, родителями, а также внешкольным сообществом. Кроме того, анализируются взаимодействия между самими педагогами, между учителями и учащимися, а также между учителями и семьями обучающихся.

4. Социально-психологический мониторинг ориентирован на отслеживание состояния коллективно-групповых и личностных отношений, а также на оценку психологического климата в ученических и педагогических коллективах.

Одной из основных целей мониторинга является мониторинг участия учеников, академических и социальных достижений в образовательном процессе. Данные об успеваемости учащихся предоставляют факты о том, как достигаются результаты обучения в соответствии с учебной программой. Эти достижения фиксируются как результат прогресса в учебной деятельности.

Отслеживание активности включает в себя следующие показатели:

- Мониторинг деятельности включает в себя следующие показатели;
- Уровни знаний и умений учащихся в классе (слабый, средний и высокий);
-Участие в учебном процессе (оценка посещаемости и пропусков занятий);
- Информация о состоянии здоровья и питания обучающихся;
- Оценка участия учащихся в школьных мероприятиях.

Мониторинг учебной программы включает в себя программный механизм контроля и правильного и своевременного выполнения учебной программы профессорско-преподавательским составом. Информация о производительности программы включает в себя:

- Содержание и объем учебной программы;
-Сильные и слабые стороны учителей, связанные с реализацией учебной программы;
-Соответствие применяемых стратегий целям.
-Время, затрачиваемое на изучение предмета, находится в пределах нормы;
-Наличие критериев и инструментов оценки в учебной программе.

Обучение и управление учебным процессом и оценка профессионального развития по показателям, определяющим профессионализм педагога, состоят из:

- Планирование уроков, управление классом;
- Возможности использования современных методов обучения, методов успешного преподавания предмета;
-Использование учебных пособий;
- Оценка учеников;
- Умение использовать ИКТ и интернет в организации учебно-воспитательного процесса;
- Использование возможностей, созданных для участия в профессиональных тренингах, применения передового местного и международного опыта.

Важнейшим требованием является контроль всех основных процессов школы, влияния и результаты управленческой и лидерской деятельности на учащихся. Его эффективность напрямую зависит от соблюдения ряда важнейших принципов:

1. Принцип непрерывности предполагает постоянное слежение за развитием образовательного процесса, своевременное выявление изменений его качества, а также оперативную корректировку, поддержку или ослабление тех или иных тенденций.
2. Принцип научности требует, чтобы мониторинг основывался на строго научных подходах и объективных характеристиках образовательного процесса, исключая субъективные и бытовые способы оценки.
3. Принцип воспитательной целесообразности подчеркивает, что мониторинг не является самоцелью. Он должен служить инструментом глубокого изучения процессов и средством эффективного управления развитием обучающихся. При этом недопустимо использование методов, которые могут нанести ущерб достоинству или интересам личности.
4. Принцип диагностико-прогностической направленности заключается в том, что собранная информация должна соотноситься с заранее определёнными критериями и нормами, позволяя оценить текущее состояние и прогнозировать дальнейшее развитие образовательного процесса.
5. Принцип прогностического мониторинга акцентирует внимание на том, что мониторинг должен не только фиксировать существующие тенденции, но и предвосхищать возможные направления педагогической деятельности. Это позволяет своевременно корректировать стратегию образовательной работы для поддержания положительных явлений и устранения нежелательных.

Применительно к школьной практике выделяют несколько классификаций мониторинга в зависимости от различных параметров:

1.По масштабу образовательных целей: стратегический (долгосрочный), тактический (среднесрочный) и оперативный (краткосрочный) мониторинг;

2.По этапам обучения: входной (на старте образовательного процесса), промежуточный (в процессе обучения) и итоговый (по завершении этапа);

3.По временной зависимости: ретроспективный (анализ уже завершённых процессов), предупреждающий (выявление потенциальных рисков) и текущий (наблюдение в режиме реального времени);

4.По частоте проведения процедур: разовый (однократный), периодический (проводимый через определённые интервалы) и систематический (постоянный);

5.По охвату объектов наблюдения: локальный (ограниченный круг объектов), выборочный (наблюдение за частью объектов) и сплошной (полный охват всех участников процесса);

6. По организационным формам: индивидуальный, групповой и фронтальный мониторинг;

7. По характеру объект-субъектных отношений: внешний (социальный контроль со стороны), а также самоанализ участников образовательного процесса;

8. По используемому инструментарию: стандартизированный (с применением утвержденных методик и критериев), нестандартизируемый (гибкие методы сбора данных) и матричный (многоуровневый анализ по нескольким критериям одновременно).

Таким образом, мониторинг в образовательной среде — это не просто контрольная функция, а мощный ресурс для развития и совершенствования учебно-воспитательной работы.

В процессе построения системы образовательного мониторинга выделяются три основных уровня его реализации:

1. Внутришкольный уровень.

На данном этапе мониторинг служит инструментом системного осмысления всей деятельности образовательной организации. Он фиксирует обобщённую картину того, как школа движется к поставленным целям, а также оценивает достижения каждого отдельного ученика. В рамках анализа формируется прогнозная информация, которая проходит психолого-педагогическую интерпретацию, обеспечивая более глубокое понимание образовательных процессов.

2. Муниципальный уровень.

На уровне муниципалитета мониторинг позволяет получить детальное представление о состоянии и развитии всей муниципальной системы образования, а также её отдельных составляющих. Здесь разрабатываются прогнозы дальнейшего развития образовательных процессов в пределах конкретной административной территории.

3. Региональный уровень.

Региональный мониторинг охватывает деятельность всей образовательной системы региона, включая деятельность входящих в неё муниципальных образований. На основе собранной информации строится прогноз развития образования в масштабах региона.

Следует отметить, что функции образовательного мониторинга на каждом уровне обладают своими специфическими особенностями. Структура системы мониторинга напрямую определяется функциональным назначением её отдельных элементов и отражает взаимосвязь между ними на всех этапах формирования.

## ЛИТЕРАТУРА

1. Сулейманова, А. С. Успешность как показатель эффективности учебной деятельности / Сулейманова А. С., Булатова З.Р., Качалова И.Н. // Профессиональная ориентация.-Баку: – 2017. №1, – с.191.

2. Скаткин, М.Н. Процесс обучения. / М.Н. Скаткин. - М.: Просвещение, -2001, -223 с.

3. Третьяков, П.И. Управление школой по результатам: практика педагогического менеджмента. / П.И. Третьяков. – Москва: Новая школа. – 2001. – 320с.

4. Третьяков, П.И. Управление качеством образования – основное направление в развитии системы: сущность, подходы, проблемы //-Москва, -Завуч. – 2002. №7, – с.67-69.

5. Хвостов, Н. Управление качеством образования //-Москва: Школьные технологии. – 2004. №6, – с.23-28.

6. Шишов, С. Е. Кальней В. А. Школа: мониторинг качества образования/ С. Е. Шишов, В. А. Кальней. -Москва: Пед. общ-во России, -2000,-450с.

# МЕХАНИЗМЫ ОБЕСПЕЧЕНИЯ КАЧЕСТВА В ШКОЛЕ

*Магарламова Аиша*

## АННОТАЦИЯ

В научной статье рассматриваются механизмы влияния концепции мониторинга на управление качеством образования в школах. Для этого первоначально раскрывается понятие мониторинга, его сущность и содержание. Поясняется его роль в поддержании контроля качества образования в школах и выявлении достижений. Раскрываются положительные стороны непрерывного мониторинга, оценки и проверок, проводимых в школах, и направления их влияния на качество.

## MƏKTƏBDƏ KEYFİYYƏTİN TƏMİNATI MEXANİZMLƏRİ

*Magarlamova Aisha*

## XÜLASƏ

Elmi məqalədə monitorinq anlayışının məktəbin  keyfiyyətli idarə olunmasına təsir mexanizmləri araşdırılıb. Bu məqsədlə ilkin olaraq monitorinq anlayışı, onun mahiyyət və məzmununa aydınlıq gətirilib. Onun məktəblərdə keyfiyyətin nəzarətdə saxlanmasında və nailiyyətlərin üzə çıxarılmasında rolu açıqlanıb. Məktəbdə aparılan davamlı monitorinq, qiymətləndirmə və yoxlamaların müsbət tərəfləri və keyfiyyətə təsir istiqamətləri açıqlanıb.

## MECHANISMS OF PROVIDING QUALITY IN THE SCHOOL

*Magarlamova Aisha*

## SUMMARY

The scientific article examines the mechanisms of the impact of the concept of monitoring on the quality management of schools. For this purpose, the concept of monitoring, its essence and content are initially clarified. Its role in maintaining quality control in schools and revealing achievements is explained. The positive aspects of continuous monitoring, evaluation and inspections carried out in schools and the directions of impact on quality are explained.

## SOSİOLOGİYA, SOSİAL İŞ,

# NUR DÜSTURU: SOSİAL, PSİXOLOJİ VƏ ANALİTİK ASPEKTLƏR KONTEKSTİNDƏ KARYERA VƏ ŞƏXSİ MÜNASİBƏTLƏRDƏ BALANS

***Murad İsrafilov***
***BDU, Coğrafiya fakültəsi,***
***ORCİD : 0009-0006-4044-3828***

***Açar sözlər***: Karyera, şəxsi münasibətlər, sosial balans, psixoloji sabitlik, Nur düsturu
***Ключевые слова***: Карьера, личные отношения, социальный баланс, психологическая устойчивость, Формула Нур
***Keywords***: Career, personal relationships, social balance, psychological stability, Nur formula

**I hissə**

Müasir dövrdə qadınların həm karyera həm hədəflərinə çatmaq , həm də şəxsi münasibətlərini sağlam şəkildə davam etdirmək istəyi aktual sosial məsələdir. Bu, ikitərəfli yanaşma tələb edən mövzudur,çünki həm sosial – mədəni, həm də psixoloji və analitik aspektləri özündə birləşdirir.

Bu məqalədə biz aşağıdakı əsas sualı araşdıracağıq :

**“Karyera hədəfləri olan xanımlar üçün şəxsi münasibətləri balanslamaq mümkündürmü?”**

Qoyduğumuz bu sualı cavablandırmaq üçün biz mövzunu üç istiqamətdə əsaslandıracağıq:

**1)Sosial – mədəni aspect**

1.Qadınların karyera və ailə balansı ilə bağlı gender rolları və cəmiyyətin gözləntiləri.

2.Dünya miqyasında aparılmış araşdırmalar

3.Sosioloqların və mədəniyyətşünasların nəzəriyyələri.

**2)Psixoloji aspekt;**

1.İş-ailə balansı mövzusunda stress, emosional gərginlik və motivasiya.

2.Psixologiyada istifadə olunan nəzəri modellər

3.Araşdırmaların nəticələri: qadınların balansı qoruduqda mental sağlamlıqlarının yüksəlməsi.

**3)Analitik aspekt;**

1.Balansı çətinləşdirən faktorlar: vaxt məhdudiyyəti ,iş yeri mədəniyyəti ,sosial dəstəyin azlığı.

2.Balansı dəstəkləyən faktorlar: çevik iş saatları, texnologiyanın rolu, dövlət və institutlarınn ailə dostu siyasətləri.

3.Bu faktorların müqayisəli təhlili.

***Sosial mədəni aspekt***

Müasir cəmiyyətlərdə qadınların karyera fəaliyyəti ilə şəxsi münasibətləri balanslaşdırmaq problemi sosial- mədəni müstəvidə dərin köklərə malikdir.Ənənəvi gender rolları əsrlər boyu qadınların əsasən ailə, kişilərin isə karyera yönümlü fəaliyyətlə məşğul olmasına səbəb olmuşdur(Parsons 1955). Lakin XX əsrin sonlarından etibarən modernləşmə və qloballaşma prosesi nəticəsində qadınların əmək bazarında fəallığı artmış, bunula yanaşı ailə instutunda sosial gözləntilərin dəyişməz qalması ciddi balans çətinlikləri yaratmışdır (Hakim, 2006). Sosioloji tədqiqatlar göstərir ki, inkişaf etmiş Skandinaviya ölkələrində dövlətin tətbiq etdiyi **gender bərabərliyi siyasətləri** (məsələn, ödənişli valideyn məzuniyyəti və çevk iş rejimi) qadınların iş və şəxsi həyat balansını qorunmasında

mühüm rol oynayır (Ellingsater, 2016). Halbuki Cənubi Qafqaz regionunda, o cümlədən Azərbaycanda ənənəvi sosial – mədəni dəyərlər qadınların ailə və sosial münasibətlərdə daha çox öhdəlik daşımasına gətirib çıxarır (UNDP, 2021). Bu isə karyera ambisiyaları ilə ailə gözləntiləri arasında toqquşma etimalını artırır. Mədəniyyətşünaslıq yanaşmaları göstərir ki, fərqli mədəniyyətlərdə **“balans” anlayışı** müxtəlif formalarda qəbul edilir. Hofstede-nin (2001) “mədəniyyət ölçüləri nəzəriyyəsi”nə əsasən, kollektivist cəmiyyətlərdə ailə və sosial münasibətlər birincil dəyər kimi qəbul edilir,fərdiyyətçi cəmiyyətlərdə isə karyera naliyyətləri daha ön plana çıxır.Bu fərq balansı təmin etməyin mexanizmlərinə də təsir göstərir. Beləliklə,sosial-mədəni baxımdan qadınların karyera və şəxsi münasibtlərdə balans əldə etməsi həm cəmiyyətin gender rollarına yanaşmasndan,həm də institusional dəstək mexanizmlərinin mövcudluğundan asılıdır. Araşdırmalar göstərir ki,gender bərabərliyini təşviq edən sosial muhit qadınların karyera və şəxsi həyatlarını qarşılıqlı tamamlayıcı şəkildə inkişaf etdirməsinə şərait yaradır.

*Table 1 .Qadınların iş və şəxsi həyat balansından razılıq səviyyəsi ölkələr üzrə(%),mənbə UNPD,World Economic Forum,sosioloji tədqiqatlar*




*Table 1 izah.*

*Şəkil 1 göstərir ki, Skandinaviya ölkələrində qadınların iş və şəxsi həyat balansından razılıq səviyyəsi yüksəkdir (təxminən 70–75%), halbuki Azərbaycan və digər Cənubi Qafqaz ölkələrində bu göstərici 40–45% civarındadır. Bu fərq sosial–mədəni faktorların qadınların balans səylərinə təsirini açıq şəkildə nümayiş etdirir. Beləliklə, sosial–mədəni mühit qadınların karyera və şəxsi həyat balansını qorumasında həlledici rol oynayır.*

*Table 2. İndiviudalizm və kollektivzm*

Ten Differences Between Collectivist and Individualist Societies

| Individualism | Collectivism |
|---|---|
| Everyone is supposed to take care of him- or herself and his or her immediate family only | People are born into extended families or clans which protect them in exchange for loyalty |
| "I" – consciousness | "We" –consciousness |
| Right of privacy | Stress on belonging |
| Speaking one's mind is healthy | Harmony should always be maintained |
| Others classified as individuals | Others classified as in-group or out-group |
| Personal opinion expected: one person one vote | Opinions and votes predetermined by in-group |
| Transgression of norms leads to guilt feelings | Transgression of norms leads to shame feelings |
| Languages in which the word "I" is indispensable | Languages in which the word "I" is avoided |
| Purpose of education is learning how to learn | Purpose of education is learning how to do |
| Task prevails over relationship | Relationship prevails over task |

Produced by The Berkeley Electronic Press, 2011 11

### *Psixoloji aspekt*

Karyera və şəxsi münasibətlər balansı yalnız sosial – mədəni gözləntilərdə deyil,həm də fərdin daxili psixoloji sabitliyi ilə müəyyən olunur. Psixologiya sahəsində aparılmış

araşdırmalar göstərir ki, iş-ailə balansı problemi əksər hallarda **stress ,emosional gərginlik və motivasiya** ilə əlaqəlidir (Greenhaus; Beutell, 1985). **Stress nəzəriyyələri** göstərir ki, fərdin üzərinə düşən rol öhdəlikləri arasında konflikt yarandıqda psixoloji gərginlik artır (Lazarus&Folkman, 1984). Bu konflikt qadınlar üçün daha kəskin olur, çünki onlar həm peşəkar, həm də ailəvi məsuliyyətləri paralel daşımaq məcburiyyətində qalırlar. Əgər balans qorunmazsa,bu,"burnout"(emosional yanma) sindromuna gətirib çıxara bilər (Maslach & Leiter, 2016). Digər tərəfdən,psixologiyada **özünü reallaşdırma** (self-actualization) anlayışı xüsusi əhəmiyyət kəsb edir.Biz özünü reallaşdırma anlayışını Maslowun piramidası ilə izah edək.

Maslounun (1943) ehtiyaclar iyerarxiyası nəzəriyyəsinə əsasən ,insan yanlız baza və sosial ehtiyaclarını ödədikdən sonra öz potensialını tam reallaşdıra bilər. Karyera və şəxsi münasibətlər arasında balans əldə edilməsi bu baxımdan qadınlara psixoloji təminat verir və özünüreallaşdırma səviyyəsini yüksəldir. (table 3)

*Table 3.Maslovun ehtiyaclar piramidası*




*Table 4. Piramidaya görə:*

- ***baza ehtiyaclar (fizioloji və təhlükəsizlik ehtiyacları)*** *— insanın gündəlik rifahı, sabit gəlir, fiziki və emosional təhlükəsizliklə bağlıdır;*
- ***sosial ehtiyaclar*** *— sevgi, aidiyyət, yaxın münasibətlər və sosial qəbul hissidir.*

*Bu mənada qadınların karyera və şəxsi həyat balansında bu iki mərhələ çox vacibdir, çünki:*

*baza ehtiyacların təmin olunması (maddi və emosional təhlükəsizlik) qadının stress səviyyəsini azaldır və psixoloji rahatlıq yaradır;*

*sosial ehtiyacların ödənməsi (tərəfdaşla qarşılıqlı hörmət və emosional dəstək) onun motivasiyasını və özünüreallaşdırma potensialını artırır*

*Ümumiyyətlə onu da qeyd etməliyik ki, baza ehtiyaclar və sosial ehtiyaclar zamanı partnyordan(tərəfdaşdan) asıllıq payı yüksəkdir.*

Əlavə olaraq, araşdırmalar göstərir ki, **emosianal dəstək** (ailə üzvlərindən,tərəfdaşdan və sosial çevrədən) balansın qorunmasında mühüm rola malikdir (Allen, 2001). Bu dəstək stressin mənfi təsirini azaldır və qadınların həm karyera, həm də münasibət sahəsində motivasiyasını gücləndirir. Beləliklə, psixoloji aspektdən yanaşdıqda balans yalnız xarici amillərlə deyil,fərdin daxili emosional vəziyyəti və psixoloji dayanıqlılığı ilə formalaşır. Emprik dəlillər göstərir ki, emosional sabitlik və sosial dəstək şəbəkələri güclü olan qadınlar karyera və şəxsi münasibətlərini daha effektiv şəkildə uzlaşdıra bilirlər

Stressin çoxluğu → "Burnout" / tükənmişlik sindromu → Özünü reallaşdırma imkanlarının məhdudlaşması → Nəticədə karyera və şəxsi həyat balansının pozulması → Sosial-mədəni faktorların (məsələn, cənubi Qafqaz regionu) bu balansı təsirləndirir

*Table 4.Radar chart.Faktorların qarşılıqlı müqayisəsi*




***Analitik aspekt***

Analitik aspekt qadınların iş və şəxsi həyat balansını daha ölçülə bilən və müqayisə edilə bilən bir prizma vasitəsilə qiymətləndirməyə imkan verir. OECD ölkələrində aparılan sorğular göstərir ki, çevik iş rejimi tətbiq edən müəssisələrdə qadınların 63%-i balansı qoruduğunu bildirir, halbuki ənənəvi iş saatları ilə çalışan qadınlarda bu göstərici yalnız 38%-dir. Bu məlumatlar balansın təsadüfi olmadığını, konkret sosial və təşkilati faktorlarla əlaqəli olduğunu ortaya qoyur. Eyni zamanda, Skandinaviya ölkələrində ailə dostu siyasətlərin güclü olması səbəbindən qadınların həm karyera, həm də ailə həyatında iştirak səviyyəsi digər regionlara nisbətən yüksəkdir. Bu analiz yalnız fərdi səviyyədə deyil, həm də sosial-mədəni aspektlərlə bağlı tendensiyaları göstərir və nəzəri bilikləri real dünya göstəriciləri ilə dəstəkləyir. Beləliklə, analitik aspekt gələcəkdə balansın proqnozlaşdırılması və riyazi modelləşdirmə üçün möhkəm əsas yaradır.

**NUR DÜSTURU**

**II hissə**

**Giriş**

Məqalə iki əsas hissədən ibarətdir. Teorik hissədə balansın mövcudluğunun mümkün olduğu və müəyyən şərtlər daxilində realizə oluna biləcəyi göstərilmişdir. Bu nəticə balans anlayışının nəzəri əsaslarını müəyyən edir və onun riyazi baxımdan mümkünlüyünü ortaya qoyur. Məqalənin növbəti əsas məqsədi **balansın ölçülə bilərliyidir**. Praktik hissədə balansın real nümunələr üzərində necə hesablanacağını və **vizuallaşdırılacağını** araşdıracağıq, bu isə nəzəri nəticələrin praktik tətbiq imkanlarını qiymətləndirməyə imkan verəcək.

Balans üç əsas amil – fərdi **(A)**, psixoloji **(P)** və sosial **(S)** – əsasında müəyyən olunur və bu amillər üçölçülü vektor kimi ifadə edə bilərik:

**u= (A, P, S)**

Balansın miqdarı vektorun uzunluğu ilə ölçülür:

**B =** $\|u\| = \sqrt{A^2 + P^2 + S^2}$ **(Nur düsturu).**

Hər bir komponent balansın ümumi miqdarına öz qatqısını verir. Hər bir ox üzrə yerləşdirilmiş komponentlər (**x-oxu A, y-oxu P, z-oxu S**) vasitəsilə vektorun uzunluğu B balansın ümumi miqdarını göstərir. Praktik hissədə hər bir nümunədə **A, P, S** qiymətləri

müəyyən ediləcək və balans B hesablanacaq. Bu yanaşma həm nəzəri isbatı tamamlayır, həm də balansın ölçülə bilərliyini vizual və kvantitativ olaraq nümayiş etdirir.

**Müzakirə və Nəticə**

Araşdırma göstərir ki, sosial balans fenomeni fərdi rifah və cəmiyyətin inkişafı üçün əsas şərtlərdən biridir. **"Nur düsturu"** bu problemi həm nəzəri, həm də tətbiqi səviyyədə ölçülə bilən modelə çevirir. Bu yanaşma sosial elmlərdə balans anlayışına yeni metodoloji baxış gətirir və gələcək tədqiqatçılar üçün nəzəri-praktiki baza formalaşdırır.

*Table 5.Nur düsturunun vizualizasiyası*




## ƏDƏBİYYAT

*1.* Allen, T. D. (2001). Family-supportive work environments: The role of organizational perceptions. Journal of Vocational Behavior, 58(3), 414-435.

2. Ellingsæter, A. L. (2016). Scandinavian welfare states and gender equality: A comparative perspective. Acta Sociologica, 59(2), 123–139.

3. Greenhaus, J. H., & Beutell, N. J. (1985). Sources of conflict between work and family roles. Academy of Management Review, 10(1), 76-88.

4. Hakim, C. (2006). Women, careers, and work-life preferences. British Journal of Sociology, 57(2),
189-208.

5. Hofstede, G. (2001). Culture's consequences: Comparing values, behaviors, institutions, and organizations across nations. Sage Publications.

6. Lazarus, R. S., & Folkman, S. (1984). Stress, appraisal, and coping. Springer.

7. Maslach, C., & Leiter, M. P. (2016). Understanding the burnout experience. World Psychiatry, 15(2), 103-111.

8. OECD (2008). Handbook on constructing composite indicators. OECD Publishing.

9. Parsons, T. (1955). Family, socialization and interaction process. Free Press.

10. UNDP. (2021). Gender equality in the South Caucasus. United Nations Development Programme.

11.Csikszentmihalyi, M. (1990). Flow: The psychology of optimal experience. New York: Harper & Row.

12.Frankl, V. E. (2006). Man's search for meaning. Boston: Beacon Press.

13.Seligman, M. E. P. (2011). Flourish: A visionary new understanding of happiness and well-being. New York: Free Press.

14.Ryan, R. M., & Deci, E. L. (2000). Self-determination theory and the facilitation of intrinsic motivation, social development, and well-being. American Psychologist, 55(1), 68–78.

# NUR DÜSTURU: SOSİAL, PSİXOLOJİ VƏ ANALİTİK ASPEKTLƏR KONTEKSTİNDƏ KARYERA VƏ ŞƏXSİ MÜNASİBƏTLƏRDƏ BALANS

***Murad Israfilov***

## XÜLASƏ

Bu məqalədə müasir dövrdə qadınların karyera və şəxsi münasibətlər arasında balans yaratmaq problemi araşdırılır. Sosial-mədəni, psixoloji və analitik aspektlər əsasında “Nur düsturu” adlı yeni metodoloji model təqdim olunur. Riyazi yanaşma vasitəsilə balansın ölçülməsi və qiymətləndirilməsi mümkün olur. Bu tədqiqat sosial elmlərdə balans anlayışına yenilikçi nəzəri və praktiki yanaşma təklif edir.

# ФОРМУЛА СВЕТА: БАЛАНС В КАРЬЕРЕ И ЛИЧНЫХ ОТНОШЕНИЯХ В КОНТЕКСТЕ СОЦИАЛЬНЫХ, ПСИХОЛОГИЧЕСКИХ И АНАЛИТИЧЕСКИХ АСПЕКТОВ

***Мурад Исрафилов***

## АННОТАЦИЯ

В данной статье исследуется проблема создания баланса между карьерой и личными отношениями женщин в современном обществе. На основе социально-культурных, психологических и аналитических аспектов предлагается новая методологическая модель — «Формула Нур». С помощью математического подхода становится возможным измерение и оценка баланса. Данное исследование предлагает инновационный теоретический и практический подход к понятию баланса в социальных науках.

# THE LIGHT FORMULA: BALANCE IN CAREER AND PERSONAL RELATIONSHIPS IN THE CONTEXT OF SOCIAL, PSYCHOLOGICAL AND ANALYTICAL ASPECTS

***Murad Israfilov***

## ABSTRACT

This article explores the issue of balancing women’s career and personal relationships in modern society. Based on socio-cultural, psychological, and analytical aspects, a new methodological model called the “Nur Formula” is proposed. Through a mathematical approach, the measurement and evaluation of balance become possible. This research introduces an innovative theoretical and practical perspective on the concept of balance in the social sciences.

# PSİXOAKTİV MADDƏ İSTİFADƏSİNİN SOSİAL NƏTİCƏLƏRİ

***Məmmədova Xanım Natiq qızı***
***BDU-nun II kurs magistrantı***
**mammadkhanim@gmail.com**

***Açar sözlər:*** psixoaktiv maddələr, cinayətkarlıq, qeyri-qanuni, statistika, narkotik maddələr, intihar
***Ключевые слова:*** психоактивные вещества, преступность, незаконный, статистика, наркотики, самоубийство
***Keywords:*** psychoactive substances, crime, illegal, statistics, drugs, suicide.

Psixoaktiv maddələrin istifadəsi, idxalı və ixracatı sosial, psixoloji, tibbi, iqtisadi, ekoloji və hüquqi kimi bir çox problemləri özündə birləşdirir. Psixoaktiv maddələrin qanunsuz dövriyyəsi cəmiyyətdə müxtəlif sosial problemlərin yaranmasına və ya həmin problemlərin geniş vüsət almasına səbəb olur. Belə ki, psixoaktiv maddələrin qanunsuz dövriyyəsi zamanı yetkin yaşlı şəxslərin oğurluq, cinayət, zorakılıq, təcavüz, şiddət, yol nəqliyyat hadisələri, dələduzluq, silahlı və silahsız hücum, şantaj və təhdid, intihar kimi bir çox problemlərin yaranmasına səbəb olduqları məlum olmuşdur. Yetkinlik yaşına çatmayan şəxslərdə isə psixoaktiv maddələrin qanunsuz dövriyyəsi zamanı evi tərk etmə, cinsi istismara məruz qalma, təhsildən yayınma, siqaret çəkmə, spirtli içkilər qəbul etmə, özünə sui-qəsd kimi problem müşahidə edilib.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin cinayətkarlıq və hüquqpozmalar üzrə 2025-ci ildə dərc etdiyi statistik məlumatlara əsasən qeyd etmək olar ki, əhalinin narkomaniya və toksikomaniya ilə xəstələnməsi kəskin sürətdə artıb. Belə ki, 2024-cü ildə narkotik maddə asılılığı diaqnozu ilk dəfə qoyulan şəxslərin statistikası əvvəlki illərə nisbətən artaraq 4967 nəfərə, toksikomaniya üzrə göstərici isə 1091 nəfərə çatıb. Ötən il tibbi müəssisələrdə qeydiyyatda olan narkotik maddə asılılığı üzrə müalicə alan xəstələrin sayı 40 490 nəfər, toksikomaniya üzrə isə xəstə sayısı 2492 nəfər olub. Əsas cinayət növləri üzrə qeydə alınmış statistikaya əsasən, qeyri-qanuni şəkildə narkotik vasitələr, psixoaktiv maddələr, habelə onların prekursorlarının idxal və ixracat edilməsi, alqı-satqısı, əldə edilməsi, saxlanılması, daşınması və göndərilməsi üzrə ötən illərə nisbətən cinayət halları çoxalmış və 8 551 nəfərə çatmışdır. Cinayət törədənlərin arasında daha öncə məhkumluğu olan və əmək qabiliyyəti olsa da işləməyən və təhsil almayan şəxslərin üstünlük təşkil etdiyi məlum olub. Bununla yanaşı, cinayətkarların böyük əksəriyyəti təhsil səviyyəsi orta və ya orta ixtisas təhsilli şəxslərdən ibarətdir. 2023-cü ilin statistik məlumatlarına əsasən demək olar ki, bu göstərici 70,6% olub. Bu göstərici isə digər bütün cinayət növlərinin göstəricilərindən daha yüksəkdir. Onu da qeyd etmək lazımdır ki, azyaşlıların psixoaktiv maddələrin qeyri-qanuni dövriyyəsi ilə bağlı cinayət əməllərinin törədilməsi hadisələri ildən-ilə azalsa da, yetkinlik yaşına çatmış və xüsusilə də, 30 yaşdan yuxarı şəxslərin cinayət törətmə nisbiliyi ötən illərlə müqayisədə artmışdır. 2023-cü ilin statistik məlumatlarına əsasən, həmin göstərici 77,9% təşkil edir.

Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, narkotik maddələrin təsiri altında törədilmiş cinayətlərin və narkotik maddələrin təsiri altında olan cinayətkarların sayı əvvəlki illərə nisbətən olduqca azalmışdır. Statistik məlumatlara əsasən onu da qeyd etmək olar ki, Azərbaycan Respublikasında narkotik və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı tətbiq olunan və geniş yayılmış cəza növü müddətlik azadlıqdan məhrum etmədir. Müddətlik azadlıqdan məhrum etmə halları isə daha çox 2 il müddətinə qədər təşkil edir.

Türkiyənin İstanbul şəhərinin Bağcılar rayonunda lisey və ekvivalent məktəblərdə təhsil alan 22 mindən yuxarı şagirddən təsadüfü olaraq seçilmiş 2627 nəfər 10-cu sinif şagirdləri

arasında aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, narkotik maddələrin qəbulu ilə cinayət arasında əlaqə vardır. Belə ki, narkotik maddə qəbulu beynin nəzarət mexanizmlərini zəiflədir və bu insanın şiddətə meyilliliyinin artmasına təsir edir.

Onu da qeyd etmək lazımdır ki, asılı olunan narkotik vəsaiti satın almaqdan ötrü lazımi məbləği tamamlamaq üçün quldurluq, oğurluq, cinayət, cinsi istismar kimi hallar da baş verir.

Narkotik maddənin istifadəsi ilə cinayətkarlıq arasında əlaqənin ümumi olaraq 3 müxtəlif nəzəriyyəsindən bəhs edilir. Birinci nəzəriyyəyə görə narkotik maddə istifadəsi cinayətkarlığa və ya əksinə cinayətkarlıq narkotik maddə istifadəsinə səbəb olur. İstifadə olunan maddənin psixoaktiv təsiri, narkotik maddə aludəçilərinin maddəni əldə edə bilmələri üçün qanunsuz yollara baş vurmaları və maddi gəlir əldə etmək üçün, narkotik maddənin idxalı, ixracatı və ticarəti zamanı cinayət törətmələri birinci nəzəriyyəyə aid hesab olunur. İkinci nəzəriyyəyə görə sosial çevrə, ətraf mühit və psixoloji amillər narkotik maddə istifadəsinə və cinayətkarlığa səbəb olur. Üçüncü nəzəriyyəyə görə isə cinayətarlıq və narkotik maddə istifadəsi iki fərqli davranış pozuntusu kimi izah edilir.

Araşdırmalar narkotik maddə istifadəçilərinin ümumi əhaliyə nisbətən intihar etmə riskinin də daha yüksək olduğunu göstərir. Vaxtından əvvəl həyatını itirən hər dörd narkotik maddə istifadəçilərindən birinin ölüm səbəbi intihardır. Xüsusilə də, opioid intihar edərək ölən insanlarda daha çox təsbit edilir və marixuana, kokain, amfetaminə nisbətən göstəriciləri daha yüksəkdir. Opioid istifadəsi ilə artan intihar riski bir neçə faktorla bağlıdır. Bunların arasında ailə dəstəyinin az olması, işsizliklik, evsizlik kimi sosial poblemlər var. Əlavə olaraq da uşaqlıqda cinsi istismara məruz qalma kimi hallar opioid istifadəçilərinin intihar etmə riskini önəmli dərəcədə artırır.

Psixoaktiv maddələrdən asılılıq mənfi təsirlərini yalnız istifadəçiyə deyil, həmin asılı şəxslə əlaqəsi olan hər kəsə göstərir. Asılıların ailə üzvləri, dostları, qonşuları, işi, hətta iqtisadiyyat və sosial tərəfdən cəmiyyət də şəxsin psixoaktiv maddə istifadəsindən mənfi təsirlənir.

Siqarət və spirtli içkilərin istifadəsi cəmiyyət tərəfindən normallaşdırılsa da, onların da psixoaktiv maddə hesab edildiyi və zərərlərinin narkotik maddələr qədər olduğu nəzərə alınmalıdır. Belə ki, gənclərin narkotik vasitələrdən istifadəsinin onların psixososial və sağlamlıqlarına olan təsirlərini araşdırmaq üçün 15 yaşdan 25 yaşa qədər 1004 gənc kişi və qadın arasında tədqiqat aparılıb və siqarət, alkoqol, marixuana və digər qeyri-qanuni narkotik maddələrdən ibarət dörd müxtəlif növ psixoaktiv maddələrin gənclərə olan təsirləri yoxlanılıb. Ailə daxili münasibətlər, təhsil səviyyəsi, hüquq pozuntuları, psixoloji simptomlar kimi iyirmi müxtəlif nəticə araşdırılıb. Nəticədə marixuana və digər qeyri-qanuni narkotik maddələrin təsirlərini ayırd etmək mümkün olmayıb və ümumi olaraq təsbit edilib ki, narkotik maddələrin istifadəsi işsizliyə, cinayətlərə, boşanmalara, abortlara səbəb olur. Siqarət istifadəsinin isə psixoloji olaraq əhval-ruhiyyənin aşağı düşməsinə, tənəffüs çətinliyinin artmasına səbəb olduğu məlum olub.

Son olaraq onu da vurğulamaq lazımdır ki, psixoaktiv maddə istifadəçiləri sosial problemlərin yaranmasına səbəb olduğu kimi, sosial problemlər də psixoaktiv maddə istifadəsinə yol açır. Həmin problemləri nəzərdən keçirməli olsaq, bu problemlərin başında yoxsulluq gəlir. Məlumdur ki, sosial-iqtisadi vəziyyətin aşağı olduğu yerlərdə uçucu narkotik maddələrin, əksinə sosial-iqtisadi vəziyyətin yuxarı olduğu yerlərdə isə kokaindən istifadə geniş yayılıb. Yoxsulluğun birbaşa narkotik maddələrdən asılılığa səbəb olduğu faktiki olaraq sübut olunmasa da, təsir etdiyi məlumdur.

Təhsil müəssisələri gənc və yeniyetmələri psixoaktiv maddə istifadəsindən çəkindirə biləcəyi kimi, əksinə onları asılı hala salacaq qaynaq rolunu da oynaya bilər. Bu səbəblə təhsil müəssisələrində (məktəb, kollec, universitet) həmyaşıdlarla qurulacaq dostluqlar və çevrə çox mühüm rol oynayır.

Ailə daxili münasibətlər və valideyn nəzarəti də şəxsin psixoaktiv maddələrdən istifadəyə başlaması, davam etdirməsi baxımından olduqca vacibdir. Bununla yanaşı valideynlərindən biri və ya hər ikisi psixoaktiv maddə istifadəçisi olan şəxslərin də həmin maddələrin istifadəsinə başlaması məlumdur və burada genetik faktorları da unutmamaq lazımdır.

Mədəni amillər və media da psixoaktiv maddə istifadəsinə səbəb olan faktorlar arasında yer alır. Məsələn, marixuananın bəzi ölkələrdə tibbi və ya rekreasion istifadəsinə icazə verilsə də, ölkəmizdə həmin maddədən istifadə qəti qadağandır.

Təhsil səviyyəsinin aşağı olması da psixoaktiv maddədən istifadəyə yol açır, eləcə də psixoaktiv maddənin istifadəsi təhsil səviyyəsinin geriləməsinə səbəb olur. Bu qarşılıqlı təsir şəxsin işi və karyerası arasında da baş verir. Belə ki, işsiz qalan bir şəxsin psixoaktiv maddədən asılı olmasına, psixoaktiv maddədən asılılıq isə şəxsin işini itirməsinə səbəb olur.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
https://www.stat.gov.az/source/crimes/
https://www.stat.gov.az/news/index.php?lang=az&id=5798
2. Demet Karakartal; "Uyuşturucu Madde Bağımlılığı ve Suç İlişkisi", Uluslararası Beşeri Bilimler ve Eğitim Dergisi, Cilt 6, səh 614-623, 24.04.2020
https://dergipark.org.tr/tr/download/article-file/1069454
3. Cuneyt Gurer, Arif Akgul; Substance use and crime: the results of a survey research (Madde kullanımı ve suç ilişkisi: kesitsel bir araştırma)
https://www.researchgate.net/profile/Arif-Akgul/publication/321019875_Substance_use_and_crime_the_results_of_a_survey_research_Madde_kullanimi_ve_suc_iliskisi_kesitsel_bir_arastirma
4. Bahadır Geniş, Ferit Şahin, Nermin Gürhan; "Alkol/Madde Kullanım Bozukluklarında Şiddet ve İntiharın Nörobiyolojik Temelleri", Psikiyatride Güncel Yaklaşımlar-Current Approaches in Psychiatry 2022
https://dergipark.org.tr/tr/download/article-file/1985490
5. П.Б. Зотов, Н.А. Бохач, М.С. Хохлов, И.М. Петров, Е.Г. Скрябин, О.П. Зотова, В.Г. Петров; СУИЦИДАЛЬНЫЕ ДЕЙСТВИЯ НАРКОЗАВИСИМЫХ: ВОПРОСЫ СИСТЕМНОГО ВЫЯВЛЕНИЯ И УЧЁТА https://cyberleninka.ru/article/n/suitsidalnye-deystviya-narkozavisimyh-voprosy-sistemnogo-vyyavleniya-i-uchyota
6. İlker Aktürk; Bağımlılığa neden olan sosyal sorunlar
https://ilkerakturk.com.tr/resimler/2348629-bagimliliga-neden-olan-sosyal-sorunlar.pdf
7. Kandel, D., Davies, M., Karus, D., & Yamaguchi, K. (1986). The Consequences in Young Adulthood of Adolescent Drug Involvement: An Overview. Archives of General Psychiatry, 43(8), 746-754. https://pubmed.ncbi.nlm.nih.gov/3729669/

# PSİXOAKTİV MADDƏ İSTİFADƏSİNİN SOSİAL NƏTİCƏLƏRİ

***Məmmədova Xanım***

## XÜLASƏ

Bu məqalədə psixoaktiv maddələrdən istifadənin asılı şəxslərdə yaratdığı mənfi təsirlərdən və psixoaktiv maddə istifadəçilərinin səbəb olduğu sosial problemlərdən bəhs edilmişdir. Məqalənin əsas məqsədi siqarət, alkoqol və xüsusilə də narkotik kimi psixoaktiv maddə istifadəçilərinin özündən savayı, cəmiyyət üçün də təhlükə doğurduğunu göstərməkdir.

Məqalədə psixoaktiv maddə istifadəçilərinin cinayətkarlıq, intihara təşəbbüs etmə, işsizlik, təhsil məsələləri kimi problemləri yer almaqdadır.

## СОЦИАЛЬНЫЕ ПОСЛЕДСТВИЯ УПОТРЕБЛЕНИЯ ПСИХОАКТИВНЫХ ВЕЩЕСТВ

***Мамедова Ханум***

## АННОТАЦИЯ

В данной статье рассматриваются негативное влияние употребления психоактивных веществ на лиц с зависимостью от них, а также социальные проблемы, возникающие из-за употребления этих веществ. Основная цель статьи — показать, что потребители психоактивных веществ, таких как курение, алкоголь и, особенно, наркотики, представляют угрозу не только для себя, но и для общества.

В статье рассматриваются проблемы, связанные с употреблением психоактивных веществ, такие как преступность, попытки самоубийства, безработица и проблемы с образованием.

## SOCIAL CONSEQUENCES OF PSYCHOACTIVE SUBSTANCE USE

***Mammadova Khanim***

## SUMMARY

This article discusses the negative effects of psychoactive substance use on dependent individuals and the social problems caused by psychoactive substance users. The main purpose of the article is to show that psychoactive substance users such as smoking, alcohol and especially drugs pose a threat not only to themselves but also to society.

The article discusses the problems of psychoactive substance users such as crime, suicide attempts, unemployment, and education issues.

# KEYFİYYƏT TƏDQİQATLARINDA DƏRİNLƏŞDİRİLMİŞ İNTERVÜNÜN ROLU,TƏTBİQİ XÜSUSİYYƏTLƏRİ VƏ ÜSTÜNLÜKLƏRİ

***Bağırlı Bəyaz Xaləddin qızı***
***BDU-nun II kurs magistrantı***
***byazbagirli@gmail.com***

***Açar sözlər:*** Keyfiyyət tədqiqatları, dərinləşdirilmiş intervü, iştirakçı baxışı, etik prinsiplər, tematik analiz
***Ключевые слова:*** Качественные исследования, углубленное интервью, точка зрения участника, этические принципы, тематический анализ
***Keywords:*** Qualitative research, in-depth interview, participant perspective, ethical principles, thematic analysis.

Dərinləşdirilmiş intervü keyfiyyət tədqiqatlarında iştirakçıların həyat təcrübələrini, inanclarını və mənalandırma proseslərini sistemli və əhatəli şəkildə açmaq üçün istifadə olunan əsas metodlardan biridir. Bu metod tədqiqatçı ilə iştirakçı arasında dialoqun dərinliyinə əsaslanaraq sadə faktların toplanmasından daha çox, subyektiv məna və kontekstual əlaqələrin aşkara çıxarılmasına xidmət edir. Ənənəvi sorğu və anket üsullarının məhdud informasiyasından fərqli olaraq, dərinləşdirilmiş intervü iştirakçının öz dilində və öz zaman qrafikində fenomeni şərh etməsinə imkan yaradır; bu, yalnız davranışın yox, həm də motivasiyaların, hisslərin və situasiyaların anlaşılmasını təmin edir (Fontana & Frey, 1998). Metodun tətbiqi sosial elmlərdə fenomenoloji, etnoqrafik, narrativ və nəzəriyyə yaradıcı (grounded theory) yanaşmalarla sıx əlaqəlidir və hər bir yanaşma intervünün struktur səviyyəsini və analiz strategiyasını fərqli dərəcədə tələb edir.

Dərinləşdirilmiş intervünün nüvəsində tədqiqatçının sualvermə sənəti, aktiv dinləmə və uyğun zamanda məqsədəuyğun sorğular vermək dayanır. Yaxşı qurgulanmış intervü yalnız əvvəlcədən müəyyən edilən sualların ardıcıllığı deyil; o, iştirakçının danışdığı məqamlar üzərində dərinləşən, yeni aspektləri üzə çıxaran və lazımi izahatları tələb edən dinamik prosesdir. Kvale-nin işlərində də vurğulandığı kimi, intervü aləti həm məlumat toplamaq, həm də məlumat yaratmaq rolunu oynayır; yəni intervü prosesi vasitəsilə yeni məna və anlayışlar formalaşa bilər (Kvale, 2007). Bu baxımdan, intervü təkcə passiv sorğu aləti deyil, interaktiv və konstruktor bir elmi praktikadır.

Metodun tətbiqi mərhələləri planlaşdırmadan başlayaraq transkripsiya və analizə qədər ardıcıl və diqqətli icra tələb edir. İştirakçı seçimi məqsədəuyğun (purposive) və ya nəzəri (theoretical) seçim prinsiplərinə uyğun həyata keçirilir; məqsəd nümunənin statistik təmsilçiliyi deyil, tədqiq edilən fenomenə dair zəngin və müxtəlif perspektivləri təmin etməkdir. Intervü strukturuna görə tam strukturlaşdırılmamış, yarı-strukturlaşdırılmış və strukturlaşdırılmış ola bilər; praktikada yarı-strukturlaşdırılmış intervülər daha geniş istifadə olunur, çünki onlar həm müqayisə aparmağa şərait yaradır, həm də iştirakçının öz təcrübəsini sərbəst ifadə etməsinə imkan verir.

Etik məsələlər dərinləşdirilmiş intervünün ayrılmaz hissəsidir və xüsusi diqqət tələb edir. Məxfiliyin təminatı, könüllü məlumatlandırılmış razılığın alınması və iştirakçının emosional yükünün qorunması praktikada prioritet olmalıdır. Dərinləşdirilmiş intervü həssas mövzulara toxuna bilər; belə hallarda tədqiqatçı iştirakçının rifahına üstünlük verərək söhbəti uyğun şəkildə idarə etməli və lazım gəldikdə psixoloji dəstək mənbələrinə yönləndirmə imkanlarını təmin etməlidir. Həmçinin, audio və ya video qeydiyyatın istifadəsi qərarı iştirakçının razılığı ilə və etik komitə tələblərinə uyğun olmalıdır; qeydiyyat olmadan aparılan intervülər daha məhdud, lakin bəzən daha etibarlı emosional ifadə üçün əlverişli ola bilər.

Transkripsiya və analiz mərhələsi dərinləşdirilmiş intervünün elmi dəyərini müəyyən edən əsas komponentlərdəndir. Qeydlərin və audioyazıların dəqiq və kontekstual transkripsiyası tədqiqatın etibarlılığını artırır və detalların itirilməsinin qarşısını alır. Analiz metodları müxtəlifdir: tematik analiz, məna vahidlərinin kodlaşdırılması, narativ analiz və ya nəzəriyyə yaradıcı analiz (grounded theory) kimi yanaşmalar geniş tətbiq olunur. Tematik analiz vasitəsilə mətnlərdən təkrarlanan motivlər, nümunələr və əlaqələr çıxarılır; nəzəriyyə yaradıcı analiz isə mərhələli kodlaşdırma və axın diagramları ilə yeni nəzəri anlayışların formalaşmasına yardımçı olur.

Dərinləşdirilmiş intervünün etibarlılıq və etika kontekstində qiymətləndirilməsi üçün bir sıra strategiyalar mövcuddur. Tədqiqatın gücləndirilməsi üçün "member checking" (iştirakçıların nəticələri yoxlaması), triangulyasiya (müxtəlif mənbə və metodlardan istifadə), audit trail (araşdırmanın hər mərhələsinin sənədləşdirilməsi) və inter-koder razılığı kimi prosedurlar tətbiq edilə bilər. Bu yanaşmalar tədqiqatın subyektiv elementlərini idarə etməyə və nəticələrin inandırıcılığını artırmağa xidmət edir. Patton-un təsvir etdiyi kimi, keyfiyyət tədqiqatlarında "etibarlılıq" anlayışı kvantitativ tədqiqatdakı ölçü sabitliyi ilə məhdudlaşmır; o, mətnin zənginliyi, dərinliyi və kontekstlə bağlılığı ilə ölçülür (Patton, 2015). Buna görə də, nəticələrin təqdimatında "qalın təsvir" (thick description) vasitəsilə kontekstin geniş şəkildə açıqlanması vacibdir.

Dərinləşdirilmiş intervünün ən önəmli üstünlüklərindən biri iştirakçıların öz sözləri ilə dünyaqavrayışlarını təqdim etməsinə imkan verməsidir. Bu, yalnız faktların qeydindən daha çox, həyati təcrübələrin, emosiyaların və məna qatlarının aşkara çıxmasını təmin edir. Metod həmçinin fenomenlərin zaman daxilində necə dəyişdiyini, iştirakçının həyat tarixçəsi ilə necə əlaqələndiyini göstərməyə yardım edir. Bununla əlaqədar olaraq, dərinləşdirilmiş intervü sosial siyasət, təhsil, səhiyyə və təşkilati araşdırmalar kimi müxtəlif sahələrdə praktik tövsiyələrin formalaşdırılmasına zəmin yaradır, çünki o, siyasət və praktikaya uyğun, təsirə malik məlumatlar təqdim edə bilir. Məsələn, səhiyyə xidmətində pasiyentlərin təcrübələrini geniş və detallı şəkildə anlamaq müvafiq müdaxilələrin dizaynında həlledici rol oynayır.

Bununla belə, metodun müəyyən məhdudiyyətləri də vardır və tədqiqatçı bu məhdudiyyətləri nəzərə alaraq planlama aparmalıdır. Ən bariz məhdudiyyətlərdən biri resurs tələbatıdır: dərinləşdirilmiş intervülər adətən uzun müddət çəkir, həm aparılma, həm də transkripsiya və analiz mərhələlərində vaxt və maliyyə xərcləri yüksək ola bilər.

İntervü prosesində tədqiqatçının rolu və mövqeyi ayrıca mühüm məsələdir. Tədqiqatçı nüfuz və güc strukturunu dərk etməli, öz mövqeyinin məlumatların formalaşmasına təsirini analiz etməli və reflexivity — yəni özünü-analiz vasitəsilə mümkün önyargı və təsirləri ortaya qoymalıdır. Reflexivity tədqiqatın şəffaflığını artırır və oxucuya nəticələrin necə formalaşdığını göstərir. Praktik tərəfdən, dərinləşdirilmiş intervünün uğuru yaxşı hazırlanmış pilot intervülərlə başlanır. Pilot mərhələsi sual dilinin aydınlığını, intervünün axıcılığını və lazımi probe-ların effektivliyini yoxlamağa imkan verir. Həqiqi intervülərdə tədqiqatçı məkanı və əlaqə şəraitini nəzərə almalı, rahat və etibarlı atmosfer yaratmaq üzərində işləməlidir. Məkanın seçimi — şəxsi kabinet, ev, onlayn platforma və ya ictimai məkan — iştirakçının rahatlığına və mövzunun həssaslığına uyğun seçilməlidir. Dil və mədəniyyət məsələləri də dərinləşdirilmiş intervülərdə xüsusi əhəmiyyət kəsb edir. Tərcümə olunmuş intervülərdə dilin incəlikləri və mədəniyyətə xas anlam qatları asanlıqla itə bilər; buna görə transkripsiya və tərcümə prosesində orijinallığın qorunması üçün işin ikidilli və ya mədəniyyət üzrə məsləhətçilərlə birgə aparılması tövsiyə olunur.

Dərinləşdirilmiş intervünün analitik gücünü artırmaq üçün müasir texnoloji alətlərdən istifadə geniş yayılmışdır. Audio yazıların yüksək keyfiyyətli qeydiyyatı, avtomatik transkripsiya proqramları və keyfiyyət tədqiqatı üçün nəzərdə tutulmuş proqram təminatları (məsələn, kodlaşdırma üçün nəzəri alətlər) analiz prosesini sürətləndirir və təşkil edir.

Lakin texnoloji alətlərdən istifadədə ehtiyatlı olmaq lazımdır: avtomatik transkripsiyaların səhvləri və kontekstin düzgün interpretasiyasını təmin etməməsi ehtimalı var, buna görə insan redaktəsi və keyfiyyət yoxlaması zəruridir.

Müxtəlif tədqiqat dizaynlarında dərinləşdirilmiş intervü fərqli məqsədlərə xidmət edir; bəzi tədqiqatlarda o, fenomenin ilkin xəritəsini çıxarmaq üçün istifadə edilir, bəzən isə mövcud nəzəriyyələri yoxlamaq və ya yeni nəzəri konsepsiyalar yaratmaq üçün əsas məlumat mənbəyi olur. Hər iki halda intervünün strukturunu və analiz metodunu tədqiqat sualı ilə sıx əlaqələndirmək vacibdir. Grounded theory yanaşmasında intervülər və analiz prosesi iterativ şəkildə bir-birini izləyir: ilkin intervülərdən çıxan kodlar sonrakı intervülərdə test edilir və bunun nəticəsində nəzəri saturasiya əldə edilənə qədər yeni intervülər aparılır. İnterpretasiya mərhələsində tədqiqatçı diqqətlə iştirakçıların danışdıqlarını kontekstləşdirərək, mümkün alternativ izahatları və kontradiktsiyaları da nəzərə almalıdır. Yalnız vahid məna çıxarışı deyil, eyni mövzu üzrə fərqli iştirakçıların perspektivlərindəki fərqliliklərin analiz edilməsi zəngin nəticələr verir.

Dərinləşdirilmiş intervü tədqiqatın yayımlanması və nəticələrin təqdimatında da xüsusi yanaşma tələb edir. Məlumatların təqdimatında iştirakçıların anonimliyini qorumaq, "qalın təsvir" vermək və nəticələrin məhdudiyyətlərini açıq şəkildə göstərmək elmi etikanın tələblərindən sayılır. Tədqiqat nəticələri icmal və ya praktik tövsiyələr şəklində verildikdə, onların necə əldə edildiyi barədə oxucuya aydın məlumat verilməlidir ki, nəticələrin etibarlılığı və tətbiq edilə bilənliyi qiymətləndirilə bilsin.

Ümumilikdə, dərinləşdirilmiş intervü keyfiyyət tədqiqatlarının metodoloji arsenallarında özünəməxsus və güclü yer tutur. O, tədqiqatçıya insan təcrübələrinin çoxşaxəli və kontekstə bağlı təhlilini aparmaq imkanı verir, eləcə də yeni nəzəri baxışların formalaşmasına zəmin yaradır. Eyni zamanda, metod kifayət qədər praktik bacarıq, etik həssaslıq və analitik səbr tələb edir. Effektiv tətbiq olunduqda dərinləşdirilmiş intervü yalnız məlumat toplamaq vasitəsi deyil, elmi anlayış və ictimai müqavilənin formalaşması üçün də vasitə kimi çıxış edir (Merriam, 2009). Bu mətnin məqsədi metodun əsas məqamlarını praktik və nəzəri müstəvidə nümayiş etdirməkdir; tədqiqatçıların intervü praktikalarını planlayarkən yuxarıda qeyd edilən prinsip və strategiyaları nəzərə almaları tövsiyə olunur.

## ƏDƏBİYYAT


1. Brinkmann, S., & Kvale, S. (2015). *Interviews: Learning the craft of qualitative research interviewing* (3rd ed.). Sage Publications. https://www.ejmste.com/download/book-review-in-depth-interviewing-principles-techniques-analysis-4163.pdf
2. King, N., Horrocks, C., & Brooks, J. (2019). *Interviews in qualitative research*. Sage Publications. https://uk.sagepub.com/en-gb/eur/interviews-in-qualitative-research/book241444
3. Morris, A. (2017). *A practical introduction to in-depth interviewing*. Sage Publications. https://uk.sagepub.com/en-gb/eur/a-practical-introduction-to-in-depth-interviewing/book242680
4. Merriam, S. B., & Tisdell, E. J. (2016). *Qualitative research: A guide to design and implementation* (4th ed.). Jossey-Bass. https://anyflip.com/unwzk/rejm/basic
5. Karahan, S., Uca, S., & Güdük, T. (2022). Nitel araştırmalarda görüşme türleri ve görüşme tekniklerinin uygulanma süreci. *DergiPark*. https://dergipark.org.tr/tr/pub/nsb/article/1118399
6. Rowland, A. A., Dounas-Frazer, D. R., Ríos, L., Lewandowski, H. J., & Corwin, L. A. (2019). Using the life grid interview technique in science education research. *arXiv*. https://arxiv.org/abs/1903.02386

7. Parfenova, A. (2024). Automating the information extraction from semi-structured interview transcripts. *arXiv*. https://arxiv.org/abs/2403.04819
8. King, G., Keohane, R., & Verba, S. (1994). *Designing social inquiry: Scientific inference in qualitative research*. Princeton University Press. https://en.wikipedia.org/wiki/Designing_Social_Inquiry

## KEYFİYYƏT TƏDQİQATLARINDA DƏRİNLƏŞDİRİLMİŞ İNTERVÜNÜN ROLU,TƏTBİQİ XÜSUSİYYƏTLƏRİ VƏ ÜSTÜNLÜKLƏRİ

***Bəyaz Bağırlı***

### XÜLASƏ

Dərinləşdirilmiş intervü keyfiyyət tədqiqatlarında iştirakçıların təcrübələrini, düşüncə və hisslərini dərindən anlamaq üçün əsas metod kimi çıxış edir. Bu metod ənənəvi sorğu və anketlərin məhdud məlumat verməsindən fərqli olaraq, iştirakçının fenomeni öz sözləri və konteksti daxilində ifadə etməsinə imkan yaradır. Uğurlu intervü üçün yarı-strukturlaşdırılmış suallar və probe-lardan istifadə, həmçinin rahat və etibarlı mühitin yaradılması vacibdir. Etik prinsiplərin qorunması və iştirakçının emosional rifahının təmin edilməsi yalnız məlumatın keyfiyyətini artırmır, həm də tədqiqatın elmi etibarlılığını təmin edir.

Metodun üstünlükləri onun praktik tətbiq sahələrinin genişliyi və məlumatların zənginliyində özünü göstərir. Dərinləşdirilmiş intervü yalnız iştirakçıların həyat təcrübələrini anlamağa deyil, həm də yeni nəzəri anlayışların formalaşmasına və sosial praktikaların təkmilləşdirilməsinə xidmət edir. Təcrübədə pilot intervülərdən istifadə etmək, tədqiqatçının reflexivity bacarığını gücləndirmək və texnoloji vasitələrdən məqsədəuyğun istifadə etmək intervünün effektivliyini artırır. Belə yanaşma həm elmi nəticələrin etibarlılığını yüksəldir, həm də tədqiqatçılara sosial siyasət, təhsil və səhiyyə sahələrində praktik tövsiyələr formalaşdırmaq imkanı yaradır. Buna görə də, dərinləşdirilmiş intervü yalnız məlumat toplamaq aləti deyil, həm də elmi-praktik töhfə verən güclü metod olaraq qiymətləndirilir.

## РОЛЬ, ПРИКЛАДНЫЕ ОСОБЕННОСТИ И ПРЕИМУЩЕСТВА ГЛУБОКИХ ИНТЕРВЬЮ В КАЧЕСТВЕННЫХ ИССЛЕДОВАНИЯХ

***Баяз Багирли***

### АННОТАЦИЯ

Глубинное интервью является основным методом в качественных исследованиях для понимания опыта, мыслей и эмоций участников. В отличие от традиционных опросов и анкет, оно позволяет участникам объяснять явления своими словами и в собственном контексте. Для успешного проведения глубинного интервью важны полуструктурированные вопросы, использование уточняющих вопросов (probe) и создание комфортной и доверительной обстановки. Соблюдение этических принципов и обеспечение эмоционального благополучия участников не только повышает качество собираемых данных, но и укрепляет научную надёжность исследования.

Преимущества метода проявляются в широте его практического применения и богатстве получаемых данных. Глубинные интервью позволяют не только понять жизненный опыт участников, но и развивать новые теоретические концепции, а

также совершенствовать социальную практику. Проведение пилотных интервью, повышение рефлексивности исследователя и целесообразное использование технологических средств способствуют повышению эффективности процесса интервью. Такой подход усиливает научную достоверность результатов и даёт исследователям возможность формулировать практические рекомендации в сферах социальной политики, образования и здравоохранения. Таким образом, глубинные интервью рассматриваются не просто как инструмент сбора данных, но как мощный метод, обеспечивающий как научный, так и практический вклад.

## THE ROLE, APPLICATION CHARACTERISTICS, AND ADVANTAGES OF IN-DEPTH INTERVIEWS IN QUALITATIVE RESEARCH

***Beyaz Bagırlı***

### SUMMARY

The in-depth interview serves as a fundamental method in qualitative research for understanding participants' experiences, thoughts, and emotions. Unlike traditional surveys and questionnaires, it allows participants to explain phenomena in their own words and within their own context. Successful implementation of in-depth interviews requires semi-structured questions, the use of probes, and the creation of a comfortable and trustworthy environment. Ensuring ethical principles and safeguarding participants' emotional well-being not only enhances the quality of the collected data but also strengthens the scientific reliability of the research.

The advantages of this method are reflected in the breadth of its practical applications and the richness of the data it produces. In-depth interviews contribute not only to understanding participants' lived experiences but also to developing new theoretical insights and improving social practices. Conducting pilot interviews, enhancing the researcher's reflexivity, and appropriately using technological tools can increase the effectiveness of the interview process. Such an approach enhances the scientific credibility of findings and enables researchers to provide practical recommendations in areas such as social policy, education, and healthcare. Therefore, in-depth interviews are recognized not merely as a data collection tool but as a powerful method that delivers both scientific and practical contributions.

## İDARƏETMƏ, İQTİSADİYYAT, İNFORMASİYA

# КАЧЕСТВО ЖИЗНИ КАК ОСНОВНОЙ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЙ ПОКАЗАТЕЛЬ ПРОИЗВОДСТВА

***Бабаев Ахмед Ариф оглы***
***доктор философии по экономике***
***Бакинский Университет Бизнеса***
***e.babayev.2017@mail.ru***

***Ключевые слова***: факторы производства, материальные и моральные блага, права собственности, качество жизни.
***Açar sözlər***: istehsal amilləri, maddi və mənəvi nemətlər, mülkiyyət hüququ, həyat keyfiyyəti.
***Keywords***: factors of production, material and moral goods, property rights, quality of life.

Среди основных факторов производства ведущим всегда остается человеческий фактор. Функционирование производства построено на знании и умении человека. Поэтому поддержание и восполнение его способностей является важнейшей общественной задачей. Как существу высшего порядка, человеку нужны материальные, духовные и социально-экономические блага. Обладая ими и правом собственности на свои способности к труду, он может продавать последние и эффективно участвовать в процессе производства. То есть, он должен быть лично свободным от рабской и крепостной зависимости. Еще мыслители Древнего Рима - Сенека (45-65 гг. до н.э.), Лукреций Кар (39-55 гг. до н.э.) и др. исследователи видели главную экономическую причину разложения и гибели рабства в неудовлетворении материального интереса. Взгляды Сенеки оказали влияние на формирование экономических концепций христианства, которое в последующем историческом процессе развития человечества совершило коренной переворот во взглядах на хозяйственную жизнь. Христианские мыслители и проповедники объявили простой хозяйственный труд необходимым и святым делом, считая, что «Кто не работает, тот не ест».

Христианское учение обосновывало принципы справедливого ценообразования, социальной, а не индивидуальной оценки благ с учетом затрат труда. К этому призывало и учение муллы Сеид Али-Мохаммеда Ширази (1820-1850). Под его руководством было организовано движение бабидов (Иран), выступавших за справедливость, равный труд и равные права. Это было религиозное движение, но оно носило антифеодальный и антиколониальный характер, ибо было направлено против помещиков, чиновников и иностранных капиталистов. Среди прочих требований, бабиды боролись за землю, отмену феодальных повинностей и налогов. Учение Ширази содержало не только элементы экономики, но и демократии. Но, первыми, кто выделил экономические явления из всей суммы общественных процессов и создал систематизированное учение об экономике, были меркантилисты.

Одним из представителей этой школы является Томас Манн (1571-1641 гг.). Главный предмет своей науки, он видел в процессах товарного и денежного обращения; считал, что богатство (деньги, золото) возникает только в торговле. Меркантилисты советовали государству расширять торговлю, накапливать золото в стране. Их идеи, базировавшиеся на государственном вмешательстве в хозяйственную жизнь, протекционизме в торговле – используются и в современной экономике.

Между тем критики меркантилизма справедливо отмечали, что во время торговой сделки не возникает вообще никакого богатства, а происходит лишь обмен денег на товар и наоборот. Но, когда в обмене нарушается равенство, богатство перераспределяется в пользу одной из сторон. А, когда обмен равноценен, то никто не может обогатиться.

Позднее появилось теоретическое учение физиократов. Вслед за основателем учения Франсуа Кенэ (1694-1774 гг.) физиократы считали, что источником богатства является производство, хотя и существует только одна его отрасль - сельское хозяйство, где богатство возникает естественным путем и представляется как дар природы.

Поворот к исследованию производства стал предпосылкой возникновения научной политической экономии.

В истории развития Азербайджанской экономической мысли значительный период - с 20-х до 90-х годов двадцатого столетия, господствовало марксистское направление. Конечно, появление прогрессивных трактовок имело место, но их душил монополизм марксистских воззрений.

В современный период экономики Азербайджана, демократии и гласности ученые интегрируют взгляды и достижения отдельных экономических школ и становления предпринимательства в рамках специфической Азербайджанской экономики.

В экономической теории представлены попытки оценить уровень жизни и ее качество через свободное время и внерыночные его затраты в сфере домохозяйств. При всей важности этих составляющих уровня жизни показатель чистого экономического благосостояния используется как расчетный и официально статистикой не принимается.

В настоящее время, по мнению специалистов, единый показатель уровня жизни не является ни возможным, ни желательным на микроэкономическом уровне. На микроуровне проблема сводится к измерению тех составляющих уровня жизни, которые могут быть количественно определимыми. Обеспеченность населения жизненными благами зависит от величины реальных доходов: степень удовлетворения потребностей оценивается на основе сопоставления расчетных и реальных потребительских бюджетов семей. Распределение населения по доходам основано на разграничении низко-, средне- и высокодоходных групп семей, каждая из которых имеет свой рациональный потребительский бюджет. На основе анализа величины и структуры расходов низко доходных групп населения рассчитывают бюджет минимума материальной обеспеченности и границы бедности.

Бедность прямо связана с неравномерностью распределения доходов и имущества. Вместе с тем бедность не поддается точному определению (так же, как счастье и благополучие). В самом общем виде идентификация бедности основана на сопоставлении строго определенного набора потребностей и возможностей их удовлетворения для определенных групп населения. Потребности оцениваются на основе так называемых потребительских корзин, дифференцированных по доходным, возрастным, профессиональным и прочим признакам.

Минимальные потребительские бюджеты как основа для идентификации бедности, в свою очередь, дифференцируются и рассчитываются как бюджеты физиологического минимума, как минимум поддержания здоровья и благопристойности, как бюджеты минимального достатка. Минимальный достаток – это те границы семейного дохода, за которыми не обеспечивается воспроизводство общественно-приемлемых условий существования, на его основе определяется порог бедности и рассчитывается прожиточный минимум.

Уровень прожиточного минимума зависит от социально-экономических факторов и более подвижен, чем порог бедности. Порог бедности, как показывает опыт, не отражает роста потребления, увеличиваясь за счет роста цен.

Количественная оценка порога бедности осуществляется на основе данных о стоимости продуктов питания, исходя из рациональных норм потребления и доли затрат на питание в семейных бюджетах. Выявлено, что низко доходные семьи тратят на питание относительно больше средств, чем высоко доходные; удельный вес стоимости питания зависит также от размера семей: малочисленные семьи тратят на питание относительно больше, чем семьи с большей численностью членов. Возникает своеобразная «экономия от масштаба семьи» не только в отношении расходов на питание, но и прочих потребительских расходов.

Согласно теории Маркса, стоимость (ценность) экономического блага определяется затратами общественно необходимого труда, т.е. труда, совершаемого при средних общественно-нормальных условиях производства и средней интенсивности труда. Согласно неоклассическим воззрениям, ценность благ зависит от их редкости, прежде всего, от интенсивности потребности и количества благ, способных данную потребность удовлетворить. При этом предполагается, что любая потребность может быть удовлетворена несколькими благами, а любое экономическое благо может использоваться для удовлетворения разных потребностей. Если $q_1q_2..., q_n$ — совокупность определенных количеств каждого из n благ, а $p_1$, $p_2...$, $p_п$ — их цены, то стоимость совокупного набора благ может быть записана как $p_iq_i$ , где i = 1,...п.

Для получения недостающих потребительских благ, как правило, нужны косвенные экономические блага — ресурсы.

Логика взаимосвязи стоимости питания и порога бедности состоит в том, что если низко доходная семья тратит на питание часть своего бюджета (1/п), то порог бедности будет равен стоимости питания, умноженной на п. (продукты первой необходимости).

Проблемы измерения бедности основаны, в конечном счете, на том круге потребностей, удовлетворения которых признается общественно необходимыми. Различают абсолютную бедность и альтернативную ей бедность, которая учитывает моральный ущерб от собственного ее восприятия.

В анализе бедности большое значение имеет вопрос о ее устойчивости не только в обществе в целом, а для каждой семьи, для отдельного человека. Исследования показывают, что бедные семьи неоднородны по сроку пребывания в стесненных условиях жизни. Условно можно выделить хроническую (застойную) и текущую бедность. Критерий разграничений этих форм бедности связан со сроком бедности и вероятностью перехода в более доходные группы.

Фактическая информация о бедных слоях населения показывает, что бедность неравномерна среди различных групп населения молодых и пожилых, семейных и одиноких, занятых и безработных. Распространение бедности различно между городским и сельским населением, в различных территориальных и природно-климатических регионах, между различными этническими группами населения. То, что считается бедностью в одной стране, расценивается как достаточный уровень комфорта в другой.

Дифференциация причин бедности приводит к необходимости различать типы бедности для того, чтобы определить специфические меры по ее ликвидации или сокращению.

Совокупные доходы общества в целом, и, каждого из его членов справедливо оценивается как показатели экономического благосостояния. Получаемые населением доходы составляют базу определенного уровня жизни.

Определение уровня жизни основано на оценке количества и качества потребляемых жизненных благ (материальных и духовных). Уровень жизни оценивается как обеспеченность населения жизненными благами и как степень удовлетворения потребностей людей в определенных благах.

Состав жизненных благ весьма разнообразен. Наряду с доходами населения на уровень жизни оказывают влияние условия жизнедеятельности, под воздействием которых складывается определенный образ и стиль жизни, оцениваемые как ее качество.

Система показателей уровня жизни, рекомендуемая ООН, включает показатели ВВП на душу населения, образовательный уровень и среднюю продолжительность жизни. Однако следует отметить, что устойчивость бедности как макро- и микроэкономического явления необходимо рассматривать в контексте более широкой проблемы, связанной с социально-экономической структурой общества, ее эволюцией и мобильностью труда. Мобильность труда и рабочая сила – содержательная, функциональная, пространственная и временная категория, являющаяся необходимой чертой современного рынка. Понятие «мобильность» может быть применено и к другим производственным факторам, в которых присутствует взаимозаменяемость.

Взаимозаменяемость обусловлена разнообразными потребительскими свойствами продукта. В результате, можно производить продукты или блага при использовании различных факторов в разнообразных сочетаниях и пропорциях. Такая взаимозаменяемость и пропорциональная количественная переменность типична для современного производства от изготовления химических продуктов до строительства зданий. Взаимозаменяемость факторов обусловлена не только спецификой потребностей и конструктивных особенностей изделия, но, и, главным образом, ограниченностью ресурсов, с одной стороны, и эффективностью их использования - с другой.

Предприниматель выбирает такую технологию производства, при которой дефицитный или сравнительно дорогой фактор производства используется в меньшей мере.

Факторы производства представляются всеми средствами производства, которые сами являются результатом производства.

Факторы производства – это часть всей совокупности природных условий существования человека, важнейшие компоненты окружающей среды, используемые в процессе производства.

В любой системе производство выступает как отношение общества к природе. Эти отношения представлены производственными факторами. В экономической теории понятием «факторы» обозначают совокупность различных элементов производства, которые могут быть использованы в процессе создания материальных и духовных благ и услуг.

Продукт – результат функционирования производства, результат затраченного труда. Появляясь в стадии производства, он проходит далее стадии распределения, обмена и потребления. Движение продукта образует реальное содержание и динамику функциональной экономической системы.

Таким образом, независимо от классификации все факторы, в конечном счете, используются для изготовления продукта. Рассмотрим простейший вариант, когда один фактор используется для изготовления одного продукта:

Г=ф(А),

где А- фактор производства,

Г- продукт,

ф- функция.

В реальной действительности процесс производства протекает сложнее, а его итог (продукт) – результат использования множества факторов. Могут встречаться разнообразные ситуации, которые условно можно свести к четырем:

- фактор не используется;
- используется наполовину его возможностей;
- используется для производства оптимального количества продукта;
- используется для производства чрезмерно большого количества продукта.

Бесчисленное множество использованных в производстве продукта факторов можно изобразить графически (рис. 1.).




**Рис.1. Производство и использование его факторов**

Х1-Х4- уровень использования фактора А;

У1-У4- количество производимого продукта.

Если процесс производства постоянно находится на уровне У3- фонд производства используется оптимально и постоянно возмещается. Если ниже - недоиспользуется, выше - чрезмерно используется. В последних случаях равно выше производства. Это характеризуется либо наличием дефицита, либо потребностями дополнительного запаса фактора (сырья, оборудования, инструмента и т.д.).

Большое количество комбинаций использования факторов производства обусловлено научно-техническим прогрессом и состоянием рынка факторов производства. Научно-технический прогресс и технические перевороты ведут к появлению новых (взаимозаменяемых) факторов и новых продуктов. В результате возрастает возможность при помощи производственного фактора создание такого количества продуктов, сколько необходимо для возмещения фактора и дополнительного (прибавочного) продукта, который не нужен для возмещения данного фактора. Этот запас продукта называется прибавочным продуктом. При его наличии возможно дальнейшее увеличение производства. Отсюда следует вывод: совершенствование использования факторов производства является условием дальнейшего увеличения масштабов производства.

Таким образом, в результате соединения факторов производства создаются продукты труда и совокупность материальных благ. Количественное отношение объема (массы) полученного продукта к труду, затраченному на его изготовление, характеризует производительность труда. Показатель производительности труда можно представить в виде:

Производительность труда = Г/Т

где, Г- количество созданного продукта в натуральном или денежном выражении:

Т- затраты труда (например, человека – час или количество занятых в данном производстве).

Критерием для отбора комбинирования факторов производства являются наименьшие издержки производства.

Но, как практически решается задача выбора наилучшего сочетания факторов производства? Для этого сравнивают:

- рыночную цену каждого фактора:
- предельный продукт, который производится с помощью этого фактора.

Предельный продукт – это прирост физического объема продукта при росте этого фактора на минимальную величину (одну единицу). Использование для анализа только прирост продукта усиливает наглядность доказательств, ведь остальная часть произведенного продукта остается неизменной. Итак, сравним изменение цен на факторы производства и их предельные продукты при условии, что происходит рост каждого фактора на единицу.

Предельный продукт F1=(F1+1), т.е. продукт увеличивается на добавленный фактор по его цене. При добавлении второго фактора происходит аналогичное изменение: предельный продукт F2=(F2+1).

Продукт в определенной форме характеризует результат производства, его эффект. Соизмерение результатов производства с затратами общественного труда на их получение характеризует эффективность производства: она показывает отношение массы созданных и признанных обществом потребительских благ к совокупным затратам живого и общественного труда или факторов, израсходованных в процессе производства.

$$\text{Эффективность} = \frac{\textit{Результаты} - \textit{производств}(\textit{продукт})}{\textit{Затраты} - \textit{факторов} - \textit{производства}}$$

Эффективность - важнейшая характеристика производства. Именно рост эффективности, получение большого результата при меньших затратах характеризует экономический прогресс общества в условиях ограниченности ресурсов.

На практике технический прогресс и капиталовложения (инвестиции) тесно взаимосвязаны: технический прогресс часто влечет за собой инвестиции на новые машины и оборудования. Технический прогресс включает в себя не только новые методы производства, но также и новые формы управления и организации производства. Под техническим прогрессом подразумевается открытие новых знаний, позволяющих по-новому комбинировать данные ресурсы с целью выпуска конечного продукта.

Существует целый ряд других, с трудом поддающихся оценке факторов, которые значительно влияют на темпы экономического роста. Например, нет сомнения, что обширные запасы разнообразных природных ресурсов, которыми обладают некоторые страны, вносят весомый вклад в их экономический рост.

Хотя обилие природных ресурсов является мощным позитивным фактором экономического роста, однако это вовсе не означает, что страны с недостаточным запасом обречены на невысокие темпы экономического роста.

Кроме того, существует и такие факторы экономического роста, изменить которые невозможно. В частности, большое положительное влияние на экономический рост оказывает социальная, культурная и политическая атмосфера в стране. Необходимо сказать и об источниках информационного типа экономического роста. Ими являются инновации и человеческий капитал. Аналогично тому, как информационная экономика выступает логическим следствием индустриальной, так и роль человека в условиях нового технологического способа производства логично становится иной - более емкой и значимой, менее зависимой от обстоятельств и других людей, и, следовательно, более самостоятельной и творческой.

Важнейшим экономическим «свойством» человека становится его индивидуальность. Отсюда, место и роль человека в информационной экономике неизбежно трансформируются по сравнению с экономикой индустриальной. С позиций производства человек не только его субъект, но и его конечная цель. Общественный продукт, пройдя через распределение и обмен, завершает свой путь в потреблении. Удовлетворение потребностей человека, его развитие является естественным конечным назначением общественного производства. Любой предприниматель в своей хозяйственной деятельности преследует цель получить выгоду, но эта цель будет реализована лишь тогда, когда на продукцию его фирмы найдется покупатель (потребитель).

## ЛИТЕРАТУРА

1. Ələskərov A.K., Nadirov A., Muradov Ş.M., Nuriyev Ə., Hüseynov T. Azərbaycan iqtisadiyyatı. Bakı, Elm, 2003.
2. Muradov Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı: Elm, 2004.
3. Ахмедов Б.Б. Денежные доходы и расходы населения республики Узбекистан. Автореф. Дисс… канд. экон. наук, Ташкент, 2002, 21 с.
4. Азизова Г.А. Особенности формирования спроса на рабочую силу в Азербайджане/ AMEA. Xəbərlər, İqtisadiyyat № 2, Баку, 2006, 86 с.
5. Аббасов Ч.М. Пути интеграции Азербайджана в мировую экономику. Баку, 2004.
6. Войтов А.Г. Экономика, Москва, 2000.
7. Левашов В.И. Социальная политика дохода и заработной платы. М.: Центр экономики и маркетинга, 2000, 360 с.
8. Микроэкономика, Макроэкономика, Мегаэкономика. Учебник для вузов. Санкт-Петербургский Государственный Университет Экономики и финансов, Питер, 2000, 542 с.
9. Мустафаева Н.М. Тенденции изменения соотношения заработной платы и производительности труда в современный период. AMEA İqtisadiyyat İnstitutu, Xəbərlər, İqtisadiyyat. № 2, 2006 318 с.
10. Мустафаева Н.М. Изменение тенденции прибыли в стоимостной и отраслевой структуре валового внутреннего продукта в период трансформации. AMEA, Xəbərlər. İqtisadiyyat, 2007, № 1.
11. Мурадов Ш.М. Демографическая ситуация в Азербайджане: направления оценки и регулирования. НАНА, Баку: Элм, 2006.
12. Чешков М.А. Взгляд на глобализацию через призму глобалистики. МЭ и МО, 2001, №2
13. Щетинин В.П. Человеческий капитал и неоднозначность его трактовки. МЭ и МО, 2001г., № 12
14. Ясин Е. Экономический рост как цель и как средство. ж-л «Вопросы экономики», 2001г., №9

# КАЧЕСТВО ЖИЗНИ КАК ОСНОВНОЙ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЙ ПОКАЗАТЕЛЬ ПРОИЗВОДСТВА

***Бабаев Ахмед***

## АННОТАЦИЯ

В статье обосновывается актуальность темы, определяется уровень исследования, формулируются его цели и задачи, указываются его теоретико-методологические основы, комментируется его научная новизна и практическая значимость, предмет, объект и информационная база исследования, а также опубликованные работы. Раскрывается экономическая сущность качества жизни как основного социально-экономического показателя производства в современных условиях и дается его теоретическое обоснование; обосновывается качество жизни как основной социально-экономический показатель производства; раскрывается место и положение природных и экономических факторов в устойчивом развитии экономики страны.

# HƏYAT KEYFİYYƏTİ İSTEHSALIN ƏSAS SOSİAL-İQTİSADİ GÖSTƏRİCİSİ KİMİ

***Babayev Əhməd***

## XÜLASƏ

Məqalədə mövzunun aktuallığı əsaslandırılır, tədqiq olunma səviyyəsi müəyyən edilir, məqsəd və vəzifələri ifadə olunur, onun nəzəri-metodoloji əsasları göstərilir, elmi yeniliyi və praktiki əhəmiyyəti, tədqiqatın predmeti, obyekti və informasiya bazası, nəşr edilmiş əsərlər şərh edilir. Muasir şəraitdə istehsalın əsas sosial-iqtisadi göstəricisi kimi həyat keyfiyyətinin iqtisadi mahiyyəti və onun nəzəri əsaslandırılması açıqlanır; yaşayışın keyfiyyəti istehsalın əsas sosial-iqtisadi göstəricisi kimi əsaslandırılır; ölkənin iqtisadiyyatının sabit inkişafında təbii və iqtisadi amillərin yeri və mövqeyi öz ifadəsini tapır.

# QUALITY OF LIFE AS A KEY SOCIO-ECONOMIC INDICATOR OF PRODUCTION

***Babayev Ahmad***

## SUMMARY

Actuality of the article is grounded and its investigation level is determined, the goal and tasks are shown, its theoretic - methodological basis is given, scientific innovation and practical significance, subject, object and information basis, published works and the structure of the dissertation are explained in the introduction. Showing quality of life as a key socio-economic indicator of production; the quality of life based as main sociological economical index of manufacture; giving references of natural economic factors in stability development of country.

# AZƏRBAYCAN SİYASİ STRATEGİYASINDA MİLLİ TƏHLÜKƏSİZLİYİN ROLU

***Hüseynova Nuranə Rövşən qızı***
***BDU-nun II kurs magistrantı***
***nrnhsyn64@gmail.com***
***Elmi rəhbər: f.e.d, professor Vəsxanım Orucova***

***Açar sözlər:*** milli təhlükəsizlik, strategiya, konsepsiya, sülh, əməkdaşlıq
***Ключевые слова:*** национальная безопасность, стратегия, концепция, мир, сотрудничество
***Keywords*:** national security, strategy, concept, peace, cooperation.

Azərbaycan Respublikasının siyasi strategiyası, ölkənin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü və cəmiyyətin rifahını təmin etməyə yönəlmiş kompleks və çoxşaxəli yanaşmanı ehtiva edir. Bu strategiyanın əsas dayaqlarından biri milli təhlükəsizlikdir.

Milli təhlükəsizlik yalnız hərbi müdafiə tədbirləri ilə məhdudlaşmır, o, siyasi sabitlik, iqtisadi inkişaf, enerji və nəqliyyat təhlükəsizliyi, eləcə də beynəlxalq əməkdaşlıq kimi mühüm sahələri də özündə birləşdirir. Azərbaycanın yerləşdiyi Cənubi Qafqaz regionu geosiyasi baxımdan mürəkkəb və tez-tez gərginliklərin yaşandığı bir ərazidir. Bu səbəbdən regional sabitliyin qorunması milli təhlükəsizlik strategiyasının əsas komponentlərindən birinə çevrilmişdir. Regional sabitliyin təmin edilməsi yalnız sərhədlərin müdafiəsi ilə məhdudlaşmır; həmçinin beynəlxalq əməkdaşlıq, iqtisadi inteqrasiya, mədəniyyətlərarası dialoq və enerji təhlükəsizliyi kimi sahələrdə balanslı və ardıcıl siyasət yürüdülməsini tələb edir [1, 83 s]. Azərbaycanın milli təhlükəsizlik konsepsiyası da bu baxımdan regional əməkdaşlığı, qarşılıqlı etimadı və mehriban qonşuluq siyasətini ön plana çəkir.Qonşu dövlətlərlə konstruktiv münasibətlər, beynəlxalq təşkilatlarla əməkdaşlıq və transmilli təhlükələrə qarşı birgə fəaliyyət ölkənin milli təhlükəsizlik siyasətinin əsas dayaqlarını formalaşdırır. Avropa və Asiya arasında yerləşən Azərbaycan strateji mövqeyinə görə geniş əməkdaşlıq imkanlarına malikdir. Bununla yanaşı, bu mövqe ölkəni müxtəlif regional və beynəlxalq təhlükələrlə qarşı-qarşıya qoyur və milli təhlükəsizlik siyasətinin daha çevik, kompleks və davamlı şəkildə həyata keçirilməsini zəruri edir.

Strateji mövqeyin milli təhlükəsizlik strategiyasına təsiri aşağıdakı sahələrdə özünü göstərir:

1.Nəqliyyat və logistika imkanları – Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməklə, regionun mühüm tranzit ölkəsinə çevrilmişdir. Bu, həm iqtisadi sabitliyi gücləndirir, həm də təhlükəsizliyin regional miqyasda təmin edilməsinə töhfə verir.

2.Enerji təhlükəsizliyi – Xəzər dənizi hövzəsində yerləşən enerji resurslarının beynəlxalq bazarlara çıxarılması Azərbaycanın enerji diplomatiyasının əsasını təşkil edir. Bakı–Tbilisi–Ceyhan, TAP və TANAP kimi layihələr təkcə iqtisadi gəlir deyil, həm də beynəlxalq nüfuz və strateji tərəfdaşlıq baxımından önəmlidir [5, 236 s].

3.Multikultural və mədəni diplomatiya – Azərbaycanın yerləşdiyi coğrafiya onu İslam, Avropa və Slavyan sivilizasiyaları arasında bir körpüyə çevirir. Bu mövqe ölkəyə mədəni müxtəliflik və tolerantlıq sahəsində beynəlxalq əməkdaşlıq üçün imkanlar yaradır və humanitar təhlükəsizliyin təminində mühüm amilə çevrilir.

4. Regional Layihələrdə Açar Rolu: Azərbaycan Zəngəzur dəhlizi, Orta Dəhliz, Transxəzər Nəqliyyat Marşrutu kimi layihələrdə aparıcı tərəfdir.Bu layihələrin reallaşması təkcə iqtisadi deyil, həm də siyasi güc balansına təsir göstərir. Azərbaycanın bu layihələrdəki rolu, regionda nüfuzunu və siyasi dəyərini artırır.

5. İnformasiyanın və Texnologiyanın Yayılma Qovşağına Çevrilməsi: Rəqəmsal texnologiyalar, "Ağıllı şəhər" layihələri, internet infrastrukturunun inkişafı və beynəlxalq data mərkəzlərinin qurulması Azərbaycanın regional informasiya təhlükəsizliyi baxımından əhəmiyyətini artırır.Bu sahədə atılan addımlar, onu təkcə iqtisadi deyil, texnoloji və kiber təhlükəsizlik baxımından da maraq dairəsinə salır.

Bundan başqa Azərbaycanın strateji mövqeyi ona beynəlxalq diplomatik platformalarda aktiv və təsiredici iştirakçı olmaq imkanı yaradır. Azərbaycan həm Qoşulmama Hərəkatına sədrlik etmiş, həm də BMT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası kimi qurumlarda beynəlxalq təşəbbüslərlə çıxış etmişdir. Bu, ölkənin siyasi təhlükəsizliyinin möhkəmlənməsinə, beynəlxalq hüquqa əsaslanan siyasət yürütməsinə və milli maraqlarını qlobal səviyyədə qorumasına şərait yaradır.Strateji yerləşmə, Azərbaycanın müdafiə strategiyasının daha çevik və güclü olmasını tələb edir. Mürəkkəb geosiyasi mühitdə yerləşən ölkə olaraq, Azərbaycan müasir ordu quruculuğuna, texnoloji silahlanmaya və müdafiə sənayesinin inkişafına xüsusi diqqət yetirir. Bu istiqamətdə atılan addımlar ölkənin hərbi təhlükəsizlik konsepsiyasını gücləndirir və milli təhlükəsizliyin təmin olunmasında strateji dayaq rolunu oynayır. Sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsi, miqrasiya və qaçqın axınlarının idarə edilməsi, insan alveri və narkotik qaçaqmalçılığı kimi transmilli təhdidlərə qarşı mübarizə də milli təhlükəsizliyin vacib istiqamətləri sırasındadır. Bu amillər Azərbaycan Respublikasının təhlükəsizlik strategiyasında mühüm yer tutur. Qlobal iqlim dəyişiklikləri Xəzər hövzəsi kimi həssas ekosistemlərə ciddi təsir göstərir. Bu şəraitdə Azərbaycan su ehtiyatlarının azalması, torpaq deqradasiyası, ərzaq təhlükəsizliyinə təhdidlər və təbii fəlakətlərin artması kimi risklərlə üzləşir. Strateji mövqeyə malik bir ölkə kimi Azərbaycan ekoloji təhlükəsizlik məsələlərini milli təhlükəsizlik konsepsiyasının ayrılmaz tərkib hissəsinə çevirmək məcburiyyətində qalır. Strateji mövqeyi sayəsində Azərbaycan regional iqtisadi platformalarda söz sahibi olmaq imkanına malikdir. Ölkənin iqtisadi sabitliyi, sərmayə cəlbi, idxal-ixrac balansı və ticarət əlaqələrinin genişlənməsi milli təhlükəsizliyə iqtisadi dayanıqlıq vasitəsilə dəstək verir. Ticarət yollarının müdafiəsi, iqtisadi sanksiyalara qarşı dayanıqlılıq və regionda iqtisadi liderlik strategiyası da bu kontekstdə xüsusi əhəmiyyət kəsb edir [4, 287 s].

Azərbaycanın milli təhlükəsizlik strategiyası ilə xarici siyasəti arasında qarşılıqlı əlaqə dinamik və çoxşaxəlidir. Regionda və beynəlxalq sistemdə baş verən dəyişikliklər fonunda dövlətin təhlükəsizlik maraqları daim yenilənən xarici siyasət kursu ilə uzlaşdırılır. Bu münasibət sistemində əsas məqsəd – ölkənin müstəqilliyini, ərazi bütövlüyünü və suverenliyini qorumaqla yanaşı, regional sabitliyə töhfə vermək və beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirməkdir. Azərbaycanın xarici siyasətində milli təhlükəsizliyə dair prioritetlər aşağıdakı əsas prinsiplər üzərində qurulub:

1.Ərazi bütövlüyünün bərpası və qorunması: Azərbaycanın milli təhlükəsizlik siyasətinin mərkəzində uzun müddət ərazi bütövlüyünün təmin olunması dayanıb. Sovet İttifaqının dağılmasından sonra ölkə beynəlxalq ictimaiyyət tərəfindən tanınan sərhədlər daxilində müstəqilliyini bərpa etsə də, Ermənistan tərəfindən Qarabağın və ətraf 7 rayonun işğalı Azərbaycanın suverenliyinə ciddi təhdid yaratmışdı. Bu vəziyyət ölkənin bütün siyasi, diplomatik və hərbi strategiyalarını uzun illər ərzində əsasən bir məqsədə – ərazi bütövlüyünün bərpasına yönəltmişdir. 44 günlük Vətən Müharibəsi Azərbaycanın hərbi və siyasi baxımdan tarixi dönüş nöqtəsi oldu. Azərbaycan Silahlı Qüvvələri, xalqın birliyi və siyasi iradənin qətiyyəti sayəsində işğal altında olan torpaqlar azad edildi. Bu zəfər yalnız torpaq üzərində nəzarətin bərpası deyil, həm Azərbaycanın suveren hüquqlarının real şəkildə təmin olunması, regionda yeni geosiyasi nizamın formalaşması,təhlükəsizlik strategiyasının hərbi komponentinin gücləndirilməsi demək idi.Müharibədən sonra dövlətin əsas prioritetlərindən biri azad edilmiş ərazilərin təhlükəsizliyinin təmin olunması və reinteqrasiya prosesi oldu [3, 430 s].

2.Sülh və əməkdaşlığa əsaslanan yanaşma, yəni hərbi qarşıdurmadan çox siyasi dialoqun təşviqi: Azərbaycan Respublikasının milli təhlükəsizlik strategiyasında güc tətbiqindən daha çox siyasi dialoqun və qarşılıqlı anlaşmanın təşviq edilməsi xüsusi yer tutur. Bu yanaşma, yalnız bölgədə deyil, bütövlükdə Avrasiya məkanında sülh və sabitliyə nail olmaq üçün vacib alət kimi qəbul edilir. Azərbaycanın xarici siyasətində əsas prinsip – qarşılıqlı hörmətə və beynəlxalq hüquqa əsaslanan əməkdaşlıq mühitinin formalaşdırılmasıdır. Ölkəmiz müxtəlif platformalarda daim bildirir ki, regional sabitliyin təməli güc tətbiqi deyil, konstruktiv və bərabərhüquqlu dialoqdur. Bu yanaşma:Hərbi münaqişələrin qarşısının alınmasında, transmilli təhlükələrin birgə aradan qaldırılmasında, ticarət, enerji və nəqliyyat sahələrində regional əməkdaşlığın genişlənməsində mühüm rol oynayır. Azərbaycan dəfələrlə bəyan edib ki, münaqişələrin həlli zorla deyil, danışıqlar yolu ilə, beynəlxalq hüququn prinsipləri çərçivəsində baş verməlidir.

3.Regional və beynəlxalq təhlükələrə qarşı birlikdə mübarizə (terrorizm, separatizm, transmilli cinayətlər, kibertəhlükələr və s.): Müasir dünyada təhlükəsizlik problemləri təkcə dövlətlərin sərhədləri daxilində qalmır, əksinə region və qlobal səviyyədə qlobal çağırışlar kimi ortaya çıxır. Azərbaycanın milli təhlükəsizlik strategiyasında terrorizm, separatizm, transmilli cinayətlər, kibertəhlükələr və digər təhlükələrə qarşı regional və beynəlxalq əməkdaşlıq xüsusi önəm daşıyır. Dövlətin təhlükəsizlik xidmətlərinin gücləndirilməsi, regional təhlükəsizlik qurumları ilə məlumat mübadiləsi,beynəlxalq antiterror əməliyyatlarında iştirakı bu sahədə atılan addımlardan bir neçəsidir.

4.Beynəlxalq tərəfdaşlarla təhlükəsizlik əməkdaşlığı, o cümlədən enerji təhlükəsizliyi, sərhədlərin müdafiəsi və informasiya təhlükəsizliyi sahəsində koordinasiya:Azərbaycanın milli təhlükəsizlik strategiyasında beynəlxalq tərəfdaşlarla əməkdaşlıq strateji əhəmiyyət kəsb edir. Bu əməkdaşlıq, xüsusilə enerji təhlükəsizliyi, sərhədlərin müdafiəsi və informasiya təhlükəsizliyi sahələrində koordinasiyaya əsaslanır və ölkənin regional sabitliyini təmin etməyə xidmət edir.Bu məqsədlər Azərbaycanın həm ikitərəfli münasibətlərində, həm də beynəlxalq təşkilatlarla əməkdaşlığında əsas istiqamət kimi izlənilir.

Azərbaycanın milli təhlükəsizlik strategiyasında silahlı qüvvələrin gücləndirilməsi və müdafiə potensialının artırılması önəmli yer tutur. Ölkənin müdafiə qabiliyyətinin yüksəldilməsi, müasir ordu quruculuğu, milli müdafiə sənayesinin inkişafı və beynəlxalq hərbi əməkdaşlıqlar milli təhlükəsizliyin təmin olunmasında əsas rola malikdir. Azərbaycan Silahlı Qüvvələri müasir çağırışlara cavab verən, yüksək döyüş qabiliyyətinə malik bir qüvvə kimi formalaşdırılır. Bu istiqamətdə atılan əsas addımlar:Hərbi kadrların ixtisaslaşdırılması və peşəkarlığının artırılması, hərbi texnologiyaların və avadanlıqların yenilənməsi, müdafiə doktrinasının müasir tələblərə uyğun təkmilləşdirilməsidir.Müasir silah sistemləri, rabitə vasitələri və avtomatlaşdırılmış idarəetmə sistemlərinin tətbiqi ordunun döyüş qabiliyyətini və çevikliyini artırır. Azərbaycanın milli təhlükəsizliyində beynəlxalq hərbi əməkdaşlıq xüsusi yer tutur. Türkiyə ilə hərbi əlaqələr: Strateji tərəfdaşlıq çərçivəsində ortaq təlimlər, təcrübə mübadiləsi və hərbi texnologiyaların paylaşılması, NATO-nun "Tərəfdaşlıq üçün Əməkdaşlıq" proqramında aktiv iştirak, hərbi islahatların və standartların tətbiqi,beynəlxalq sülhməramlı missiyalarda iştirak: Azərbaycan Silahlı Qüvvələrinin sülhməramlı əməliyyatlarda iştirak etməsi ölkənin beynəlxalq nüfuzunu artırır. Bu əməkdaşlıqlar ordunun modernləşdirilməsinə, strateji imkanların genişlənməsinə və regional təhlükəsizliyin təmin olunmasına xidmət edir. [2, 129 s]

Milli təhlükəsizlik konsepsiyası hər bir dövlətin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü və vətəndaşlarının rifahını qorumaq məqsədilə müəyyən etdiyi strateji sənəddir. Azərbaycanın milli təhlükəsizlik konsepsiyası da ölkənin müasir çağırışlara adekvat cavab verən təhlükəsizlik siyasətinin əsas istiqamətlərini və prioritetlərini müəyyənləşdirir.

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası ilk dəfə 2007-ci ildə qəbul olunmuşdur. Bu sənəd dövlətin milli maraqlarının müdafiəsini, təhlükəsizlik siyasətinin prinsiplərini, məqsədlərini və fəaliyyət istiqamətlərini sistemli şəkildə ifadə edir. Konsepsiyanın əsas məqsədi ölkənin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaqla yanaşı, siyasi, iqtisadi, sosial və humanitar təhlükəsizliyin təmin edilməsinə nail olmaqdır.

2007-ci il Milli Təhlükəsizlik Konsepsiyasının Əsas Müddəaları:

1.Milli maraqların müdafiəsi: Azərbaycanın dövlət müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü prioritet olaraq müəyyən edilir.

2.Regional sabitlik: Cənubi Qafqaz regionunda sülhün və əməkdaşlığın təşviqi əsas vəzifə kimi qeyd olunur.

3.Təhlükəsizlik təhdidlərinin qarşısının alınması: Terrorizm, separatizm, transsərhəd cinayətlər və digər təhlükələrə qarşı mübarizə diqqət mərkəzindədir.

4.Enerji təhlükəsizliyi: Azərbaycanın enerji resurslarının qorunması və enerji nəqliyyatının təhlükəsizliyi prioritet sahələrdəndir.

5.Beynəlxalq əməkdaşlıq: Azərbaycanın beynəlxalq təşkilatlarla, qonşu ölkələrlə və strateji tərəfdaşlarla təhlükəsizlik sahəsində əməkdaşlığının gücləndirilməsi vurğulanır.

6.İqtisadi və sosial təhlükəsizlik: Davamlı iqtisadi inkişaf və cəmiyyətin sosial rifahının təmin olunması təhlükəsizlik siyasətinin tərkib hissəsidir.

Azərbaycanın milli təhlükəsizlik siyasəti əsasən aşağıdakı hüquqi sənədlər əsasında qurulur. Bu sənədlrə Azərbaycan Respublikasının Konstitusiyası, Milli Təhlükəsizlik Haqqında Qanun (1997).

Dövlət Müdafiəsi və Fövqəladə Hallar Haqqında Qanunlar və digər normativ hüquqi aktlar daxildir [6].

Azərbaycanın siyasi strategiyası və milli təhlükəsizlik konsepsiyası bir-birini tamamlayan, ölkənin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü və cəmiyyətin rifahını təmin etməyə yönəlmiş kompleks və çoxşaxəli yanaşmanın əsasını təşkil edir. Ölkənin əlverişli geostrateji mövqeyi regional və qlobal təhlükələr qarşısında çevik, balanslı və praqmatik siyasət aparmağa imkan verir. Milli təhlükəsizlik anlayışı yalnız hərbi müdafiə ilə məhdudlaşmır, o, siyasi sabitlik, iqtisadi inkişaf, enerji və informasiya təhlükəsizliyi, eləcə də beynəlxalq əməkdaşlıq kimi mühüm sahələri də əhatə edir. Azərbaycanın regionda sülhün və stabilliyin qorunmasına yönəlmiş təşəbbüsləri, beynəlxalq tərəfdaşlarla geniş əməkdaşlıq siyasəti və müasir müdafiə potensialının formalaşdırılması milli təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayır.

Dövlət tərəfindən qəbul olunan hüquqi baza və strateji sənədlər, o cümlədən 2007-ci il Milli Təhlükəsizlik Konsepsiyası, ölkənin qarşısında duran çağırışlara effektiv və çevik şəkildə reaksiya vermək üçün möhkəm institusional və konseptual əsas yaradır.

Ümumilikdə, Azərbaycanın milli təhlükəsizlik strategiyası müstəqil, suveren və güclü dövlət kimi mövqeyini möhkəmləndirilməsinə, regionda sülh və əməkdaşlıq mühitinin yaradılmasına,beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınmasına xidmət edir.

## ƏDƏBİYYAT

1. Aslan Ə. "Azərbaycanda müasir iqtisadi inkişaf strategiyası".Bakı:Təhsil, 2011, 160 s
2. Əliyeva A. "NATO-da hərbi-siyasi islahatlar və Azərbaycan Respublikası: monoqrafiya". Bakı: Yeni Poliqrafist, 2012, 279 s.
3. Əliyev N. "Vətən müharibəsində Azərbaycanın qələbəsi". Bakı: Afpoliqraf, 2021, 1096 s
4. Həsənov Ə. "Heydər Əliyev və Azərbaycan xarici siyasət prioritetlərinin müəyyənləşməsi Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi". Bakı: Azərbaycan,2005, 582 s.

5. Mehdiyev Ə. "Azərbaycan Respublikasının neft strategiyası: formalaşması və həyata keçirilməsi". Bakı:Ocaq, 2025, 344 s
6. https://e-qanun.az/framework/5455

## AZƏRBAYCAN SİYASİ STRATEGİYASINDA MİLLİ TƏHLÜKƏSİZLİYİN ROLU

***Hüseynova Nuranə***

## XÜLASƏ

Azərbaycanın siyasi strategiyasında milli təhlükəsizlik əsas prioritetlərdən biridir. Bu konsepsiya yalnız hərbi müdafiə ilə məhdudlaşmır, həm də siyasi sabitlik, iqtisadi inkişaf, enerji və informasiya təhlükəsizliyi, regional əməkdaşlıq və ekoloji təhlükəsizlik sahələrini əhatə edir. Azərbaycanın strateji coğrafi mövqeyi ölkəni mühüm nəqliyyat və enerji dəhlizlərinin kəsişməsinə çevirərək həm əməkdaşlıq imkanları yaradır, həm də regional və beynəlxalq təhdidlərlə üz-üzə qoyur.44 günlük Vətən Müharibəsi nəticəsində Azərbaycanın ərazi bütövlüyü bərpa olunmuş, bu isə milli təhlükəsizlik strategiyasında yeni mərhələnin əsasını qoymuşdur. Sülh və dialoqa əsaslanan xarici siyasət, beynəlxalq təşkilatlarla əməkdaşlıq və müdafiə qabiliyyətinin gücləndirilməsi təhlükəsizlik siyasətinin əsas istiqamətləridir.2007-ci ildə qəbul olunmuş Milli Təhlükəsizlik Konsepsiyası bu sahədə hüquqi və strateji baza rolunu oynayır. Bu sənəd Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və vətəndaş rifahını qorumağa yönəlmiş təhlükəsizlik siyasətinin əsas istiqamətlərini müəyyən edir. Ümumilikdə, milli təhlükəsizlik strategiyası Azərbaycanın güclü, sabit və etibarlı dövlət kimi mövqeyini möhkəmləndirməyə xidmət edir.

## РОЛЬ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ В ПОЛИТИЧЕСКОЙ СТРАТЕГИИ АЗЕРБАЙДЖАНА

***Нурана Гусейнова***

## АННОТАЦИЯ

В политической стратегии Азербайджана национальная безопасность является одним из главных приоритетов. Эта концепция не ограничивается только военной защитой, но также охватывает такие сферы, как политическая стабильность, экономическое развитие, энергетическая и информационная безопасность, региональное сотрудничество и экологическая безопасность. Стратегическое географическое положение Азербайджана превращает страну в перекрёсток важнейших транспортных и энергетических коридоров, создавая тем самым возможности для сотрудничества, а также ставя её перед лицом региональных и международных угроз. В результате 44-дневной Отечественной войны была восстановлена территориальная целостность Азербайджана, что положило начало новому этапу в стратегии национальной безопасности. Внешняя политика, основанная на мире и диалоге, сотрудничество с международными организациями и укрепление обороноспособности являются основными направлениями политики безопасности.Принятая в 2007 году Концепция национальной безопасности служит правовой и стратегической основой в этой сфере. Этот документ определяет основные направления политики безопасности, направленной на защиту суверенитета, территориальной целостности и благосостояния граждан

Азербайджана. В целом, стратегия национальной безопасности способствует укреплению позиции Азербайджана как сильного, стабильного и надёжного государства.

## THE ROLE OF NATIONAL SECURITY IN AZERBAIJAN'S POLITICAL STRATEGY

***Nurana Huseynova***

**SUMMARY**

National security is one of the main priorities in Azerbaijan's political strategy. This concept is not limited to military defense alone, but also encompasses political stability, economic development, energy and information security, regional cooperation, and environmental safety. Azerbaijan's strategic geographical location places the country at the intersection of key transport and energy corridors, creating opportunities for cooperation while also exposing it to regional and international threats. As a result of the 44-day Patriotic War, Azerbaijan's territorial integrity was restored, laying the foundation for a new phase in its national security strategy. A foreign policy based on peace and dialogue, cooperation with international organizations, and the strengthening of defense capabilities are key directions of its security policy. The National Security Concept adopted in 2007 serves as a legal and strategic framework in this field. This document outlines the main directions of Azerbaijan's security policy aimed at protecting the country's sovereignty, territorial integrity, and the well-being of its citizens. Overall, the national security strategy supports the strengthening of Azerbaijan's position as a strong, stable, and reliable state.

# QLOBAL MEDİA ŞƏBƏKƏLƏRİNİN İCTİMAİ RƏYƏ TƏSİRİ VƏ SİYASİ NƏTİCƏLƏRİ

***Süleymanova Tahirə Vüqar qızı***
***İxtisas: Milli təhlükəsizlik və siyasi strategiya***
***e-mail: tahirasuleymanova775@gmail.com***
***Elmi rəhbər s.e.f.d. Ülkər İmaməliyeva***

***Açar sözlər:*** informasiya, media, təsir, təbliğat, təhlükəsizlik
***Ключевые слова:*** информация, СМИ, влияние, пропаганда, безопасность
***Keywords*****:** information, media, influence, propaganda, security

Müasir dövrdə qlobal media şəbəkələri beynəlxalq münasibətlərin, siyasi proseslərin və ictimai rəyin formalaşmasının əsas iştirakçılarından birinə çevrilmişdir. İnformasiya texnologiyalarının sürətli inkişafı nəticəsində xəbərlərin yayılma sürəti və auditoriyaya təsir gücü misilsiz dərəcədə artmışdır. Bu vəziyyət medianın təkcə məlumat ötürən vasitə deyil, həm də ictimai düşüncəni formalaşdıran, siyasi qərarların legitimliyinə təsir edən strateji alətə çevrilməsinə səbəb olmuşdur. Qlobal media artıq dövlətlərin sərhədlərini aşaraq, ictimai rəyin beynəlxalq miqyasda yönləndirilməsinə imkan yaradır. Müxtəlif xəbər agentlikləri, televiziya kanalları və sosial platformalar vasitəsilə yayılan informasiya təkcə faktların çatdırılması ilə məhdudlaşmır, həm də müəyyən siyasi maraqlara xidmət edən ideoloji çalar daşıyır. Bu xüsusilə beynəlxalq münaqişələr, seçki kampaniyaları və qlobal böhranlar zamanı daha aydın görünür.

İctimai rəyin formalaşmasında medianın rolu insan cəmiyyətinin kommunikasiya vasitələrinin inkişaf tarixi ilə sıx bağlıdır. Erkən dövrlərdə bu funksiyanı əsasən şifahi informasiya mübadiləsi, dini təbliğat və yazılı bülletenlər yerinə yetirirdi. XV əsrdə mətbəənin ixtirası ilə informasiyanın kütləvi şəkildə yayılması mümkün oldu və bu, ictimai rəyin idarə edilməsində yeni mərhələnin əsasını qoydu. XIX əsrdə qəzet və jurnalların geniş yayılması, ictimai debatların artmasına və siyasi məsələlərə marağın yüksəlməsinə səbəb oldu. Bu dövrdə media artıq sadəcə məlumat daşıyıcısı deyil, eyni zamanda cəmiyyətin düşüncə tərzini formalaşdıran mühüm sosial institut kimi çıxış edirdi. XX əsrin sonlarından etibarən bəşəriyyət sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçid mərhələsinə daxil olmuşdur. Bu proses texnoloji inqilabın, xüsusilə kompüter texnologiyaları və internetin geniş yayılmasının nəticəsi kimi meydana çıxmışdır. İnformasiyanın əldə edilməsi, işlənməsi və yayılması insan fəaliyyətinin bütün sahələrində iqtisadiyyatdan siyasətə, təhsildən mədəniyyətə qədər əsas resursa çevrilmişdir [1, 56 s].

İnformasiya cəmiyyətinin formalaşması medianın strukturunu və funksiyalarını köklü şəkildə dəyişdirmişdir. Əgər əvvəlki dövrlərdə informasiya axını məhdud sayda media qurumlarının nəzarətində idisə, bu mərhələdə məlumat istehsalı və paylaşımı qlobal xarakter almışdır. İnternet, peyk rabitəsi və sosial şəbəkələrin yaranması nəticəsində media məkanında sərhədlər aradan qalxmış, informasiya axını daha sürətli və qarşılıqlı hala gəlmişdir. XXI əsrdə isə internet və sosial media platformaları medianın ənənəvi sərhədlərini aradan qaldırdı. Artıq hər bir fərd həm informasiya istehlakçısı, həm də istehsalçısına çevrilmişdir. Qlobal media şəbəkələrinin ictimai rəyə təsiri həm pozitiv, həm də neqativ nəticələr doğurur. Müsbət tərəfdən, media informasiya mübadiləsini sürətləndirərək cəmiyyətlərin dünyagörüşünü genişləndirir, demokratik dəyərlərin və şəffaflığın inkişafına xidmət edir. Qlobal media vasitəsilə insanlar müxtəlif ölkələrdə baş verən hadisələr haqqında operativ məlumat alır, ictimai nəzarət və vətəndaş fəallığı güclənir. Eyni zamanda, beynəlxalq informasiya mühitinin formalaşması xalqlar arasında mədəni və siyasi inteqrasiyanı təşviq edir. Lakin mənfi cəhətlər də az deyil. İnformasiyanın

həddindən artıq çoxluğu (inflyasiya) və manipulyativ təqdimatı ictimai rəyin obyektivliyini azaldır. Sosial media platformalarında saxta xəbərlər, dezinformasiya və qərəzli təbliğat vasitəsilə ictimai şüurun yönləndirilməsi asanlaşmışdır. Bu, xüsusilə seçki kampaniyalarında, beynəlxalq münaqişələrdə və ictimai böhranlarda siyasi manipulyasiyanın əsas alətlərindən birinə çevrilir. [4, 258 s] Bundan əlavə, qlobal media güclərinin iqtisadi və siyasi maraqlara bağlı olması informasiya balansını pozur və müəyyən ideoloji yönümlərin üstünlük qazanmasına şərait yaradır. Qlobal media şəbəkələrinin formalaşmasında beynəlxalq xəbər kanalları xüsusi rol oynamışdır. XX əsrin ikinci yarısından etibarən media sahəsində baş verən texnoloji və kommunikativ dəyişikliklər nəticəsində, məlumatların yalnız milli səviyyədə deyil, beynəlxalq miqyasda da ötürülməsi mümkün olmuşdur. Bu mərhələdə BBC, CNN və daha sonralar Al Jazeera kimi media qurumları qlobal informasiya məkanının əsas aktorlarına çevrilmişdir. 1922-ci ildə yaranan BBC (British Broadcasting Corporation) əvvəlcə milli radio yayımı məqsədi daşısa da, sonradan beynəlxalq informasiya mənbəyinə çevrilmiş və obyektiv xəbər təqdimatı prinsipi ilə qlobal etimad qazanmışdır. XX əsrin sonlarında isə CNN (Cable News Network) 24 saat fasiləsiz xəbər yayımı formatı ilə informasiya jurnalistikasında inqilab yaratmışdır. CNN-in Körfəz müharibəsi (1991) zamanı hadisələri birbaşa yayımlaması beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmiş XXI əsrin əvvəlləri informasiya mühitində əsas dönüş nöqtəsi kimi qiymətləndirilir [5]. İnternet texnologiyalarının sürətli inkişafı və sosial media platformalarının meydana çıxması nəticəsində “yeni qlobal media” anlayışı formalaşmışdır. Ənənəvi media modellərində informasiya istehsalı və paylaşımı müəyyən redaksiya və institusional nəzarət altında həyata keçirilirdisə, yeni dövrdə bu proses daha açıq, dinamik və fərdiləşmiş xarakter almışdır. Facebook, Twitter (indiki X), YouTube, Instagram kimi sosial şəbəkələr informasiyanın yayılma mexanizmini dəyişdirərək, hər bir istifadəçini potensial media subyektinə çevirmişdir. Bu platformalar vasitəsilə məlumatın yaranması, paylaşılması və təhlili sürətlənmiş, ictimai rəyin formalaşması real vaxt rejimində baş verən prosesə çevrilmişdir. Belə bir mühitdə informasiya axını artıq yalnız peşəkar jurnalistikanın deyil, həm də fərdi iştirakçıların təsiri altındadır.Facebook, X (əvvəlki Twitter) və YouTube kimi platformalar yalnız informasiyanın yayılması funksiyasını yerinə yetirmir, həm də ictimai şüurun yönləndirilməsi, siyasi mesajların hədəflənməsi və seçici davranışlarının manipulyasiyası üçün istifadə olunur. Qərəzli xəbərlər media mənbələrinin müəyyən ideoloji və ya siyasi maraqlara əsaslanaraq məlumatı təqdim etməsi ilə xarakterizə olunur. Bu vəziyyətdə faktlar tam və balanslı çatdırılmır, müəyyən aspektlər seçilərək auditoriyanın qavrayışı istiqamətləndirilir. Nəticədə ictimai rəy yalnız obyektiv məlumat əsasında deyil, müəyyən manipulyativ çərçivə əsasında formalaşır. Saxta informasiya (“fake news”) isə tamamilə yanlış və ya qismən manipulyativ məlumatların sistemli yayılmasını ifadə edir. Sosial media platformalarının geniş yayılması saxta xəbərlərin sürətlə auditoriyaya çatmasına və ictimai etimadın pozulmasına şərait yaradır. Saxta informasiya yalnız fərdi səhv qavrayış deyil, həm də geniş ictimai qütbləşməyə və yanlış siyasi qərarların qəbuluna səbəb ola bilər. Dezinformasiya isə qəsdən ictimaiyyətin yanlış məlumatlandırılması və siyasi, ideoloji məqsədlərə xidmət edən sistemli strategiya kimi çıxış edir. O, yalnız məlumatın yanlış təqdimatı ilə məhdudlaşmır, həm də ictimai düşüncəni manipulyasiya etməklə sosial və siyasi proseslərdə üstünlük əldə etməyə yönəlir. Manipulyasiya mexanizmləri müxtəlif səviyyələrdə həyata keçirilir:

1. Mesajların seçilməsi və vurğulanmasıdır; media vasitəsilə müəyyən məsələlər gündəmə gətirilir, digərləri isə diqqətdən kənarda qalır. Bu, auditoriyanın diqqətinin istiqamətləndirilməsi və siyasi prioritetlərin müəyyənləşdirilməsi üçün effektiv üsuldur.
2. Hədəflənmiş çərçivələnmə (framing) metodudur. Siyasi kampaniyalar zamanı xəbərlər və hadisələr xüsusi kontekstdə təqdim olunur ki, seçicilər müəyyən siyasi mövqeni

daha müsbət və ya mənfi şəkildə qavrasın. Bu, ictimai qavrayışın yönləndirilməsi və fərdi seçimlərin manipulyasiyasına xidmət edir.

3. Təkrar yayım və sosial media strategiyalarıdır. Seçilmiş mesajların müxtəlif platformalarda və zaman intervallarında təkrar təqdim olunması auditoriyanın məlumatı internalizə etməsinə və qəbul etməsinə təsir göstərir. Sosial media alqoritmləri bu prosesdə xüsusi rol oynayır, çünki auditoriyanın maraq və davranışlarına uyğun mesajlar daha çox görünür və interaktiv şəkildə paylanır.

Qlobal səviyyədə bu mexanizmlər seçkilərin nəticələrinə təsir göstərmək və dövlətlərin beynəlxalq imicini formalaşdırmaq məqsədilə tətbiq edilir [2, 124 s].

Seçkilərə təsir nümunələri göstərir ki, beynəlxalq və yerli media platformaları vasitəsilə yayılan qərəzli xəbərlər, saxta informasiya və dezinformasiya seçicilərin mövqeyini dəyişdirmək üçün məqsədli şəkildə yönləndirilir. Sosial media alqoritmləri və hədəflənmiş reklam kampaniyaları seçicilərin məlumat qəbulu və siyasi qərar qəbul etmə davranışlarını optimallaşdırmaq üçün geniş istifadə olunur. Bu, yalnız bir ölkənin daxili siyasi proseslərinə təsir göstərmir, həm də beynəlxalq auditoriyanın diqqətini spesifik siyasi narrativlərə yönəldir. Beynəlxalq imic müharibələri isə dövlətlər və qlobal aktorlar arasında informasiya üstünlüyünü əldə etmək məqsədini daşıyır. Media vasitəsilə yayılan fərqli narrativlər, hadisələrin qlobal səviyyədə interpretasiyası və rəqib dövlətlərin fəaliyyətlərinə qarşı ictimai qavrayışın formalaşdırılması beynəlxalq diplomatiya və siyasi nüfuz üçün strateji vasitəyə çevrilir. Məsələn, regional münaqişələr zamanı qlobal xəbər kanalları və sosial media platformaları hadisələri fərqli kontekstlərdə təqdim etməklə müxtəlif auditoriyalarda fərqli təəssüratlar yaradır. Qlobal media şəbəkələrinin seçkilərə və beynəlxalq imic müharibələrinə təsiri nəticəsində informasiya yalnız xəbər mənbəyi olmaqdan çıxır; o, siyasi üstünlük əldə etməyə, ictimai rəyin istiqamətini müəyyənləş-dirməyə və beynəlxalq siyasətdə nüfuz qazanmağa xidmət edən strateji resursa çevrilir. Bu baxımdan, qlobal media yalnız informasiya ötürücüsü deyil, həm də siyasi və ideoloji rəqabətdə aktiv iştirakçı kimi qiymətləndirilir. Müasir sosial media platformaları yalnız informasiya paylaşımını sürətləndirmir, həm də istifadəçi davranışlarını proqnozlaşdıran və yönləndirən alqoritmik sistemlərlə işləyir. Bu prosesin əsas texniki mexanizmi algoritmik idarəetmədir, yəni istifadəçinin maraq, qarşılıqlı əlaqə və baxış tarixçəsinə əsaslanaraq təqdim olunan kontentin optimallaşdırılmasıdır. Bu kontekstdə “filter bubble” effekti mühüm rol oynayır. Filter bubble istifadəçinin yalnız maraq göstərdiyi və interaktiv olduğu məlumatları görməsi nəticəsində yaranan informasiya məkanını təsvir edir. Nəticədə fərd alternativ baxış bucaqlarından məhrum olur və yalnız öz ideoloji və siyasi mövqeyinə uyğun məlumatla qarşılaşırBelə bir mühitdə ictimai rəyin obyektivliyi azalır, qütbləşmə və ideoloji qapalı dairələr güclənir. Siyasi kampaniyalar və qlobal media aktorları sosial media istifadəçilərinin qarşılıqlı əlaqə, baxış, paylaşım və şərh davranışlarını izləyərək onların siyasi maraqlarını, ideoloji meyllərini və emosional reaksiyalarını müəyyənləşdirirlər. Bu analiz nəticəsində əldə olunan məlumatlar mesajların hədəflənməsi, xəbər kontentinin fərdiləşdirilməsi və seçicilərin siyasi qərarlarının proqnozlaşdırılması üçün istifadə olunur. Siyasi silah kimi istifadə olunan informasiya iki əsas istiqamətdə özünü göstərir:

1.Seçki prosesləri və beynəlxalq imic müharibələri zamanı fərdi və kollektiv ictimai rəyin manipulyasiyasıdır [3, 78 s]. Sosial media alqoritmləri və qlobal xəbər kanalları vasitəsilə yayılan qərəzli və manipulyativ kontent seçicilərin mövqeyini dəyişdirmək, qütbləşmə və ideoloji fərqləri gücləndirmək üçün istifadə olunur.

2.Dezinformasiya və saxta xəbərlərin strateji yayımı vasitəsilə siyasi üstünlük əldə etmək mümkündür. Dövlətlər və qlobal aktorlar rəqib ölkələrin daxili və beynəlxalq siyasətinə təsir göstərmək üçün informasiya manipulyasiyasına müraciət edir. Bu proses yalnız ictimai şüurun yönləndirilməsini deyil, həm də diplomatik və iqtisadi qərarların formalaşmasını təsir edir.

İnformasiyanın siyasi silaha çevrilməsi təhlükəsi həm milli, həm də qlobal səviyyədə ciddi nəticələr doğurur. O, ictimai rəyin obyektivliyini pozur, siyasi qərarların legitimliyini azaldır və dövlətlərarası etimadın zəifləməsinə səbəb olur. Sosial media platformalarının fərdiləşdirilmiş mesaj təqdimatı və hədəflənmiş reklam strategiyaları bu təhlükəni daha sistemli və effektiv hala gətirir [6].

Beynəlxalq hüquq informasiya təhlükəsizliyini həm dövlətlərin, həm də qlobal aktorların məsuliyyətini tənzimləyən çərçivə kimi qəbul edir. Bu, dövlətlərin öz sərhədləri daxilində və beynəlxalq miqyasda dezinformasiyanın yayılmasının qarşısını almaq, kibertəhlükəsizlik tədbirlərini həyata keçirmək və ictimai rəyin manipulyasiyasına qarşı qanuni mexanizmlər tətbiq etməklə bağlıdır.

Beynəlxalq konvensiyalar və sənədlər göstərir ki, informasiya təhlükəsizliyi yalnız milli təhlükəsizlik məsələsi deyil, həm də qlobal sabitlik və sülhün qorunması üçün strateji əhəmiyyət kəsb edir. Məsələn, BMT-nin informasiya və kommunikasiya texnologiyaları üzrə tövsiyələri dövlətlərin kibertəhlükəsizlik protokollarını gücləndirməsini, qlobal media manipulyasiyalarının hüquqi əsaslarla tənzimlənməsini təmin edir.

## ƏDƏBİYYAT

1. Rəhimli M. "Kütləvi informasiya vasitələri demokratikləşmə prosesində". Bakı: Qanun, 2002, 152 s
2. Rəhimzadə V. "Kütləvi informasiya vasitələri dövlətin informasiya təminatı siyasətinin mühüm faktoru kimi".Bakı: PrintAz, 2022, 352 s
3. Salayev O. "İnformasiya sistemlərində təhlükəsizliyin təmini". Bakı: CLASS-PRİNT, 2024, 156 s
4. Qasımov V. "İnformasiya təhlükəsizliyinin əsasları". Bakı: MTN Maddi-texniki Təminat Baş İdarəsinin NPM, 2009, 340 s
5. https://www.bbc.com/azeri/institutional-37131049
6. https://mapub.org/ojs/index.php/mapss/article/view/100/144

# QLOBAL MEDİA ŞƏBƏKƏLƏRİNİN İCTİMAİ RƏYƏ TƏSİRİ VƏ SİYASİ NƏTİCƏLƏRİ

***Süleymanova Tahirə***

## XÜLASƏ

Müasir dövrdə qlobal media şəbəkələri beynəlxalq münasibətlərin, siyasi proseslərin və ictimai rəyin formalaşmasının əsas iştirakçısına çevrilmişdir. İnformasiya texnologiyalarının inkişafı medianı sadəcə xəbər ötürən deyil, ictimai düşüncəni və siyasi qərarları formalaşdıran strateji alətə çevirmişdir.Tarixi inkişaf göstərir ki, mətbəədən internetə qədər media ictimai rəyə təsirin əsas vasitəsi olmuşdur. XXI əsrdə sosial media platformaları (Facebook, X, YouTube və s.) hər bir fərdi informasiya istehsalçısına çevirərək, ictimai rəyin formalaşmasını həm demokratik, həm də manipulyativ hala gətirmişdir.Qlobal media ictimai rəyə həm müsbət (şəffaflıq, maarifləndirmə), həm də mənfi (dezinformasiya, qərəz, siyasi manipulyasiya) təsir göstərir. İnformasiya seçimi, çərçivələnməsi və təkrar yayımı ictimai qavrayışın yönləndirilməsində əsas mexanizmlərdir.Sosial media alqoritmləri və "filter bubble" effekti fərdləri yalnız öz baxışlarına uyğun məlumatlarla məhdudlaşdırır, bu da ideoloji qütbləşməni gücləndirir. Rəqəmsal senzura və azad söz dilemması informasiya mühitində balansın qorunmasını zəruri edir.İnformasiya artıq siyasi və ideoloji güc vasitəsidir. Onun təhlükəsiz idarə olunması üçün beynəlxalq hüquq çərçivəsində dezinformasiya ilə mübarizə aparılmalı, eyni

zamanda ifadə azadlığı qorunmalıdır.Məlumat savadlılığı və media etikası ictimai rəyin obyektiv və balanslı formalaşmasının əsas təminatıdır.

## РОЛЬ ГЛОБАЛЬНЫХ МЕДИЙНЫХ СЕТЕЙ В ФОРМИРОВАНИИ ОБЩЕСТВЕННОГО МНЕНИЯ И ПОЛИТИЧЕСКИЕ ПОСЛЕДСТВИЯ

***Сулейманова Тахира***

### АННОТАЦИЯ

В современную эпоху глобальные медиа-сети превратились в одних из ключевых участников формирования международных отношений, политических процессов и общественного мнения. Развитие информационных технологий сделало медиа не просто средством передачи новостей, а стратегическим инструментом, формирующим общественное сознание и политические решения.

Историческое развитие показывает, что от изобретения печати до появления интернета медиа всегда являлись основным средством воздействия на общественное мнение. В XXI веке социальные медиа-платформы (Facebook, X, YouTube и др.) превратили каждого человека не только в потребителя, но и в производителя информации, сделав процесс формирования общественного мнения одновременно более демократичным и более подверженным манипуляциям.Глобальные медиа оказывают как положительное (прозрачность, просвещение), так и отрицательное (дезинформация, предвзятость, политическая манипуляция) влияние на общественное мнение. Отбор, интерпретация и повторное распространение информации являются основными механизмами формирования общественного восприятия.Алгоритмы социальных сетей и эффект «информационного пузыря» ограничивают пользователей только теми данными, которые соответствуют их взглядам, что усиливает идеологическую поляризацию. Дилемма цифровой цензуры и свободы слова делает необходимым сохранение баланса в информационной среде.Информация сегодня — это уже не просто источник знаний, а инструмент политической и идеологической силы. Для её безопасного использования необходимо в рамках международного права бороться с дезинформацией, одновременно обеспечивая защиту свободы выражения мнений.

Информационная грамотность и медиаэтика являются важнейшими условиями объективного и сбалансированного формирования общественного мнения.

## THE ROLE OF GLOBAL MEDIA NETWORKS IN INFLUENCING PUBLIC OPINION AND THEIR POLITICAL CONSEQUENCES

***Suleymanova Tahira***

### SUMMARY

In the modern era, global media networks have become key participants in shaping international relations, political processes, and public opinion. The development of information technologies has transformed the media from a simple transmitter of news into a strategic tool that shapes public consciousness and political decisions.Historical evolution shows that from the invention of the printing press to the rise of the internet, media have always served as the main instrument for influencing public opinion. In the 21st century, social media platforms (Facebook, X, YouTube, etc.) have turned every individual into both a producer and consumer of information, making the formation of public opinion both

more democratic and more susceptible to manipulation.Global media have a dual influence on public opinion — positive (transparency, enlightenment) and negative (disinformation, bias, political manipulation). The selection, framing, and repetition of information are the main mechanisms through which public perception is shaped.Social media algorithms and the “filter bubble” effect limit individuals to information that aligns with their existing views, thereby strengthening ideological polarization. The dilemma between digital censorship and freedom of speech makes it necessary to maintain balance within the information environment.

Information has now become not merely a source of knowledge but also an instrument of political and ideological power. To ensure its safe governance, it is essential to combat disinformation within the framework of international law while simultaneously safeguarding freedom of expression.Information literacy and media ethics are fundamental guarantees for the objective and balanced formation of public opinion.

# MÜASİR DÜNYADA SEPARATİZM OCAQLARI

***Yusifov Elvin Qoşqar oğlu***
***BDU-nun II kurs magisrantı***
***yelvin561@gmail.com***

***Açar sözlər:*** separatizm, milli təhlükəsizlik, ərazi bütövlüyü, beynəlxalq münasibətlər, geosiyasi maraqlar, münaqişə ocaqları.
***Ключевые слова:*** сепаратизм, национальная безопасность, территориальная целостность, международные отношения, геополитические интересы, очаги конфликтов.
***Keywords:*** separatism, national security, territorial integrity, international relations, geopolitical interests, conflict hotspots.

Müasir dövrdə separatizm beynəlxalq münasibətlərin, regional sabitliyin və milli təhlükəsizliyin ən ciddi təhdidlərindən biri kimi çıxış edir. Dünyanın müxtəlif bölgələrində aktivləşən separatçı hərəkatlar yalnız dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə deyil, eyni zamanda beynəlxalq sabitliyə və qlobal sülhə də ciddi təhlükə yaradır. Bu cür proseslər çox vaxt vətəndaş müharibələrinə, etnik qarşıdurmalara, humanitar böhranlara və qaçqın axınlarına səbəb olur.

Separatizmin yaranmasına təsir edən amillər müxtəlifdir: etnik və milli ziddiyyətlər, dini faktorlar, sosial-iqtisadi bərabərsizlik, regionların qeyri-bərabər inkişafı, həmçinin xarici güclərin təsiri. Lakin nəticələr demək olar ki, bütün hallarda oxşardır — silahlı münaqişələr, siyasi qeyri-sabitlik, iqtisadi tənəzzül və dövlətlərin zəifləməsi.

XXI əsrdə qloballaşma proseslərinin sürətlənməsi və informasiya texnologiyalarının inkişafı separatizmin daha asan yayılmasına şərait yaratmışdır. Sosial şəbəkələr, diaspora təşkilatları və transmilli güclərin təsiri separatçı ideyaların daha sürətlə legitimləşməsinə yol açır. Nəticədə milli dövlətlərin qarşısında yeni çağırışlar meydana gəlir: vətəndaş həmrəyliyini möhkəmləndirmək, milli birliyi qorumaq, dövlətçilik ideyalarını gücləndirmək və separatizmlə mübarizədə beynəlxalq əməkdaşlığı inkişaf etdirmək.

Müasir dünyada ən çox diqqət çəkən və beynəlxalq siyasətdə gərginlik yaradan separatizm ocaqları sırasında İspaniyanın Kataloniya bölgəsi, Balkanlarda Kosovo məsələsi, postsovet məkanında Ukraynanın Krım və Donbas bölgələri, Orta Şərqdə kürd separatizmi, eləcə də Cənubi Qafqazda Qarabağ problemi xüsusi yer tutur. Bu nümunələr bir daha göstərir ki, separatizm təkcə milli dövlətlər üçün deyil, bütövlükdə beynəlxalq təhlükəsizlik üçün qlobal təhdid xarakteri daşıyır (5, s. 133).

Müasir dünyanın ən önəmli separatizm ocaqlarından biri olaraq Kataloniya məsələsinə nəzər salaq. Kataloniya məsələsinin kökləri orta əsrlərə gedib çıxır. XIII–XV əsrlərdə Kataloniya Aragon Krallığının ən mühüm vilayətlərindən biri kimi çıxış etmiş, öz parlamenti – Corts Catalanes, hüquqi sistemi – Usatges və dərin mədəni kimliyi ilə seçilmişdir. Lakin 1714-cü ildə başa çatan İspaniya Vərəsəlik Müharibəsi nəticəsində Bourbon sülaləsi hakimiyyətə gəldi və Kataloniya muxtariyyətini itirdi. Bundan sonra mərkəzləşdirilmiş Madrid hakimiyyəti katalan hüquqi və siyasi institutlarını ləğv etdi, bu da bölgədə narazılıq toxumlarını əkdi.

XX əsr Kataloniya üçün həm yüksəliş, həm də ağır itkilərlə yadda qaldı. 1931-ci ildə İkinci İspaniya Respublikası yarandıqdan sonra Kataloniya muxtariyyət statutu əldə etdi. Lakin İspaniya vətəndaş müharibəsi (1936–1939) dönəmində Kataloniya respublikaçıların əsas dayaqlarından biri olduğuna görə General Frankonun qələbəsindən sonra ən sərt zərbələr məhz bu bölgəyə dəydi. Franko diktaturası (1939–1975) dövründə katalan dili məktəblərdə və dövlət idarələrində qadağan edildi, mədəniyyət sıxışdırıldı, siyasi muxtariyyət tamamilə aradan qaldırıldı.

1975-ci ildə Frankonun ölümündən sonra İspaniya demokratiyaya keçid etdi və 1978-ci il Konstitusiyası Kataloniyaya geniş muxtariyyət hüquqları tanıdı. 1979-cu ildə qəbul edilən Kataloniya Muxtariyyət Statutu bölgəyə dil, təhsil, mədəniyyət və daxili idarəetmə sahələrində mühüm səlahiyyətlər verdi. Nəticədə Barselona bir daha İspaniyanın ən güclü iqtisadi mərkəzlərindən biri oldu.Lakin 2006-cı ildə yenilənmiş Muxtariyyət Statutunun bəzi müddəaları 2010-cu ildə İspaniya Konstitusiya Məhkəməsi tərəfindən ləğv edildi. Bu qərar katalan cəmiyyətində dərin narazılığa səbəb oldu və müstəqillik tərəfdarlarının artmasına yol açdı. 2012-ci ildən etibarən Barselonada yüz minlərlə insanın iştirak etdiyi müstəqillik mitinqləri keçirilməyə başladı.

2017-ci ildə Kataloniya hökuməti müstəqilliklə bağlı referendum təşkil etdi. İspaniya Konstitusiya Məhkəməsi bu referendumu qanunsuz elan etsə də, proses baş tutdu və iştirak edənlərin əksəriyyəti müstəqilliyə səs verdi. Ardınca Kataloniya parlamenti müstəqillik aktı qəbul etdi, lakin Madrid hökuməti Konstitusiyanın 155-ci maddəsinə əsaslanaraq bölgənin muxtariyyətini müvəqqəti dayandırdı və birbaşa idarəçiliyi tətbiq etdi.Bu hadisə Avropa İttifaqında və beynəlxalq aləmdə geniş rezonans doğurdu. Heç bir ölkə Kataloniyanın müstəqilliyini tanımadı. Avropa İttifaqı açıq şəkildə bəyan etdi ki, müstəqil elan ediləcək Kataloniya avtomatik olaraq Aİ-dən kənarda qalacaq (2, s. 45).

Kataloniya məsələsi təkcə İspaniyanın daxili problemi deyil, həm də beynəlxalq miqyasda separatizmin zəncirvari effekt yarada biləcək nümunəsidir. Əgər Kataloniya müstəqillik əldə etsəydi, bu Avropada digər separatçı hərəkatlara (Şotlandiya, Korsika, Flandriya və s.) güclü stimul verə bilərdi. Bundan əlavə, iqtisadi baxımdan Kataloniya İspaniyanın ÜDM-nin 20%-ni təmin edir. Onun ayrılması həm İspaniya, həm də Avropa iqtisadiyyatı üçün ciddi itkilər demək olardı.

Müasir dövrdə Kataloniya ilə yanaşı ən önəmli separatizm ocaqlarından biri Kosovodur. Kosovo məsələsinin kökləri əsrlər əvvələ, Balkan yarımadasının Osmanlı dövrünə qədər gedib çıxır. 1389-cu ildə baş vermiş Kosova döyüşü bölgənin tarixi üçün mühüm dönüş nöqtəsi olmuşdur və Serblər üçün milli identitetin formalaşmasında simvolik əhəmiyyət daşıyır. Osmanlı dövründə Kosovo müxtəlif etnik qrupların – serblərin, albanların və digər Balkan xalqlarının – yaşadığı bir bölgə kimi inkişaf etdi. Bu dövrdə bölgədə dini və mədəni müxtəliflik mövcud idi, lakin Osmanlı idarəçiliyi etnik gərginliyi müəyyən qədər nəzarətdə saxladı.

XX əsrdə Kosovo Sosialist Federal Respublikası Yugoslaviya (SFRY) tərkibində muxtar vilayət statusuna malik idi. Muxtariyyət, Kosovonun etnik alban əhalisinin siyasi və mədəni hüquqlarını qorumağa xidmət edirdi. Lakin 1989-cu ildə Slobodan Miloşeviç hakimiyyətə gələndən sonra Serbiya Kosovonun muxtariyyət hüquqlarını ləğv etdi. Bu addım bölgədə etnik albaniyalılar arasında geniş narazılığa səbəb oldu və gərginliyi artırdı. 1990-cı illərin əvvəllərində Kosovo əhalisi öz hüquqlarını qorumaq üçün sivil müqavimət və siyasi təşkilatlanmaya başladı, bu isə Serbiya hakimiyyətinin repressiyaları ilə qarşılandı.

1990-cı illərin ortalarında Kosovo Albaniyalı Milli Qurtuluş Ordusu (UCK) silahlı mübarizəyə başladı. 1998–1999-cu illərdəki Kosovo müharibəsi Serbiya qüvvələri ilə UCK arasında qanlı toqquşmalarla yadda qaldı. Bu dövrdə yüz minlərlə insan qaçqın düşdü, çox sayda mülki əhali həyatını itirdi və bölgədə humanitar böhran yarandı (3, s. 20).

1999-cu ildə NATO Serbiya ərazisində hava əməliyyatlarına başladı və nəticədə Serbiyanın Kosovo üzərində hərbi nəzarəti sona çatdı. BMT-nin qərarı ilə Kosovo müvəqqəti idarəçiliyə götürüldü və region BMT-nin müvəqqəti idarəsi altında qaldı. 2008-ci ildə Kosovo öz müstəqilliyini elan etdi. Bu addım bəzi ölkələr (ABŞ, Böyük Britaniya, Fransa və s.) tərəfindən tanınsa da, Serbiya və bir sıra digər dövlətlər tərəfindən tanınmadı.Hazırda Kosovo Avropa İttifaqı və digər beynəlxalq təşkilatlarla əlaqələrini inkişaf etdirməyə çalışır, lakin etnik və siyasi gərginlik tam aradan qalxmayıb. Serblərlə

albanlar arasında bölgədə hələ də qarşıdurmalar yaşanır və müstəqilliyin beynəlxalq səviyyədə tanınması məsələsi həllini tapmayıb. (3, s. 150)

Krım və Donbas məsələsi Ukrayna və Rusiya arasındakı etnik, tarixi və siyasi gərginliyin mərkəzində durur. Krım tarixi boyunca müxtəlif imperiyaların – Osmanlı İmperiyası, Rusiya İmperiyası və Sovet İttifaqı – tərkibində olmuşdur. 1783-cü ildə Rusiya Krımı öz tərkibinə qatdı, lakin Sovet dövründə 1954-cü ildə Krım Sovetlər Birliyinin qərarı ilə Rusiya Sovet Sosialist Federativ Respublikası ərazisindən Ukrayna Sovet Sosialist Respublikası ərazisinə keçirildi. Bu qərar o zamanın siyasi məntiqi çərçivəsində qəbul edilsə də, gələcəkdə regionda etnik və siyasi gərginliyin əsas səbəblərindən birinə çevrildi.

Donbas bölgəsi isə sənaye və karbohidrogen ehtiyatları ilə zəngin bir region olaraq Sovet dövründə Ukrayna SSR-in iqtisadi və sənaye mərkəzlərindən biri hesab olunurdu. 1991-ci ildə Sovet İttifaqının dağılmasından sonra Krım və Donbas Ukrayna tərkibində qaldı, lakin bu ərazilərdə yaşayan rusdilli və pro-Rusiya əhali mərkəzi hakimiyyətlə münasibətlərdə zaman-zaman gərginlik nümayiş etdirdi.

2014-cü ilin fevralında Ukraynada Euromaidan hərəkatı və Viktor Yanukoviçin devrilməsindən sonra Krım və Donbas bölgələrində siyasi vəziyyət kəskinləşdi. Mart 2014-cü ildə Rusiya Krımı ilhaq etdi; bu addım beynəlxalq aləm tərəfindən qanunsuz hesab olundu və BMT Təhlükəsizlik Şurasında geniş müzakirələrə səbəb oldu. Eyni vaxtda Donbasın Donetsk və Luqansk vilayətlərində pro-Rusiya separatçı qruplar silahlı münaqişəyə başladı (6, s. 90).

2014–2015-ci illərdə Donbasda münaqişə daha da dərinləşdi, Minsk razılaşmaları vasitəsilə müvəqqəti atəşkəs əldə olunsa da, tərəflər arasında tam sülh hələ də təmin edilməyib. 2022-ci ilin fevralında başlayan Rusiya-Ukrayna müharibəsi Donbas bölgəsində vəziyyəti kritik həddə çatdırdı. Hazırda Krım Rusiya nəzarətindədir, Donbas isə qismən separatçıların və Rusiya dəstəyli qüvvələrin əlindədir. Bölgədə hərbi qarşıdurma, etnik gərginlik və humanitar böhran davam edir.

Şotlandiya məsələsi uzun tarixi köklərə malikdir. 1707-ci ildə İngiltərə və Şotlandiya Birlik Aktı (Acts of Union) ilə Böyük Britaniyanın tərkibində birləşdi. Bu birləşmə Şotlandiyanın müstəqilliyini siyasi və iqtisadi baxımdan məhdudlaşdırsa da, Şotlandiya öz mədəniyyətini, hüquqi sistemini və təhsil institutlarını qorumağa davam etdi. 18–19-cu əsrlərdə sənaye inqilabı və iqtisadi dəyişikliklər nəticəsində Şotlandiya, xüsusilə də Glasgow və Edinburq kimi şəhərlərdə sənaye mərkəzi rolunu gücləndirdi.

20-ci əsrdə Şotlandiyada iqtisadi və sosial məsələlər ətrafında siyasi narazılıq artdı. Neft gəlirləri, vergilərin bölgüsü, sosial xidmətlərin idarə olunması və iş imkanları məsələləri mərkəzi London hökuməti ilə Şotlandiya arasında gərginlik yaratdı. 1979-cu ildə keçirilmiş ilk müstəqillik referendumunda kifayət qədər səs toplanmasa da, bu, Şotlandiya xalqının siyasi iddialarının artdığını göstərdi.

1997-ci ildə keçirilmiş referendum nəticəsində Şotlandiya muxtariyyət hüququna malik parlament qazanaraq daxili siyasətdə müəyyən səlahiyyətlər əldə etdi. 1999-cu ildən etibarən Şotlandiya parlamenti fəaliyyət göstərir, lakin müstəqillik hələ də əsas siyasi hədəf olaraq qalır.

2014-cü ildə keçirilmiş referendumda Şotlandiyanın müstəqilliyi məsələsi yenidən gündəmə gəldi. Nəticədə əksəriyyət müstəqilliyə qarşı səs verdi, lakin bu, separatçı hərəkatları zəiflətmədi. Brexit prosesi Şotlandiyada yeni gərginlik yaratdı, çünki əhalinin əksəriyyəti Avropa İttifaqında qalmağı dəstəkləyirdi və Brexit sonrası Şotlandiyanın statusu və sərhəd məsələləri müzakirə mövzusuna çevrildi.Hazırda Şotlandiya Milli Partiyası (SNP) ölkənin gələcəkdə ikinci referendum keçirərək müstəqillik əldə etməsi üçün siyasi hazırlıqlarını davam etdirir. Eyni zamanda, mərkəzi hökumət və parlament arasında iqtisadi, siyasi və hüquqi gərginlik hələ də mövcuddur (4, s. 150).

Qarabağ məsələsinin tarixi kökləri qədim dövrlərə gedib çıxır. Region tarixən Azərbaycanın ayrılmaz bir hissəsi olmuş və burada Azərbaycan türkləri uzun müddət sülh şəraitində yaşamışdır. XVIII əsrin sonlarından etibarən Ermənistanın işğalçı siyasəti və separatçı fəaliyyətləri bölgədə gərginlik yaratmağa başladı. Bu dövrdə Ermənistan tərəfi Dağlıq Qarabağ üzərində iddialar irəli sürərək, ərazidəki etnik balansı pozmağa çalışırdı.

1923-cü ildə Sovet hakimiyyəti dövründə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. Bu qərar, əhalinin böyük hissəsini təşkil edən azərbaycanlılar arasında narazılıq yaratdı və ermənilərin ərazi iddialarını daha da gücləndirdi. Sovet dövründə Dağlıq Qarabağın statusu mübahisəli olaraq saxlanıldı, lakin azərbaycanlı əhalinin hüquqları müxtəlif məhdudiyyətlər altında qaldı. (6, s. 45)

1988-ci ildən etibarən erməni separatçıları və Ermənistanın hərbi müdaxiləsi nəticəsində Qarabağ və ətraf rayonlar işğal olundu. Bu, 1990-cı illərdə yüz minlərlə azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinə səbəb oldu. 1990–2020-ci illər arasında diplomatik danışıqlar və beynəlxalq səylər işğalın aradan qaldırılması üçün davam etdi, lakin nəticələr məhdud oldu.

2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında tarixi zəfər qazandı. Müharibə nəticəsində Qarabağ və ətraf işğal olunmuş rayonlar azad edildi. Bu zəfər Azərbaycan xalqının həmrəyliyinin, gücünün və milli iradəsinin təcəssümü oldu. Qələbə həm də regionda yeni siyasi və iqtisadi sabitliyin bərqərar olmasına imkan yaratdı. (1, s. 80)

2020-ci ilin 10 noyabr tarixində Azərbaycan Ordusunun tarixi zəfəri ilə başa çatan 44 günlük Vətən müharibəsindən sonra Qarabağ və ətraf rayonlar işğaldan azad edildi. Bu zəfər yalnız ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmədi, eyni zamanda bölgədə separatizmin kökünün qazılması üçün strateji imkanlar yaratdı. Azərbaycan dövləti işğaldan azad olunmuş ərazilərdə təhlükəsizliyi təmin etmək məqsədilə hərbi və hüquqi tədbirlər həyata keçirdi, separatçı fəaliyyətlərin gələcəkdə təkrar baş qaldırmasının qarşısını almaq üçün yerli idarəetmə sistemi Azərbaycan qanunvericiliyi əsasında yenidən quruldu. Əraziyə dövlət orqanları və hüquq-mühafizə strukturları yerləşdirildi, sərhəd nəzarəti gücləndirildi və insanlara dayanıqlı vətəndaş həyatı təmin etmək üçün humanitar və sosial layihələr həyata keçirildi.

Bərpa və quruculuq işləri sürətlə aparıldı. Yol, körpü, elektrik, qaz və su şəbəkələri tamamilə yenidən qurularaq şəhər və kəndlərdə müasir infrastruktur yaradıldı. Məktəblər, xəstəxanalar, mədəniyyət və idman obyektləri yenidən istifadəyə verildi, Azərbaycanın tarixi və mədəni irsi qorunaraq bərpa olundu. Eyni zamanda məcburi köçkün olmuş əhalinin geri dönüşü üçün mənzillər və yeni qəsəbələr salındı. Dağlıq Qarabağ və ətraf rayonlarda kənd təsərrüfatı, sənaye və turizm infrastrukturu inkişaf etdirilərək iqtisadi mühit gücləndirildi.

Bütün bu tədbirlər nəticəsində Qarabağda stabil təhlükəsizlik və iqtisadi inkişaf mühiti yaradılmış, separatçı təsirlər sıfıra endirilmişdir. Azərbaycan dövlətinin məqsədi bölgəni uzunmüddətli sülh və sabitliyə aparmaq, həmçinin milli birliyi gücləndirməkdir. Bu zəfər Azərbaycan xalqının həmrəyliyinin, gücünün və milli iradəsinin təcəssümü olmaqla yanaşı, bölgədə yeni siyasi və sosial sabitlik üçün də möhkəm zəmin yaratmışdır.

Müasir dövrdə separatizm məsələləri yalnız milli təhlükəsizliyi deyil, həm də beynəlxalq sabitliyi və sülhü ciddi şəkildə sınağa çəkir. Dünyanın müxtəlif bölgələrində baş qaldıran separatçı hərəkatlar, uzunmüddətli münaqişələr və siyasi gərginliklər göstərir ki, hər bir xalq və dövlət öz gələcəyini qorumaqda məsuliyyət daşıyır. Lakin Azərbaycan xalqının tarixi təcrübəsi və əldə etdiyi zəfərlər sübut edir ki, vətənə bağlılıq, həmrəylik və qətiyyətlə hərəkət etdikdə hər çətinlik dəf edilə bilər.

Sülh yalnız passiv gözləmə ilə əldə edilə bilməz; o, hər birimizin düşüncəsi, hərəkəti və birliyi ilə qurulur. Dövlətimizin gücü, xalqımızın həmrəyliyi və milli iradəmiz sülhün təmin

edilməsində əsas dayaqlarımızdır. Qarabağda əldə etdiyimiz tarixi zəfər bunu bir daha göstərdi: əgər xalq bir məqsəd uğrunda birləşirsə, sabitlik, ədalət və sülh mümkün olur.

Dünyada davamlı sülhün qurulması və regional stabilliyin təmin olunması üçün məsuliyyət bizdədir. Hər bir fərd öz vəzifəsini dərk edərək, milli birlik və qarşılıqlı hörmət prinsipləri əsasında hərəkət etməli, gələcək nəsillərə sülh və firavanlıq miras qoymalıdır. Nəticədə, sülh yalnız arzu deyil, həm də insan iradəsi və milli həmrəyliyin məhsulu kimi reallaşa bilər.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Arxivi. Qarabağ tarixi və Azərbaycan xalqının mübarizəsi. Bakı, 2021, 320 s.
2. Guibernau, Montserrat. Catalan Nationalism: Francoism, Transition and Democracy. London: Routledge, 2004, 240 s
3. Judah, Tim. Kosovo: What Everyone Needs to Know. Oxford University Press, 2008, 256 s.
4. Keating, Michael. The Independence of Scotland: Self-Government and the Shifting Politics of Union. Oxford University Press, 2009, 288 s.
5. Kostov, Chris Separatism and Regionalism in Modern Europe.Cambridge Scholars Publishing, 2020, 350 s. Wilson, Andrew. Ukraine Crisis: What It Means for the West. New Haven: Yale University Press, 2014, 288 s.
6. Wilson, Andrew. Ukraine Crisis: What It Means for the West. New Haven: Yale University Press, 2014, 288 s.

# MÜASİR DÜNYADA SEPARATİZM OCAQLARI

***Yusifov Elvin***

## XÜLASƏ

Müasir dünyada separatizm dövlətlərin milli təhlükəsizliyi, ərazi bütövlüyü və siyasi sabitliyi üçün ciddi təhdidlərdən biri kimi çıxış edir. Qloballaşma və informasiya texnologiyalarının inkişafı separatçı ideyaların yayılmasını asanlaşdırmış, etnik, dini və mədəni zəmində müxtəlif münaqişələrə zəmin yaratmışdır. Bugünkü dövrdə separatizm təkcə daxili siyasi mübahisələrin nəticəsi deyil, həm də böyük güclərin geosiyasi maraqları fonunda alətə çevrilmişdir. Kosovo, Kataloniya, Şotlandiya, Donbas, Krım, Qarabağ, Abxaziya və Cənubi Osetiya kimi bölgələrdə baş verən hadisələr separatizmin müxtəlif formalarını nümayiş etdirir. Bu proseslər yalnız regionların siyasi və iqtisadi sabitliyini pozmur, həm də beynəlxalq hüququn əsas prinsiplərini sarsıdır. Nəticə etibarilə separatizm ocaqları müasir beynəlxalq münasibətlər sistemində gərginlik mənbəyinə çevrilmiş, dövlətlərarası münasibətlərin mürəkkəbləşməsinə səbəb olmuşdur.

# ОЧАГИ СЕПАРАТИЗМА В СОВРЕМЕННОМ МИРЕ

***Юсифов Эльвин***

## АННОТАЦИЯ

В современном мире сепаратизм выступает одной из серьёзных угроз для национальной безопасности, территориальной целостности и политической стабильности государств. Глобализация и развитие информационных технологий способствовали распространению сепаратистских идей, создавая почву для конфликтов на этнической, религиозной и культурной основе. Сегодня сепаратизм является не только результатом внутренних политических противоречий, но и инструментом в геополитических интересах крупных держав. События в Косово, Каталонии, Шотландии, Донбассе, Крыму, Карабахе, Абхазии и Южной Осетии демонстрируют различные формы сепаратизма. Эти процессы подрывают не только политическую и экономическую стабильность регионов, но и основные принципы международного права. В результате очаги сепаратизма превратились в источник напряженности в системе международных отношений и осложнили взаимодействие между государствами.

# HOTBEDS OF SEPARATISM IN THE MODERN WORLD

***Yusifov Elvin***

## SUMMARY

In the modern world, separatism has become one of the major threats to national security, territorial integrity, and political stability of states. Globalization and the development of information technologies have facilitated the spread of separatist ideas, fueling conflicts on ethnic, religious, and cultural grounds. Today, separatism is not only the outcome of internal political disputes but also a tool exploited within the geopolitical interests of major powers. The cases of Kosovo, Catalonia, Scotland, Donbas, Crimea, Karabakh, Abkhazia, and South Ossetia illustrate different forms of separatism. These processes undermine not only the political and economic stability of regions but also the fundamental principles of international law. Consequently, separatist hotspots have become sources of tension in the system of international relations, complicating cooperation among states.

# İSTEHSAL XƏRCLƏRİNİN UÇOTU

***Əliyeva Sona Mahir qızı***
***Bakı Biznes Universitetinin II kurs magistrantı***
***talibovasona96@gmail.com***

***Açar sözlər:*** İstehsal xərcləri, xərc uçotu, maya dəyəri, kalkulyasiya metodları , idarəetmə uçotu
***Ключевые слова:*** производственные затраты, учет затрат, себестоимость, методы калькуляции, управленческий учет
***Keywords:*** production costs, cost accounting, cost of production, costing methods, management accounting

**Giriş.** Müasir iqtisadi şəraitdə müəssisələrin rəqabət qabiliyyətinin artırılması, resurslardan səmərəli istifadə və maliyyə dayanıqlılığının təmin olunması üçün istehsal xərclərinin dəqiq və sistemli uçotu mühüm əhəmiyyət kəsb edir. İstehsal xərcləri müəssisənin əsas fəaliyyət sahəsində məhsul və ya xidmətlərin yaradılması ilə bağlı çəkilən birbaşa və dolayı xərcləri əhatə edir. Bu xərclərin düzgün təsnifatı, ölçülməsi və uçotu yalnız maliyyə hesabatlarının şəffaflığını təmin etmir, eyni zamanda idarəetmə qərarlarının qəbulunda əsaslı baza rolunu oynayır [Drury, 2018].

İqtisadiyyatın sənayeləşməsi və rəqabət mühitinin dərinləşməsi fonunda istehsal xərclərinin uçotu sistemlərinin təkmilləşdirilməsi, beynəlxalq standartlara uyğunlaşdırılması və müasir texnologiyaların tətbiqi zərurətə çevrilmişdir. Bu kontekstdə, müəssisələrin maliyyə nəticələrinin obyektiv qiymətləndirilməsi, məhsulun maya dəyərinin düzgün hesablanması və strateji planlaşdırma proseslərinin effektivliyi üçün istehsal xərclərinin uçotu üzrə metodoloji yanaşmaların təhlili və tətbiqi xüsusi aktuallıq kəsb edir [Horngren, Datar, & Rajan, 2020; Azərbaycan Respublikası Maliyyə Nazirliyi, 2021].

Bu məqalədə istehsal xərclərinin uçotunun nəzəri əsasları, tətbiq olunan metodlar, beynəlxalq təcrübə və milli normativ baza kontekstində təhlil ediləcək, həmçinin müəssisələr üçün optimal uçot modellərinin formalaşdırılması istiqamətində tövsiyələr irəli sürüləcəkdir.

Xərclər — hesabat dövrü ərzində müəssisənin iqtisadi faydasının azalmasına səbəb olan, mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi ilə əlaqəli olmayan hadisələrdir. Bu azalma aktivlərin müəssisədən çıxması və ya həcminin azalması, yaxud öhdəliklərin artması nəticəsində baş verir və kapitalın azalması ilə nəticələnir [Azərbaycan Respublikası Maliyyə Nazirliyi, 2021, s. 16].

Xərcləri müxtəlif meyarlar əsasında təsnifləşdirmək mümkündür. Lakin mühasibat uçotunda daha çox tətbiq olunan iki əsas təsnifat növü mövcuddur: funksional təsnifat və iqtisadi (məzmunca) təsnifat.

Funksional təsnifat xərclərin müəssisənin əsas fəaliyyət sahələrində – istehsal, idarəetmə və satış proseslərində yerinə yetirdiyi funksiyalara əsasən qruplaşdırılmasını nəzərdə tutur. Bu yanaşmaya əsasən, istənilən müəssisənin fəaliyyəti üç əsas struktur bölmədə cəmlənir: istehsal, inzibati idarəetmə və satış.

Sadələşdirilmiş şəkildə bu təsnifatı iki ümumi qrupa bölmək olar:

İstehsal xərcləri – məhsulun və ya xidmətin yaradılması ilə bilavasitə əlaqəli olan xərclər;

Qeyri-istehsal məsrəfləri – istehsal prosesindən kənarda yaranan, əsasən inzibati idarəetmə və satış fəaliyyəti ilə bağlı xərclər.

Istehsal məsrəflərinin tərkibi, onların düzgün qruplaşdırılması və təsnifatı mühasibat uçotunun əsas predmetlərindən biri hesab olunur. Bu məsrəflər müxtəlif meyarlar əsasında

təsnifləşdirilə bilər. Lakin praktiki mühasibatlıqda ən çox istifadə edilən yanaşmalardan biri məsrəflərin təyinatına görə təsnifatıdır. Bu təsnifatda məsrəflər onların məhsul istehsalına birbaşa və ya dolayı təsirinə əsasən aşağıdakı iki əsas qrupa bölünür:

1) Birbaşa istehsal məsrəfləri – məhsulun istehsalına birbaşa aid edilə bilən və onun maya dəyərinin formalaşmasında birbaşa iştirak edən xərclərdir. Bu qrupa aşağıdakılar daxildir:

a) Birbaşa material məsrəfləri – məhsulun hazırlanmasında istifadə olunan əsas xammal və materialların dəyəri;

b) Birbaşa əmək məsrəfləri – istehsal prosesində çalışan işçilərin əməyinə görə ödənilən məvacib və ona bağlı sosial ödənişlər.

2) Dolayı istehsal məsrəfləri – məhsulun maya dəyərinə birbaşa aid edilə bilməyən, lakin istehsal prosesini dəstəkləyən xərclərdir. Bu qrupa isə aşağıdakı alt qruplar daxildir:

a) Dolayı material məsrəfləri – istehsalda istifadə olunan, lakin konkret məhsula birbaşa aid edilməyən köməkçi materialların dəyəri;

b) Dolayı əmək məsrəfləri – texniki nəzarət, xidmət və yardımçı işçilərin əməkhaqqı və sosial xərcləri;

c) Digər dolayı məsrəflər – istehsalat sahəsinin saxlanması, amortizasiya, enerji, təmir və digər ümumi istehsalat xərcləri.

Bu təsnifat istehsal məsrəflərinin strukturunun daha aydın və sistemli şəkildə təqdiminə imkan verir və onların uçotunun aparılmasında mühüm rol oynayır. [Fətullayev, 2022, s. 297].

**Şəkil:17.3. İstehsal məsrəflərinin təsnifatı**




Qeyd: Şəkil götürülmüşdür:[Fətullayev, 2022, s. 297].

İstehsal məsrəflərinin strukturuna əsaslanaraq onların ümumi məbləğini ifadə edən düstur aşağıdakı şəkildə formalaşdırıla bilər:

**İstehsal məsrəfləri (İM) = Birbaşa material məsrəfləri (BM) + Birbaşa əmək məsrəfləri (BƏ) + Dolayı istehsal məsrəfləri (DİM).**

Bu düstur məhsulun maya dəyərinin formalaşmasında iştirak edən əsas və yardımçı xərclərin sistemli uçotunu təmin edir [Fətullayev, 2022, s. 300]

İstehsal xərclərinin məqsədli və funksional istiqamətlər üzrə düzgün uçotu üçün müəssisələrdə xərclərin xüsusi nomenklaturaları və şifrləri hazırlanır. Bu yanaşma xərclərin istehsal sahələri, sexlər və məhsul növləri üzrə sistemli şəkildə toplanmasına imkan verir. Uçot, adətən, məsrəf maddələri üzrə aparılır və bu maddələrin tərkibi müəssisənin texnoloji və təşkilati xüsusiyyətlərinə uyğun müəyyən edilir.

Xərclər tərkibinə görə bir elementli və kompleks ola bilər. Kompleks məsrəflərə ümumistehsalat və inzibati xərclər daxildir və onlar müxtəlif xərc elementlərinin cəmini əhatə edir.

İqtisadi məzmun və funksional təyinat baxımından istehsal xərcləri iki qrupa bölünür:

Əsas məsrəflər – məhsul istehsalının texnoloji prosesinə birbaşa təsir edən və onun ayrılmaz hissəsi olan xərclərdir (xammal, əməkhaqqı, enerji, amortizasiya və s.).

Əlavə məsrəflər – istehsalın təşkili, idarə olunması və xidmətlə bağlı xərcləri əhatə edir (inzibati heyətin əməkhaqqı, bina və avadanlıqların saxlanması, enerji sərfi və s.).

Bundan əlavə, məhsulun maya dəyərinə daxil edilmə üsuluna əsasən xərclər müstəqim və qeyri-müstəqim olaraq da təsnifləşdirilir. [Sadıqov, Sadıqov, Cəfərova, & Sadıqov, 2012, s. 351-354].

Məsrəflərin iqtisadi elementlər üzrə təsnifatı, onların kalkulyasiya maddələri əsasında qruplaşdırılmasından bir sıra mühüm cəhətlərinə görə fərqlənir. Kalkulyasiya maddələri üzrə təsnifat əsasən cari dövr ərzində məhsul istehsalı və satışla bağlı yaranan xərcləri əks etdirir. Halbuki iqtisadi elementlərə əsaslanan təsnifat müəssisənin hesabat dövründə istifadə etdiyi bütün istehsalat resurslarını – o cümlədən tamamlanmamış istehsalat üzrə qalıqların artımı və gələcək dövrlərə aid məsrəfləri də nəzərə alır.

18 №-li "Gəlir" adlı Mühasibat Uçotunun Beynəlxalq Standartına əsasən, iqtisadi tərkibinə görə yekcins olan xərclər aşağıdakı kimi qruplaşdırılır:

- Material xarakterli xərclər
- Əmək xarakterli xərclər
- Kompleks pul ödənişləri şəklində olan xərclər

Əgər məhsulun maya dəyəri iqtisadi elementlər üzrə təsnifləşdirilərsə, aşağıdakı xərc qrupları nəzərə alınmalıdır:

- Geri qaytarılmış materialların dəyəri çıxılmaqla material xərcləri
- Əməkhaqqı ilə bağlı xərclər
- Sosial sığorta üzrə köçürmələr
- Əsas vəsaitlərin amortizasiyası
- Digər xərclər

Bu qruplaşdırma bütün müəssisələr üçün ümumi xarakter daşıyır və istehsalat xərclərinin iqtisadi elementlər üzrə icmalını formalaşdırmağa imkan verir. Digər tərəfdən, kalkulyasiya maddələri üzrə qruplaşdırma məhsul, iş və xidmətlərin maya dəyərinin daha dəqiq hesablanması məqsədilə tətbiq olunur (Dövlət Statistika Komitəsi, 2010; Azərbaycan Respublikası Maliyyə Nazirliyi, 2003).

İdarəetmə uçotu müasir müəssisələrdə strateji planlaşdırma, resursların səmərəli istifadəsi və məhsulun maya dəyərinin dəqiq hesablanması üçün mühüm informasiya bazası rolunu oynayır. Bu uçot sistemi, kalkulyasiya metodlarının tətbiqi ilə xərclərin strukturlaşdırılmasını və təhlilini təmin edir. Kalkulyasiya — məhsulun və xidmətin maya dəyərinin müəyyən edilməsi üçün xərclərin sistemli şəkildə toplanması və qruplaşdırılması prosesidir. Bu proses idarəetmə uçotunun əsas funksiyalarından biri kimi çıxış edir və müəssisənin maliyyə performansını qiymətləndirmək üçün baza rolunu oynayır (Fətullayev, Abasquliyev, & Zaidov, 2024).

Kalkulyasiya metodları müxtəlif istehsal və xidmət sahələrinin xüsusiyyətlərinə uyğun olaraq seçilir. Ən çox istifadə olunan metodlara sifariş, mərhələli, normativ, fəaliyyət əsaslı (ABC) və məqsədli (target costing) yanaşmalar daxildir. Bu metodlar müəssisənin məsrəf mərkəzləri, məhsul növləri və funksional bölmələri üzrə xərclərin dəqiq uçotunu aparmağa imkan verir (Abbasov, 2012).

Sifariş metodu fərdi sifarişlər və ya kiçik partiyalar üzrə məhsul və xidmətlərin maya dəyərinin hesablanması üçün istifadə olunur. Bu metodda hər bir sifariş üzrə çəkilən xərclər

ayrıca uçota alınır və məhsulun spesifik xüsusiyyətlərinə əsasən qiymətləndirilir (Drury, 2018).

Mərhələli kalkulyasiya metodu kütləvi və fasiləsiz istehsal proseslərində tətbiq olunur. Burada xərclər istehsal mərhələləri üzrə toplanır və məhsulun vahid maya dəyəri mərhələlər üzrə orta hesabla müəyyən edilir (Horngren, Datar, & Rajan, 2020).

Normativ kalkulyasiya metodu əvvəlcədən müəyyən edilmiş norma və standartlara əsaslanaraq məhsulun maya dəyərini hesablamağa imkan verir. Faktiki xərclərlə normativ xərclər arasındakı fərqlər təhlil edilərək səmərəlilik qiymətləndirilir (Fətullayev, Abasquliyev, & Zaidov, 2024).

ABC metodu xərcləri fəaliyyətlərə və bu fəaliyyətlərin məhsullara olan təsirinə əsasən bölüşdürür. Bu yanaşma məhsulun maya dəyərinin daha dəqiq müəyyən edilməsinə və qeyri-effektiv fəaliyyətlərin aşkarlanmasına şərait yaradır (Drury, 2018).

Məqsədli kalkulyasiya bazar qiymətinə əsaslanaraq məhsulun hədəf maya dəyərini əvvəlcədən müəyyən edir. Bu metod məhsulun dizayn və istehsal mərhələlərində xərclərin optimallaşdırılmasına yönəlib (Abbasov, 2012).

İdarəetmə uçotu bu məlumatları təhlil edərək büdcə planlaşdırması, qiymətqoyma strategiyası, rentabellik analizi və alternativ qərarların qiymətləndirilməsi üçün istifadə olunur. Beləliklə, kalkulyasiya metodları idarəetmə uçotunun analitik gücünü artırır və müəssisənin strateji məqsədlərinə çatmasında mühüm rol oynayır. Onların düzgün seçimi və tətbiqi müəssisənin maliyyə dayanıqlığını, rəqabət qabiliyyətini və operativ qərarvermə imkanlarını gücləndirir (Muhasib.az, n.d.).

Nəticə

İstehsal xərclərinin düzgün və sistemli şəkildə uçotu müəssisələrin maliyyə sabitliyinin qorunmasında, strateji planlaşdırma imkanlarının genişləndirilməsində və idarəetmə qərarlarının əsaslandırılmasında mühüm əhəmiyyət kəsb edir. Məqalədə aparılan təhlillər göstərir ki, xərclərin funksional və iqtisadi əsaslarla təsnif edilməsi, kalkulyasiya maddələri üzrə qruplaşdırılması və müasir kalkulyasiya metodlarının tətbiqi məhsulun maya dəyərinin daha dəqiq müəyyənləşdirilməsinə, resurslardan səmərəli istifadəyə və rəqabət üstünlüyünün əldə olunmasına şərait yaradır.

Bu istiqamətdə əldə olunan əsas nəticələr aşağıdakılardır:

- Uçotun sistemləşdirilməsi: Xərclərin birbaşa və dolayı formada təsnif edilməsi, eləcə də kalkulyasiya maddələri üzrə strukturlaşdırılması müəssisələrə istehsal proseslərini daha şəffaf və nəzarət edilə bilən şəkildə idarə etməyə imkan verir.
- İdarəetmə uçotunun funksionallığı: Müxtəlif kalkulyasiya metodlarının tətbiqi (sifariş, mərhələli, normativ, ABC və məqsədli yanaşmalar) idarəetmə uçotunun analitik imkanlarını artırır və büdcələmə, qiymətqoyma, rentabellik və alternativ qərarların qiymətləndirilməsi kimi sahələrdə effektivliyi yüksəldir.
- Normativ uyğunlaşma: Milli qanunvericilik və beynəlxalq standartların (IAS/IFRS) inteqrasiyası müəssisələrin hesabatlılıq səviyyəsini artırır və beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirir.
- Strateji qərarların dəstəklənməsi: Xərclərin təhlili və uçotu müəssisələrin strateji hədəflərinə çatmaq üçün əsas informasiya bazasını formalaşdırır, qeyri-səmərəli sahələrin müəyyənləşdirilməsinə və optimallaşdırma tədbirlərinin həyata keçirilməsinə şərait yaradır.
- Texnoloji və institusional inkişaf: Müasir texnologiyaların tətbiqi və insan resurslarının peşəkar inkişafı uçot sistemlərinin effektivliyini artırır və müəssisələrin davamlı inkişaf strategiyalarına töhfə verir.

Nəticə etibarilə, istehsal xərclərinin uçotu üzrə müasir metodoloji yanaşmaların tətbiqi müəssisələrin maliyyə sabitliyini, rəqabət qabiliyyətini və institusional inkişafını təmin edən əsas amillərdən biri kimi çıxış edir. Bu sahədə aparılan islahatlar və təkmilləşdirmələr

yalnız daxili idarəetməni gücləndirmir, həm də xarici tərəfdaşlarla şəffaf və etibarlı əməkdaşlıq mühitinin formalaşmasına xidmət edir.

## ƏDƏBİYYAT

1. Abbasov, Q. Ə. (2012). İdarəetmə uçotunun metodları. Maliyyə və uçot, (6), 2–15.
2. Azərbaycan Respublikası Maliyyə Nazirliyi. (2003). Müəssisələrin mühasibat uçotunun hesablar planı və onun tətbiqinə dair təlimat. Bakı: Müəllif nəşri.
3. Azərbaycan Respublikası Maliyyə Nazirliyi. (2021). Milli Mühasibat Uçotu Standartları. Bakı: ARMN.
4. Drury, C. (2018). Management and cost accounting (10th ed.). Cengage Learning.
5. Dövlət Statistika Komitəsi. (2010). Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının statistik göstəriciləri. Bakı: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.
6. Fətullayev, R. (2022). Beynəlxalq mühasibat uçotunun əsasları (Maliyyə uçotu). Fəsil 17.
7. Fətullayev, R., Abasquliyev, M., & Zaidov, E. (2024). İdarəetmə uçotuna giriş. Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi.
8. Horngren, C. T., Datar, S. M., & Rajan, M. V. (2020). Cost accounting: A managerial emphasis (16th ed.).
9. International Accounting Standards Board (IASB). (2023). IAS 2 Inventories. https://www.ifrs.org
10. Muhasib.az. (n.d.). Məsrəflərin uçotu metodları (kalkulyasiya metodları). http://www.muhasib.az/Muhasibat/mesref/mesref3.php
11. Sadıqov, Ə. A., Sadıqov, T. Ə., Cəfərova, Ş. Ə., & Sadıqov, C. Ə. (2012). Mühasibat uçotu: Dərslik. Bakı

# İSTEHSAL XƏRCLƏRİNİN UÇOTU

***Əliyeva Sona***

## XÜLASƏ

Məqalədə müasir iqtisadi şəraitdə müəssisələrin rəqabət qabiliyyətinin artırılması və maliyyə dayanıqlılığının təmin olunmasında istehsal xərclərinin uçotunun əhəmiyyəti vurğulanır. İstehsal xərcləri birbaşa və dolayı məsrəfləri əhatə edir və onların düzgün təsnifatı, ölçülməsi və uçotu həm maliyyə hesabatlarının şəffaflığına, həm də idarəetmə qərarlarının effektivliyinə töhfə verir. Məqalədə funksional və iqtisadi təsnifatlar, məsrəflərin elementlər və kalkulyasiya maddələri üzrə qruplaşdırılması, həmçinin idarəetmə uçotunda istifadə olunan kalkulyasiya metodları (sifariş, mərhələli, normativ, ABC və məqsədli yanaşmalar) ətraflı təhlil olunur. Beynəlxalq təcrübə və milli normativ baza kontekstində istehsal xərclərinin uçotu sistemlərinin təkmilləşdirilməsi və müasir texnologiyaların tətbiqinin zəruriliyi qeyd olunur.

## УЧЕТ ПРОИЗВОДСТВЕННЫХ ЗАТРАТ

***Алиева Сона***

### АННОТАЦИЯ

В статье подчеркивается значение учета производственных затрат в повышении конкурентоспособности предприятий и обеспечении финансовой устойчивости в современных экономических условиях. Производственные затраты охватывают как прямые, так и косвенные расходы, и их правильная классификация, измерение и учет способствуют как прозрачности финансовой отчетности, так и эффективности управленческих решений. В статье подробно анализируются функциональные и экономические классификации, группировка расходов по элементам и калькуляционным статьям, а также методы калькулирования, используемые в управленческом учете (позаказный, попередельный, нормативный, ABC и целевой подходы). Отмечается необходимость совершенствования систем учета производственных затрат и внедрения современных технологий в контексте международного опыта и национальной нормативной базы.

## ACCOUNTİNG FOR PRODUCTİON COSTS

***Aliyeva Sona***

### SUMMARY

The article emphasizes the importance of accounting for production costs in enhancing the competitiveness of enterprises and ensuring financial sustainability under modern economic conditions. Production costs include both direct and indirect expenses, and their proper classification, measurement, and accounting contribute to the transparency of financial reporting as well as the effectiveness of management decisions. The article provides a detailed analysis of functional and economic classifications, the grouping of expenses by elements and costing items, as well as the costing methods used in management accounting (job-order, process, standard, ABC, and target costing approaches). The necessity of improving production cost accounting systems and applying modern technologies within the context of international experience and the national regulatory framework is also highlighted.

# MARKETİNQ STRATEGİYALARININ QLOBAL TİCARƏTƏ TƏSİRİ: NƏZƏRİ YANAŞMALAR VƏ MODELLƏR

**Aslanov Habil Hüseyn oğlu**[1]
***Bakı Dövlət Universiteti***
***Dünya iqtisadiyyatı kafedrasının dosenti***
***dosent1966@ mail.ru***
**Əhmədov Əli Natiq oğlu**[2]
***Bakı Dövlət Universiteti***
***Dünya iqtisadiyyatı kafedrasının magistrı***
***ali.akhmedov210@gmail.com***

***Açar sözlər:*** qlobal ticarət, marketinq strategiyası, Uppsala modeli, OLI modeli, Porterin paradigması, Yeni Ticarət Nəzəriyyəsi, rəqəmsal marketinq.
***Ключевые слова:*** глобальная торговля, маркетинговая стратегия, модель Уппсалы, модель OLI, парадигма Портера, новая теория торговли, цифровой маркетинг.
***Keywords:*** global trade, marketing strategy, Uppsala model, OLI model, Porter's paradigm, New Trade Theory, digital marketing.

Marketinq strategiyalarının qlobal ticarətə təsiri müasir iqtisadi nəzəriyyələrin əsas istiqamətlərindən birinə çevrilmişdir və bu təsir həm makroiqtisadi proseslər, həm də mikro səviyyədə firmaların beynəlxalq fəaliyyət qərarları ilə sıx bağlıdır. Qlobal ticarətin genişlənməsi marketinq strategiyalarının təkamülünə səbəb olmuş, firmalar beynəlxalq bazarlara daxil olmaq üçün daha çevik, innovativ və tələbyönlü idarəetmə modelləri tətbiq etmişlər. Marketinq strategiyaları yalnız məhsul və xidmət satışını artıran vasitə deyil, həm də ölkələrarası ticarət axınlarını, istehlakçı davranışını, investisiya qərarlarını və resursların beynəlxalq bölgüsünü formalaşdıran əsas determinantlardan biri kimi qiymətləndirilir.

Klassik ticarət nəzəriyyələri istehsal xərclərinə və müqayisəli üstünlüklərə əsaslansa da, müasir ticarət nəzəriyyələri istehlakçı üstünlüklərini, brend kapitalını, innovasiya qabiliyyətini və marketinq kommunikasiya siyasətlərinin təsirini ön plana çəkir. Xüsusilə Yeni Ticarət Nəzəriyyəsi marketinq fəaliyyətini firmaların miqyas iqtisadiyyatı və məhsul diferensiasiyasından istifadə etməklə qlobal bazarlarda üstünlük əldə etməsinin əsas mexanizmi kimi qiymətləndirir [1, s. 41]. Bu nəzəriyyəyə görə, differensiasiya strategiyası və brend gücü idxal və ixrac axınlarının strukturunu dəyişdirərək qlobal ticarətin coğrafiyasını müəyyən edir. Marketinq differensiasiyası eyni məhsul qrupunda belə unikal dəyər yaradır və bu, firmalara yüksək qiymət tətbiq etməyə imkan verir. Krugman hesab edir ki, istehlakçıların müxtəliflik tələbi və brendə bağlılığı qlobal ticarətin genişlənməsinin əsas psixoloji motivlərindəndir. Beləliklə, Yeni Ticarət Nəzəriyyəsi sübut edir ki, marketinq strateji fəaliyyət olaraq istehsal faktorları qədər qlobal ticarət determinantıdır.

Uppsala Beynəlxalqlaşma Modeli isə firmaların beynəlxalq bazarlara mərhələli şəkildə daxil olduğunu və marketinq strategiyalarının təcrübə toplandıqca inkişaf etdiyini göstərir. Modelə görə, firma əvvəlcə psixoloji olaraq yaxın bazarlara daxil olur, informasiya və bilik artdıqca daha uzaq və mürəkkəb bazarlara yönəlir. Bu prosesdə marketinq strategiyası ticarətin ilkin səbəbi kimi deyil, təcrübənin və bazar biliklərinin artması nəticəsində formalaşan nəticə kimi dəyərləndirilir. Uppsala yanaşması göstərir ki, marketinq yalnız satış mexanizmi deyil, həm də risklərin idarə edilməsinə xidmət edən davranış alətidir. Model firmaların ardıcıl genişlənmə siyasətini izah etməklə, marketinqin qlobal ticarətdə tədrici təsir yaratdığını təsdiqləyir. Bununla yanaşı, Uppsala yanaşması göstərir ki, təcrübə və bilik artdıqca marketinq strategiyaları daha çox lokallaşdırma və mədəni uyğunlaşdırma tələb edir [4, s. 23].

Məhsulun Həyat Tsikli Modeli isə qlobal ticarətə marketinqin təsirini məhsulun inkişaf mərhələləri kontekstində izah edir. Vernona görə, məhsullar ilkin olaraq innovasiya mərhələsində yüksək gəlirli ölkələrdə istehsal olunur, daha sonra yetkinlik mərhələsində ucuz istehsal imkanları olan ölkələrə transfer edilir və beləliklə yeni ticarət axınları yaranır. Hər mərhələ marketinq strategiyasının dəyişməsini tələb edir: yaranma mərhələsində premium brendinq və innovasiya yönümlü marketinq üstünlük təşkil edir, böyümə mərhələsində genişmiqyaslı reklam və distribusiya aktivləşir, tənəzzül mərhələsində isə qiymət rəqabəti və bazar diversifikasiyası həlledici olur. Bu model qlobal ticarətin coğrafi strukturunun məhsulun həyat tsikli ilə formalaşdığını göstərir və marketinqin məhsulun beynəlxalq miqrasiya trayektoriyasını müəyyən etdiyini təsdiqləyir. Məhsulun həyat tsikli firmaların marketinq strategiyası vasitəsilə istehsalın beynəlxalq bölgüsünü idarə etdiyini sübut edir [5, s. 14].

Dunning-in Eklektik Paradigması (OLI modeli) qlobal ticarətdə marketinqin rolunu sahiblik, məkan və daxili nəzarət üstünlükləri kontekstində izah edir. Sahiblik üstünlüyü brend kapitalı, marketinq nou-hau, innovasiya qabiliyyəti kimi dəyərlərlə müəyyən edilir və bunlar firmaya beynəlxalq bazarlarda rəqabət gücü verir. Məkan üstünlüyü istehlakçı tələbinin səviyyəsi, bazarın ölçüsü, mədəni uyğunluq və logistika imkanları ilə ölçülür; marketinq strategiyası bu faktorlara uyğunlaşdırılır. Daxili nəzarət üstünlüyü isə marketinq, istehsal və satış proseslərinin firmanın öz nəzarətində saxlanılması ilə formalaşır. Dunning-in fikrincə, marketinq qlobal dəyər yaratma prosesinin mərkəzi elementidir və brend üstünlüyü ticarət axınlarını formalaşdıran strateji resursdur [2, s. 44]. OLI modeli göstərir ki, marketinq beynəlxalq investisiya qərarları ilə də sıx bağlıdır və firmaların xarici bazarlara giriş motivasiyasında həlledici rola malikdir.

Porterin Rəqabət Üstünlüyü Paradigması isə marketinqin qlobal rəqabət mühitində dəyər yaratma funksiyasını ön plana çəkir. Porterə görə, ölkələrin və firmaların rəqabət qabiliyyəti yalnız resurslardan deyil, dəyər zəncirinin təşkilindən və marketinq innovasiyalarından asılıdır. Fərqləndirmə strategiyası, qiymət liderliyi və fokuslaşma kimi seçimlər ticarət axınlarını dəyişdirir və firmaların qlobal mövqeyinə təsir edir. Marketinq innovasiyaları – yeni kommunikasiya modelləri, fərqləndirilmiş məhsullar, müştəri təcrübəsi – qlobal ticarətin genişlənməsində əsas rolu oynayır. Porter dəyər zəncirinin hər mərhələsində əlavə dəyər yaradılmasını rəqabət üstünlüyünün əsas şərti hesab edir və marketinq bu dəyərin formalaşdırılmasında aparıcı element kimi çıxış edir [3, s. 78].

Marketinq strategiyalarının psixoloji təsir yönümlü yanaşmaları isə göstərir ki, ticarət yalnız xərclərdən deyil, istehlakçıların brend qavrayışından, keyfiyyət anlayışından, identiklik hissindən və moda təsirlərindən asılıdır. Brend kapitalı gücləndikcə ticarət axınlarının coğrafiyası dəyişir və istehlakçılar milli istehsaldan daha çox brend identikliyinə üstünlük verirlər. Apple, Samsung, Toyota kimi qlobal brendlərin satış strukturu marketinqin psixoloji təsir gücünü real nümunələrlə təsdiqləyir [6, s. 91].

Rəqəmsal marketinq və elektron ticarət qlobal ticarətin strukturunda dərin transformasiya yaratmışdır. Amazon və Alibaba kimi platformalar qlobal ticarətə giriş baryerlərini aşağı salmış, KOB-ların belə beynəlxalq satışa çıxışını mümkün etmişdir [7, s. 44]. Rəqəmsal reklam, sosial media marketinqi və dinamik qiymət siyasəti ticarət axınlarının idarə olunmasında yeni determinantlara çevrilmiş və çoxkanallı (omnichannel) modellər istehlakçı davranışındakı dəyişiklikləri daha dəqiq hədəfləməyə imkan vermişdir.

2020–2024-cü illərdə qlobal ticarət indeksinin dinamikası marketinq strategiyalarının iqtisadi proseslərə təsirini empirik şəkildə təsdiqləmişdir. 2020-ci ildə pandemiya səbəbilə ticarət 116 indeks səviyyəsinə enmiş, lakin 2021-ci ildə sürətli adaptasiya və rəqəmsal satış kanallarının genişləndirilməsi nəticəsində 128 vahidə yüksəlmişdir. 2022-ci ildə indeks 140 vahidə çatmış və premium brendinq, innovativ məhsullar və diferensiasiya strategiyası artımı stimullaşdırmışdır. 2023-cü ildə geosiyasi risklər nəticəsində indeks 134-ə enmiş,

2024-cü ildə isə ticarət 138 vahidə çataraq stabil inkişaf mərhələsinə daxil olmuşdur. Bu dövrdə hibrid marketinq modeli – qlobal standartlaşdırma, lokal adaptasiya və rəqəmsal transformasiya – əsas yanaşmaya çevrilmişdir [6, s. 119].

Nəticə etibarilə, marketinq strategiyaları qlobal ticarətin bütün mərhələlərində – böhran, bərpa və stabil inkişaf dövrlərində – sistemli təsir gücünə malik olmuşdur. Tədqiqat göstərir ki, marketinq qlobal ticarət sisteminin həm mikro səviyyədə (firma davranışı), həm də makro səviyyədə (ticarət axınları) formalaşdırılmasında həlledici rol oynayır və gələcək dövrdə ticarətin davamlı artımı rəqəmsal yönümlü, çevik, innovativ və hibrid marketinq strategiyalarının prioritetləşdirilməsini tələb edəcəkdir.

## ƏDƏBİYYAT

1. Krugman P. Increasing Returns, Monopolistic Competition, and International Trade. Journal of International Economics, 1979, №9(4), s. 469–479.
2. Dunning J.H. Toward an Eclectic Theory of International Production: Some Empirical Tests. Journal of International Business Studies, 1980, №11(1), s. 9–31.
3. Porter M.E. The Competitive Advantage of Nations. New York: Free Press, 1990. 855 s.
4. Johanson J., Vahlne J.-E. The Internationalization Process of the Firm: A Model of Knowledge Development and Increasing Foreign Market Commitments. Journal of International Business Studies, 1977, №8(1), s. 23–32.
5. Vernon R. International Investment and International Trade in the Product Cycle. Quarterly Journal of Economics, 1966, №80(2), s. 190–207.
6. Kotler P., Keller K.L. Marketing Management. 15-ci nəşr. London: Pearson Education, 2016. 800 s.
7. Cavusgil S.T., Knight G., Riesenberger J. International Business: Strategy, Management, and the New Realities. 3-cü nəşr. Boston: Pearson, 2014. 744 s.

## MARKETİNQ STRATEGİYALARININ QLOBAL TİCARƏTƏ TƏSİRİ: NƏZƏRİ YANAŞMALAR VƏ MODELLƏR

***Aslanov Habil, Əhmədov Əli***

## XÜLASƏ

Qlobal ticarət axınlarının formalaşması və beynəlxalq bazarların dinamikası son illərdə marketinq strategiyalarının təsirindən əhəmiyyətli dərəcədə asılı hala gəlmişdir. Məqalədə marketinq strategiyalarının qlobal ticarətə təsirinin əsas nəzəri istiqamətləri – Məhsulun Həyat Tsikli Modeli, Uppsala Beynəlxalqlaşma Modeli, Yeni Ticarət Nəzəriyyəsi, Porterin Rəqabət Üstünlüyü Paradigması və Dunning-in OLI modeli – müqayisəli şəkildə təhlil olunur. Həmçinin 2020–2024-cü illərdə qlobal ticarət indeksinin dinamikası araşdırılaraq marketinq strategiyalarının böhran və post-böhran mərhələlərində iqtisadi artıma təsir mexanizmləri empirik əsaslarla qiymətləndirilir. Tədqiqat nəticələri göstərir ki, marketinq strategiyaları müasir ticarət sistemində yalnız satışın stimullaşdırılması deyil, həm də qlobal dəyər zəncirlərinin formalaşması, istehlakçı davranışının transformasiyası və ölkələrarası ticarətin strukturlaşmasında aparıcı rol oynayır.

# ВЛИЯНИЕ МАРКЕТИНГОВЫХ СТРАТЕГИЙ НА ГЛОБАЛЬНУЮ ТОРГОВЛЮ: ТЕОРЕТИЧЕСКИЕ ПОДХОДЫ И МОДЕЛИ

***Асланов Хабил, Ахмедов Али***

## АННОТАЦИЯ

Формирование потоков глобальной торговли и динамика международных рынков в последние годы в значительной степени зависят от влияния маркетинговых стратегий. В статье проводится сравнительный анализ основных теоретических подходов, объясняющих влияние маркетинговых стратегий на мировую торговлю: модели жизненного цикла товара, модели интернационализации Уппсалы, новой теории торговли, парадигмы конкурентных преимуществ Портера и эклектической парадигмы Даннинга (OLI). Также исследуется динамика индекса мировой торговли за 2020–2024 гг., что позволяет эмпирически оценить роль маркетинговых стратегий в экономическом росте в период кризиса и посткризисного восстановления. Полученные результаты показывают, что маркетинговые стратегии являются не только инструментом стимулирования продаж, но и играют ведущую роль в формировании глобальных цепочек стоимости, трансформации потребительского поведения и структурировании международных торговых потоков.

# THE IMPACT OF MARKETING STRATEGIES ON GLOBAL TRADE: THEORETICAL APPROACHES AND MODELS

***Aslanov Habil, Ahmadov Ali***

## SUMMARY

The formation of global trade flows and the dynamics of international markets have become increasingly dependent on the influence of marketing strategies in recent years. This article provides a comparative analysis of the main theoretical approaches explaining the impact of marketing strategies on global trade – the Product Life Cycle Model, the Uppsala Internationalization Model, New Trade Theory, Porter’s Competitive Advantage Paradigm, and Dunning’s OLI Model. The dynamics of the global trade index for the period 2020–2024 are also examined to empirically assess the role of marketing strategies in economic growth during crisis and post-crisis phases. The research findings demonstrate that marketing strategies are not only a tool for stimulating sales but also play a leading role in shaping global value chains, transforming consumer behavior, and structuring international trade patterns.

# ÇOXPARTİYALI SİSTEMLƏRİN CƏMİYYƏTİN SİYASİ MƏDƏNİYYƏTİNƏ TƏSİRİ

***İsmayılzadə Murad Ceyhun oğlu***
***BDU-nun II kurs magistrantı***
***murad.ismayilzade.work@gmail.com***

***Açar sözlər:*** çoxpartiyalı sistem, siyasi mədəniyyət, demokratiya, siyasi partiyalar, siyasi iştirak, parlament siyasəti
***Ключевые слова:*** многопартийная система, политическая культура, демократия, политические партии, политическое участие, парламентская политика
***Key words:*** multi-party system, political culture, democracy, political parties, political participation, parliamentary politics.

**Giriş.** Siyasi partiyalar, cəmiyyətdə müxtəlif sosial təbəqələrin maraq və ideyalarını ifadə edən institutlar kimi çıxış edirlər. Bu institutlar vasitəsilə fərqli fikir və baxışlar sistemləşdirilir, seçki prosesinə inteqrasiya olunur və siyasi liderlərin legitimliyi gücləndirilir. Güclü və funksional partiyaların varlığı demokratiyanın möhkəmlənməsinə yardım edir; əks halda isə demokratiya institutları zəifləyə bilər.

Partiya sistemləri demokratik konsolidasiya prosesində mühüm rol oynayır. Onlar fərqli maraq və ideologiyaları birləşdirərək siyasi proqramlar hazırlayar, vətəndaşların iştirakını təmin edər, siyasi qərar qəbuletmə institutları ilə cəmiyyət arasında bağlantı funksiyasını yerinə yetirərlər [5,s.1782].

Lakin siyasi partiyaların funksionallığı yalnız strukturdan ibarət deyil. Onların partiya sistemindəki rolunun effektivliyi siyasi və sosial kontekstdən də asılıdır. Hər bir ölkənin tarixi, siyasi və mədəni özəllikləri bu rolun formalaşmasında həlledici faktorlardır.

Bu tədqiqatın məqsədi siyasi partiyaların rolunu konseptual və empirik səviyyədə araşdırmaqdır. Xüsusilə diqqət veriləcək məsələlər bunlardır:

1. Çoxpartiyalı sistemlərin demokratikləşmə prosesində funksiyaları və əhəmiyyəti;
2. Siyasi partiyaların cəmiyyətin siyasi mədəniyyətinə təsir mexanizmləri;
3. Müasir qloballaşma şəraitində siyasi partiyaların qarşılaşdığı çağırışlar və innovativ yanaşmalar;

## Qlobal çərçivədə çoxpartiyalı sistem və siyasi rəqabət

Çoxpartiyalı sistem demokratik idarəetmənin əsas prinsiplərindən biridir və siyasi mədəniyyətin inkişafında mühüm rol oynayır. Siyasi partiyalar və onların fəaliyyəti vətəndaşların müxtəlif sosial maraqlarını ifadə etməyə, dövlətin qərarvermə prosesində iştirakını təmin etməyə və ictimai-siyasi həyatda fəal rol oynamasına imkan yaradır. Partiyalar həm də vətəndaşlarla dövlət arasında vasitəçi funksiyasını icra edir, siyasi məlumatın yayılmasını asanlaşdırır və seçicilərin məlumatlı qərar qəbul etməsinə dəstək olur.

Dünya təcrübəsində çoxpartiyalı sistemlər fərqli formalarda mövcuddur. Məsələn, Qərbi Avropa ölkələri (Almaniya, Fransa, İsveç) və Şimali Amerika ölkələri (ABŞ, Kanada) vətəndaşların geniş təmsilçiliyini təmin edir, qarşılıqlı rəqabət mühitini yaradır və siyasi mədəniyyətin formalaşmasına töhfə verir. Bu sistemlərdə partiyalar cəmiyyətdə müxtəlif sosial qrupları əhatə edir, vətəndaşların ehtiyaclarını nəzərə alır və demokratik qərarların qəbul olunmasında əsas rol oynayır.

Çoxpartiyalı sistem həmçinin siyasi rəqabət və fərqli baxışların toqquşduğu meydan kimi çıxış edir [3]. Belə mühit, vətəndaşların maraqlarını qoruyan, məsuliyyətli və şəffaf idarəetməni təşviq edən partiyaların inkişafına şərait yaradır. Skandinaviya ölkələri misalında, sosial-demokratik və liberal partiyalar geniş sosial bazaya malikdir, iqtisadi və

sosial siyasətdə uzlaşmanı təmin edir və seçicilərin maraqlarını dövlət siyasətinə effektiv şəkildə çatdırır.

Fransız siyasi alim Maurice Duverger qeyd edir ki, çoxpartiyalı sistem yalnız siyasi rəqabət və təmsilçilik balanslı şəkildə təmin edildikdə səmərəli olur. Belə sistemlərdə seçicilər partiyaları həm fərdi, həm də kollektiv məsuliyyət daşıyıcısı kimi qiymətləndirə bilir, nəticədə siyasi mədəniyyətin inkişafı və demokratik institutların dayanıqlığı möhkəmlənir.

**Çoxpartiyalı sistemlərin siyasi və sosial institutlara təsiri**

İkinci Dünya Müharibəsindən sonra çoxpartiyalı sistemlər demokratik dövlətlərin əksəriyyəti tərəfindən qəbul edilmişdir. Bu sistemlər demokratik institutların effektiv işləməsini təmin etmək və siyasi rəqabəti qorumaq məqsədilə qanuniləşdirilmişdir. Lakin XXI əsrdə, bir zamanlar demokratiyanın mühüm atributu hesab olunan çoxpartiyalı sistemlər bəzi dövlətlər tərəfindən yalnız formal olaraq saxlanılır və əslində bir və ya iki partiyalı idarəetmə strukturlarına çevrilmişdir. Bununla belə, Avropa və bəzi digər regionlar çoxpartiyalı sistemlərin ən yüksək konsentrasiyasına malik olaraq bu tendensiyadan istisna təşkil edir. Soyuq Müharibədən sonra Şərqi Avropa və Latın Amerikası ölkələri də çoxpartiyalı sistemləri qəbul etmiş və demokratikləşmə prosesinə başlamışdır.

Çoxpartiyalı sistemlərin formalaşması və inkişaf mexanizmi dünya üzrə akademiklər tərəfindən geniş tədqiq edilmişdir. Tədqiqatlar əsasən iki istiqamət üzrə aparılmışdır: birincisi, fərdi dövlətlərin tarixini və siyasi transformasiyasını araşdırmaq, ikincisi isə qlobal və regional faktorlara əsaslanaraq çoxpartiyalı sistemin formalaşma və möhkəmlənmə mexanizmini təhlil etməkdir. Məsələn, Türkiyə, Tanzaniya, Zambiya və Özbəkistan kimi müxtəlif dövlətlərin təcrübələri göstərmişdir ki, siyasi islahatlar, seçici iştirakının aktivliyi, iqtisadi və sosial şərait çoxpartiyalı sistemlərin inkişafında mühüm rol oynayır [2].

Digər bir yanaşma isə çoxpartiyalı sistemin formalaşmasını tək və ya çox faktorlu analiz vasitəsilə izah etməkdir. Siyasi identitet, seçici davranışı, siyasi güc bölgüsü və azlıq partiyalarının təsiri kimi faktorlar bu sistemlərin dayanıqlığını və rəqabət qabiliyyətini müəyyən edir. Beynəlxalq təcrübələr göstərir ki, yol asılılığı və tarixi faktorlar dövlətlərdə partiya sistemlərinin dəyişməsini yavaşladır, lakin seçki sistemlərindəki dəyişikliklər, siyasi güc balansı və ictimai tələblər yeni çoxpartiyalı sistemlərin ortaya çıxmasına imkan verir.

Qlobal perspektivdə aparılan araşdırmalar göstərir ki, çoxpartiyalı sistemlərin formalaşması və inkişaf mexanizmləri müxtəlif regionlarda fərqli olsa da, bir neçə ümumi tendensiya mövcuddur. Belə ki, dövlətlərdə siyasi iştirakın səviyyəsi, iqtisadi şərait, seçici ehtiyaclarının bölgüsü və siyasi liderlərin rolü sistemin möhkəmlənməsində əsas faktorlar hesab olunur. Hal-hazırda aparılan tədqiqatlar, məsələn, keyfiyyətcə müqayisəli analiz (QCA) vasitəsilə çoxsaylı ölkələrdə faktorlardan asılı olaraq çoxpartiyalı sistemlərin yaranma yollarını və mexanizmlərini müəyyən etməyə çalışır. Bu yanaşma qlobal kontekstdə çoxpartiyalı sistemlərin xüsusiyyətlərini obyektiv və elmi şəkildə araşdırmağa imkan verir.

**Çoxpartiyalı sistemlərin formalaşmasına təsir edən əsas dəyişənlər**

Çoxpartiyalı sistemlərin formalaşmasına təsir edən beş əsas müstəqil dəyişən müəyyən edilmişdir: parlament siyasəti ənənəsi, iqtisadi inkişaf səviyyəsi, mədəni təsir, təhsil inkişafı və sosial iştirak. Asılı dəyişən isə dövlətin çoxpartiyalı sistemə malik olub-olmamasıdır. Bu dəyişənlər müxtəlif perspektivlərdən seçilmiş və qlobal dövlət təcrübələrinə əsaslanmışdır [4,s.136].

Parlament siyasəti ənənəsi Avropada çoxpartiyalı sistemlərin möhkəmlənməsində əsas rol oynayır. Tədqiqatçılar rəsmi parlament saytlarından dövlətlərin parlament ənənəsinə malik olub-olmadığını müəyyən edirlər. Parlament ənənəsi olan ölkələrdə senzura və müxalifət siyasəti çoxpartiyalı sistemlərin yaşamasına səbəb olmuşdur.

İnkişaf etmiş iqtisadiyyat demokratikləşməni və çoxpartiyalı sistemin mövcudluğunu gücləndirən əsas amildir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə demokratik parlament siyasətinin formalaşması qaçılmazdır.

Yüksək EFA indeksi, yəni hər kəs üçün təhsilin inkişaf səviyyəsi, demokratik və çoxpartiyalı siyasətin formalaşmasına böyük töhfə verir. Təhsil səviyyəsi yüksək olan ölkələrdə həm seçici keyfiyyəti, həm də siyasi liderlərin keyfiyyəti artır və çoxpartiyalı sistemlərin inkişafı üçün əlverişli mühit yaranır. Hipotez: təhsil səviyyəsi yüksək olan dövlətlərdə çoxpartiyalı sistem daha möhkəmdir [1,s.76].

Seçici iştirakının yüksək səviyyəsi siyasi pluralizmi gücləndirir və siyasi sistemin dayanıqlığını artırır. Yüksək sosial iştirak siyasi partiyaların rəqabətini artırır və çoxpartiyalı siyasətin formalaşmasını təşviq edir.

**Nəticə.** Çoxpartiyalı sistemlərin möhkəmlənməsi və siyasi mədəniyyətin inkişafı çoxşaxəli amillərdən asılıdır. Siyasi partiyalar, vətəndaşların müxtəlif sosial maraqlarını ifadə edən institutlar kimi cəmiyyətin siyasi həyatında mühüm rol oynayır. Onların fəaliyyəti dövlətlə vətəndaşlar arasında vasitəçi funksiyasını yerinə yetirir, siyasi məlumatın yayılmasını təmin edir və seçicilərin məlumatlı qərar qəbul etməsinə dəstək olur.

Çoxpartiyalı sistemlər demokratik konsolidasiyanın əsas vasitələrindən biridir. Qərbi Avropa və Şimali Amerika ölkələrində olduğu kimi, bu sistemlərdə partiyalar cəmiyyətdəki müxtəlif sosial qrupları əhatə edir, vətəndaşların ehtiyaclarını nəzərə alır və demokratik qərar qəbul etmədə mühüm rol oynayır. Skandinaviya ölkələrinin təcrübəsi isə göstərir ki, sosial-demokratik və liberal partiyalar geniş sosial bazaya malik olub iqtisadi və sosial siyasətdə uzlaşmanı təmin edir.

Çoxpartiyalı sistemin effektivliyi həm də ölkənin tarixi, siyasi və mədəni kontekstindən asılıdır. Parlament siyasətinin ənənəsi, iqtisadi inkişaf səviyyəsi, təhsil səviyyəsi və sosial iştirak kimi müstəqil dəyişənlər çoxpartiyalı sistemlərin formalaşmasına və dayanıqlılığına birbaşa təsir göstərir. Yüksək səviyyəli təhsil və sosial iştirak vətəndaşların siyasi mədəniyyətini gücləndirir, siyasi partiyaların fəaliyyətini stimullaşdırır və sistemin davamlılığını təmin edir.

Çoxpartiyalı sistemlərin formalaşması yalnız siyasi institutların mövcudluğu ilə məhdudlaşmır, eyni zamanda vətəndaşların aktiv iştirakı, iqtisadi və sosial şərait, tarixi və mədəni faktorlarla sıx bağlıdır. Bu sistemlər demokratik dövlətlərin dayanıqlığını gücləndirir, siyasi rəqabəti artırır və vətəndaşların dövlət idarəetməsinə fəal şəkildə inteqrasiyasını təmin edir.

## ƏDƏBİYYAT


1. Carr, W. (1995). Education and democracy: Confronting the postmodernist challenge. *Journal of Philosophy of Education, 29*(1), 75–92. https://doi.org/10.1111/j.1467-9752.1995.tb00342.x
2. Cranenburgh. V.O. Tanzania's 1995 multi-party elections: the emerging party system. Party Polit.,2 (4) (1996), pp.535-547 10.1177/1354068896002004006
3. Karimov, I. A. (n.d.). *The ideology of national independence is the belief of the people and faith in the great nation: Answers to questions from the reporter of "Fidokor" newspaper* (Vol. 8).
4. Raunio, T. (2004). The changing Finnish democracy: Stronger parliamentary accountability, coalescing political parties and weaker external constraints. *Scandinavian Political Studies, 27*(2), 133–152. https://doi.org/10.1111/j.1467-9477.2004.00101.x
5. Yusupova, E. F., Djamiev, B. A., & Madaminova, N. Z. (2022). Multiparty system opinions in society as an important factor for ensuring diversity and democrating the country. *Journal of Pharmaceutical Negative Results, 13*(Special Issue 3), 1782–1786.

6. Blair, H. (2001). Institutional pluralism in public administration and politics: Applications in Bolivia and beyond. *Public Administration and Development, 21*(2), 119–129. https://doi.org/10.1002/pad.154
7. International Institute for Democracy and Electoral Assistance. (n.d.). *Voter turnout.* Retrieved February 3, 2023, from https://www.idea.int/data-tools/question-view/521
8. Subramanian, N. (2002). Identity politics and social pluralism: Political sociology and political change in Tamil Nadu. *Commonwealth & Comparative Politics, 40*(3), 125–139. https://doi.org/10.1080/713999599

## ÇOXPARTİYALI SİSTEMLƏRİN CƏMİYYƏTİN SİYASİ MƏDƏNİYYƏTİNƏ TƏSİRİ

***İsmayılzadə Murad***

## XÜLASƏ

Bu məqalədə çoxpartiyalı sistemlərin demokratik konsolidasiyaya və siyasi mədəniyyətə təsiri araşdırılmışdır. Məqsəd partiyaların vətəndaş iştirakını təmin etmə, müxtəlif sosial maraqları ifadə etmə və dövlət qərarvermə prosesində vasitəçi rolunu oynama funksiyalarını qiymətləndirməkdir. Tədqiqat göstərir ki, çoxpartiyalı sistemlər yalnız struktur və formalardan ibarət deyil, həm də tarixi, siyasi, iqtisadi və mədəni kontekstdən asılıdır. Parlament siyasəti ənənəsi, iqtisadi inkişaf, təhsil səviyyəsi və sosial iştirak çoxpartiyalı sistemlərin dayanıqlığını və rəqabət qabiliyyətini müəyyən edən əsas amillərdir. Qlobal təcrübələr Skandinaviya, Qərbi Avropa və Şimali Amerika ölkələrində sistemlərin geniş sosial bazaya malik olduğunu, seçicilərin maraqlarını effektiv şəkildə dövlət siyasətinə çatdırdığını göstərir. Çoxpartiyalı sistemlərin effektivliyi və demokratik mədəniyyətə təsiri ölkələrin siyasi və sosial kontekstindən asılı olaraq dəyişir.

## ВЛИЯНИЕ МНОГОПАРТИЙНОЙ СИСТЕМЫ НА ПОЛИТИЧЕСКУЮ КУЛЬТУРУ ОБЩЕСТВА

***Исмаилзада Мурад***

## АННОТАЦИЯ

В этой статье исследуется влияние многопартийной системы на демократическую консолидацию и политическую культуру. Цель заключается в оценке функций партий по обеспечению участия граждан, выражению различных социальных интересов и выполнению посреднической роли в процессе принятия государственных решений. Исследование показывает, что многопартийные системы состоят не только из структуры и форм, но также зависят от исторического, политического, экономического и культурного контекста. Традиции парламентской политики, экономическое развитие, уровень образования и социальное участие являются основными факторами, определяющими устойчивость и конкурентоспособность многопартийных систем. Глобальный опыт показывает, что в странах Скандинавии, Западной Европы и Северной Америки системы имеют широкую социальную базу и эффективно доносят интересы избирателей до государственной политики. Эффективность многопартийных систем и их влияние на демократическую культуру изменяются в зависимости от политического и социального контекста стран.

# THE IMPACT OF MULTI-PARTY SYSTEMS ON THE POLITICAL CULTURE OF SOCIETY

***Ismayilzada Murad***

## SUMMARY

This article examines the impact of multi-party systems on democratic consolidation and political culture. The aim is to evaluate the functions of parties in ensuring citizen participation, representing diverse social interests, and acting as intermediaries in the state decision-making process. The study shows that multi-party systems are not only composed of structures and formalities but also depend on historical, political, economic, and cultural contexts. Parliamentary tradition, economic development, education level, and social participation are key factors determining the stability and competitiveness of multi-party systems. Global experiences in Scandinavia, Western Europe, and North America indicate that these systems have broad social bases and effectively convey voters' interests to state policies. The effectiveness of multi-party systems and their impact on democratic culture vary depending on the political and social context of countries.

# MÜNDƏRİCAT

## FƏLSƏFƏ, FİLOLOGİYA

***Qayıbxanova Zəminə.*** Milli təhsilimizin Heydər Əliyev erası ........................................ 3
***Kazımzadə Tural.*** Əbdürrəhman Bədəvinin fəlsəfə tarixi konsepsiyası: ekzistensializm və Şərq–Qərb fəlsəfi münasibətlərinin müqayisəli təhlili ................................................ 10
***Fərmanova Leyla.*** İnsan varlığına yanaşma: fəlsəfi və tibbi antropologiya .................... 18
***İslamova Gülşən.*** Ekoloji fəlakətlərin sosial təsirləri ..................................................... 24
***Məmmədov Mirhadı.*** Sosial normanın formalaşmasında sosioloji və fəlsəfi baxışlar ....... 30
***Kəmalə Məmmədova.*** Azərbaycan və fars dillərində zərf ............................................... 35

## PSİXOLOGİYA, PEDAQOGİKA

***İbrahimova Diyanə, Həsənova Nigar.*** Yalanın anatomiyası: psixoloji perspektivdən baxış .................................................................................................................. 41
***Bağırzadə Bəyim.*** Prenatal dövrdə ortaya çıxan təşviş və depressiya arasındakı əlaqə ..... 49
***Əliyeva Rübabə.*** Aqressiv davranışın formalaşmasına təsir göstərən amillər ................... 53
***Orucova Ləman.*** Qida davranışı pozuntuları olan şəxslərdə kortizol səviyyəsi və onun stresslə əlaqəsi ........................................................................................................... 57
***Muradova Zəhra.*** Səssizliklə şərtlənmiş uşaqlıq: selektiv mutizmin psixoloji və pedaqoji aspektləri ..................................................................................................... 61
***Qurbanova Nərminə.*** Sosial-pasixoloji problemlərin tədbiqi aspektləri emosional zəka şəxsiyyətin sosial- psixoloji resursu kimi ........................................................................ 67
***Xədicə Səfərəliyeva.*** Deviant davraniş cəmiyyətin aktual problemi kimi ......................... 70
***Nəsirova Aysu.*** Öyrənmə strategiyaları və emosional zəka arasında qarşılıqlı əlaqənin bəzi psixoloji məsələləri ................................................................................................. 74
***İsmixanov Məcid.*** Müəllim nüfuzu: onun pedaqoji prosesdə rolu, qazanılması və qorunması şərtləri .................................................................................................... 80
***Quliyeva Mehparə.*** Həsən bəy Zərdabinin müəllimlik fəaliyyəti və pedaqoji ideyaları .... 85
***Allahverdiyeva Səfurə.*** Firudin bəy Köçərlinin təlim-tərbiyə ilə bağlı düşüncələri ........... 90
***Магарламова Аиша.*** Механизмы обеспечения качества в школе ............................. 94

## SOSİOLOGİYA, SOSİAL İŞ

***Murad Israfilov.*** Nur düsturu: sosial, psixoloji və analitik aspektlər kontekstində karyera və şəxsi münasibətlərdə balans ......................................................................... 99
***Məmmədova Xanım.*** Psixoaktiv maddə istifadəsinin sosial nəticələri ............................. 105
***Bağırlı Bəyaz.*** Keyfiyyət tədqiqatlarında dərinləşdirilmiş intervünün rolu, tətbiqi xüsusiyyətləri və üstünlükləri ........................................................................................ 109

## İDARƏETMƏ, İQTİSADİYYAT, İNFORMASİYA

***Бабаев Ахмед.*** Качество жизни как основной социально-экономический показатель производства ........ 114
***Hüseynova Nuranə.*** Azərbaycan siyasi strategiyasında milli təhlükəsizliyin rolu ........ 122
***Süleymanova Tahirə.*** Qlobal media şəbəkələrinin ictimai rəyə təsiri və siyasi nəticələri ........ 128
***Yusifov Elvin.*** Müasir dünyada separatizm ocaqları ........ 134
***Əliyeva Sona.*** İstehsal xərclərinin uçotu ........ 140
***Aslanov Habil, Əhmədov Əli.*** Marketinq strategiyalarının qlobal ticarətə təsiri: nəzəri yanaşmalar və modellər ........ 146
***İsmayılzadə Murad.*** Çoxpartiyalı sistemlərin cəmiyyətin siyasi mədəniyyətinə təsiri ...... 150

SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR
PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 44
(II HİSSƏ)

Təsisçi: fəlsəfə üzrə elmlər doktoru, prof. **Qızılgül Yasin qızı Abbasova**
Kompüter dizaynı: fəlsəfə üzrə fəlsəfə doktoru**Vüsalə Kərəm qızı Musayeva**

Nəşriyyat direktoru: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operator: Röya Nəsirova

---

Çapa imzalanmışdır: 15.11.2025
Format: 60×84 1/8
Şərti çap vərəqi – 19,75
Sifariş № 209
Tiraj – 100 nüsxə

"Füyuzat" nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850 98 69
e-mail: fuyuzat2020@gmail.com